# BƏHAİ DİNİ AZƏRBAYCANDA

*və ya*
*Bütün dinlərdə Vəd Olunmuş Kəsin zühuru*




**Səlahəddin Əyyubov**

Səlahəddin Əyyubov.
**Bəhai Dini Azərbaycanda** *və ya Bütün dinlərdə Vəd Olunmuş Kəsin zühuru.* **Bakı, "Elm və təhsil", 2013, 238 səh.**

ISBN
© Salahaddin Ayyubov
**Baha`i Faith in Azerbaijan** or Manifestation of the Promised One ( in Azerbaijani)
First edition

© Səlahəddin Əyyubov
**Bəhai Dini Azərbaycanda** və ya Bütün dinlərdə Vəd Olunmuş Kəsin Zühuru
Birinci nəşr

ISBN 978-9952-8142-5-5

*"Hər şeyin əvvəli Allahı tanımaqdır".*
(Həzrət Bəhaullah, Yazılarından seçmələr, Bakı 2009, səh. 21)

*"Ey insan övladları! Allahın dininin... təməl məqsədi insan nəslinin maraqlarının qorunması və onun birliyinin irəlilədilməsi, insanlar arasında ittifaq, məhəbbət və ülfət ruhunun bəslənməsidir. Onu nifaq, ixtilaf, düşmənçilik və ədavət səbəbinə çevirməyin. Budur düz Yol, möhkəm və sarsılmaz təməl."*
(Həzrət Bəhaullah, Yazılarından seçmələr, Bakı 2009, səh. 203)

*"(Yerdə və göydə) elə bir şey olmaz ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan ancaq müəyyən (lazım olduğu) qədər endiririk.*
(Qurani-Kərim: "Əl-Hicr" (15:21).

*"Hər dövrün bir kitabı var... (Bunlar zamanın, dövrün tələbinə və ehtiyacına görədir)"*
(Qurani Kərim: "Ər-Rəd" (13:38).

*"Allahın nizamı vahiddir; mövcudluğun təkamülü də vahiddir; ilahi sistem də vahiddir."*
(Həzrət Əbdül-Bəha, Bəzi suallara cavablar, `Nurlan` nəşriyyatı, 2005, səh. 161)

Bəhai Dini dünyanın müstəqil dinləri içərisində ən gəncidir. Hazırda o öz sıralarında 2112-dən artıq millətin və xalqın nümayəndələrini birləşdirir. Heç bir insan birliyi (iqtisadi, sosial və s.) bu çür unikal yaşayışa malik deyildir.

XIX əsrin əvvəlində həm İslam, həm də Xristian dünyasında Məsihin gəlişini gözləyirdilər. Bu qeyri-adi və həyəcanlı hadisələrlə dolu bir dövr idi. Bir nəfər fələstinli xristian yəhudisi Yozef Volf 1817-ci ildə Məsihin gəlişini əvvəlcədən xəbər vermişdi. ABŞ Konqresinin nümayəndələr palatasında bu haqqda çıxışlar - mö'izələr olmuşdu. 1831-ci ildə Uilyam Miller (milleritlər), Avropada - Hollandiyada, Yunanıstanda, Almaniyada (tampliyerlər) Məsihin gəlişi haqqında məruzələr edirdilər. 1844-ci ildə "Gəlişin Həyəcanı" özünün ən yüksək nöqtəsinə çatır (Вах: Уилям Сирз, “Kak Тать Ночью”, İMPAKS, Cfyrn Gtnthçehu, 1993). Bu zaman müxtəlif din alimləri Azərbaycanda, İranda, Fələstində, Türkiyədə, Əfqanıstanda və bəzi ölkələrdə Qiyamət Gününün yaxınlaşdığını təbliğ edirdilər.*

Azərbaycanda tarixən Musəvilik, Zərdüştlik, Xristianlıq, İslam yayılmışdır. Hətta Suraxanıdakı Məbəd Zərdüştlük dünyasının mərkəzlərindən biri olub. Musəvilikdə, İslamda, Xristianlıqda olduğu kimi, Bəhai dinində də müjdəçi olmuşdur və bu Müjdəçilərdən biri məhz Azərbaycanda yaşamışdır. On

---

* Bu İncildən olan bir kəlamdır. Maraqlıdır ki, "Gecə gələn" kəlamına Qurani-Kərimdə (“Ət-Tariq” Surəsi 86:1) də rast gəlinir. Gözlənilən Allah Zuhurun tez gəlib və tez də yoxa çıxacağına, - "geçə peyda olub gündüz qeyb olmasına",- işarədir. Qurani-Kərimdə rast gələn çəmi bir neçə nadir ayələrdəndir ki, ("Qiyamət Günü" və s. bu kimi) Allah onun mənasını hətta Hz.Məhəmmədə də tam açıqlamayıb: "Ya Peyğəmbər! Sən nə bilirsən (haradan bilirsən) ki, Gecə gələn nədir?" (“Ət-Tariq”-surə 86:2).

doqquzuncu əsrin 30-cu illərinin axırında Ordubadda Molla Sadıq əhali arasında təbliğə başlayıb, onlara müjdə verirdi ki, yaxın zamanda İlahi Elçinin yeni əmri elan etmək üçün dan şəfəqi açılacaq və vəd edilmiş Qaim zühur edəcəkdir. Onun təlimi vətəni Ordubadda və ətrafa böyük sürətlə yayıldı. Deyilənlərə görə, birdən birə bu regionun 10 və hətta 20 min əhalisi onun ardıcılı olmuşdu. Onun bəzi tərafdarları, ətraf Naxçıvanda, Təbrizdə və Urmiyada yaşayırdılar.*

Müxtəlif dinlərin tarixindən bildiyimiz kimi, hər Peyğəmbərin zühurundan bir müddət əvvəl Allah tərəfindən olduqca böyük bir məqam sahibi – müjdəçisi göndərilir ki, Onun da vəzifəsi insanları növbəti Peyğəmbərin gəlişinə hazırlamaqdır. Yəhudilikdə (Volxvlar ) və Xristianlıqda (Yuhənna-Xaç suyuna çəkən) olduğu kimi İslamda, bəzi məlumatlara görə, Hüveys, bu müqəddəs missiyanı yerinə yetiriblər. (Yəməndən, Qərəni kəndindən olan Hüveys - Veysəl Qərəni – 675-çi ildə Hz.Əli ilə birlikdə vuruşda olub. O, dəvə otararmış. Hüveys kimi də tanınıb. Hz.Məhəmməd ona "Dostum" deyə müraciət edərmiş. O, öz əbasını da Hüveysə vəsiyyət edib, Hz. Əli vasitəsilə ona göndərib. Mohid döyüşündə Hz.Məhəmmədin bir mübarək dişi sındırılan zaman onun da dişləri sındırılıb.) Bu növbəti missiya da Allah tərəfindən 1844-cü ildə Şiraz şəhərindən olan Seyid Əli Məhəmmədə həvalə edilmişdi.

**M**uhyiddin ibn Ərəbi "Ruhul Quds" risaləsində Veysəl Qərəni haqqında belə yazib** "Rasul-Allah onu Müridlərin ən iyi olanı adlandırmışdır. "Ey Ömər və Əli, əgər onunla qarşılaşacaq olursanız, sizin ücün Allaha dua etməsini istəyin və Allah sizi bağışlayacaqdır."

---

* (M. S. Ordubadi, "Həyatım və Mühitim", Azərnəşr, Bakı, 1996)
** (əlaqə kanalı: http://www.irfanokulu.net/muhyiddin.html)

Abdullah ibn Selma onun haqqında belə yazır: “Azərbaycanı fəth etdik və Veysəl Qərəni bizimlə idi və geri dönərkən xəstələndi və öldü”. Onu İslam qanunlarına uyğun orada dəfn etdik. Sonradan məzarını itirdik.” Bəzi məlumatlara görə, indiki Ağdaş şəhərində dəfn olunub. Kiçik ağ daşdan olan qəbr daşı sonralar şəhərin adının etimologiyasi ilə bağli olmuşdur.

1165-ci ildə İspan Əndəluziyasında anadan olmuş Mühyiddin ibn Ərəbi Yəhudi, Xristian və İslam birgə düşüncə tərzinin cəmləşdiyi, orta əsrlər elmi və fəlsəfi fikirlərin şimali Avropaya ötürüldüyü məkanda din regeneratoru kimi məşhur olmuşdur. İndi də o, ispanların - həmvətənlərinin fərəhlə iftixar etdiyi böyük şəxsiyyətdir. Son tarixi tədqiqatlar artıq təstiq edir ki, Avropada intibah, qəbul edildiyi kimi, İtaliyadan deyil, məhz İspaniyadan, Əndəluziyadan başlamışdır. Bu məkan, mədəniyyətə, memarlığa, elmə və dinə inqilabi fikirlə yeni baxışın formalaşdığı bir mərkəz olmuş və intibah dövrünün təməlini qoymuşdur. 350-dən artıq əsərin müəllifi Divan və Tarjumân al-Ashvâq əsərində ərəbcə incə şeir müəllifi, “Fusüs al-Hikam” əsərində Yəhudi, Xristian və İslam peyğəmbərlərinin gizli hikmətlərini, “Futûhât al-Makkiyya” əsərində üç möhtəşəm dinin daxili mahiyyətini yazmaqla bərabər, adətlərini və mistikasını tərənnüm etmişdir.

Çox maraqlıdır ki, məşhur islam alimi Muhyiddin Ərəbi: **“**Adı Vəlinin (Hz.Əli) və Rəsulun (Hz.Məhəmməd) adı olan Mehdi gələcək” söyləmiş, yəni Sahib-əz-Zamanın adını o da qabaqcadan böyük dəqiqliklə bildirmışdir. Digər yerdə o, belə yazır: "Agah olun ki, Mehdi vəd olunmuşdur, mutləq zuhur edəcək. Amma onun zuhuru, yer uzu zulm və ədalətsizliklə dolandan sonra baş verəcək. O, yer uzunu ədalətlə doldurmaq uçun zuhur edəcək. O, peygəmbər soyundan, Fatimənin nəslindəndir. Onun babasi İmam Huseyn, atasi isə Həsən Əsğəridir”.

Muhyiddin Ərəbi İslam ədəbiyyatından qaynaqlanaraq Gözlənilən Kəsin gələcəyi ili "Ğars" ilində (1260) yer Onun nuru ilə şəfəqlənəcəkdir" deyə göstərmişdir.* Çox guman ki, o, İslam mənbələri və İncildə dəfələrlə təkrarlanan **1260**-çı ili bu səmavi kitablara istinadən demişdir.

Osmanlı turkcəsində (dəyişiklərsiz) verilən hədislər də olduqca çox mətləbləri işıqlandırır.

**Buxari:** "Nezerlerden gizli ve her zamanda hazir olan Mehdinin (e) fezi̇letleri hedden artiq çoxdur. Çoxlu sayda hedislerde gelmişdir ki, Mehdi (e) uze çixacaq ve vucudunun nuru her yeri işiklandiracaq. O, İslam dinini ve Mehemmed (s) şerietini tezeleyecek. Bu işi heyata keçirmek uçun Allah yolunda cihad edecek ve İslam memleketini ve butun yer yüzunu pisliklerden, paklayacaqdir. Onun zamani, pehrizkarlarin zamanıdir. O, kesler ki, onun imamlıgına etiqad besleyirler, o gun her cür danlaqdan uzaq olacaqlar, çünki haqq yolunda irelileyib, onun gosterişi ile addim atib, onun himayesi ve beledçiliyi ile hidayet yoluna yetişibler. İslam ummetinde imamlıq onunla sona çatir. O, atasinin vefatı gününden qiyametedek imamdır."

Hezret İsa (e) onun arxasinda namaz qılacaq, onun imamligini tesdiqleyecek ve camaati onun din ve şerietine devet edecek".

**İbni Ebil-Hedid:** "İslam mezheblerinin hamısı, dunyadaki butun zulmlerin onunla (İmam Mehdinin zuhuru ile) bitmesi haqda yekdil etiqaddadirlar".

**İbn Esir:** "Ved olunmuş o Mehdi (ki, Peygemberimiz onun zuhurunu mujdelemişdir) axır zamanda gelecekdir".

---

* Nəbil Zərəndi, "Dan yerinin şəfəqləri", Bakı, 2001.

# Din vahid, sonu olmayan bir prosesdir

*"Yəqin bil ki, İlahi Vəhy işığı hər bir Zühurda insanlara onların ruhani qabiliyyətlərinə bilavasitə uyğun şəkildə lütf edilmişdir. Günəşə nəzər sal. Üfuqdə ilk gorünəndə onun şüaları necə də zəifdir. Günortaya yaxın onun istisi və işığı yavaş-yavaş artır və bu zaman bütün məxluqatın onun artan təsirinə uyğunlaşmasına imkan verir. Üfüqdə itənə qədər o tədricən qürub edir və batır. Əgər o malik olduğu işığı bütün nuru ilə birdən-birə aşkar etsəydi, şubhəsiz, bütün yaranmış şeylərə ziyan vurardı..."(*Həzrət Bəhaullah, Yazılarından seçmələr, 38, Bakı, 2009, səh. 93)

**Şeyx Əhməd Əhsai** 1840-ci ilin əvvəllərində İranda (şeyxilər təriqəti onun adı ilə əlaqədardır) Sahib - əz Zamanın zühurunun vaxtını hesablayır. Həqiqətən də 1844-cü il mayın 23-də İranda Seyid Əli Məhəmməd və ya Bab Öz Missiyasını elan edir. Dekabrın 20-də 1844-cü il cümə günü (hicri 1260-cı ildə), müsəlman aləminin ziyarətgahı Məkkədə, Kəbənin qapısından tutaraq Hz. Bab zəvvarlar qarşısında yeni dini elan etdi. O, xəbər verdi: "Mən gəlişini gözlədiyiniz Qaim, Mehdi Sahib-əz-Zamanam". İnsanlar Hz. Baba (və onu müşayiət edən cənab Qüddusa) böyük ehtiramla yanaşdılar, lakin min ilə yaxın bir müddət ərzində gəlişini gözlədikləri Şəxsi tanıya bilmədilər və nə yazıq ki, Onun Bəyanatını ciddi qəbul etmədilər. "*Yoxdur onlarda elə bir göz ki, Məni ğörsünlər və tanısınlar...*"

Hz.Məhəmmədin nəslindən olan və Məkkənin müqəddəs nayihəsini qoruyana "Ya şərif! Sən ömrün boyu Bizə səcdə etmisən və indi Ali Həqiqəti təsdiqləsən" sözləri ilə başlayan: "Kim ki Quranı nazil edib, bu Kitabı da nazil edib, ondakı hər söz Allahdandır" yazılı müraciətində, onu "Əgər sən Bizə tərəf qayıtsan, hələ ki, vəhy Bizim vasitəmizlə davam edir, səndəki

odu işığa döndərərik" deyərək, dinə dəvət etmişdir. (Баб, Избранные из Писаний, Москва, 2006, с.32).

Məkkənin Şərifinə ünvanlanmış Lövhdən çıxarış: "Ey Şərif!.. Bütün həyatın boyu Bizə sitayiş etmisən, lakin Biz Özümüzü zahir edəndə, Bizim Bəqiyyətimizə şəhadət verməkdən və Onun, həqiqətən, Ən Uca, Yüksək Həqiqət və Şərəf Sahibi olduğuna şəhadət verməkdən imtina etdin. Beləliklə sənin Rəbbin Qiyamət Günündə səni imtahana çəkdi. Həqiqətən, O hər şeyi Bilən və Hikmət Sahibidir."

"Bəyan" kitabında deyildiyi kimi, "Məhəmmədin çağırışından on iki əsr və yetmiş il keçmişdir və hər il külli miqdarda insan Məkkədə Kəbəni - Allah Evini təvaf etmişlər. Həmin ilin son müddətində ziyarətə yollanan elə bu Evin təməlini qoyan Kəsin Özü oldu. Aman Allah! (Allahu Əkbər!) Orada müxtəlif təriqətlərdən saysız-hesabsız zəvvarlar var idi. Onu heç kəs tanıya bilmədi, amma O, onlardan hər birini tanıdı. Ona yeganə iman gətirən və Onunla ziyarət edən o kəs* oldu ki, onun başı üstündə səkkiz Vahid dövr edir."(Баб, Избранные из Писаний, Москва, 2006, səh. 78).

Məkkəyə ziyarəti Omandan keçdiyindən, Maskat torpağında O, məşhur müsəlman uləmalarından biri Süleymana müraciətində "Bu torpaqdan Müqəddəs Evə yollandıq və geriyə dönərkən yenidən həmin sahilə yan aldıqda müşahidə etdik ki, sən bizim müraciətlərə diqqət yetirməmisən və sən əsl inam əhlindən deyilsən" sözləri olan məşhur müraciətini etmişdir. (Баб, Избранние из Писаний, Москва, 2006, с.37).*

---

* Yeri gəlmişkən, müəllif Omanda işlədiyi vaxtlar yerli bəhailər ilə birlikdə Hz.Babın Məkkəyə yollanarkən mindiyi gəminin yan aldığı sahili (həmin sahilin dəqiq yeri nəsildən-nəsilə ötürülur) böyük ehtiramla ziyarət etmişdi.

İranda başlayan Babilik tezliklə Şimali Azərbaycana da yayılır. Həzrət Bab İranda Öz Missiyasını elan etdiyi vaxt Onun şagirdlərindən biri Ordubadın Vənənd kəndindən olan Molla Sadıq Vənəndli yeni Tə'limi e'lan edir, on minlərlə əhalini ətrafına toplamağa müvəffəq olur. Bu zaman Ordubad camaatı daha böyük qorxunun qarşısında qalır. Rusiya höküməti Behbudov adlı generalı 5 min nəfərlik ordu ilə Molla Sadığı həbs etməyə göndərir. Çox guman ki, yerli mollalar tərəfindən qızışdırılan rus məmurları əvvəlcə Molla Sadığı Tiflisə, sonra da Varşavaya sürgün etmişdilər. Naxçıvanın xanı və onun naibi Şeyxəli bəy də "şeyxi" təriqətindən idilər.*

Molla Sadığın doğma yerindən sürgünündən sonra, onun şagirdlərindən biri, Seyid Əbdül Kərim Ordubadi tərəfdaşlarının icmasına başçılıq etdi. Seyid Əbdül Kərim Ordubadinin ruhani rəhbərliyinin dövrü Həzrət Babın elanından əvvəl və Onun şəhidliyindən sonrakı vaxtı əhatə edir. Maraqlıdır ki, Şimali Azərbaycanda Bəhai Dininin tarixi həmin dövrdən başlanmışdır və bu fakt heyrət doğurmaya bilmir. Deyilənə görə, mühazirələrinin birində o, mühazirəsini saxlayaraq demişdi: "İndicə Həzrəti Babı edam etdilər." Sonralar edamın günü və saatı təstiqlənmişdi. Həzrət Bəhaullah Qafqaza ünvanlanmış lövhündə təsdiq etmişdi: "Əbdül Kərimə ruhani qavrama əta edilmiş və o, Allahın ilahi mərhəmətinin dəryasını dərk etmə qabiliyyətinə malik olmuşdur". Hələ də yerli ruhanilər tərəfindən qızışdırılan rus məmurları Əbdül Kərimi həbs edib, onu Smolenskə (Rusiya) sürgün etdilər. On ildən çox çəkən sürgündən sonra, Ona Azərbaycana qayıtmağa icazə verdilər, amma doğma Ordubada

* Bax: M.S. Ordubadi, "Həyatım və mühitim", Azərnəşr, Bakı, 1996)

qayıtmağı qadağan etdilər. Onun ölümünün vaxtı və yeri bilinmir.

**Həzrət Bab (1819-1850)** İranda müsəlman ruhaniləri tərəfindən kəskin müqavimətlə rastlaşdı. Ərəb dilindən tərcümədən Bab - "qapı" mənasını bildirir. Həzrət Bab ruhaniləri açıqcasına cəhalətdə və tamahkarlıqda ifşa edir. Yeni Dini qəbul edənlərə qarşı müsəlman ruhanilərinin kəskin təqibləri başlanır. Ruhanilərin amansız təqiblərinə baxmayaraq, özlərini babi elan edənlərin, yəni Həzrət Babın ardıcıllarının sayı gündən-günə artırdı. Bundan əlavə, onların sırası ruhani mühitindən gələnlərlə də sürətlə artırdı. İran şahı Məhəmməd Qacar Həzrət Babı gizli olaraq Azərbaycanda yerləşən Maku və sonra Çehrik qalalarında dustaq edir. (Kitabın üz qabığında bu qalanın qalıqlarının fotoşəkli verimişdir).

*"Deməyin: O, Allahdan necə danışa bilər, o zaman ki Onun yaşı iyirmi beşdən çox deyil? Mənə qulaq verin. Yerin və göylərin Rəbbinə and olsun! Mən, həqiqətən, Allahın bəndəsiyəm. Mən uzun zamandan bəri gözlənilən Bəqiyyətullahın hüzurundan olan danılmaz dəlillərin Daşıyıcısı seçilmişəm. Budur, Mənim Kitabım sizin gözləriniz qarşısındadır, necə ki Allahın hüzurunda Ana Kitabda yazılmışdır. Həqiqətən, Mən harada olsam da, Allahın fəzli Mənimlədir və Yer üzündə sizlərin aranızda olduğum müddətcə O, Mənə dua etməyi və mətinlik göstərməyi əmr etmişdir."*

Dörd il ərzində Məhəmməd Şah Qacara (İranın 130 illik Qacarlar sülaləsinin Azərbaycanlı şahı) və onun iş icraçısına üç dəfə məktubla müraciət edib və sonuncusunda ona axırıncı dəfə müraciət etdiyini bildirməklə bərabər onu kafir adlandırmışdır. "*O kəs ki, Allahın Ali Qapısi Olanı inkar edir, Bizim tərəfimizdən gələn və Allahın ədalətli iradəsi ilə acı istirablara məhkumdur"* (Баб, Избранние из Писаний, Москва, 2006, с.43).

## Hz.Babın Mübarək Evinin Mübarək Otağı

Maraqlıdır ki, Qaim və ya Mehdi Sahib-əz-Zamanla əlaqədar Azərbaycanda müxtəlif inanclar vardır. Bunlardan biri təziyə məclislərində müqəddəs yazılar oxunan vaxt Mehdi Sahib-əz-Zamanın adı çəkilən kimi, molla da daxil olmaqla, bütün məclis əhlinin ayağa qalxıb, ehtiram əlaməti olmaqla əlini sinəsinə qoyub baş əyməklə yenidən əyləşmələridir. Çox maraqlıdır ki, Hz.Məhəmmədin adı dəfələrlə çəkilsə də, heç kəs ayağa belə qalxmır, amma Mehdi Sahib-əz-Zamanın adını eşidən kimi, əsasən, hamı ehtiram göstərməyi özünə borç bilir. Bu bir ritual xarakteri daşısa da, çox adam nə bunun mənasını bilir, nə də nə üçün belə etdiyini izah edə bilir. Qısaca olaraq, məsələ bundadır ki, Əhdi-Peymana sadiqlik əlaməti olaraq özünü müsəlman sayan hər bir kəs Qaim və ya Mehdi zühur edərkən "yerində oturmamalı", (Bir hədisdə deyildiyi kimi, \`Onun gəldiyini eşidən hər bir kəs, əgər qar yağıbsa, hətta getmək mümkün deyilsə belə, sürünə-sürünə də olsa getməli, bu məsələni aydınlaşdırmalıdır\`), ayağa qalxmalı və Ona öz sədaqətini bildirməlidir.

*"Ey eşq diyarinin əhli! Fani küləklər baqi Şamı əhatə edib və Ruhani Qulamın camalı tozun qara zülmətində örtülü qalıb. Eşq Sultanlarının Sultanı zalımların əlində məzlum qalıb və Müqəddəs Göyərçin bayquşların caynağında giriftardır. Bütün Əbha çadırının və Ali Məqamın sakinləri buna ağlayır və sızlayırlar. Siz isə qəflət yerində tam rahatlıqda oturmusunuz və özünüzü xalis dostlardan hesab edirsiniz. Sizin zənn etdiyiniz necə də əbəsdir".* (Həzrət Bəhaullah, Kəlimәti-Məknunə, "Bilik", səh. 47, Bakı,1996, səh. 54)

Hər yeni Zuhur zamanı – ruhani dəyişiklərlə bərabər böyük elmi və mənəvi dəyişikliklər də baş verir. 1844-çü ildə

Semyuel Morze ixtira etdiyi aparatından ilk teleqramını, Saylar Kitabından götürülmüş, “Gör Allah nə yaradır” sözlərini göndərmişdir. Çox maraqlıdır ki, Britaniya alimi Ser Lourens Breq Nyu-York Karneqi-Hollda mühazirə konspektində bəşəriyyətin elmi nailiyyətlərinin qrafikini çəkmişdir. 1844-çü ilə qədər inkişaf o qədər zəif getmişdir ki, qrafik demək olar ki, horizontal xətlə göstərilib. 1844-çü ildən isə vertikal xətlə davam edir. (Уильям Сирз, “Как тат ночью”, ИМПАКС, Санкт-Петербург, 1993, с. 352). Belə bir yaradıçı enerjinin əmələ gəlməsinə İmam Cəfər Sadiqin “Elm 27 hərfdir 2-si indi məlumdur, qalan 25-ı ısə Qaim gələndən sonra məlum olacaqdır” hədisi aydınlıq gətirə bilər.

Məşhur ixtiraçı Edisonun sözləri də maraqlıdır. O, həzrət Əbdül-Bəha (Həzrət Bəhaullahın böyük oğlu və Onun Əhdinin Mərkəzi) ilə görüşdükdən sonra bu sözləri yazmışdı: “Bu möhtərəm və böyük şəxsyyətlə görüşüm bunu başa düşməyimə səbəb oldu ki, mənim ixtira etdiyim hər şeyin səbəbi həzrət Əbdül-Bəhanın mövcud olması, ixtira etdiklərim isə Bəhai dininin tərəqqi və inkişafı üçün imiş.”

1844-çü ildə başqa daha bir möhtəşəm hadisə baş vermişdir. 21 mart 1844-çü ildə qərb dövlətləri və xüsusilə də, Britaniyanın təkidi ilə Türkiyə hakimiyyəti Konstantinopolda “Dini dözümlülük haqda Fərman” qəbul etmiş və bunun da nəticəsində, İsa peyğəmbərin vəd etdiyi kimi Onun qayıdışından sonra, yəhudilərə Müqəddəs Torpağa qayıtmağa və öz dini ayinlərinin sərbəst həyata keçirilməsinə icazə verilmişdir. Bu haqda Qiyamət Gününün əlamətlərinə aid olan hədis, beləliklə, təmamilə həyata keçmişdir.

Yeni Din Azərbaycanda da yayılmağa başlamışdı. Həzrət Bab `Bəyan` Kitabında Babi Dininin qanunlarını şərh edir. Həzrət Bab çoxdan gözlənilən İmam Mehdi, Tanrının Elçisi, eyni zamanda, yeni müstəqil Dini Tə'limin banisidir. 1848-ci

ildən başlayaraq  Mazandaranda, Neyrizdə və Zəncanda yeni dinin məhv edilməsi üçün bir çox səylər göstərilir. Tarixən, həmişə olduğu kimi, hər dəfə yeni dinin tərəfdarlarını qırmağa çalışan ruhanilər tərəfindən qızışdırılan azğınlaşmış fanatiklər dəstəsinə kömək göstərmək üçün, Qacar höküməti öz qoşununu göndərirdi.

Zorakılıq dalğası bütün İran ölkəsini bürümüşdü. Həzrət Babı kafirlikdə ittiham etməklə ruhanilər Onu edam etmək üçün ölüm hökmünü imzaladılar. 1850-ci il iyulun 9-da Təbrizin kazarma meydanlarının birində, minlərlə adamların gözü qarşısında Həzrət Bab güllələndi. Həzrət Babın qeyri-adi şəraitdə ölümü (Bax: Dan yerinin şəfəqləri, səh.5 Bakı, 2001) Onun təliminə olan marağı daha da artırdı. Olmuş hadisə nəinki qərb diplomatlarının, həmçinin, hərbi müşavirlərin və o dövr jurnalistlərinin arasında yayıldı. (Fransız səfirliyinin məmuru L.M.Nikola və Avstriyanın hərbi attaşesi kapitan Alfred fon Qumensin əsərləri).

“.... ikinci dəfə Həzrət Babı dar ağacının yanına gətirəndə (Birinci dəfə edilən cəhd zamanı olmuş möcüzə  - Hz.Babın edam yerindın qeyb olması, məşhur Avropa alimi A.L.M.Nikolanın təsvir etdiyi kimi,  - “Bəşəriyyət tarixində hələ belə hadisə müşahidə olunmamışdı” -  hamını düşünməyə vadar etmiş və qorxutmuşdu, əsgərlərin başçısı isə ikinci dəfə güllələməyə əmr verməyə etiraz etdiyindən öz ordusu ilə çıxıb getmiş və yenisi ilə əvəz olunmaq məcburiyyətində qalmış-dılar).

O uca səslə demişdi: “Ey insanlar, əgər məni tanısaydınız, sizlərdən ən şərəflisi olan bu gənc kimi bu yolda özünüzü qurban verərdiniz. Mən O vəd olunmuş Şəxsəm ki, asimanın gözləri beləsini çox az görüb. Əshabələrdən üç yüz on üç nəfəri özünü mənə fəda edib”.

İnsanlar bu sözləri eşidirdilər, bununla belə dayanıb, həmişəki kimi edama tamaşa edirdilər. Bu böyük hadisə hicri 1266-cı il şaban ayının 28-də (1850-ci il iyul ayının 9-da) Bazar günü, günorta baş vermişdi. Həmin vaxt Həzrət Babın mübarək ömründən qəməri təqvimlə otuz bir il yeddi ay iyirmi yeddi gün keçmişdi. Və Onun zühurundan qəməri təqvimlə altı il üç ay iyirmi gün ötmüşdü.

Bir-iki məsələni aydınlaşdırmağa ehdiyac duyuruq; “sizlərdən ən şərəflisi olan bu gənc” – Ənis nəzərdə tutulur. Bu gənc, şəhidlik badəsini Hz.Babla birlikdə içmək üçün dəfələrlə Ona müraciət etmiş, yalvarmış, onun bu xahişi qəbul edilməmişdisə də, lakin ən nəhayətdə şəhidlik badəsini Hz.Babla birlikdə içmək şərəfinə nail olmuşdu. Ailəsi də onu bu fikirdən döndərə bilmədi. Əslən azərbaycan türkü idi.

Bəs “313” rəqəmi nə deməkdir? Belə ki, bir hədisə görə, Həzrət Məhəmməd (s) buyurmuşdur: “Mehdi zuhur edən zaman bir qalaya söykənib ətrafında dövrə vurmuş üç yüz on üç nəfər əshabəsinə deyəcək: *"Əgər möminsinizsə, Allahın verdiyi mənfəət sizin üçün daha xeyirlidir."* (Hud surəsi, 86-cı ayə). Həqiqətən də Cənab Qüddus Şeyx Təbərsinin məqbərəsinə söykənib, buyurmuşdu: *"Əgər möminsinizsə, Allahın verdiyi mənfəət sizin üçün daha xeyirlidir ". O,* öz sözünə bu ayəni oxumaqla başlamış və beləliklə, Həzrət Rəsulullahın (s) müjdəsi bu məqamda büsbütün öz təsdiqini tapmışdı. (Dan yerinin şəfəqləri, Bakı, 2001, səh.490)

“Qüddus Şeyx Təbərsi qalasına gəldikdən sonra Molla Hüseynə göstəriş verdi ki, əshabələri saysın. Molla Hüseyn orada olan möminləri bir-bir saydı, cəmi üç yüz on iki nəfər idi. O gedib əshabələrin sayını Qüddusa bildirmək istəyirdi ki, birdən Barfüruş tərəfdən bir cavan piyada gəlib Molla Hüseynin hüzuruna yetişdi. O, Molla Hüseynin əbasının ətəyindən yapışıb xahiş etdi ki, onu da əshabələr sırasına daxil etsin və ona da

Məhbubun yolunda fəda olmaq imkanı versin. Cənab Molla Hüseyn onun xahişini qəbul etdi və beləliklə, o cavanla birlikdə əshabələrin sayı üç yüz on üç nəfər oldu. Qüddus əshabələrin sayını eşitdikdə, buyurdu: "Həzrət Rəsul`i-Əkrəmin (s) vəd olunmuş Qaim haqqında söylədiyi bütün şeylər zahir və aşkar oldu. Qoy Tanrının dəlili özünü islam şəriətinin biliçisi və hədislərin şərhçisi sayan dini rəhbərlərə aydın olsun".(Dan yerinin şəfəqləri, Bakı, 2001, səh.490)

Bəs nə üçün 313 əshabə? Bəlkə də bu, simvolik olaraq, ona görədir ki, İslam mənbələrində göstərildiyi kimi, Peyğəmbərlər 2 qism olublar – xəvas (xüsusi) və əvam (ümumi). 124 min peyğəmbərdən 313-ü xəvas peyğəmbər olmuşlar ki, onlar da öz növbəsində 2 qismdirlər.

Ulul-əzəm – 5 və Mursəl - 308. Yəni Onlardan 5-i Ulul-əzm:

1. Hz. Nuh – Nəciyullah (Allahın Nicat verdiyi);
2. Hz. İbrahim – Xəlilullah (Allahın dostu) – vəhy ilə nazil olmuş kitab – "Suhuf";
3. Hz. Musa – Kəlimullah (Allah ilə danışan) – vəhy ilə nazil olmuş kitab – "Tovrat";
4. Hz. İsa – Ruhullah (Allahın Ruhu) – vəhy ilə nazil olmuş kitab – "İncil";
5. Hz. Məhəmməd – Rəsulullah və Həbibullah (Rəsul və Allahın sevimlisi)- vəhy ilə nazil olmuş kitab – "Quran".

Nəbilərə də vəhy və ilham göndərilib, lakin onlar özlərindən əvvəlki peyğəmbərlərin kitablarını təbliğ ediblər.

Edamdan sonra baş verən təbiət hadisələri (ətrafı qaranlıq küləkli tozanaq basmışdı) bir çoxunu düşünməyə vadar etmiş və ən azı qorxutmuşdu. Diqqətli olsaq, görərik ki, bu haqda hədis də vardır, yəni öz təsdiqini tapmış hədislərdəndır.

*"Bir kəsi görürsənmi ki, Səni müdafiə etsin, ya Sənin məhəbbətin yolunda Onun başına gələnlər barədə düşünsün?"*

"Həqiqəti rədd edən heç bir xalq, nə yəhudilər, nə də xristianlar öz peyğəmbərinin qızının oğluna qarşı heç bir qanunsuzluq törətməzdilər" Axı, Hz.Bab Hz.Fatimənin nəslindəndir.

Tədqiqatçılar Həzrət Bab ilə Həzrət İsa arasında hər ikisi ücün ümumi olan oxşarlıqları xüsusi vurğulayırlar: (Уилям Сирз, "Kak тать ночью, İMPAKS, Санкт Петербург, 1993, с.109 -114)

- gənc və mülayim xasiyyətli idilər,
- xəstələrə şəfa verməklə möcüzələr edirdilər,
- yaşadıqları və tərbiyə aldıqları mühitə və dini mərasimlərə cəsarətlə meydan oxuyublar,
- müqəddəslikləri ətrafındakı din xadimlərinə göz dağı idi,
- əsas düşmənləri həmin ölkənin din xadimləri olub və təqib olunmalarına da onlar bais olublar,
- daim təhqirə məruz qalıblar,
- məhkəmədə mühakimə olunub, şallaqlanıblar,
- çoxlu izdiham olan şəhərin mərkəzi küçəsindən edam yerinə əzab çəkdirərək, hər cür təhqirlərə məruz qalaraq aparılıblar, düşmən baxışları və sədaları altında ictimai yerdə edam ediliblər,
- Onlara axıra qədər müşaiət edən və şəhidlik şərabını içənlərə eyni təskinlik və ümidverici sözlərlə müraciət ediblər: "Mənimlə birlikdə cənnətdə olacaqsan",
- günorta vaxtı edamdam sonra göyün üzünü zülmət bürümüşdü,
- əskərlər tərəfindən bədənlərinə əzab və əziyyət verilib,
- mübarək bədənləri azsaylı şagirdlərinin əlinə keçir, yox olur,

- bu məsələlərə hökumət nümayəndələri özlərinə sərf edən izahat veriblər,
- ən yaxın tələbələrindən biri əvvəlcə Onlardan imtina edir və sonra Dinin yayılmasında istisna rol oynamışlar.
- davamçılarından biri qadın olmuş ki, onlar da şagirdləri keçmişdən əl üzüb, gələcəyə nəzər salmağa çağırmışlar,
- şagird və davamçıları təşviş, çaşqınlıq və ümidsizlik hissi bürümüşdü,
- Onların şagirdləri yeni dini ətraf ölkələrə yaymaq üçün ayağa qalxmışlar,
- "Gözlənilən Kəs sənsənmi?" sualına cavab veriblər,
- Şagirdlərinə müraciət edib, yeni Təlimi bütün dünyaya yaymağı tövsiyə ediblər.

İlk dəfə uyğun olaraq, Hz.İsa balıqçılara və Hz.Bab Molla Hüseynə təqribən eyni sözlərlə müraciət etmişlər: "Bu gecə, məhz həmin bu saat, gələcəkdə insanlar tərəfindən ən mühüm və ən böyük bayram kimi qeyd ediləcəkdir".

İncildə Daniyel, Malaxiya və Zəkəriyyə peyğəmbərlərin dediyi kimi: Axır zamanda iki səmavi elçi peyda olacaq. "Şeypurun vahiməli səsi sakitliyi pozacaq, sonra ikinci dəfə səslənəcək". Və Quran`i-Kərimdə də bu haqda, – surun iki dəfə çalınması, - bir neçə dəfə təkrarən deyilib.

Bütün dünyəvi dinlərdə İlahi Zühurlar iki şəxslə əlaqələndirilir:

*Zərdüştilik:* Uşidar-Ma və Şah Bəhram,

*İslam, şiəlik:* Qaim və İmam Hüseyn,

*İslam,sünnilik:* Mehdi və İsa,

*Xristianlıq:* Yəhya və Məsih, həmçinin, İliya və Məsih,

*İudaizm:* Məşiyah ben İosif və Məşiyah Ben David; İliya və Məşiyah.

*"Mən Qüdrət Əlinin ucaltdığı sirli bir Məbədəm. Mən Allahın barmağı ilə bu yuvada yandırılmış və sönməz işıq saçan bir Çırağam. Mən Mübarək bir məkanda, Turda yanan və Qırmızı Ağacın qoynunda gizlənmiş Odun alovuyam."(*Şövqi Əfəndi, "Законоцарствие Бахауллы", Moskva, 1999, kitabında sitat verilmişdir").

Həzrət Babın edamından sonra Onun davamçıları kütləvi surətdə məhv edilir. Ən görkəmli şəxsiyyətlərdən biri, yeni təqiblər vaxtı öldürülmüş, azərbaycanlı şairə Tahirə Qürrət`ül-Eyn idi.* O, Həzrət Baba ilk inam gətirmiş 18 nəfərdən biri idi. Azərbaycanın, İranın və başqa müsəlman ölkələrinin tarixində ilk dəfə olaraq Tahirə yeni dinin prinsiplərinə uyğun olaraq, iştirakçılarının sayı 81 nəfər olan Bədəşt müşavirəsində (1848-ci il) öz rübəndini atmışdı. Qürrət`ül-Eyn **(**"göz bəbəyi" kimi tanınan türk şairəsi, 1818-ci ildə Güney Azərbaycanın Qəzvin şəhərində, dövrün tanınmış müctəhidi Hacı Molla Məhəmmədsaleh Bərəğaninin ailəsində doğulub, yüksək təhsil alıb, dövrünün məşhur ülamələri ilə dini məsələlərin şərhində onlara, eyni otaqda tül pərdə arxasında, yeni baxış aşılamağı bacaran münəvvər bir qadın) həmin gündən Tahirə ("Pak") adı ilə məşhurlaşır. Bu adı ona Həzrət Bəhaullah verir.

Azərbaycanın XIX əsr ən qabaqcıl mütəfəkkirlərindən sayılan, lakin din cəhətcə çox geridə olan iki mütəfəkkiri: ateist dramaturq Mirzə Fətəli Axundzadə (Bəzi tədqiqatlara görə bu səhv fikirdir, o yalnız İslamda müasirliyiə çağırıb, amma sovet

---

* Onun şeirləri, yazıçı Professor Əzizə Cəfərzadənin "Azərbaycanın aşıq və şair qadınları" Bakı, "Gənclik",1991 kitabında çap edilmiş və tarıxı romanlarından olan "Zərrintac- Tahirə" Bakı, "Göytürk", 207s.,1996, Tahirəyə həsr etmişdir.)



***Tahirə Qürrətüleyn***

dövründə məktəblərin bütün kitabxanalarında onun "Mən bütün dinləri puç və əfsanə hesab edirəm" sözləri görkəmli yerdə asılardı) və ilk şərqşünas

alim, Rusiyanın Kazan və Sankt Peterburq Universitetlərinin professoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilmiş Mirzə Kazım Bəy müsəlman ailəsindən çıxsa da, (Mirzə Məhəmmədəli Qasım oğlu) Tahirə xanıma olduqca yüksək qiymət vermişlər.

Mirzə Fətəli Axundzadəyə görə Tahirə "atəşin təbə malik qeyrətli, hümmətli, öz zəmanəsinin gözəl qızı idi, həyatı dastanlara layiqdir". Mirzə Kazım bəyə görə Tahirə xanım "qeyri-adi dərəcədə yüksək təhsil almış, sözə hakim bir insan idi, bütün bunların üzərində onun təsviredilməz gözəlliyi parlayırdı".*

Böyük türkçü Nihal Atsız "Gənc qızlarımıza çağrı" adlı yazısında türk qızlarına özgür qadın Zərrintacı (Tahirənin başqa adı) örnək göstərirdi: "Sizlər də adı Zərrintac olan qəzvinli türk qızı kimi inanclarınız uğruna, üzündə xoş bir gülümsəmə ilə atəşə doğru erkək bir bozqurd kimi yürüməyi bacarın" söyləmişdir.

Beləliklə, Həzrət Baba ilk iman gətirən və "hürufi-həyy" adlanan 18 müridi ilk iman gətirmişlər arasında yeganə qadın Zərrintac Tahirə də var idi. Lakin digər 17 müriddən fərqli

---

* Bu məsələdə nə qədər haqlı olsa da, baxmayaraq ki, Mirzə Kazım bəy həmin dövrdə yaşamışdır, bir neçə Avropa və bir neçə şərq dilini kamil bilir və tərcümələr edirdi, ikinci dəfə də yeni Dinin mahiyyətini tuta bilməmiş, 1865-ci ildə yazdığı "Bab və babilik" tarixi kitabı isə uzun müddət insanları çaşdırmış, elə indinin özündə də çaşdırmaqdadır. Görünür belə güclü əql dühası olmasına baxmayaraq dindəki yenilikləri qavrama qabiliyyətinə malik olmaması onun ruhani qabilliyyətləri ilə birbaşa əlaqədardır. http://en.wikipedia.org/wiki/Alexander_Kasimovich_Kazembek

olaraq Tahirə həmin vaxt Kərbəlada olduğundan onun hüzuruna gələ bilmir, bacısının əri Mirzə Məhəmmədəli Qəzvini ilə bir məktub və bir beyt şeir göndərir və Ona "Nə üçün "Mən sizin Rəbbiniz deyiləmmi?" deməyəsən?!" deyə müraciət edir və Ona iman gətirir.

Qacar dövlətinin hökmran olduğu regionda olduqca qətiyyətli addımlar atır, özünü Dinin təblərinə həsr edir, elə buna görə də 1848 - 1852-ci illərdə həbs olunaraq Tehrana göndərilir, o şəhərin kələntəri Mahmud xanın evində əsir qalır. 1852-ci ildə Nəsrəddin Şaha uğursuz sui-qəsdin bir ruhdan düşmüş babi tərəfindən törədildiyi aşkar olduqdan sonra Tahirəni baş nazir Mirzə Ağa xanın yanına aparmaq bəhanəsilə zindandan çıxarırlar, bir bağda boğaraq quyuya atırlar və üzərini torpaqla doldurur, əzabla faciəli surətdə şəhid edirlər. İlk iman gətirmişlər arasında, Tahirə xanımdan başqa, digər azərbaycanlılar da var idi.

Bəzi tədqiqatlarda Tahirənin babiliyə qoşulmasının səbəbi, səhfən, qadın azadlığı sayılır. Sonralar, bizim günlərdə, tədqiqatcı alim Sabir Gənçəli də öz namizədlik dissertasiyasında Tahirənin qadinlar hərəkatında böyük rolunu qeyid etmişdir.

Zəncanda 1850-ci il Babilərin özlərini amansız rejimin təqiblərindən qoruduqları zaman müdafiə dəstələrindən birində Zeynəb adlı çox gənc azərbaycanlı qız da olmuşdur. Tarix elmləri doktoru, professor Zülfəli İbrahimov bu qəhrəman qız haqqında yazmışdır: "Son dərəcə şücaətli olduğuna görə zəncanlılar bu qıza "Şahnamə"nin qəhrəmanı Rüstəmin adını vermişdilər. Xalq ona Rüstəmə deyirdi». Başqa tədqiqatçı, tarix elmləri doktoru, professor Sabir Gəncəli yazır: "Şah qoşunları dəfələrlə hücum edib, Rüstəmənin müdafiə etdiyi istehkamı tutmağa cəhd göstərmişdilərsə də buna müvəffəq ola bilməmişdilər. Rüstəmə döyüşdə deyil, yatdığı yerdə casus əliylə öldürülmüşdür".

"Qalada olan qadınlar arasında Zeynəb adlı kəndli bir qadın da vardı. O əslən Zəncanın ətrafındakı kiçik bir kənddən idi. İmanın ən yüksək dərəcəsinə yüksəlmişdi, şücaətdə misilsiz, gözəllikdə bənzərsiz idi. O, din qardaşlarınnı məşəqqətlərə düçar olduqlarını gördükdə, onların köməyinə yetişmək qərarına gəlmişdi. Buna görə də əyninə cübbə geyinir, başına papaq qoyub saçlarını yığırdı...Beş ay ərzində Rüstəməli hədsiz şücaət və misilsiz cəsarətlə ona tapşırılan vəzifəni yerinə yetirməklə məşğul oldu. Nə yatmaq, nə dincəlmək, nə də yemək barədə düşündü. Tərəddüd içərisində olan bəzi şəxslər onun bu misilsiz şücaətini görüb ürəkləndilər və itirdiklərini geri qaytarmağa çalışdılar....Düşmənlərin heç biri Zeynəbin paklığına, şücaətinə, dəyanətinə və imanına şəkk-şübhə etmirdi. Zeynəb düşmənlərin nəzərində adi kənd qadını deyildi, bütün insani fəzilətlərin mücəssəməsi, gözəl rəftarın nümunəsi, igidlik ruhunun təzahürü idi və belə müqəddəs ruha malik şəxslərə yalnız Həzrət Babın dininin kölgəsində rast gəlmək olardı."(Nəbil Zərəndi, "Dan yerinin şəfəqləri", Bakı 2001, səh. 416-417).

Bədəşt müşavirəsindən etibarən ***Mirzə Hüseyn Əli "Bəhaullah" (ərəbcə "Allahın Nuru")*** adı ilə məşhurlaşdı. Sonralar möminlərin bir qismi Həzrət Baba müraciətində bildirmişdilər ki, Tahirə xanım köhnə adət və ənənələri rədd edir. Buna cavab olaraq Həzrət Bab demişdi: "Mən onun haqqında nə deyə bilərəm ki, onu Qüdrətin və Nurun Dili Tahirə adlandırmışdır?"

Məhz bu tarixi Bədəşt müşavirəsində, əsrin yeni qanunları qəbul edildi və köhnə ənənələr rədd olundu. Burada Tahirə*

---

* Professor Əzizə Cəfərzadə Tahirə xanıma vurğun olduğunu müəllifə dəfələrlə etiraf etmişdi.Onun, məhz Əzizə xanımın ifasında əzbərdən, xüsusi şövq və sevgi ilə söylənən şerlərini dinləməkdən doymaq olmurdu. Tahirə

üzüaçıq, rubəndsiz və bəzənmiş halda dostlarının qarşısında dayanmış və üzünü dindaşlarına tutaraq "Quran"ın ayələri tək səslənən bəyanat vermişdi ki, Yeni dövrün gəlişi ilə köhnə qanunlar ləğv ediləcəkdir.

Lakin hamı belə bir dəyişikliyə hələ hazır deyildi, buna görə də bəziləri öz narazılıqlarını bildirdilər, lakin Həzrət Bəhaullahın bu işə qarışması nəticəsində tərəflər arasında sülh yaradıldı. *

"Azad qadın" heykəli Bakı,1960-cı il
(müəllif Fuad Əbdürrəhmanov, memar Mikayıl Hüseynov)

Bu tarixi görüş məqsədinə nail olmuşdu. 160 il bundan əvvəl Bədəşt müşavirəsində Yeni Dövrün gəlişi elan edilmişdi. Bu termin yalnız 150 il sonra məşhur dövlət xadimlərinin və alimlərin çıxışlarında, Bəhai dinindəki mənanı daşımasa da, işlədilməyə başlanacaqdır.

---

xanımın azərbaycan dilində yazdığı "Hələ İsrafil Calır, Calır Sur..." (Surun calınması - Qurani-Kərimdə dəfələrlə rast gəlinən məqamlardandır. Burada "hələ" sözü çox maraqlıdır və hadisələrin məhz həmin vaxtda getdiyinə işarədir) və fars dilində yazdığı "Kuçəbe kuçə, xanə be xane..." şerlərini və s. xöşbəxtlikdən, məşhur tarixi romanlar müəllifi, professor Əzizə Cəfərzadənin web.site-da səs yazısını indi özünün ifasında dinləmək olar.

* İllər keçəcək və təqribən 70 ildən sonra (!), Sovet hakimiyyəti dövründə, çadranı atmaq kütləvi xarakter alacaq, Bakının mərkəzi meydanlarından birində azadlıq rəmzi kimi çadrasını atan qadın heykəli -bəhailər üçün isə sanki Tahirənin heykəli- ucaldılacaqdır...

Hətta Öz həyatını xilas etmək naminə güc tətbiq edilməsindən imtina edən Hz.Bab Öz Missiyasının sülhsevər xarakterini və İlahi qüvvələrə olan hədsiz inamını qətiyyətlə sübut edirdi. Öz Missiyasına keçid dövrü kimi baxan Həzrət Bab buyururdu ki, Vəd olunmuş gələcək və O, insanlara gələcək əsrin təlimini gətirəcəkdir. *"Allahın zahir edəcəyi Kəsin bir ayəsini oxumaq, Mənim "Bəyan" kitabımı min dəfə oxumaqdan üstündür".*

Həzrət Babın əzabla şəhid edilməsində və Onun yaxın məsləkdaşlarının əksəriyyətinin işgəncələrlə öldürülməsindən (20.000-dən artıq şəhid) sonra bəzi adamlara elə gəlirdi ki, Həzrət Babın Missiyası uğursuzluqla nəticələnmişdir. Bundan sonra Həzrət Babın yeni təliminin inkişafında ayrı bir mərhələ başladı və bütün hadisələrin mərkəzində Həzrət Bəhaullah dayandı.

Bu dövrdə yeni yaranmış din İranla Şimali Azərbaycan arasında olan əlaqələrlə bu taya da keçmişdi. Lakin Bəhai Dininin məhz Bakıda yayılması daha çox Molla Sadığın adı ilə bağlıdır. O, müqəddəs şəhərlər Nəcəf və Kərbalanın ziyarəti məqsədi ilə Bakıdan yola düşmüşdü. O, Əmr haqqında əvvəl Rəşd şəhərində, sonra isə Qəzvində eşitmişdi. Bu şəhərdə fəal və güclü Bəhai icması yerləşirdi. Bəhailərlə görüşüb, Əmrin sübütlarının və nəzəriyyəsinin müzakirəsindən sonra o Bəhai Vəhyinin ilahi mənşəyinə tamamilə inanmışdı. O, nəzərdə tutulmuş ziyarəti təxirə salmış, bir çox lövh və sənədlərlə Bakıya qayıtmışdı. Onun təbliğ işinin nəticəsi olaraq Bəhai dini ilə birbaşa əlaqədar olan təzə bir icma öz fəaliyyətinə başladı. Yeni dini qəbul edəndən və onun fəal təbliğindən neçə il sonra Molla Sadıq Həzrəti Bəhaullahı ziyarət etmək şərəfinə nail olmuşdu. Bu görüş onun məhəbbətini və özünü Allahın Əmrinə həsr etməsini gücləndirmişdi.

İrandan Müqəddəs Torpağa ən rahat ziyarət yolu Rəştdən Bakıya, sonra Tbilisiyə, Batumiyə, Konstantinopola və oradan müqəddəs Torpağa olan yol idi. Təzə gələn ziyarətçilərin ruh yüksəkliyi və cəhdi bəhai və qeyri- bəhailərdə yeni ilham və həyacan hissləri oyadırdı. Bu görüşlər ziyarətçilərin yolu üstündə olan bütün şəhərlərdə dinin yayılmasına təkan verirdi. Müqəddəs torpağa ilk ziyarətindən sonra Molla Sadıq Bakıya qayıdır və öz doğma şəhərində dinin yayılmasında böyük rol oynayır. O öz təbliğ üsulunda çox cəsarətli, mətin, eyni zamanda ehtiyatsız idi. Onun hikmətsiz coşğunluğu müxalifətin qarşıdurmasına səbəb olurdu. Müvəqqəti Bakıda yaşayan, sonralar ən tanınmış şəhidlərdən olan, Həzrəti Bəhaullahın apostollarından biri, Allahın Əmrinin Əllərindən biri, Mirzə Əli Məhəmməd Vərqa dəfələrlə Molla Sadığa müdrük, ehtiyatlı olmaq və lövhi çatdırdığı adamların hisslərini coşdurmamağı məsləhət görürdü. Təəssüf ki, bu nəsihətlər  Molla Sadığın hərəkətlərinə müsbət təsir göstərmədi. Onun təbliğ üslubu o dərəcəyə çatmışdı ki, Bakıdaki dostlar Həzrət Əbdül-Bəhaya yazıb, Ondan müdaxilə etməsini xahiş etmişdilər. Cavab məktubunda Həzrət Əbdül-Bəha yazmışdı ki, bir halda ki, Bakıdaki dostlar Molla Sadığı qəbul etmirlər, o zaman O, Molla Sadığı qəbul edir. Beləliklə Həzrət Əbdül-Bəha Molla Sadığı müqəddəs torpağa çağırdı və orada Molla Sadıq müdriklük , gözüaçıqlıq və bəsirət dərslərini aldı.

Həzrəti Bəhaullahın “Qafqaz Lövhi” adı ilə tanınan lövhi 1890-cı ildə nazil olmuşdu. Əvvəldə qeyd olunduğu kimi, bu lövhdə Həzrət Bəhaullah Yeni Günün gəlişini elan edir, onun şərəfini tərifləyir və Qafqaz xalqlarının hansı xüsusiyyətlərə malik olmalarını tövsiyə edir (Etibarlı və dəyanətli, diqqətli və vəfalı). Bu gün müxtəlif ölkələrdən Azərbaycana gələn bəhailər də Molla Sadığın qəbrini ziyarət edirlər.  (Bax: Əzizə Cəfərzadə "İşığa doğru, Bakı, Şirvannəşr, 1998).

Həzrət Bəhaullahın süudundan sonra, Onun Vəsiyyətinə uyğun olaraq, Dinin Rəhbəri, **Əhdin Mərkəzi və Müqəddəs Yazıların yeganə Şərhçisi Hz. Əbdül-Bəha Abbas** (1844-1921) təyin edilir. Buna oxşar hadisə din tarixində hec vaxt olmamışdır. Həzrət Əbdül-Bəha tarixi fenomendir. O, mükəmməl bir sistem yaratmışdır. O Molla Sadığın şərəfinə türk dilində bu sözlərlə başlayan gözəl bir münacat yazmışdır: "Ey Sadıqım, ey Sadiqim, məhfildə nuri-bariqim..."

Molla Sadıq bir neçə dəfə həzrət Əbdül-Bəhadan şəhidlik imtiyazının verilməsini xahiş etmişdi və nəhayət, həzrət Əbdül-Bəha onun xahişinə güzəştə getdi. Molla Sadıq dinin təbliğində hərəkətlərinin necə olmasını öz müəllimindən öyrəndikdən sonra Bakıya öz Məhbubunun Əmrinə itaətkar bir halətdə qayıtdı. O, öz tərifəlayiq təbliğini davam etdi və nəhayət, öz istəyinə çatdı. Bir gün o parkda maraqlananları təbliğ edən zaman gecə qaranlığından atılan qatil gülləsi onu qətlə yetirdi. Ən dəhşətlisi isə odur ki, Axund İbrahimxəlil özü, hirsli bir vəziyyətdə, Bəhai dinini qəbul etdiyinə görə öz oğlunun ölümünə fitva vermişdi... Beləliklə, Molla Sadığın (Molla Sadıq Hacı Qələndər) ruhu öz istəyinə çatdı. Onun cənazəsi dostlar tərəfindən Bakının kənarında dəfn edilmişdir və bütün dünyadan olan Bəhailər tərəfindən indi də ziyarət olunur. Beləliklə, Şimali Azərbaycanda Bəhai Dini uğrunda ilk şəhid olan şəxslərdən biri öz "dönük" oğlunun öldürülməsinə fitva verən məşhur üləmanın oğlu Molla Sadıq Haji Qələndər idi. Bu hadisə 1898-ci ildə baş vermişdi.

Dinin inkişafının nəticələri neçə il boyu hiss olunurdu. Misal üçün, Misirdə bu müvəffəqiyyətə aparan yol **Şeyx Məhəmməd Əbdunun** Əbdül-Bəhaya heyran qalması ilə hazırlanmışdı. Sonradan şeyx Misirin müftisi olub və Əl-Əzhər universitetinin - İslam aləminin qörkəmli siması olub. ("Kainatın yüzilliyi",

2001, Kanada, "Birlik" nəşriyyatın tərcüməsi, Moskva, 2004). İndi də o, islam aləmində ən tanınmış simalardan biri sayılır. Azərbaycanın Dini Qurumlarla iş üzrə komitənin mütəxəssisləri onun islam aləmindəki rolunu çox qiymətləndirirlər. Qeyd etmək lazımdır ki, müsəlman aləmində ilk dəfə məhz ən mötəbər **Əl-Əzhər** universitetində, Misirdə 80 il əvvəl Bəhai Dini müstəqil bir din kimi qəbul edilmişdir.

1925-ci ildə Misirin sünnü-müsəlman dini məhkəməsi (Qazı) müsəlman qadın və bəhai kişilərlə kəbininin kəsilməsinə etirazını "Bəhai Dininin Yeni və tam müstəqil olması" ilə əlaqələndirmişdir.. ("Столетие Света" Перевод с английского-издательство Единение, Национальное Духовное Собрание Бахаи России), 2004. – с.208).

Maraqlıdır ki, alim və ensiklopedik biliklərə malik olan Şeyx Məhəmməd Əbdu məşhur rus yazıçısı **L.N.Tolstoy** ilə tanış olmuş və ümumbəşəri dinin reformasiyalarının aparılması yolları haqda öz düşüncələrini bölüşmüşlər. Bəhai Dini haqda L.N.Tolstoyun Yasnaya Polyana malikanəsindəki kitabxanasinda müxtəlif mənbələr mövcuddur ki, bunlara F.C. Andreasın tədqiqatları və A. Tumanski tərəfindən Kitab-i Əqdəsin (Bəhailərin ana kitabı) ilk dəfə rus dilinə tərcüməsini misal gətirmək olar. Təqribən 100 il bundan əvvəl edilmiş bu tərcümənin foto nüsxəsi on illər boyu, sovet dövründə, bəhailərin yeganə kitab mənbələrindən biri idi. Əbdül-Bəhanın bəşəriyyətin birliyi üçün etdiyi bütün səylərə yüksək qiymət verən Tolstoy bununla bütün dünyanın işıqlanaçağı fikrinə böyük ümidlə yanaşırdı. Aşağıdakı əlaqə kanalına bax: A.L.M.Nikola, www.abc-globe.com/bahaizm.htmv

L.N.Tolstoy, Bəhai Dininin prinsiplərinə dərin hörmət bəsləyən, bu Dinin gələcəyini görərək, hələ 1908 –ci ildə, onu "Dərin və Gələcəyi xəbər verən" adlandırıb. Bütün bəşəriyyət

xöşbəxt cəmiyyət qurmaq haqqında fikirləşdiyi vaxtda, "İnsanların xöşbəxtlik açarının Əkkə dustağının əlində olduğunu", – yəni Hz. Bəhaullahın, - göstərmişdir. (Mikhail Rodionov (Bazilenko, I.V.) aşağıdakı əlaqə kanalına bax http://www.ameenrihani.org/pdf/Rihani%20and%20Tolstoy%-20-%20by%20Mikhail%20Rodionov.pdf

"L.N. Tolstoy and Bahaism, in Russian, the West and the Muslim East in New time."

Mövcud dinlərdən 5 postulat təklif edən L.N.Tolstoy ömrünün sonuna yaxın yeni dinə ehtiyac duyur və xristianlıqdan çıxır.

Sonralar, bizim günlərdə, rus tədqiqatcı alimləri İ.V.Bazilenko və başqaları öz dissertasiyasıyalarında uyğun olaraq Şovqi Əfəndi və Bəhai Dini haqqda öz müsbət mülahizələrini qeyid etmişlər.

Ümumiyyətlə, Rusiya - Bəhai Dininin tarixi inkişafında görkəmli rol oynamış ölkələrdən biridir. Belə ki, 1889-cu ildə Rusiya məhkəməsi, nəinki tarixdə ilk dəfə olaraq, Bəhai Dininin heç bir dinlə əlaqəsi olmadığını və müstəqilliyini göstərmiş və onun ardıcıllarının müdafiəsinə qalxmışdır. Məşhur rus **yazıçısı İ.S.Turgenyev** də Bəhai Dininə maraq göstərmişdir.

**F. M. Dostoyevskinin** məşhur olan "Dünyanı gözəllik xilas edəcək" fikri və **Hüseyn Cavidin** "Mənim Tanrım gözəllikdir, sevgidir" fikirləri olduqca maraqlıdır. Çoxları bunları, sadəlövcəsinə, qadın gözəlliyi ilə əlaqələndirsə də, məncə, bu onların Hz.Bəhaullahın ən geniş yayılmış titullarından biri olan **Cəmali-Mübarəkə** - Həzrət Bəhaullaha (ərəbçədən camal –gözəllik, gözəl üz) işarədir və Onunla bağlı ümidlərə işarədir.

**F. M. Dostoyevskinin** "Karamazovlar qardaşları" romanı bu anda yada düşür, çünki o, olduqca incə bir məqama

toxunmuşdur. Görəsən min illər boyu yalvarıb İsa Peyğəmbərin yenidən yer üzünə qayıdıb gəlməsini gözləyənlər səmimidirlərmi? Sən demə heç də yox. Yazıçı böyük məharətlə, riyakar insan psixioloqiyasına uyğun olaraq, inkvizitorla İsa Peyğəmbərin ikinci qayıdışından sonrakı görüşü və hadisələri təhlil edir və nəhayətdə ən başbilən keşişin nəinki Onu qəbul etmədiyini göstərir, hətta yenidən Onu həbsə alıb, cəzalandıracağı ilə də hədələyir və ən nəhayət, Onu azadlığa buraxsa da, bir daha bu yerlərdə görünməməyi əmir edir.

Həmin hadisələr böyük oxşarlıqla Hz.Babın və Hz.Bəhaullahın da başına gəlmiş və indi də hələ bundan nəticə çıxarmayanlar az deyildirlər.

**Professor Edvard Braunun -** Kembric universitetindən iranşünas alimininin Bəhailiyin tarixi, təlim və prinsiplərinin elmi dairələrdə dərc olunmasında əməyini tam qiymətləndirmək mümkün deyildir. Onun "Fars ədəbiyyatı tarixi" adlı fundamental əsərində XİX əsrin 80-cı illərinin sonundan başlayaraq əvvəl Babiliyi (edam tarixini "İsa ilə əlaqədar hadisələrə" oxşatmışdır) sonra isə Bəhailiyi tədqiq etmişdir və yüksək qiymətləndirmişdir. E.Braunun 1890-cı ildə Əkkə şəhərinə səfər edib və 4 dəfə Hz.Bəhaullahın hüzurunda olmuşdur. Onun "..özümdən asılı olmadan qarşımdakı adamın qarşısında – Hz.Bəhaullahın - səcdə etdim.." sözləri ilə başlayan ilk təəssüratını oxumaq olduqca maraqlı və o vaxtkı dövrün ruhani atmosferini təsvir etməkdə əvəzsis yazılardan biridir. Məşhur Kembric universitetinin professorunun İrandan sürgün edilmiş dustaq qarşısında bu ilk davranışı olduqca maraqlıdır!

**Professor, Doktor Avqust Henrix Forel** 1908-ci ildə Bəhai Dini ilə tanış olduqdan sonra heyran olmuşdu. Öz çoxillik elmi tədqiqatlarının və dünya görüşünün nəticəsi kimi Monizmi (ideal və maddiliyin vəhdəti) təsbit etdiyindən Əbdül-Bəhaya

məktubla müraciət edib, soruşmuşdu: Bəhaizmin tərəfdarı olaraq monizmliyində qala bilərmi? Hz.Əbdül-Bəha Abbasın ona 1921-ci ildə ünvanladığı müraciətnamə-məktubu (Abdu'l-Baha's Tablet to Dr.Forel. Baha'i –Verlag, GmbH, 1980, 137 D-6238 Hofheim-langenhain) din və elm, ruh və materiya, elmi tədqiqatların xarakteri və həyatın məqsədi kimi məsələlərə aydınlıq gətirilmiş, bəşəriyyətin sosial həyatının və xəstəliklərindən xilas olmanın yollarını göstərən əzəmətli bir sənəddir. Bundan başqa O, fizika elmində (ələxsus Moskva alimlərinin son 30 ildə) tez-tez toxunulan məsələlərdən olan, efir substansiyasının mövcudluğunu göstərməklə mahiyyətinin naməlum olduğunu qeyd edib, və ilk dəfə olaraq istilik, işıq və elektrikin mahiyyətində efir substansiyasının dalğavari hərəkətının olduğunu göstərmişdir. 40 il Atası ilə bərabər məhrumiyyətlərə düçar olmuş, bir ölkədən digərinə sürgün edilən və dustaq olmuş bir iranlının avropalı professorla da onun dilində və məntiqinə uyğun danışması sonda alim kimi formalaşmış bir professorun fikrinin dəyişilməsinə səbəb olmuşdur.

Babiliyə və Bəhailiyə aid bir çox tədqiqatlar da bu tarixi hadisələrin möhtəşəmliyini göstərir.

**Couett,** Oksford universitetinin məşhur alimi, Yeni Təlim barəsində belə bir fikir demişdir: "Bu hadisələr olduqca əhəmiyyətli və bizdən çox az bir zaman kəsiyində olduğundan, biz onların əsl əhəmiyyətini qiymətləndirə bilmərik. Yalnız gələcək onların mahiyyətini aça biləcək." ("Мир Бахаи". Том XII, стр. 625).

Ümumiyyətlə, Qurani-Kərimdə rast gəlinən, lakin mənaları yalnız elmi təsdiqini tapdıqdan sonra məlum olan bir çox ayələr vardır. Məsələn, Yer kurəsinin fırlanması yalnız təqribən 1000 il sonra Covdano Bruno tərəfindən elmi sübut edildikdən sonra "dağların da buludlar kimi hərəkətdə

olması"nın mənası aydın olub. Və ya dəmirin Yer kurəsinə kənardan gəlmə olması və s. O cümlədən, də eyni ilə Qurani-Kərimdə gələcəklə əlaqədar naməlum fikirlər yalnız öz təsdiqini Hz.Bab və Hz.Bəhaullahın bu məsələlərə aydınlıq gətirdikdən sonra, yəni öz təsdiqini tapdıqdan sonra indi bizə aydın görünür.

**Leyla Məlikova,** bizim dövrdə Azərbaycanda Bəhai Dini mövzusunda, Azərbaycanın Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda aparılmış ilk elmi-tədqiqat işləri nəticəsində, böyuk həcmdə ədəbiyyat və arxiv materiallarını tapıb araşdıraraq 2008-ci ildə Ph.D. - elmlər namizədi alimlik dərəcəsini almışdır. Bəzi məqamları nəzərə almasaq, ümumiyyətlə o, müvəffəqiyyətlə məsələnin mahiyyətini tuta bilmişdir (Bax: Azərbaycan Milli Elmlər Akademiyası, XƏBƏRLƏR, *N*o 5-6, Bakı -"Elm" – 2005 və s.). Bu faktın özü isə, ona bir çox yazıçı, alim və mütəxəssislərdən fərqli olaraq, elmin heç bir təəssüb və önyarğıdan asılı olmamasını göstərməsinə gözəl bir nümunədir. (Bu sətirlər Leyla Məlikovanın razılığı ilə qələmə alınmışdır).

Ümumiyyətlə dünyanın əksər ölkələrində Bəhai Dini elmi tədqiq edilmiş və 150-dən artıq (yalnız mənim aşkar edə bildiyim) – Ph.D. alimlik dərəcəsi verilmiş dissertasiyalar müdafiə edilmişdir. Aşağıdakı əlaqə kanalına bax:http://library.bahai.org/gc/dess.htmlş

## HƏZRƏT BƏHAULLAH

Bəhai Dininin müstəqil dünya dini kimi yaranma tarixi 1863-cü ildən sayılır. Həmin ildə Hz. Bəhaullah (Mirzə Hüseyn Əli), (1817-1892) elan etdi ki, haqqında bütün dinlərin müqəddəs kitablarında xəbər verildiyi, Həzrət Babın Öz Yazılarında daim "Allahın Zahir Edəcəyi Kəs" kimi istinad etdiyi Vəd Olunmuş Kəs Odur.

İran şahı və ruhaniləri tərəfindən təqib edilməsi nəticəsində O 40 il (!) bir ölkədən digər ölkəyə sürgün edilmiş, uzun bir müddət zindanda dustaq edilmişdir. Dövlətli və adlı-sanlı Mazandaran zadəganlarından olan, İran şahının baş vəziri Mirzə Abbasın (daha çox Mirzə Buzurq kimi tanınan) oğlu idi ki, o da Yeşayanın nəslindəndir. Onun nəsil ağacının kökü bir tərəfdən Hz. İbrahim və arvadı Hetturadan olan oğlu İokşan tərəfdən), digər tərəfdən isə Hz.Zərdüşt, həmçinin, Sasanilər sülaləsinin son şahı Yəzdəgird tərəfdəndir. (Уильям Сирз, "Как Тать ночью", ИМПАКС, Санкт-Петербург, 1993, с.160). İncildən çox maraqlı tədqiqatlar aparmış müəllif orada gələcək nəslinin yanında (İokşanın oğlanları Şava (və ya Sava) və Dedanın yanında şimaldan gələn Fars tacirlərilə birgə aslanların olduğunu da göstərmişdir ki, bu da digərlərinin fikrincə Hz.Əbdül-Bəha Abbasa işarədir. Abbas – həm də Onun babasının adı olub, fars dilindən tərcümədə aslan deməkdir. Həmin mənbəyə istinadən Britaniya israilşünaslarının və digər İncil tədqiqatçılarlnln fikrincə, bizim günlərin Məsihası öz kökünü Hetturadan, Hz. İbrahimin son və 3-cü arvadından törəyəcəkdir.

Hz. Bəhaullah həyatında əzab, əziyyət, böhtan və aclıq, xəyanət, satqınlıq görmüşdür. Onun həyatının və etiqadının tarixi son dərəcə dramatikdir. Atası dünyasını dəyişdikdən

sonra, o dövrün adətlərinə uyğun olaraq və özünün qeyri-adi istedad və biliyinə görə (14 yaşlarında O, artıq böyüklərlə dini söhbətlərdə iştirak edir və bəzi məsələlərdə də Onun müdrikliyi saray əhlinin təəccübünə səbəb olurdu), Şah tərəfindən Ona edilən vəzir vəzifəsini tutmaq təklifindən imtina etmişdir. İranın iki ən dövlətli şəxslərindən biri idi.

Həzrət Bəhaullahın Bağdaddan sürgün edilməsi xəbəri Babi icmasını silkələdi. Dostlar kədərə qərq olmuşdular və ilk öncə heç kim nə yata bilir, nə də yemək yeyə bilirdi. Tədricən Həzrət Bəhaullah mehriban və nəvazişli sözlərlə onları sakitləşdirdi və çoxlarının sürgününün növbəti mərhələsində Onu müşayiət etmək zövqündən məhrum olacaqlarını qəbul etdilər. Öz sevgisinin nişanəsi kimi O, şəhərdə yaşayan dostların - qadın, kişi, uşaq - hər birinə əlyazısı ilə bir lövh bağışladı.

Bağdad kənarında qızılgüllərlə dolu bir bağ var idi - qızılgül Həzrət Bəhaullahın sevimli gülü idi. 1863-cü il aprelin 22-də günorta vaxtı O, şəhəri tərk etdi və həmin bağa gəldi. Dostlar və Bağdad əhalisinin çox həssəsi qəmə batmışdı. Həzrət Bəhaullahın nəvazişli qayğısı ilə dirçəlmiş Babi icması növbəti böhrana düşmüşdü. Yeganə Ümidinin, ardıcıllarının əksəriyyətinin olduğu yerdən bu qədər uzağa sürgün edildiyi bu gənc Dinin gələcəyi necə olacaqdır? Onu yola salmaq üçün toplaşmış qəlbisınıq babilərin gözlədikləri cavab çox mühüm idi. Həzrət Bəhaullah Onun Həqiqi məqamını insanların gözündən gizli saxlayan pərdəni qoparıb atacaq və açıq şəkildə e'lan edəcəkdi ki, O, bütün zamanların Vəd Olunmuş Kəsidir.

Həzrət Bəhaullah, İstanbula sürgün olunmazdan əvvəl bu gün Rizvan Bağı kimi tanınan həmin bağda on iki gün yaşadı. Düşmənlər Onu möminlərin əksəriyyətindən ayırmaqla Onun Əmrinə məhvedici bir zərbə vurmaq istədilər. Lakin, Allah vidalaşma mərasimini sonsuz sevinc dolu hadisəyə çevirdi. Onun Missiyasının elanı Onun yoldaşlarının qəlbində

yeni bir həyat yaratdı. Bu Həzrət Babın onları hazırladığı Günlərin Günü idi. Həzrət Bəhaullah Özü buyurmuşdu ki, həmin gün "bütün yaradılanlar saflıq dənizinə qərq oldular."

Təəssüflər olsun ki, Həzrət Bəhaullahın Rizvan Bağında qəbul etdiyi müsafirlər dalğası ilə apardığı söhbətlərin təfsilatları barədə çox az şey məlumdur. Tarixçi Nəbilin aşağıdakı sözləri o günlərin cəlalına kiçicik bir nəzərdir:

"Hər gün, dan yeri sökülәndən qabaq bağbanlar bağın dörd xiyabanında sıralanmış qızılgülləri toplayar və Onun mübarək çadırının tən ortasına qoyardılar. Gül topası o qədər iri olardı ki, Onun dostları Onun hüzurunda səhər çayını içməyə toplaşdıqları zaman bir-birini görə bilmirdilər. Həmin qızılgüllərin hamısını Həzrət Bəhaullah öz əlləri ilə səhər hüzuruna buraxdığı adamlar vasitəsi ilə Onun adından şəhərdəki ərəb və fars dostlara göndərirdi... Bir gecə, yeni doğmuş, bədirlənmiş ayın doqquzuncu gecəsində Mən Onun mübarək çadırının yanında keşik çəkənlərlə birlikdə idim. Gecəyarısı yaxınlaşan zaman Mən Onu çadırdan çıxaraq bir çox dostların yatdığı yerlərdən keçərək bağa getdiyini və ay işığına qərq olmuş, güllərlə bəzənmiş xiyabanlarla var-gəl etdiyini gördüm. Hər iki tərəfdə bülbüllər o qədər ucadan oxuyurdular ki, yalnız Onun yaxınlığında olanlar Onun səsini eşidə bilərdilər. O, gəzişməsinə davam etdi və bu xiyabanlardan birinin ortasında dayanaraq buyurdu: "Bu bülbüllərə nəzər salın. Onların güllərə sevgisi o qədər böyükdür ki, axşam alatoranlıqdan dan yeri sökülənə qədər öz mahnılarını oxuyur və yanar bir ehtirasla eşqlərini pərəstiş etdiklərinə izhar edirlər. Bəs onda Məhbubun Gül qoxulu Gözəlliyinin sevgisi ilə alovlandıqları iddiasında olanlar necə yata bilərlər?" Üç uğurlu gecədə mən Onun mübarək çadırı ətrafında keşikdə oldum və onun ətrafında dolandım. Hər dəfə Onun çarpayısının yanından keçərkən Onu oyaq gördüm və hər gün səhər tezdən axşam

keçənə qədər o, Bağdaddan arası kəsilmədən gələn müsafirlər dalğası ilə söhbətlə məşğul olurdu. Heç vaxt Mən Onun səsində cüzi də olsa, yorğunluq əlaməti hiss etdirdiyini sezmədim." ("Dan Yerinin Şəfəqləri",Bakı, 2001, 480).

Bu gün bütün dünya bəhailəri 21 apreldən 2 maya qədər on iki günü (xüsusilə, birinci, doqquzuncu və on ikinci günü), Rizvan Bayramı kimi qeyd edirlər və bu ən müqəddəs və ən mübarək Bəhai bayramıdır.

Hz.Musa Misirdən öz xalqını 40 il səhradan keçirərək, nəhayət, Müqəddəs Torpaqda xilas etdiyi kimi, Müqəddəs yazılarda, İncil və Tovratın müxtəlif ölkələrdən olan bir çox tədqiqatçıların yazılarlnda Məsihanın (Xilaskarın) da Günlərinin 40 il müddətində olacağı göstərilir. (Уильям Сирз, "Kak Тать ночью", ИМПАКС, Санкт-Петербург, 1993, с.152).

Həqiqətən də, Hz. Bəhaullah Öz ailəsi, dostları və şagirdləri ilə birlikdə 40 il mühacirətdə, sürgün və dustaqlıqda keçirmiş və Suleymaniyyə dağlarına tənhalığa (1854-1856-cı illər) çəkilib, uzaqlaşmış (əvvəlki peygəmbərlərə xas olan xüsusiyyt, – Hz.Budda – şah oğlu idi və ilk dəfə saraydan kənara çıxanda ətrafdakı zəlaləti görüb, təəccüblənərək təsirlənib və 10 il meşələrdə tərki-dünya olub, Hz. Zərdüşt 30 yaşında ikən 10 il dağlarda tənhalıqda yaşamışdır və s.) və 2 il zahid kimi yaşamıdır. Onun yerini hətta ailəsinadən belə heç kəs bilmirdi, bu haqda olan hədis, – hətta Onun əbasının qırmızı rəngdə olacağını göstərmişdir,- tamamilə həyatda təsdiqini tapmışdır. 1852-ci ilin avqustunda ilk dəfə Tehranın "Siyah Çal" dustaqxanasında, çirkab sularının saxlanması üçün nəzərdə tutulmuş, yeraltı anbarda, ən qatı cinayətkarlar və canilərlə birgə saxlanılarkən, yuxusuz gecələrin birində Ona ilk Vəhy gəlir... Bu məqam sonrlar Onun yazılarında təsvir edilir. Hz. Məhəmmədin ilk vəhy anı ilə böyük oxşarlıq vardır. Sonra İrandan müxtəlif ölkələrə (İraq - Baqdad, Turkiyə - İstanbul və

Ədirnə (Adrianopol, –din tarixində ilk dəfə idi ki, peyğəmbər Avropaya ayaq basırdı - və Fələstin - Əkka) sürgün edilmişdir. O Öz Missiyasını dünyasını dəyişənə - 1992-ci ilədək 40 il müddətində davam etdirmişdir.

*“Biz zilləti izzət köynəyi və bəlanı Sənin heykəlinə zinət etmişik, Ey aləmlərin Fəxri”.*

*“Mən şəhadət verirəm ki, məxluqatın gözü Sənin kimi Məzlum görməyib. Sən bütün ömrün boyu bəlalar dəryasında qərq olmusan. Bir zaman Sən zəncir və qandal altında idin; başqa bir vaxt düşmənlərinin qılıncları Səni təhdid edirdi. Bununla belə, Alim və Hikmətli Allahın Sənə buyurduqlarını bütün insanlara çatdırdın ki, onlara əməl etsinlər”.*

Hz. Bəhaullah Dinin ən böyük faciəsini onda görür ki, insanlar Göndərilən Şəxsi –Elçini xatırlayırlar, amma Göndərilən Müraciəti isə yox.

*“Necə şirin idi, nifaq əhli arasında Sənin Əhdi-Peyman üfüqündən parlamağın və Sənin Allaha şövqün, Ey aləmlərin Eşqi”.*

Tövrat ilə İncilin bir çox yerində “*Orduların Rəbbi*” adı ilə Hz. Bəhaullah müjdələnmişdir.

Yeşayanın Kitabında Hz. Bəhaullahın həm yeni bir isimlə çağırılacağından, həm də insanlıq aləminin birliyini gerçəkləşdirəcəyinə belə işarə edilir:

Yeşaya (62/2) – “Millətlər Sənin salahını və bütün krallar Sənin İzzətini görəcəklər ve Rəbbin təyin edəcəyi yeni bir adla çağrılacaqsan.”

Yeşaya (66/18) – “Bütün millətləri və dilləri bir araya toplayacağam və gəlib Mənim İzzətimi görəcəklər.”

Hezekiel (1/28) – “Yağmur günü buludda olan yayın görünüşü nasılsa, çepeçevre parıltının görünüşü öyle idi. Rabbin İzzetinin görünüşü bu idi.”

Hezekiel (3/12) – “Rabbin İzzeti kendi yerinden mübarek olsun diye büyük bir gürleme sesi işittim.”

Çox maraqlıdır ki, Hz. Bəhaullah Hayfa şəhərində Karmel dağinda “Karmel Lövhünü” oxuyarkən Onun gur səsi, həqiqətən də, ətrafa yayılıbmış. Karmel – İvrit dilində Allahın Dağı deməkdir.

Hz. İsanın adı, “Vəhy 1:11”-də, həmin dövrdə işlədilən yunan əlifbasına uyğun olaraq, **alfa və omeqa** – başlanğıc (birinci) və son (axırıncı) kimi adı çəkilir. Buradan maraqlı suallar doğur: Bəs Ondan əvvəl göndərilən peyğəmbərlər necə olsun? Və ya əgər Hz.İsa sonuncu idisə, onda nə üçün Hz.Məhəmməd göndərilib? Bunun mənasını dərk edə bilmədiklərinin səbəbindən xristianlar indiyə kimi bu möhtəşəm Elçini, Allahın Rəsulunu qəbul edə bilməmişlər. Bunun səbəbindən də son illər Avropa və Amerikada məlum karikaturalar (ayıb bilmədən) meydana çıxıb... Əlbəttə ki, bütün bunlar savadsızlıqdan və dar dünya görünüşündən əmələ gələn səbəblərdir. Odur ki, illər boyu isə bir çox ölkələrdə, ən çoxu da bizim şimal qonşularımız, kilsələrin başında qoyulan xaçların aşağısında, İslamdan üstünlük simvolu kimi, aypara yerləşdirirlər. Hələ 40 il bundan əvvəl, məktəb şagirdi olan vaxtlarımda ailəvi, Rusiyada Volqaboyu səyahətimizdə, müxtəlif şəhərlərdə tikilmiş kilsələrdəki bu durum, məni ən çox düşündürən ilk dini məsələlərdən biri idi. Başqa bir sual isə -əgər İsa peyğəmbərin Sözləri dəyişilməməlidirsə, yəni onların düşündüyü kimi, daimidirsə, onda nə üçün Quran`i-Kərim nazil olub? Bütün bu mürəkkəb sualların cavabını, asanca səhvən, “İncilin dəyişiklərə uğradığı” səbəbi göstərilir. Yəni milyonlarla insanlar belə bir “səhvi” görmürlər ki? Bütün bu sualların cavabını Quran`i-Kərimdə tapmaq olar:

*Bəqərə surəsi* (2:136) “Biz Onun Elçiləri arasında heç bir fərq qoymuruq”. Odur ki, “birinci” sözü düşünmək üçün

kifayət qədər maraqlıdır və bu, “axırıncı” sözünə də aydınlıq gətirməyə kömək edir.

Quran`i-Kərimin ayələrinin mənasının hələ də açılmadığını çox adam təsdiq edir. Bunun açılma şərtləri elə Quran`i-Kərimdə də verilib. Daha dərinlərə getməmək, konteksdən çıxmamaq naminə, bu kitabın araşdırma mövzusu olmadığından, bu şərtlər göstərilmir. Bu şərtlərdən biri 1844-cü ildə həyata keçmişdir. Odur ki, 1400 il mənası qapalı olan məqamlar indi daha aydındır. Bəzən insan, təəssüf ki, yalnız görmək və eşitmək istədiyini görür və eşidir. Yəni dərindən və heç bir təəssübkeşlik olmadan maraqlanan hər bir insan burada heç bir müəmmanın olmadığının şahidi ola bilər. Bu ona bənzəyir ki, Quran`i-Kərimdə göstərilən, lakin mənası başa düşülməyən məqamlar, elmi təsdiqini tapdıqdan sonra çox asanlıqla mənası başa düşülür və qəbul edilir.

Biz isə, ilk addım kimi, sadəcə olaraq bir qədər düşünçə tərzimızə kənardan baxmağı öyrənməliyik. Həmçinin Quran`i-Kərimin və başqa səmavi Kitabların dilinin də səmavi, məcazi mənalarla dolu, fiziki deyil, mənəvi olduğunu yaddan çıxarmamalıyıq. Bəzi məqamları adi gözlə deyil, daxili gözlə görməyi bacarmalıyıq. O zaman Allah tərəfindən “Onun Elçiləri arasında heç bir fərq”in olmadığı təqdirdə, Onlara olan münasibətlərimizi, biz də, dəyişdirməli,“heç bir fərq” qoymamalıyıq. Bütün müsəlmanların yeganə sübut kimi Quran`i-Kərimdən gətirdikləri “Əl-Əhzab surəsi (33:40) “...xatəmül-Ənbiya” kəlməsini də məhz həmin bu cəhətdən nəzərdən keçirmək lazımdır. Burada hələ bu yeganə “sübutun” kontekstinin, – nazil olma şəraitinin, - nədən ibarət olduğunu qeyd etmirik, (həm də onlarla surədə isə gələcəkdə dini yeniliklərin olacağı haqda məlumatlara da hələ toxunulmur), və belə bir mühüm ruhani, tale yüklü məsələ həmin kontekstin müzakirə obyekti ola bilərmi?

*Əl-Əhzab surəsi* (33:40, Quran`i-Kərim) "...xatəmül-ənbiya"nin bir mühüm aydınlaşdırılası məqamı da vardır. Din tarixinə nəzər salsaq görərik ki, həmişə Nəbilər (kitab nazil olunmayan peyğəmbərlər) olmuşlar ki, Onlar kitabı olan peyğəmbərlərin İşini davam etdirib, yayıb və mühafizə ediblər. Nəbi sərbəst deyil, O, dini təbliğ edən və mühafizidir.

*Əl-Həcc surəsində* (22:52) Rəsul və Nəbi (peyğəmbər) arasında olan fərq verilir; Rəsul – şəriət sahibi olan və Nəbi - şəriət sahibi olmayan, lakin Rəsulun ardınca gedən peyğəmbərdir. Məsələn Hz.Musa Allahın Yeni Qanununu və Yeni kitab gətirib və Dini təbliğ edib. Harun Nəbi isə Hz.Musanın İşinin davamçısı olmaqla həm də Dini həm mühafizə edib, həm də yaymışdır. Peyğəmbərlər: Harun, İyeremiya, Danyel, Yeşaya və b. Hz.Musanın xələfləridirlər, davamçılarıdırlar.

Qurani Kərimdən başqa surələrə də nəzər salmağın məqamıdır:

*"İbrahim" surəsi* (14:4) – Hər peyğəmbər yalnız öz millətinin dilində danışır ki, Allah Əmrlərini izah edə bilsin.

Allahın Rəsulları Hz.İbrahim, Hz.Musa, Hz.İsa, Hz.Məhəmməd, Hz.Bab və Hz.Bəhaullahdır. Allahın zuhuru sonsuzdur. Allahın Sözü (bütün dənizlər mürəkkəb və bütün ağaclar qələm olsa belə) qurtaran deyil. Quran`i-Kərimdə bir neçə dəfə bu məsələlərə toxunulur:

- "Əl-Kəhf" (18:109),
- "Loğman surələri" (31:27)

Yəni Həqiqəti bahar yağışı kimi insanlara yağdırmır, sirləri, qanunları tədricən açır.

Xatəmül-ənbiya xatəmül-rəsul deyildir. Çox dərinə getmədən, Quran`i-Kərimə əsasən, peyğəmbər (İsa) gəlməlidir. Qoy adlar bizi çaşdırmasın. İncilə əsasən O, başqa adla özü də qərbdən (!) gəlməlidir.

Bizim məqsədimiz yalnız Mövlamızin Yazılarına uyğun olaraq,

“...*ancaq bu aydın müraciəti sizə çatdırmaqdır. Kim istəyir, qoy bu nəsihətdən üz çevirsin, kim istəyirsə, qoy Öz Rəbbinə gedən yolu seçsin*”.Qoy onlar bu görünməz səmavi məqama çan atsınlar - *“O məqam ki, orada Rəbb öz Camalının Alovu ilə ölümsüzlük ağacında işıq saçmışdır; Alqışlar olsun mənim Əbha Rəbbimə!”*

*“Budur, Cənnət Bülbülü Əbədiyyət Ağacının budaqları üzərində müqəddəs və şirin avazla oxuyur. Təmiz qəlblilərə Allahın yaxınlığından müjdə verir, Allahın Birliyinə inananları Səxavətli Allahın Hüzuruna çağırır, inqita edənlərə Sultan, Cəlallı, Bənzərsiz Allahın nazil etdiyi bu müraciətdən xəbər verir və aşiqləri Müqəddəslik Məqamına və bu nurlu Cəmala doğru yönəldir..”.*

“Peyğəmbərlərin məqsədi bəşəriyyəti cəhalət qaranlığından azad etmək, onu irfan işığına yönəltmək və bəşəriyyətin sülh və əminamanlığını təmin etmək üçün lazimi vasitələri təklif etməkdir.”

**Qurani-Kərim**:

- Ər-Rəd surəsi (13:38) “Hər dövrün bir kitabı (Lövhi-məhfuzda yazılmış hökmü) var. Zamanın, dövrün tələbinə və ehtiyacına görədir”.
- Yunis surəsi (1:50(49) “...Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəlib çatdıqda bircə saat belə nə geri qalar, nə də irəli keçərlər”.
- Əs-Səcdə surəsi (32:5) “O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra (həmin işlər) sizin saydığınız (dünya ilinin) min ilinə bərabər olan bir gündə (qiyamət günündə) Ona doğru (Allahın dərgahına) yüksələr”.
- Əl-Ğafir surəsi (40:34) “ And olsun ki, daha öncə Yusif sizə açıq-aşkar dəlillər gətirmişdi. Siz onun gətirdiklərinə şəkk

edib dururdunuz. Nəhayət, (Yusif) vəfat etdikdə: "Allah ondan sonra əsla peyğəmbər göndərməyəcəkdir!" – dediniz. Allah (küfr etməkdə) həddi aşan, şəkk içində olan kimsəni belə yoldan azdırar!"

Məşhur "Kitab`i-İqan"-da ("Yəqinlik Kitabı", "Göy Türk", Bakı, 1998, səh.119) Həzrət Bəhaullah İslamda əsrlər boyu dərk edilməsi müşkül olan bir çox məsələlərə aydınlıq gətirmişdir. İslam və Bəhai dinlərini bir-biri ilə əlaqələndirən, əvvəlki dinlərin müqəddəs kitablarındakı kəlmə və işarələrin, əsrin din rəhbərlərinin və alimlərinin mübahisəsinə səbəb olan məsələlərin, izahını, açarını tapmağa imkan verən, bu fundamental əsər Hz.Babın dayısı Hacı Seyid Məhəmmədin böyüdüb ərşə gətirdiyi bir Gəncin məqamını qəbul etməməsi ilə əlaqədar Hz.Bəhaullaha verdiyi suallara cavab olaraq yazılmışdır; Hacı Seyid bu sözlərlə Həzrət Babın zühuruna münasibət bildirir: "Biz Mehdi Sahib-əz-Zaman haqqında çox vəsflər, tariflər eşitmişik, məsələn, zahiri səltənət, məmləkətləri fəth etmək və s. Onun mübarək adını eşitdikdə daim təzim etmişik. Lakin indi deyirlər ki, O mövcud olan Qaim bizim baçımız oğludur...". Dayısı Kitab`ı-İqanı oxuduqdan sonra bu Əmrə iman gətirir. Maraqlısı odur ki, eyniilə, Hz.Məhəmmədin əmisi Həmzə əvvəldə Onu Peyğəmbər kimi qəbul etməmişdi, sonralar Onun yolunda ilk şəhidlərdən olmuşdu və bu hadisə –"Həmzə ölü idi, sonra dirildi"- bu dəfə Hacı Seyid Məhəmmədin simasında təkrarlanmışdı. Bu fikrin əsas qayəsi belədir:

Hər bir əsrdə Allah Öz iradəsini və insan həyatının mənasını seçilmiş adamlar vasitəsilə aşkarlayır. Beləliklə də, dinlərin ardıcıl surətdə inkişafı baş verir. Vaxt keçdikcə mənəvi nöqteyi-nəzərdən insanın Allaha olan münasibəti dəyişilmir, əksinə, saflaşır və təmizlənir. Hər bir əsrdə cəmiyyət həyatının qanunları müəyyən dəyişikliklərə uğrayır, həyat tərzinin özünün

şərtləri dəyişir. Həzrət Bəhaullahın insanların ümumi ruhani irsinə gətirdiyi ilk heyrətamiz töhfə dinin təkamülü barədə anlayışdır. Allahın Elçisi, yəni əsl İlahi Vəhyin daşıyıcısı olan Həzrət Bəhaullah "Kitabi-Əqdəs”də yeni qanunların göstərişlərini və tövsiyələrini ifadə etmişdir. Peyğəmbərin məqamı Elçinin məqamından, yəni əsl İlahi Vəhyin daşıyıcısından sonsuz dərəcədə fərqlidir. Vəhy - yaradıcı Allah Kəlamının səhvsiz və bilavasitə qəbul edilməsidir.

“Ruhani tərbiyə Allahın Səltənətindən qaynaqlanır: bu ilahi məziyyətlərin əldə edilməsindən ibarətdir və bu həqiqi tərbiyədir....İndi bizə belə bir mürəbbi lazımdır ki, o eyni zamanda həm maddi, həm humanitar və həm də ruhani tərbiyəçi olsun və onun nüfuzu bütün hallarda təsirli olsun...”

“Beləliklə, aydın və aşkardır ki, insana mürəbbi lazımdır və bu mürəbbi sözsüz və şübhəsiz, hər cəhətdən kamil olmalıdır və bütün insanlardan ucada dayanmalıdır. Əks halda, əgər o da qalan bütün insanlar kimi olsaydı, onda o, onların mürəbbisi ola bilməzdi, xüsusən də ona görə ki, o, eyni zamanda həm onların maddi və humanitar, həm də ruhani mürəbbisi olmalıdır, bu o deməkdir ki, o, insanlara maddi məsələləri təşkil etməyi və yerinə yetirməyi öyrətməli, əməkdaşlıq və qarşılıqlı yardım qurmaq üçün sosial qaydalar müəyyən etməlidir ki, maddi işlər istənilən şəraitdə təşkil oluna və nizamlana bilsin. Eynilə də, o insanın humanitar tərbiyələnməsini həyata keçirməlidir - bu o deməkdir ki, o, əql və zəkanı elə tərbiyələndirməlidir ki, o, tam inkişafa çatsın. Belə ki, biliklər və elm artsın, şeylərin həqiqi gerçəkliyi, varlıqların sirləri və aləmlərin xüsusiyyətləri aşkar edilsin ki, idarəetmə üsulları, ixtiralar və ictimai təsisatlar gündəgün mükəmməlləşə bilsin; görünən və duyğularla qavranılan şeylərdən hissiyyat vasitəsi ilə əldə edilmiş məlumat ilə rasional nəticələr çıxarılsın.

O, habelə, elə bir ruhani təlim vermәlidir ki, əql və idrak metafiziki aləmə nüfuz edə bilsin, Müqəddəs Ruhun paklandırıcı nəsimindən bəhrələnə bilsin və Ali Mələkutun Əhli ilə əlaqəyə girə bilsin. O, insanın mahiyyətinə elə təsir etməlidir ki, o, ilahi təzahürlərin mərkəzi olsun, elə bir dərəcədə ki, Allahın keyfiyyətləri və adları insanın mahiyyətinin güzgüsündə parlasın və "Biz insanı Öz surətimizdə və oxşarımızda yaradarıq"[1] müqəddəs ayəsi gerçəkləşsin". (*Əbdül-Bəha, "Bəzi suallara cavablar", "Nurlan" nəşriyyatı, Bakı, 2005, səh.17)*

"Vay! Vay! Ey nəfsi-həva aşiqləri! Ruhani Sevgilinin yanından şimşək kimi keçmisiniz və şeytani xəyallara könül vermisiniz. Xəyala səcdə edərək adını haqq qoymusunuz. Tikana baxırsınız, amma adını gül qoymusunuz. Sizdən nə bir azad nəfəs gəldi, nə də könüllərinizin bağında inqita nəsimi əsdi. Sevgilinin şəfqətli nəsihətlərini yelə verərək könlünüzün səhifəsindən silmisiniz və heyvanlar kimi şəhvət və arzu çəmənliyində eyş-işrətlə məşğulsunuz". (Həzrət Bəhaullah, Gizli Kəlamlar, 45, fars dilində)

Hz. Bəhauəllahın məhz üç böyük din üçün müqəddəs olan yerə sürgün olunması da maraqlı faktdır. Ona görə ki, bu barədə əvvəlcədən İncildə (Yeşaya və Hezekiel) xəbər verilib və indi həmin torpaq artıq dörd din üçün müqəddəs olan yerdir:

- Yeşaya (62/2) – "Millətlər Sənin salahını ve bütün krallar Sənin İzzətini görəcəklər və Rəbbin təyin edəcəyi yeni bir adla çağrılacaqsan."
- Hezekielin Kitabında, - Hezekiel (43/2),- Hz. Bəhaullahın isminə işarə edən və hətta Müqəddəs Topraqlara hansı yoldan gələcəyini belə bildirən ifadələr mövcuddur: "…Allahın İzzəti şərq yolundan gəldi." Yeşaya (35/2) - "Kərmilin ve

1 Yaradılış 1:26

Şaronun əzəmətli təntənəsi Ona verilecek, Rəbbin İzzətini, Allahımızın Əzəmətini görəcəklər.”

1908 ci ildə Kiçik Türk İnqilabi Osman imperiyasının məhbuslarının çoxunu azad etdi, həmçinin Həzrət Əbdül-Bəhaya (O, 40 il atası ilə birlikdə sürgünlük və məhbusluq həyatını yaşamışdır), bununla da Qərbin böyük şəhərlərində Allahın Əmrini açıq elan etməyə imkan yaratdı. Əbdül-Bəhanın Amerika və Avropaya tarixi səyahətləri Bəhai Dininin yayılmasında böyük rol oynadı. Əsasən, Yaxın Şərq ölkələrində məlum olan yeni təlim geniş yayılmağa başlayır və qərbdə ilk bəhai icmaları təşkil olunur. Onun şəxsi xüsusiyyətləri və apardığı rəsmi görüşləri insanları Özünə cəlb edərək valeh edirdi. Əbdül-Bəha Abbas ömrü boyu təqib edilib. 40 illik sürgün və dustaqliqdan sonra Abdül-Bəha Abbas (100 il əvvəl !) Paris, London, Edinburq, Çikaqo, Qahirə və s. şəhərlərdə böyük auditoriya və mütəxəssislər garşısında və həmin şəhərlərin mərkəzi qəzetlərinə müsahibə verərək bugünki dövr haqda danışır, fikirlərinin genişliyi ilə insanları heyrətə salır və gələçək sivilizasiyanın modelini verirdi. Çoxları Onun dediklərini başa düşmur və bəzən lazimi əhəmiyyət vermirdilər.

**Birlik modeli.** Dünyanýn 200-dən çox müxtəlif ölkələrinin Bəhai icmasını 2100-dən artıq millətin və xalqın nümayəndələrini birləşdirir. Bu ən böyük möcüzədir. Heç bir insan birliyi (iqtisadi- sosial) belə yaşaya bilmir, baxmayaraq ki, daima müxtəlif hökumət və din qüvvələri onu parçalamaq istəyiblər. Yeni dinə qarşı belə cəhdlər 6000 illik din tarixində çox olub. Müəyyən dövrdə qısa müvəffəqiyyətlər olsa da, Allah İşinin qarşısını nəhayətdə almaq heç kimə nəsib olmayıb. Bu, bilavasitə Əhdin gücüdür.

**Bu model universaldır.** Bu sadəcə toplum deyil, çünki Bəhai icmasının məşvərət kimi bir vasitəsi var. Tarix boyu

həmişə insanlar belə bir birliyə can atıblar. Belə birlik başqa bir yerdə, ümumiyyətlə planetimizdə, yoxdur. Hz.Bəhaullahın yaratdığı sistem bütün dünyada hamı ücün eynidir. Və yaxud Bəhai seçki sistemi öz növbəsində heç bir demokratik sistemdə olmayan xüsusiyyətə malikdir. Bu iki məqam bütün bəşəriyyətin vahid bir ruh kimi yaşaması üçün ən böyük vasitədir.

Həzrət Əbdül-Bəha gələcək sivilizasiyanın modelini verdi və bu sadəcə plan deyildi. Birinci dəfə insan irqinin vahidliyindən danışıldı. Ailə, tayfa, millətlər var idi, amma bütövlükdə bəşərin bütövlüyü ilə xarakterizə olunan bir ictimai varlıq forması yox idi. İndi biz bəşəriyyətin yetkinlik vaxtında yaşayırıq.

Onun (Bəhai Əhdinin Mərkəzi Əbdül-Bəhanın) Azərbaycan bəhailəri ilə müəyyən əlaqələri, - zəvvarlar və məktublar vasitəsilə, - olmuş və Onun əl yazısı olan sənədlər uzun müddət, təhlükəli və qorxulu olsa da, bəhai evlərində qorunub saxlanılmışdır. Belə hadisələr hal–hazırda bu ailələrin şərəf və iftixarıdır. Məsələn, Gəncə bəhailərindən tacir Qasımov Məsum Xəlil oğlu bir il Haifada, 1916-1917-ci illərdə, Əbdül-Bəhanın hüzurunda olub və maraqlısı odur ki, O onun üç dəfə tutulacağı və qayıdıb gələcəyi barədə əvvəlcədən xəbərdarlıq edib.

"Din bizə ruhani cəhətdən böyüməkdə kömək etməkdən daha çox iş görür. O həm də bizim kollektiv həyatımızla da bağlıdır. O, sosial nəzmin təbiətinə də təsir edir: strukturlar və təsisatlar, münasibətlər, icmanın mənəvi strukturu və bunların hamısının transformasiyası. Hər şeydən daha əvvəl, din cəmiyyəti, onun bütün üzvləri və qrupları arasında birlik yaratmaqla transformasiya etdirir. Məhz din bizim qəlbimizin dərinliyinə nüfuz edir, fədakarlığa və ümumun xeyrinə

***Həzrət Əbdül-Bəhaya Per rütbəsi verilməsi mərasimi***

çalışmağa və cəmiyyətlərimizin yaxşılaşmasına, doğrudan da, sivilizasiyanın irəlilədilməsinə töhfə verməyə sövq edir. Məhz din cəmiyyətin öyrənməsini və güclənməsini stimullaşdırır."

Dünya mənəviyyat və əxlaq düşkünlüyünə, iqtisadi böhrana, sosial çətinliklərə, terrorizmə və s. yuvarlanır. Köhnə nizamın qüsurlu olması getdikcə daha aydınlığı ilə üzə çıxır. Bütün bəhailər ədalətli bir dünya, yeni dünya nizamı qurmaq uğrunda çalışırlar. Bu məqsəd üçün isə Dünya Bəhai həmrəyliyi olduqca böyük bir vasitədir.

Böyük Britaniyada XIV əsrdən Lord rütbəsi lordlar palatasını təşkil edən dünyəvi və dini lordlara (perlərə) verilir. XIX əsrdən iri kapital nümayəndələrinə, siyasi, elm, mədəniyyət xadimlərinə və s. verilir və bu titulu kral da bəxş edə bilir. Bildiyimiz kimi, Birinci Dünya Müharibəsi zamanı Fələstində də aclıq olmuş və bu zaman Əbdül- Bəha yüzlərlə insanı səxavətliliyi hesabına aclıqdan xilas etmişdir. Bu səbəbdən də Ona Lord rütbəsi verilmişdir. Maraqlısı isə odur ki, fotoşəkildən göründüyü kimi, mizin üzərində olan Böyük Britaniya dövlət bayrağının arxasında əyləşməkdən imtina etmiş və Öz statusuna uyğun olaraq qabağa çəkilmiş bir məqamda qürurunu saxlayaraq əyləşmişdir.

Ümumiyyətlə, bütün dinlərdə ən mükəmməl nümunə məhz həmin dinin təməlini qoyan peyğəmbərlər sayılır. Peyğəmbərlərin hərəkətləri və Şəxsiyyətləri bu və ya digər hadisələr və misallarda kamil Nümunə kimi böyük sevgi ilə yada salınır. Əbdül-Bəha, ümumiyyətlə, yazılı və təsdiq olunmuş vəsiyyətlə, Əhdin Mərkəzi, Məzhərin Xələfi, Müqədəs Yazıların Şərhçisi təyin olmaqla və Təlimin Nümunəsi olmaqla din tarixində unikal bir Şəxsiyyətdir.

# **Şovqi Rəbbani** (1897-1957**)**

həzrət Əbdül-Bəha dünyasını dəyişdikdən sonra Onun vəsiyyətnaməsinə uyğun olaraq, Dinin Mühafizi (Vəlisi) və eyni zamanda Müqəddəs Yazıların Şərhçisi təyin edilir. **Şovqi Əfəndi**, Bəhai inzibati quruluşunun incəliklərinə qədər işlənməsində və Əmrin müxtəlif ölkələrə planlı yayılmasında, indiki Əkka və Haifa şəhərlərində bəhai məbəd və inzibati binaların tikilişınə bilavasitə rəhbərlik etmişdir. Üç dili (fars, ərəb və ingilis) mükəmməl bildiyi üçün nəinki ana kitab olan Kitabi-Əqdəsi, həm də fars və ərəb dilində olan digər bəhai Müqəddəs Yazılarını ingilis dilinə tərcümə etmişdir. Öz öhdəsinə düşən əsas vəzifəni – Dinin qorunması, birliyinin saxlanması və yayılması işini – şərəflə yerinə yetirmiş, həmçinin, Müqəddəs Yazılara istinadən, din tarixində ilk dəfə olaraq Əmrin mərkəzinin Ümumdünya Ədalət Evinə verilməsinə şərait yaratmışdır.

NKVD-in indi arxiv materiallarından məlum olub ki, Azərbaycan bəhailərinin də əlaqələri, Dinin mərkəzi ilə təmamilə kəsilməmişdir, məsələn, 1923-cü ildə Şovqi Əfəndidən alınmış məktuba  Bakı Məhfili Qafqaz bəhailərinin Ruhani Şurası kimi adlandırılmağa başlanıb və buna uyğun da fəaliyyət göstərib. Müəyyən məlumatlara görə, Tiflis bəhailəri ilə olduqca sıx əlaqələri olub.

"Müstəqil Peyğəmbərlər qanunvericilər və yeni silsilənin baniləridirlər... Digər Peyğəmbərlər isə ardıcıllar və davamçılardırlar, onlar budaqlara bənzəyirlər və müstəqil Peyğəmbərlər məqamına malik deyillər. Onların nuru ümumdünya Peyğəmbərlərinin Rəhbərliyinin nurudur. Onları öz-özündən işıq verməyən və şəfəq saçmayan, lakin günəşin işığını əks etdirən ay ilə müqayisə etmək olar."

Bəhai dinində Müqəddəs Yazılar da bir neşə qrupa bölünə bilər:

**1. Allah Kəlamları** – Allahın zühurunun mahiyyəti olan, bilavasitə Həzrət Bab və ya Həzrət Bəhaullaha vəhy olunan yazılardır. Bu yazılar öz-özlüyündə qüsürsuzdur və dərin tükənməz mənaya malikdir. Yazıları oxuyan hər bir insan özünün dərrakəsinə uyğun olaraq, onların dərin mənalarına çata bılər.

**2. Bəhai Dininin Müqəddəs Yazıları** – buraya Allah Kəlamları, həmçinin, "İlahidən verilən qüsursuzluq" bağışlanmış, bilavasitə Həzrət Əbdül-Bəhanın əli ilə yazılmış yazılar daxildir. Həzrət Bəhaullahın iradəsinə - Vəsiyyətnaməsinə əsasən, həzrət Əbdül-Bəha bütün bəhailər üçün vacib olan bəhai yazılarının yeganə şərhçisi səlahiyyətinə malikdir.

**3. Mötəbər Yazılar** – Şövgi Əfəndinin şərh etdiyi Yazılara və Ümumdünya Ədalət Evinin sənədlərinə aiddir. Bu yazıların Müqəddəs yazılar deyil, lakin Həzrət Əbdül-Bəhanın iradəsinə - Vəsiyyətnaməsinə əsasən,  Şövqi Əfəndi bəhai yazılarının yeganə şərhçisi səlahiyyətinə malik idi, qüsursuzdur və buna görə bu yazılar da bütün bəhailər üçün səhfsiz rəhbərlik mənbəyi hesab olunur.

Hələ Həzrət Bəhaullahın sağlığında Bəhai dini Şimali Azərbaycanda, xüsusi ilə, Bakıda, Naxçıvanda, Balaxanıda, Gəncədə, Bərdədə, Göyçayda, Salyanda, Xıllıda (indiki Neftçala), Şəkidə, Şamaxıda, Port İliçdə və s. yerlərdə öz ardıcılarını tapmışdı. Hamısından çoxsaylı Balaxanı Bəhai İcmasında (yüzlərlə), sonra Bakı Bəhai İcmasında (yüzlərlə), Gəncə Bəhai İcmasında (onlarla), Bərdə Bəhai İcmasında (onlarla), Salyan  Bəhai İcmasında (onlarla), seçilmiş şuralar -- Yerli Bəhai Ruhani Məhfilləri fəaliyyət göstərirdi.

***Bakı bəhailəri. Uşaq əxlaq dərsinin iştirakçıları***

***Bakı bəhailəri. Bu şəkil Müqəddəs Torpaqda sərgilənir. Əyləşənlərdən (soldan 2-ci) Qafar əmi, tez-tez bizə gəldiyindən yaxşı xatirimdədir. Onun oğlu Azərbaycan Neft və Kimya İnstitutunun dosenti idi.***

Bakıda təzə iman gətirənlərdən biri Molla Əbu Talıb və onun iki oğlu Əli Əşrəf və Ağabala idilər. Hər iki qardaş daş üzrə təcrübəli usta olublar. Bakıya həzrət Əbdül-Bəhanın Karmel dağında Həzrət Babın Məqamının tikintisinə başlaması haqqında xəbər çatanda, Əbu Talıbın oğulları öz xidmətlərini həzrət Əbdül-Bəhaya təklif etmişlər. Təklif qəbul olunmuşdu və Əbu Talıb oğulları ilə Müqəddəs Torpağa getmiş və orada Həzrət Babın məqamının tikintisində iştirak etmişdilər. Usanmaz zəhmətlərin şərəfinə həzrət Əbdül-Bəha Həzrət Babın məqbərəsinin iki qapısına onların adlarını vermişdir.*

Əli Əşrəf və Ağabala Bakıya qayıdırlar, onların atası isə ömrünün axrına gədər müqəddəs torpaqda xidmət üçün qalır. Müqəddəs torpağda olan zaman Abu Talıb həzrəti Əbdül-Bəhanın adı ilə bağlı olan iki müqəddəs Rizvan və Firdovsi bağlarını birləşdirən torpaq sahəsi alır. Daha sonra bu torpaq sahəsi dinə hədiyyə verilmişdir. Hal-hazırda bu torpağ sahəsi Əli Əşrəf bağı kimi tanınır.

Baxmayaraq ki, 1896-cı ildə Bakıda artıq bəhai ziyarətçilər üçün ev tikilmişdi, onun genişləndirilməsinə ehtiyac var idi. 1905-ci ildə bu məqsədlə Abu Talıbın iki oğlu bu evin dizaynı və tikintisini öz öhdəliklərinə götürmüşdülər ki, bu ev

* (Əlavəyə bax - Epiloq əvəzi– UNESCO-un qərarı. Ümumiyyətlə, azərbaycanlıların şərəfinə, Kərim də daxil olmaqla, cəmi üç qapı adlandırılmışdır).

müsafirxana (ziyarətçilər evi) və böyük yığıncağlar üçün işlənsin. 1917-ci ildə burada bəhai uşaqları üçün əxlaq dərsləri, ibtidai məktəb yaranmış və bəhai ədəbiyyatı nəşrinə başlanmışdı. Eyni zamanda Azərbaycanın müxtəlif rayonlarında Dinin yayılması baş verirdi və 15 bəhai mərkəzi fəaliyyətə başlamışdı.

***Sabirabad bəhailərindən Çəlləkçi Ələkbər (orta sırada sağdan birinci) təqribən 45 il əvvəl (1965 –ci illərdə) onun 120-dən çox yaşı olarkən bizim evdə qonaq qalmağı yadımdadır. Ortada ağ paltarda Ağa Seyyid Əsədullah, - İzzəddin Əyyubov Məşədi Hüseyn oğlunun qeydləri, onun əlyazmasından olduğu kimi verilir, - "o, həzrət Əbdül-Bəha tərəfindən həm mübəlliğ, həm də Əmini-Sandıq, yəni yığılan ianələri və Hüququllahı (xums kimi-redaktor) Sərkər Ağanın hüzuruna aparmaq və və eyni zamanda təbliğ ilə məşğul olmaq üçün göndərilmişdi".***

## *Bakı bəhailəri*

## *Balaxanı bəhailəri*

**Mirzə Ələkbər Sabir** (1862-1911), Azərbaycanın görkəmli şairi, Balaxanı bəhailəri ilə sıx əlaqədə olmuş, məclislərdə iştirak etmiş, Kərbəlayi-İmran Cəfərovla Dinin prinsiplərini tez-tez müzakirə etmiş və Hədiqə Cəfərovanın söylədiyinə görə, bəhailiyi qəbul etmişdir. Kitabın sonunda bu məsələ daha geniş şəhr edilir.

Deyilənə görə Məşhur akademik Heydər Hüseynovun (Stalin mükafatı laureatı, Azərbaycan Marksizm-Leninizm İnstitutunun direktoru) "XIX əsr Azərbaycan fəlsəfi fikrinə dair" əsərində azərbaycan şairlərindən birinin Hz. Babı qəbul etdiyini göstərmişdir. Bu məsələnin əlavə araşdırılmaya ehtiyacı vardır.

Akademik Heydər Hüseynov atam (Əyyubov İzzəddin) Tibb universitetində oxuyarkən (1935 - 1939) ona fəlsəfə fənnindən dərs demiş və onun sayəsində vaxtıilə, Sovet dövrü üçün səciyyəvi olaraq, ateist kimi formalaşmışdır. Ikinci dünya müharibəsi zamanı cəbhədən qayıtdıqdan sonra atası Məşədi Hüseynin din dostu Bakıda, içəri şəhərdə yaşayan (dağlı) südçü Ağadadaş əmi (vaxtı ilə müəllim işləmiş, dərin dini və tarixi biliyi və bir çox dilləri bildiyindən, heç də dövrünün ziyalılarından geri qalmırdı və onun söhbətlərini dinləmək həmişə mənə də olduqca maraqlı idı) ilə rastlaşır və müharibənin gedişindən narahat olduğunu, alman əsgərlərinin hətta Qavqaza gəlib çıxdıqlarını müzakirə edirlər. İlk dəfə ondan Kitab`i-Əqdəsə əsasən bu müharibədə almanların məğlub olacaqlarını eşidir.

Kitab-i-Əqdəsədə (K90 və səh.121-də izahı) müharibələrin tarixindən 80 il əvvəl göstərildiyi kimi, (Ey Reyn çayının sahilləri! Biz sizi qan içində gördük və qisas qılıncları sizin üstünüzə çəkilmişdir; və bu bir dəfə də olacaq. Və Biz Berlinin

ah-naləsini eşidirik...) əvvəlcədən verilən xəbərin artıq bir hissəsi həyata keçmişdir. Bu məsələyə şübhə ilə yanaşsa da, Kitab-i-Əqdəsdəki bu Yazıların nə ilə nəticələnəcəyini gözləmək qərarına gəlir... Sonralar onun Bəhai Dinini qəbul etməsində bu uzaqgörənliyin də az əhəmiyyəti olmamışdı.

**Əbdülxaliq Yusif,** bəhai, xalq şairi Əliağa Vahidin müəllimi olmuşdur, “Vahid” ləqəbini ona Əbdülxaliq vermişdi. O zaman Qafqazın görkəmli şairlərindən biri, özünün həyat tərzi ilə nümünə idi.

**Hüseyn Cavid** (1884-1941), - ədəbiyyatımızın görkəmli nümayəndəsi, şair, dramaturq, tarixi və fəlsəfi dramların müəllifi, əsərləri bəhai prinsiplərilə dolu bir mütəfəkkir - bəzi məlumatlara görə Almaniyada olduğu zaman Bəhai dinini qəbul etmişdi. Əsərlərində Bəhai prinsiplərini tərənnüm etmişdir ("Şeyx Sənan": "Din bir olsaydı dünyada əgər, daha məsud yaşardi cinsi-bəşər", “Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü” söyləmiş və ya şerlərindən birini "...Nuri Bəha" ilə bitirmişdir.

Halbuki əsrimizin əvvəlində onun qızı ilə görüşdə Turan xanım mənə bu haqda heç bir məlumatı olmadığını dedi (digər tərəfdən axı atasi həbs olunanda o məktəb şagird idi...). Bu görüş rəsmi bir görüş deyildil, iki dost - Ərtoğrul və Ətaulla və onların ailə üzvləri haqqında oldu. Hüseyn Cavidin oğlu Ərtoğrul dayım Ətaulla Qasımovun ən yaxin dostu olub. Həmin o Ətaulla ki, atası Fərəc Qasimov, – məktəbdə müəllim işləyirdi, uğurlu işinə görə Stalin pul mükafatı ilə təltif olunub və onu uşaq evinə hədiyyə edib. Ərəb və fars dillərini mükəmməl bilirdi - sonralar şəhid olub (bir qədər sonra bu məsələyə toxunaçağıq). "Xalq düşmənlərinin" iki oğlu, iki dost! Ərtoğruldan danişarkən professor Ətaulla Qasımov həmişə onun çox zəkalı, bilikli olduğunu deyərdi, gözləri də həmişə yaşarardı. İndiki Nəriman Nərimanovun heykəlinin arxasındakı

Hüseyn Cavid ailəsinin yaşadığı yeni yaşayış yerini - komani mənə təsvir edərkən ürəyi sıxılardı.....

Professor Rafael Huseynovun "Vaxtdan uca" (Bakı, 1988) kitabında göstərildiyi kimi, dramaturqun həyat yoldaşı Müşkünaz xanıma bəhailərin bir-birini salamlayarkən "Allah-u-Əbha" (Allah Cəlallıların Cəlallısıdır) deməsi çox maraqlidir... 1989-cu ildə bizim evdə Aşqabaddan musafirimiz olan azərbaycanlı Mirzə Ələkpər Naci, bəhai olduğu ücun Leninqrad Universitetindən tələbə ikən Sibirə (evlərində onun getdiyi yolun marşrutu olan xəritə indi də xatirimdədir) sürgün olunmuşdur. Sürgündə o Hüseyn Cavidlə bir çarpayının alt və üst mərtəbələrində yatmışdılar. Nacinin gözəl xətti olduğu üçün onu dəftərxanada işlədirmişlər və faktiki olaraq bu da onu Sibir soyuğunda xilas etmişdi.

O, barak yoldaşı olan Hüseyn Cavid haqda öz xatirələrini ailəmizə və mənə söyləmiş və bu məlumatları xöşbəxtlikdən, gec də olsa, mən Turan xanıma catdirmişdim. Mətin xanım təəssuratı yaratmaqla o, məndə indi də onun dəyanətinə böyük qiptə etməklə bərabər, soyuqqanlığına heyran olmuşdum. Görünür həyat onu o qədər sıxmışdı ki, məndən fərqli olaraq, onun ücün bizim görüşümüz xırda bir iş idi. Hər halda məndə belə bir təəssurat yaranmışdı. Çox səmimi kecən bu ilk görüş köhnə gohumların görüşünü xatırladırdı...

***Aşqabad Bəhailəri: Sağdan 1-ci (ayaqüstə) Mirzə Ələkpər Naci, yanında isə onun xanımı. Oğlu (Naim) və qızı (Qürrətüleyn) isə onun yolunun davamçılarıdır.***

**Üzeyir Hacıbəyov** (1885-1948), Azərbaycanın professional musiqi incəsənətinin banisi, SSRİ Xalq Artisti, publisist,

dramaturq, pedaqoq və ictimai xadim, akademik özünün əsərlərinin birində ("Ordan burdan") dərin hörmətlə Bəhai Dininin tərəfdarlarının maarifçilik meylini qeyd etmiş və tərifləmişdir.

**Ağa Musa Nağıyev** (1849-1919), mesenat, XX əsrin əvvəllərində adı Azərbaycanın məşhur 11 milyonçular sırasına düşən və onların arasında vətəninə xidmətdə öncül yer tutan, Bakının bəzəyinə çevrilmiş 98 bina, o cümlədən məktəb və 4 xəstəxana tikdirmiş və Şollar suyunun Bakıya çəkilmə xərcinin böyük hissəsini ödəmiş, məşhur milyonçu, bu kimi əməlləri 1908-ci ildə Rus İmperatoru tərəfindən yüksək qiymətləndirilmiş - orden və medallar ilə təltif edilmişdir. Neftdən əldə etdiyi gəliri millətin tərəqqisinə sərf edib. Məhz bu səbəbdən də Bəhai Dininin Azərbaycanda vusət almasinda onun böyük əməyi olmuşdur. O, Bəhai olmuş, hətta sonralar Bakı Bəhailəri Ruhani Məhfilinin fəxri üzvü olmuşdur.

Ağa Musa Nağıyevin nəvəsi Dilarə Fərəc qızı Nağıyeva ilə maraqlı arxiv materillarını araşdırarkən 1919-cu ildə Ağa Musa Nağıyevin vəfatı ilə əlaqədar onun ikinci arvadı gürcü qızı bəhai Liza Qriqoryevna (Cankorova) Nağıyevanın vərəsəlik iddiası ilə Bakı dairə məhkəməsinə müraciəti diqqəti cəlb etdi. (1905-ci ildə pul müqabilində azad etmək məqsədi ilə oğurlandıqdan 2 il sonra, yəni 28 mart 1907-ci ildə bəhai qanunlarına uyğun olaraq, Bakıda rəsmi bəhai kəbini– Hacı Qulam Hüseyn Kələndar tərəfindən şahidlər Kərbəlayi Ağakişi Əliyev, Məşədi Baba Səmədov və Mirzə Əli Əkbər Məmmədxanovun iştirakı ilə - kəsilmiş və 95 misqal qızılı xanımına vermişdi. Bəhai kəbin duası oxunduqdan sonra izdivac rəsmi elan edilmiş və həmin gündən ölənə kimi onlar birlikdə yaşamış və ictimaiyyətə qanuni arvadı kimi təqdim etmişdir. Dövrünün demokratik prinsiplərinə istinad etməsi - hər bir insanın maraqlarının məhz üzv olduğu dini icmanın

qanunlarına uyğun olaraq araşdırılması və digər vərəsələri nəzərə alınmaqla var-dövlətin bəhai Müqəddəs Yazılarına uyğun olaraq təxminən 1/6 hissəsinin, notariusun və şahidlərin iştirakı ilə (Mirzə Abdulla Xaliq Yaqubzadə və s.) iddia tələbinin təmin edilməsi təəccüb doğurmaya bilmir.

Bakı Bəhai Ruhani Cəmiyyətinin (Çadrovaya 226 ünvanında – indiki Mirzağa Əliyev küçəsi) rəsmi blankında sədr M.Tahirov və katib Zərgərovun qolu çəkilmiş sənəd iddia tələbini təsdiqləyir. Bundan başqa həmin dövrdə Hayfada Dinin başçısı olan həzrət Əbdül-Bəha Abbasın da iddia tələbini təsdiqləyən qol və möhürü olan sənəd öz növbəsində "İran İmperatorluğunun Konsulluq Agentliyi" tərəfindən İran İmperiyasının Vitse-konsulu tərəfindən təsdiqlənmişdir. Yalnız bu sənədin olması 16 iyul 1913-cü il Qanununa əsasən bəhai izdivacı təsdiqlənmiş və vərəsəliyə iddia tələbi təmin edilmişdir.

Tiflis Məhkəmə 7-ci sahəsinin 25 iyun 1919-cu ildəki protokolundan bəhai Mirzə Əli Əkbər Məmmədxanovun bu məqsədlə Fələstinə səfəri və onun Ağa Musa Nağıyevlə 30 ilin tanışı olmaları, onun neft mədənlərinin müdiri və sonralar şəxsi katibi olması öz əksini tapmışdır. Yəni eyni məzmunlu izahatı olduqca maraqlıdır.Yeri gəlmişkən, 1914-cü il Tiflis polismeysterliyi reyestrindən çıxarılışa əsasən bəhailərə öz dini ayinlərinin sərbəst həyata keçirilməsinə icazə verilmişdir.

Azərbaycan Məşihət İdarəsindən şəriət qanunları əsasında təqdim edilmiş sənəddə Bəhai dininin İslamla münasibəti tədqiq edilmiş(yəni müstəqil bir din olması), Bakı Qazılığının 2 sənədi ilə hələ 1919-cu ildə təsdiq olunmuşdu.

Bakı Dairəvi Məhkəməsinin protokolunda qeyd edildiyi kimi, Rus hökumətinin icazəsi ilə Azərbaycanda bəhailər bütün vətəndaşlıq hüquqlarına malikdirlər, Bakıda öz ibadət evləri, Müqəddəs kitabları olan "Kitabi-Əqdəs" və öz qanunları olduqlarından bu din azaddır və dözümlülük statusuna malikdir. Bu isə

Azərbaycan Respublikasında Rusiya İmperiyasının Qanunlar Toplumunun qüvvədə olmasını təsdiqləməsi nəticəsində mümkün olmuşdur.

Birinci arvadı Ummu Salma xanım Kərbəlayi-Cəfər qızı Nağıyevadan fərqli vərəsəyə, şiyə qanunlarına uyğun olaraq, var-dövlətin 1/16 hissəsinə sahib olmuşdur. Daha bir maraqlı məqam isə 13 yanvar 1910-cu ildə Bakı Bəhailərinin "Ruhaniyye" Cəmiyyətinin təsdiq olunmuş Nizamnaməsində Musa Nağıyevin bu maarifçi cəmiyyətin təsisçisi kimi qolunun olması, Bütün bəhailərin siyahısının və bu adlar içərisində onun da adının göstərilməsi, 19 yanvar 1909-cu ildə Bakı Bəhai ibadət evinin təstiqlənmiş tikinti planının olması və s. Bakı Dairəvi Məhkəməsinin 17 fevral 1920-ci il qərarına əsasən Bəhai Dini müstəqil din kimi tanınmış və nəhayət iddia tələbi tam təmin edilmişdir. *

**Atatürk Qazı Mustafa Kamal Paşa** Həzrət Bəhaullahın oğlu Əbdü-Bəha Abbas ilə tanış idi. Onun mülahizələri Bəhai Dininin prinsipləri ilə dolu idi. O, sülhün yer üzərində bərqrar olması üçün "Vahid, dünyəvi, evrensel dinin" və hətta "Birləşmiş Dünya Dövlətinin" zəruriliyini qeyd etmişdir. (Bax: Boyuk Nütuk, Child 2, səh. 322-323 və 713).

**Şair Mirzə Əbdülqədir İsmayılzadə**, şair Mikayıl Müşfiqin atası, 1860-cı ildə yeni təlimin Azərbaycanın Xızı kəndində, həmçinin, Bakıda yayılması üçün fəaliyyət göstərirdi (O, Müslüm Maqomayevin məşhur "Şah İsmayıl" operasının librottosunu yazmışdır). İran və Rusiya imperiyaları arasında bölüşdürülmüş Azərbaycanın Şimali hissəsində yeni dini

---

* **Bunu yaxşı** bilən bəzi ruhani həmvətənlərimiz indiyə qədər (onun Bəhai olduğu üçün) nəslindən olanlardan belə bunun "qisasını" almaq istəyir – məsçiddə onlardan birindən nəzir belə qəbul etməmiş və bəhai nəvələrindən birini babi adlandırmışlar. O, kommunistlər vaxtı az incidilməmiş, indi də mollalar ondan əl çəkmirlər...

rəğbətlə qarşılayırlar. Dinin görkəmli ardıcıllarının adları Şimali Azərbaycanla da bağlıdır. Məhz buna görədir ki, indi də dağlıların bir çoxu bu din haqda yaxşı məlumatlıdırlar. Maraqlıdır ki, cəmiyyətdə babilər haqqında yanlış fikirlər olmasına, böyük əksəriyyətin isə yeni dinin mahiyyətindən xəbərilərinin olmamasına,  müxtəlif əsassız şayiələrə baxmayaraq, babilərin (bəhailərin) maarifpərvər, mədəni, elmə və təhsilə qiymət verən olmaları, qadın azadlığını dəstəkləmələri onlara münasibətdə bir etibar yaratmışdı və hətta təəssübkeş insanlar belə onların tərəqqipərvər və maarifçi olduqlarını dana bilmirdilər. Bəlkə də buna görə idi ki, maarifçilik, təhsil və tərbiyə işində bəhailərin köməyindən imtina etmirdilər. Bunu yuxarıda qeyd edildiyi kimi, mütəfəkkir insanların yazıları və münasibətləri, həmçinin, Hacı Z. Tağıyev kimi bir mesenatın öz uşaqlarının tərbiyəsini bir bəhaiyə (şair Mirzə Əbdülqədir İsmayılzadə ) etibar etməsi və ya bisavad olduğu üçün, yalnız Z və T hərflərini tanıdığından, qol çəkərkən ZT və 9 ədəd maili xətt (!) çəkməsi (Nəriman Nərimanovun sözü ilə desək “millətin atası”) sübut edir.

Mənəvi sərvətlərimiz və örnək mənbəyimiz olan, keçən əsrin iki ən məşhur mesenat millionerlərimizdən birinin bəhai olması və digərinin isə (Zeynalabdin Tağıyev) övladlarının müəllimlərindən birinin (şair Mirzə Əbdülqədir İsmayılzadə ) bəhai olmasi və yaxud Azərbaycanın və Türk aləminin ən qabaqcıl zəka sahiblərinin - fəxrimiz olanların bu Əmrə meylli olmaları və açıq və ya ürəklərində rəğbət bəsləmələri ən azı bizləri bir an da olsa şübhələri kənara qoyub (həmin şəxslərin əsərlərini və ya əməllərini tədqiq etmək kifayətdir, bu isə müəyyən qabiliyyət və bacarıq, ən azı isə insaf tələb edir), bu məsələyə layiqincə qiymət vermək üçün məgər düşünməyə vadar etməməlidirmi !?

Lakin müasir mənəvi sərvətlərimiz sayılan, azı on akedemik və professorlarımızın bu Əmrdən məlumatının olması, bəzilərinin hətta bəhai ailələrindən olmasına baxmayaraq (bir neçəsi istisna olmaqla) bu məsələyə biganəliyi və ya bunu etiraf etməmələri, dünyanın və bizim öz cəmiyyətimizin yeni sivilizasiyaya doğru getməsi ümidlərinin nikbinlik dərəcəsini, təəssüf ki, azaldır.

100 il əvvəl düşünən beyinləri cəlb edən Bəhai dini indi, yüksək texnologiya əsrində, heç bir informasiya qıtlığı olmayan bir şəraitdə, təbliğ işində, bəs nə üçün o vaxtkı səviyyəyə yuksələ bilmir!? Bəlkə insanlarda mənəvi öhdəlik, ədalət hissi ölməkdədir?

Azərbaycandan bir çox zəvvarlar müqəddəs Bəhai yerlərini - sürgün yerlərini, sonralar Fələstində (o vaxtlar indiki İsrail dövləti hələ yaradılmamışdı) Dinin mərkəzinə çevrilmiş Əkka və Hayfa şəhərlərini ziyarət etmişdilər. Onların arasında müəllifin babası Məşədi Hüseyn Əyyubov da olmuşdu. (Onu əslən Şamaxıdan olan, tacir Səmədov Hacı Baba, atam ömrü boyu ona bu savab işinə görə rəhmət oxuyardı, – sonradan milyoner Ağa Musa Nağıyevin kontorunda ən etibarlı və mötəbər maliyyə işçisi, həmçinin şair, mübəlliğ Mirzə İsmayıl Müşkat Tiflisdə olarkən təbliğ etmişlər). Məşədi Hüseyn Şəkidə bəhailiyi ilk qəbul edən şəxsdir (və sonradan əmisini, qaynatasını, əmisi oğlanlarını, qardaşlarını və digər qohumlarını da təbliğ etmişdi). Onun yanında Balaxanıdan Kərbəlayi İmran (ilk Balaxanı bəhaisi) də vardı. 1914-cü ildə onlar Həzrət Əbdül-Bəha Abbası Əkkada ziyarət etmişdilər.

***Məşədi Hüseyn Əyyubov və Kərbəlayi İmran***

**_Hayfa şəhəri Mart 1914-cü il. Həzrət Əbdül-Bəha və zairlər. Yuxarıdan (arxa sırada) soldan 4-cü (əllərini bir-birinə birləşdirmişdir) Şəkili Məşədi Hüseyn Əyyubov (Əyyubovların ruhani atası), yanında solda Balaxanı bəhaisi Kərbəlayi İmran, sağdakı isə Aşqabad bəhailərindəndir._**
(İzzəddin Əyyubovun əlyazmasından olduğu kimi verilir).

Babam Məşədi Hüseyn Əyyubov və dostları hər üçü eyni tipli avropasayığı geyimdədirlər. Azərbaycanın ilk bəhailərin-

dən, onların önündə üzü Hz.Əbdül Bəhaya yönəlmiş, ən yaşlı, Bakıdan olan bəhai, Hz. Bəhaullahın katiblərindən biri olan Mirzə Talıbdır:

Mirzə Talıb- Hz. Bəhaullahın katiblərindən biri

1882-ci ildə Bakı Bəhai İcmasının yüzə yaxın bəhaisinin toplanıb öz etiqadlarını icra etmələri üçün Çadrovaya küçəsindəki (indiki M.A.Əliyev küçəsi) 216 nömrəli bina alınmışdı.

Bəhai Mərkəzi kimi fəaliyyət göstərən bu bina sonralar müsafirxana adı ilə tanınmışdır. Burada müntəzəm olaraq görüşlər, uşaqlar üçün əxlaq dərsi, mənəvi-ruhani mövzularda məşğələlər keçirilir, Dinin tarixi, Müqəddəs Yazılar və dualar öyrənilirdi.

***Uşaq və cavanların əxlaq-dərsi heyəti.*** Bir qrup bəhai, 1924-ci il 21 mart. Müsafirxananın həyətində, İzzəddin Əyyubov (ən aşağıda sağdan 3-cü – qeydlər onun əlyazmasından olduğu kimi verilir), onun çiyni üstə başı görünən qız Ruhəngiz Bağbanzadə, Kərbəlayi İbrahim (məşhur Dadaş əmi), onun yanındakı 4-cü Orucov Nurəddin Balağa

***Keçmiş Çadrovıy küçəsi 216 (indiki Mirzağa Əliyev), 1882-ci ildən Bəhailərin Müsafirxanası***

oğlu, 7-ci Rizvan Muxtar oğlu (Ata ləqəbi ilə məşhur idi), onun başı üstə Bəhiyyə xanım Şərifova (Ağa Nəsirin gələcək həyat yoldaşı). Oturanlardan soldan 5-ci Rövşənə xanım Məşədi

Hüseyn qızı Əyyubova, 3-cü Kitabullah. II cərgə: Cəfər Dadaşov (Çayçı Cəfər – məclisdə çay paylayardı), onun qarşısında oturan Dadaşov Əjdər Əlisoltan oğlu, 3-cü və 4-cü soldan II cərgədə: Kamil və Tofiq Əbdül Vahab oğlu Yaqubovlar (Kamil- Nadya xanımın yoldaşı), 6-cı Münəvvər xanım Yaqubova Əbdül Vahab qızı, yanındakı Ağa Cavad Bağbanzadənin (1937-ci ildə şəhid olub) qucağında oturan –Ruhiyyə xanım Ağa Məsum qızı (Gəncəli Tohidin, Səltənət xanımın və Kəmalə xanımın anası). Oturanlardan sağdan 5-ci Ağa Dadaş Əmi (İçəri şəhərli və ya südçü ləğəbi ilə məşhur olan, çoxlarının ruhani atası), 8-ci Çapçı Əli Abbas, şəhid olub. Ayaq üstə duran qızlar sağda I-ci Validə xanım Kasimova Əli Raqib qızı, 4-cü Nuriyyə xanım (Usta əli Əşrəf qızı), 6-cı Səyyarə Əyyubova Məşədi Hüseyn qızı (kəlayağıda), 8-ci İzzət xanım Orucova Mirzə Ağa qızı (gələcəyin kimya üzrə alimi, akademik), 9-cu Qüdrət xanım Yaqubova (gələcəyin həkimi), 10-cu Ruqiyyə usta Muxtar qızı (İrana sürgün edildi), 11-ci Zəbərcəd xanım (Gəncədə gələcəyin Məhvil üzvi), 15-ci Cavahir xanım Orucova, solda ən kənarda duran Məhfilin "xadimi" Ağa Tağı. Yuxarıda ayaq üstə duranlar sağdan 4-cü Əsədullah Yaqubov Əbdül Vahab oğlu (papaqlı), 6-cı Əli, 7-ci Ağa Hüseyn Kərimov Usta Əli Əşrəf oğlu. 12-ci İsmullah Yaqubov, 13-cü Kərimov İsmayıl Əli Əşrəf oğlu. Böyüklərin qucağında oturanlar –Sağdan II Bədiullah Bayram oğlu (İrana sürgün edildi), 5-ci qız Firəngiz Bağbanzadə Dadaş qızı, Südçü Ağa Dadaş əminin qucağında Fəxrəndə xanım (İrana sürgün edildi), 7-ci Orucov Münib Mirzə Ağa oğlu.

Fotoşəkildə indi də həmin binanın fraqmentlərindən müsafir-xana tanınır. Həmin şəkildə gələcək kimyaçı-akademik və C.Cabbarlının "Sevil" filmində eyni adlı qəhramanın - azəri qızı İzzət Orucovanın (Müəllfin bibisindən solda 2-ci) da gənclik vaxtının surətini və onun qarşısında oturan ensiklopedik biliyə

malik Dağlı Ağadadaş əmini görmək olar. Onun İçəri Şəhərdə olan evində dəfələrlə maraqlı söhbətlərini mən də eşitmişəm. Südçi Ağa Dadaş əvvəllər müəllim işləyib. Ən maraqlısı odur ki, adları çəkilənlərin əksəriyyətinin övladları, nəvə və nəticələri indi də bəhaidirlər....(Bəhai ailəsində böyüyən uşaqlar dini özləri sərbəst şəkildə on beş yaşından etibarən seçirlər).

Müvvəqqəti Bakıda yaşayan, sonralar ən tanınmış şəhidlərdən olan, Əmrin Əli, Həzrət Bəhaullahın həvvarilərindən biri, Mirzə Əli Məhəmməd Vərqanı (ata və bala) da başqa şəkildə görmək olar –İzzəddin Əyyubovun qeydlərindən.

**Bakı bəhai icmasının "Xidmət " yoldaşlıq komitəsi.**

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasına qədər və sonralar bir müddət bəhai icmaları heç bir təzyiqə məruz qalmamışdılar. Məhəmməd Füzulinin şeirlərindən birində "Ey Allah" kəlməsini "Ey yoldaş" ilə əvəz edən kommunist ideoloqları babilik ilə əlaqədar hadisələri də inqilabi hərəkat kimi qələmə vermişdilər. Ən təəccüblüsü isə odur ki, indi də yeni və müxtəlif informasiya və müasir Bəhai mənbələrinin mövcud olduğu bir dövrdə bəziləri hələ də KİV-də köhnə və bəsit məlumatlara arxalanaraq Bəhai Dini haqda həqiqətə uyğun olmayan fikirlər yurüdürlər.

İnsan körpə çağında, öyrənmək həvəsi güclü olduğundan, çox qulaq asmaqla, eşitdiklərini təkrar edərək danışmağı öyrənir. Yaşa dolduqca isə, əsasən danışmağa güc verib, eşitsə də, təəssüf ki, dinləməyə (oxumağa) həvəs göstərmir...

*Aşqabad Bəhai Məbədi*

*Aşqabad Bəhai Məbədi*

Bakı bəhailərinin, əsasən, Aşqabad, Tiflis, Moskva, Lenninqrad, Xarkov və s. şəhərlərin Ruhani Məhfilləri və bəhailəri ilə sıx əlaqələri olmuşdur. Haifa ilə əlaqələr, əsasən, Aşqabad vasitəsilə həyata keçirilərmiş.

XX əsrin əvvəllərində, keçmiş SSRİ ərazisində ən çoxsaylı icma Aşqabadda idi ki, burada da dünyada birinci Bəhai İbadət Evi tikilmişdi. Sonralar müsadirə edilmiş və pambıq muzeyinə çevirilmiş İbadət Evi, şəhərin əksər evlərinin dağıldığı və on minlərlə əhalinin həlak olduğu güclü - dağıdıcı 1948-ci il zəlzələsindən bir qədər çat almış bu möhtəşəm bina, Sovet hökuməti dövründə 1963-cü ildə dağıdılmışdır. Çox maraqlıdır ki, indi həmin yerdə gözlənilən Allah Elçisinin - növbəti

***Mahtumquli Fraqi***

***(Abidənin yerində dünyada ilk bəhai məbədi olmuşdur)***

Peyğəmbərin adını və gəlişinin məkanı haqda qabaqcadan xəbər verən, Ilahi eşqlə ilhamlanan dahi Türkmən şairi, musiqiçisi və mütəfəkkiri, dərin inamlı mistik təfəkkür sahibi Mahtumquli Fraqiyə (bəzi məlumatlara görə 1730 – 1780) abidə ucaldılmışdır. İslamda deyilir ki, göydən asılan xəzinənin açarı şairlərin əlindədir. Nə qədər mistik olsa da, Türkmən ədəbiyyatının klassiki Mahtumquli, növbəti gözlənilən Zuhura iki şeir həsr etmişdir; "Han dorar" yəni "Xan yaxınlaşar" (Aşqabad "Turkmənistan" nəşriyyatı, 1994, II cild səh.197) və "Şol Məhribanım geldi..." ("Mahtimquli", Aşqabad "Turkmənistan" nəşriyyatı, 1992 iyul, I cild, səh.225)-də dərin düşüncə sahibi olan şair, çox guman ki, Nizami Gəncəvi kimi, Laməkan tərəfindən hidayət almış, əvvəlcə "...Ummatim diyip, dayyma Hezret İsanym geldi" söyləyir. Sonra insan ağlının izah etməyə aciz olduğu sufi-şairin mistik şeirlərindən biri (aşağıda orijinal dildə yalnız bir bənd verilir) "Han dorar"ı yazır:

Gorun Huseyn Mirzany
Haka yazar arzany
Yerlər urar lerzany
Ysrafyldan uyn dorar.

Huseyn Mirza Mirzə Hüseyn Əliyə, yəni Həzrət Bəhaullaha işarədir!

Yalnız bu iki şeir, əslində məhz bu bir bənd, onu ondan əvvəl gəlmiş bütün mütəfəkkir və şairlərdən, bəsirət və kəramət əhlindən fərqləndirir, gələcəyi daxili gözlə görməkdə onu bu günə qədər misli olmayan elə bir səviyyəyə çatdırır ki, "nə müdrikər onu dərk edə bilər, nə də sadiqlər onu anlayar".

Mirzə Hüseyn Əli, İran vəziri, Nur vilayətindən olan, Mirzə Abbasın böyük oğlu idi. Hələ 14 yaşından sarayda hamını qeyri-adi biliyi - alimliyi ilə heyran etmiş və sonralar Bəhaullah (Allahın Şərəfi) adı ilə məşhur olmuşdur. Üləmalar məclislərin-

də sual doğuran mürəkkəb dini məsələlərə aydınlıq gətirər, "ixtilafda olduqları dini məsələləri izah edərdi." Odur ki, O, böyük maraq obyektinə çevrilmişdi. O, 22 yaşında atası rəhmətə gedərkən, o dövrün adətinə uyğun olaraq, şah tərəfindən həmin vəzifəni tutmaq təklifini rədd etmişdir. Baş vəzir isə: "Onu özünə buraxın. Bu məqam ona layiq deyil... Onun təyinatı daha yüksəkdir. Mən Onu başa düşə bilmirəm, lakin əminəm ki, O daha böyük bir missiya üçün yaradılmışdır. Onun fikirləri bizim fikirlərimizə bənzəmir. Onu sakit buraxın," demişdi.

Hz. Əbdül-Bəha bu münasibətlə: "Bəzən Müqəddəs Ruh özü şairə qələm verib onun fikrini yönəldir".

Hafiz isə Şiraz, Bağdad və Araz çayının nəinki adını çəkmiş, hətta o yerlərin müqəddəsliyini göstərərək orada baş verən hadisələri təsvir etmiş, o yerlərin məqamını əvvəlcədən duyduğundan şəninə tariflər söyləmişdir.

Ey səhər yeli, əgər Araz çayının sahilinə yolun düşsə,
O vadinin torpağını öp və nəfəsini müşk ətirli et!
Səlmanın evinə bizdən hər an yüz dəfə salam de,
Sən oranın sarvan səsi və zınqırov sədası ilə dolu olduğunu görəcəksən.

Hz.Bab Molla Hüseynə müraciətində: "Bəzən Ruhül-Qüds şairlərin dili ilə danışır və onların dili ilə elə mətləblər deyir ki, çox vaxt onlar özləri də əsl məqsədi və həqiqi niyyəti bilmirlər."

*"Ey qövm, əgər siz bu ayələri inkar etsəniz, onda Allaha hansı dəlil ilə iman gətirmişdiniz? Göstərin dəlilinizi, ey yalançılar zümrəsi. Zira, xalq yanlış yolda sərgərdandır və Allahı öz gözləri ilə görmək və onun Nəğmələrini öz qulaqları ilə eşitmək bəsirətindən məhrumdurlar".*

Hazırda bütün qitələrdə bəhai İbadət Evləri vardır:

*ABŞ, Wilmette, Illinois. Məbədin tikintisinə 1921-ci ildə başlanmış və 1953-cü ildə başa çatmışdır. Hündürlüyü 42 m və günbəzin diametri 27.5 m.*

***Kampala, Uqanda. Hündürlüyü 39 m olan məbədin tikintisinə 1958-ci ildə başlanmış və 1961-ci ildə başa çatmışdır.***

***Avstraliya, Sidney. Hündürlüyü 38 m olan məbədin tikintisinə 1961-ci ildə başlanmış və 4 ilə başa çatmışdır*.**

***Almaniya, Frankfurt, Langenhain. Məbədin tikintisi 1964-cü ildə başa çatmışdır.***

***Panama şəhəri, Panama, Məbədin tikintisi 1972-ci ildə başa çatmışdır.***

***Apia, Samoa, Künbəzin hündürlüyü 30 m olan Məbədin tikintisinə Malietoa Tanumafili II, Samoa Kralı (1913–2007) tərəfindən başlanmış və 1984-cü ildə başa çatmışdır.***

### *Hindistan, Delhi, Bəhapur. Lotos məbədinin tikintisi 1986-cı ildə başa çatmışdır.**

* Bəhai Pəncqani Akademiyasında təhsil almağımla əlaqədar 2 500 adam tutan bu məbəddə 4 il ərzində bir neçə dəfə olmuşam. Hər dəfə də ətrafımda müxtəlif dinlərin nümayəndələrini gördükdə belə möhtəşəm gözəl və misilsiz memarlıq üslubuna malik binadan daha çox onların eyni məkanda müxtəlif adlarla adlandırdıqları vahid Allaha müraciət və sitayiş etmələri insanda tamamilə başqa ovqat yaradır. Yalnız yer səthindən yuxarıda olan hissəsinin hündürlüyü 40 m-dən bir qədər çox və 9 hovuzla əhatələnmişdir. Turistləri özünə cəlb etdiyindən, dünyada Luvrdan sonra ziyarət olunmasına görə ikinci binadır. Bütün Bəhai məbədlərində olduğu kimi, 9 qapı mərkəzi zala açılır. Ətrafında müxtəlif tikililər nəzərdə tutulmuşdur – xəstəxana, yetim və uşaq evləri, kitabxana, məktəb və s.

***Çili, Santyaqo Bəhai Məbədinin tikintisinə 2010-cu ildən başlanmışdır. Qeyri-adi memarlıq həlli olan bu məbədin gecə görünüşü göstərilmişdir.***

***Tehranda tikilişi nəzərdə tutulan layihə***

Ümumiyyətlə Ümumdünya Ədalət Evi gələcəkdə 123 məntəqədə bəhai məbədlərinin tikilməsi qərarına gəlmişdir. Onlardan birinin də Tehranda, İranda tikilməsi nəzərdə tutulmuşdu və layihəsi də hazırlanmışdı. Yuxarıda onun rəsmi təsdiqlənməmiş layihəsi verilir.

Hələlik binaların tikilməsi üçün bir çox yerlərdə torpaq sahələri alınmışdır ki, bu da Bəhai icmalarının mərkəzinə çevrilmişdir. Müəyyən vaxtdan sonra İbadət Evlərinin yaxınlığında məktəblər və kolleclər, universitet, uşaq və qocalar evi, xəstəxana və s. tikiləcəkdir. İbadət Evləri etiqadından asılı olmayaraq, hər bir adamın üzünə tək Allaha sitayiş yeri kimi həmişə açıqdır.

Faciəli 1937-ci ildə, bütün mütərəqqi adamların NKVD tərəfindən tə'qib edilməsi və cəzalandırılması zamanı fəlakət bütün ruhanilər və eləcə də bəhailərdən yan keçmədi. SSRİ-də 40-a yaxın mövcud olan bəhai icmaları qanundan kənar sayıldı. 1937-ci il Oktyabrın 13-dən, başlayaraq iki-üç gecə ərzində Bakı Bəhai Ruhani Məhfili və Balaxanı Bəhai Ruhani Məhfili, beləliklə 16 Bəhai həbs edilmişdi. Bu günlərdə DTK-in arxivindən əldə etdiyimiz məlumatlara əsasən, bəhailər 20 il ərzində daima izlənib və mühakimə olunublar. İki nəfərin hələ 20 iyun1929-cu ildə həbs edildiyi məlum olmuşdur. Bakı Bəhai Ruhani Məhfilinin sədri Zərgərov Əsədulla Abdul Əziz oğlu və katibi Xəlilzadə Mövsüm 1930-cu ildə mühakimə olunmaları və tutularaq 3 illiyə cəza düşərgəsinə göndərildikləri aydınlaşdırılmışdır. NKVD arxiv materiallarından birində deyilir: “Qayıtdıqdan sonra Zərgərov Əsədulla yenidən bəhailər arasında əks inqilabçı elementlərlə əlaqələrini bərpa etmişdir”.

Sovet dövlət sistemi tərəfindən məhdudlaşdırıcı sərəncam verilmişdi. Bəhailərin fəaliyyəti ixtisara salınmış və sonra isə tamamilə qadağan edilmişdi. Bütün ruhani yığıncaqlar, məhfillər də daxil olmaqla, ləğv olmuşdu. 14-21 oktyabr 1937-ci ildə görkəmli icma üzvlərindən çoxu həbs olunmuş və Sibirə sürgün edilmişdilər (Əlavəyə, Qasimova-Əyyubova Minaxanımın tərtib etdiyi cədvələ bax), bəziləri isə Qazaxstana sürgün edilmişdi, onlar təqribən 37 gün ərzində şəhid olmuşdular. 1937-ci repressiya ilində bütün mülk və

***Kislovodsk, müəllifin babası, nənəsi və dayıları***

"1935-ci ildə15 yaşlı Ətaullah valideynləri ilə birlikdə Kislovodskda istirahət edirdi. O, eşitdikdə ki, Emmanuel Lasker buraya gəlir, sonsuz dərəcədə sevinmişdi. Keçmiş dünya çempionu məşhur kurort şəhərinin parkında eyni zamanda oyun seansı verirdi. Onlarca adam Laskerin onların taxtasına yanaşacağı anı səbirsizliklə gözləyirdi. Bunlardan biri də gələcəyin professoru gənc Ətaullah idi. O, adlı-sanlı rəqibi ilə heç-heçə oynadı. O zaman bu görünməmiş müvəffəqiyyət idi". (X.Ağayeva. Professor Qasımovun "Şahmat Oyunu" kitabı. "İdman" qəzeti. 27.02.1980.) Ətaullah 1938-ci ildə artıq "Vışka" və s. mərkəzi qəzetlərin qalibi və mükafatçısi olur. O aforizmlə danışmağı xoşlayardı."...Biz daşdan möhkəm və güldən zərif olmuşuq" söyləyərdi.

Bakıda S.M.Kirovun (Azərbaycan Kommunist Partiyasının

Birinci katibi) müavini, ən yaxın silahdaşı, sonralar Leninqrad Vilayət Komitəsinin Birinçi Katibi işləmiş (indi də Ukraynada onun adını daşıyan şəhər vardır), sonralar 1937-ci ildə "xalq

düşməni" kimi Sibirə sürgün olunmuş, Yusif Qasımovun əmisi (ona atalıq edib, məşhur Qori seminariyasına göndərib oxudan) Fərəc Qasımov Cəfərqulu oğlu (müəllifin babası), Bakı Ruhani Məhfilinin sədri, ilk şəhid edilənlərdən biri idi (Salyanın birinci bəhaisi olan Qədim Cavadın qardaşı oğlu). Ərəb və fars dillərini mükəmməl bilən Fərəc Qasımov bu dildə yazılmış orijinal Müqəddəs Yazıları oxuyub, sinxron tərcümə edərmiş və məclisdəkilər oxuduğu kitabın Azərbaycan dilində olduğunu guman edərmişlər. O, "Kitab-i-Əqdəs"i ilk dəfə olaraq Azərbaijan dilinə tərçümə etmişdir.

Bu günlərdə DTK-nin (İndi Milli Təhlükəsizlik Nazirliyinin) arxivindən əldə etdiyimiz məlumatlara əsasən, rəsmi ittiham "xalq düşməni" – "ingilis cəsusu və "Bakinskiy Raboçiy " qəzetinə iftira atmaq" olmuşdur. Bəs bu axırıncı ittiham nə deməkdir? Həmin materiallardan məlum olub ki, bu qəzetdə 1937-ci ilin avqustunda bəhailərə qarşı məqalə çıxmışdır. Rəsmi ittihamda "Sovet-partiya təşkilatına rəsmi ərizə yazıb, bəhailəri ifşa edən Sovet nəşriyyatına əks-inqlabi iftira atmışdır" göstərilmişdir. "Ədalət xatirinə" demək lazımdır ki, 16 Bakı və Balaxanı bəhailərinin (26 yaşından 87 yaşa qədər müxtəlif sənət sahibləri olan kişilərin adları kitabın sonunda verilir), bir həftə ərzində tutulduğu 1937-ci ilin oktyabr ayında üzərində tez-tələsik aparılan ittiham qərarlarında heç bir maddi sübutun olmadığı daima vurğulanmışdır ki, bu da yəqin ki, gələcəkdə, 1956-cı ildə, şəhid olmuş 16 Bakı və Balaxanı bəhailərinə bəraət qazandırılması üçün səbəblərdən biri olmuşdur.

20 ilə yaxın Fərəc Qasımov haqqında heç bir məlumat yox idi. Oğlunun yüksək vəzifəli şəxslərə, hətta BMT-yə qədər bir çox məktublarından sonra prokurorluğa çağrılmışdı və ona bəraət haqqında sənəd verilmişdi. "Xalq düşməni"nin ailəsi Bakıdan, Gəncədən, Salyandan, Balaxanıdan və Bərdədən olan bir çox başqa bəhai ailələri kimi, bu qorxulu damğadan, qonşuların və iş yoldaşlarının istehza və məzəmmətindən azad edilmişdilər.

Qorxmuş və üz döndərmiş qohumlar isə yavaş-yavaş əlaqələrini bərpa etməyə başlamışdılar...

Çox xarakterikdir ki, qabaqcadan nəzərdə tutulmuş həbslərdən bəhailər gizlənməyib, hətta onlara - həbs olunanlara qibtə edirlər. Rəsul Xasiyev həbs olunanların ailələrinə baş çəkərkən, deyərmiş ki, "xoşbəxt o adamdır ki, bu Din naminə həyatlarından keçmişdir", bir çoxları kimi o özü də səbirsizliklə o günü gözləyirdi. Bir aydan sonra o da həbs edilmişdi. Çoxları həbs edilərək, Sibirə göndərilmiş, ya da itkin düşmüşdülər. 1938-ci ilin oktyabrında Bakı Bəhai Mərkəzinin binası (XIX əcrin rəsmi sənədləri indi də qorunub, saxlanılır) dövlət tərəfindən müsadirə edilmişdir. (Bax: Manaf Suleymanov "Eşitdiklərim, oxuduqlarım, gördüklərim, Azərnəşr, Bakı, 1996). Hal-hazırda, yuxarida fotosu verilmiş, həmin binada uşaq bağçası yerləşir.

Məşhur yazıçı və alim Manaf Suleymanov kitabında (“Eşitdiklərim oxuduqlarım gördüklərim” Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1987, c.319) həmin bina haqda məlumat verməklə bərabər Musa Nağıyevin də Bəhai olduğunu qeyd etmişdir. (Binanın bəhai mülkü olması haqda XIX əsrə aid olan notarial təstiq edilmiş rəsmi sənədlər indi də qorunub saxlanılır). Onunla, söhbətlərimizin birində (Biz həmkar idik, eyni institutda, Azərbaycan Neft və Kimya İnstitutunda işləyirdik) kitabında Bəhai dini və icmasına aid bəzi məqamların qeyri-dəqiq olduğunu söylədikdə o, mənə mülayimlə və gülə-gülə kitabının adının birinci sözünü yada salmağı məsləhət görmüşdü....

1956-ci ildə verilən ümumdövlət bəraətindən sonra tədricən qorxu hissləri azalır və müəyyən təzyiqlərə baxmayaraq, bəhailər hamılıqla bir yerdə görüşməyə imkan tapmasalar da, müxtəlif mənzillərdə 10 nəfərə qədər yığışırdılar. Sonralar Bakı Ruhani Məhfili fəaliyyət göstərməyə başlayır. Seçkilər keçirməyə hələ imkan yox idi. Ruhani Məhfilə öz aralarında gizli səsvermə yolu ilə (əmələ gələn boş yerlərə) yeni üzvləri təyin edirdilər. Məlum

səbəblərə görə Məhfil üzvlərinin sayını 9 nəfər deyil, az seçmək məcburiyyətində qalırdılar. Məhfil üzvlərinin sayı 5 olardi ki, başa düşən olmasın ki, məhfil toplanmışdır. Bayramlar böyük qorxu altında keçirilirdi qonşulara da yığıncaqların səbəbinin ad gügü olduğu deyilərdi. Bizim ailəmiz dayım və nənəmlə bir həyətdə Bakıda (Arsen Amiryan küç., 88) keçmiş Parkovıy, indiki M.Hüseyn küçəsində yaşayırdıq. Yadimdadır 1962-64-cü illərdə, hələ uşaq ikən (9-11 yaşlarımda), bəhailəri çoxsaylı qonşuların nəzərindən gizlətmək üçün küçənin o biri tərəfində toplanıb, ğələn qonaqları kiçik grup halında münasib vaxtda həyətə girməyə işarə edərdim. Həmin illər Londonda I Beynəlxalq Bəhai konqresindən (Ümumdünya Ədalət Evinin ilk seçkisinə həsr olunmuş) hazırlanmış slaydlara neçə maraqla baxmağımız yadımdadır.

1981-ci ilin noyabrında qara buludlar yenidən bəhailərin üstünü aldı və DTK tərəfindən bir günlük həbslər başlandı. Dosent Qasımov İsmulla Fərəc oğlunu (müəllifin dayısı) Moskvadan gələn xüsusi bir məktub əsasında, Məhfil sədri kimi, həbs edirlər. Tam araşdırma aparmaq üçün onu birinci dəfə polkovniklə 8 saatlıq yazılı izahat aldıqdsan sonra şərti olaraq evə buraxmışdılar, sonradan ikinci dəfə də generalla görüşdürüb, heç bir səbəb olmadığından yenə də azad etmişlər, Dosent Əsədova Səriyyə və Dr. Əyyubov İzzəddini iş yerindən birbaşa, xəbərdarlıq verilmədən maşına oturdulub aparırlar. Onları 7-8 saat dindirib 10-12 səhifəlik izahatlar yazdırmışdılar. Onlarda bir daha evə qayıtmayacaqları hissləri yaranmışdı (!). Onlara bu həbs haqqında bir adama da olsun söyləməyi qadağan etmişdilər. Yenidən dostlarla görüşləri, hətta bəhai qohumlarının evinə getməyə və telefon vasitəsilə "Allahu-Əbha" kəlməsi ilə salamlamağa qadağa qoyulmuşdu.. Atam Izzəddin edilmiş hədə-qorxular nəticəsində uzun müddət həmin məsələnin üstünü açmadı (baxmayaraq ki, mən valideynlərimlə bir mənzildə yaşayırdıq) yalnız bir neçə il sonra bu sirri açmışdı. Mən həmin gün onun pərişan və narahatlığını

(səbəbini deməsə də) indi də xatırlayıram. Bir müddət sonra SSRİ DTK-i sədri V.A.Kruçkov Moskvadan Mərkəzi televiziyə ilə çıxışlarından birində deyəcək: "Dövlət Təhlükəsiz Komitəsi heç bir vaxt dini məsələlərə qarışmır"(!?)

Yenidənqurma dövründən sonra, SSRİ ərazisindəki cəmiyyətlər arasında və bəzi xarici ölkələrdəki Bəhai İcmaları ilə əlaqələr bərpa edildi, 1988-ci ildən bəhailər Moskvada və Aşqabadda, həmçinin Bakıda və Kievdə fəallaşırlar. İlk cəmiyyətlərarası əlaqələr Moskvada (Bakıdan olan bəhai Bəhaəddin Orucov vasitəsilə) və Aşqabadda, ilk qonaqlar -- Mirzə Ələkbər Naci, Aşqabaddan (o, Hüseyn Cavidlə sürgündə yaxın olmuş, onun fikirlərindən, güzəranından bizə bəzi məlumatlar söyləmişdir) və Muzəffər Namdar, Finlyandiyadan - olmuşlar.

Müzəffər Namdar İranda ona təklif edilən neft nazirliyindəki məsul vəzifədən imtina edib, övladları ilə xaricə - təbliğ məqsədi ilə yad ölkədə min cür əziyyətlə yaşamağa- getmişdir. Bu günlərdə DTK-in arxivindən əldə etdiyim məlumatları araşdırarkən daha bir maraqlı məlumat əldə etdim; 1937-ci ilin iyulunda Bakı Bəhai icmasına Moskvadan İran səfirliyinin işçisi iranlı bəhai – Nusrətullah Namdar gəlib. O, içərişəhərdə, bacısının evində qonaq qalıb. Atası rus qadınla (səhv etmirəmsə, fransiz dili müəllimәsi ilə) evlənib, sonra İrana qayıdıbmış. Deməli, 51 il əvvəl həmin adamın atası insan həyatı ücün belə bir qorxulu zamanda Bakıya gəlir... Belə görüşlər Azərbaycan icması üçün Bəhai Dünya mərkəzi ilə yeganə əlaqə vasitəsi, ümid və sevinc mənbəyi olurdu...

İlk xarici səfərlər - Finlyandiyaya, Hindistana, İsveçrəyə, Türkiyəyə və minlərlə bəhailərin yaşadığı başqa yerlərə olmuşdur. İlk mühacirlər ABŞ-dan, İrandan, İngiltərədən, İrlandiyadan, Yeni Zelandiyadan, Malayziyadan, Filippindən, Türkiyədən və İtaliyadan olmuşdular.

Bakı Bəhai İcmasının Azərbaycanın Dini İşlər İdarəsi ilə ilk əlaqəsi 1980-ci illərin axırlarında olmuşdur. O vaxtlar Bakıda 50 nəfərdən artıq bəhai və bəhaizadə yaşayırdı. Onlar qərara alırlar ki, Bakı bəhailərinin Ruhani Məhfilini təsis etsinlər. Yaxşı yadımdadır, 1990-ci ilin 16 dekabrında, ikinci cəhddə, 50 illik intizardan sonra, yenidən bütün Bakı bəhailərinin iştirakı ilə Bakı Ruhani Məhfilinə seçkilər keçirilir.

***Bakı Ruhani Məhfilinin üzvləri, 1990***

60-cı illərdə fəaliyyət göstərən Bakı Məhfilinin yeganə üzvü İzzəddin Əyyubov (Müəllifin atası - Şəkildə mərkəzdə əlində *Ism`i-Əzəm*) sanki, bir estafet kimi Allah Əmrinin İşini, bu vaxta qədər yığılmış əmanətlərlə bərabər, yeni seçilmiş məhfilə çatdırdı. Heç olmasa o, nəinki bu günü gördü, hətta yaşının bu ahıl çağında, gənclik həvəsi ilə, bilavasitə bu işlərdə ən böyük fəallıq göstərdi. Yadımdadır, yeganə rus millətindən olan üzv Yaqubova Nadejda xanım (Semyonovna - 1-ci sıra sağdan 2-ci) digər bir bəhai ilə eyni səs toplamışdılar və bəhai qanununa görə məhz buna görə yenidən yalnız bu iki nəfər arasıında seçki aparılmadı və üstünlük milli azlıq təşkil edən icma üzvinə verildi. Onlar bu günün gələcəyini əminliklə bilir və gözləyirdilər.

Sonra bir neçə ay müddətində Gəncə və Bərdə şəhərlərində də seçkilər keçirilir və Yerli Ruhani Məhfillər bərpa edilir. Bir ildən sonra Salyanda və Balaxanıda, sonra isə Naxçıvanda Ruhani Məhfillər seçilərək fəaliyyət göstərirlər. Balaxanı qəsəbəsində qədim bəhai qəbrləri indi də mövcuddur. 1990-cı ildə onlar bəhaizədələrlə əlaqələr yaratmaqda yardımcı olmuşdurlar - qəbr daşlarının üzərində Tahirə xanımın (Qurrət-ul-Eynin) məşhur şeirlərindən biri ərəb əlifbası ilə nəfis surətdə yazilmışdır.

1990-cı ilin noyabrında Moskvada, Azərbaycandan geniş tərkibli bəhai nümayəndələrinin də iştirak etdiyi SSRİ bəhailərinin qurultayı keçirilir. Qurultayda Bəhai Dünya mərkəzindən nümayəndə, Allahın Əmrinin Əli cənab Əli Əkbər Fürutən maraqlı çıxışları ilə qarşıda duran vəzifələrə toxunub, hazırkı cəmiyyətdə bu ideyaların nə qədər həyati və vacib olduğunu vurğulamışdı.

Əmrin Əli  Dr. Fürutən bir neçə dili, o cümlədən azərbaycan dilini bilən tarixi bir şəxsiyyətdir. O, Aşqabadda yaşamış (bir müddət də Bakıda olmuşdur), sonra  Moskva Dövlət Universitetini 1937-ci ildə bitirmiş,  tədqiqatçı - alim, uşaq psixiologiyası üzrə mütəxəssis, bir neçə kitabın, o cümlədən, bir neçə dillərə tərcümə olunmuş məşhur “Analar, atalar və uşaqlar” kitabının müəllifidir. Bəhai olduğuna və dini söhbətlərinə görə ölkədən İrana departasiya edilmişdir. Sonralar İran bəhailərinin Milli Məhfilinin katibi seçilmişdir. 1988-ci ildə Bəhai Dünya Mərkəzindən bir nəfərin SSRİ-yə gəlməsi xəbəri Bakıya çatanda (o vaxt təyyarəyə bilet bir ay əvvəl alınardı) dərhal hava limanına yollanıb, ilk dəfə onunla Aşqabadda tanış olmuşdum. O zaman Azərbaycanda keçmiş bəhailərin və bəhai övladlarının yaşaması faktı onu çox

sevindirmişdi. Axı o, 1930-cu illərdə bir neçə il Bakıda yaşamışdı.

Qurultayda SSRİ bəhailərinin birinci və sonuncu ruhani məhfili seçilir ki, onun da tərkibində Azərbaycandan iki nəfər seçilir. SSRİ-in dağılması ilə əlaqədar sonrakı illər Ümumdünya Ədalət Evinin göstərişinə uyğun olaraq, Azərbaycan istisna olmaqla, bütün keçmiş respublikaların daxil olduğu beş Regional Məhfil seçilir, Azərbaycan isə hələlik yeganə ölkə olur ki, onun öz Milli Ruhani Məhfili seçilir.

***Azərbaycan bəhailərinin I Qurultayı, 1992-cı il***
***Bakı və Gəncə bəhailəri***

Bu məqsədlə tarixdə ilk dəfə olaraq, Bəhai Dünya Mərkəzindən, Hayfadan Beynəlxalq Təbliğ Mərkəzinin üzvü cənab Məsud Xəmsi təşrif buyurur (Şəkildə mərkəzdə oturmuş) və Azərbaycanda ilk Milli Ruhani Məhfil seçilir.

1992-ci ildə Azərbaycan bəhailərinin I Qurultayı. Xarici qonaqlar, Bakı, Bərdə və Gəncə bəhailəri....

Tarix təkrar olunur. 1993-cü ildə Azərbaycan bəhailərinin II Qurultayının gedişi zamanı Amatul-Bəha Ruhiyyə Xanım Rəbbaninin (Bəhai Dininin Vəlisi Şövqi Əfəndinin həyat yoldaşı) şəxsində Dünya Bəhai Mərkəzinin nümayəndəsinin iştirakı ilə Almaniyadan, Hollandiyadan, Fransadan, ABŞ və başqa ölkələrdən gələn qonaqlarla görüşün keçdiyi yerə fanatiklər dəstəsi basqın edir. "Allahu Əkbər"-lə zala soxulanlar bizdən də "Allahu Əkbər" cavabını eşidəndə çaşıb-duruxmuşdular... Orada qarşılarına çıxan qadınlara isə hücüm çəkmək təşəbbüsündən belə çəkinməmişdilər. Bu hadisədə çox maraqlı bir məqamlar üzə çıxdı… Bizim tanıdığımız fanatiklərin bəzilərinin sonrakı acı aqibəti isə çox ibrətamizdir.

Amatul-Bəha Ruhiyyə Xanım Rəbbaninin
Azərbaycan bəhailərinin Ruhani Məhfili ilə görüşü

Əmrin Əli Ruhiyyə Xanım yaşının bu ahıl çağinda istirahət etmir, o bütün qitələrdə olmuş, illərlə Afrikada neçə-neçə ölkələrdə yaşamış, dünyanın 180 ölkəsində müsafir olmuş, mötəbər rəsmi görüşlərdə Bəhai Dünya Mərkəzini təmsil etmişdir. Keçmiş ADU, indiki Bakı Dövlət Universitetində (Rektor, professor-müəllim heyyəti ilə, daha sonra tələbələrlə)



**Amatul-Bəha Ruhiyyə xanım ADU-da rektorun otağında**

və Sumqayıt Sənaye və Energetika İnstitutunda geniş və maraqlı görüşlər görülmüşdür.*

Sonralar Bakı, Gəncə, Bərdə, Sumqayıt, Şəki, Quba, Naxçıvan və Muxtar Respublikanın 4 yaşayış məntəqəsində, Balaxanı və Bakixanov qəsəbələrində Ruhani Məhfillər fəaliyyət göstərirlər. Şamaxı, Astara, Oğuz, Ordubad, Culfa, Suraxanı, Əmircan, Lokbatan, Şərur, Şahbuz, Nehrəm, Qarababa, Şıxmahmud, İsmayıllı, Ərəfsə, Sis və bə'zi ərazilərdə isə bəhailər yaşayırlar. Azərbaycan Bəhai İcması öz sıralarında 1000-dən çox bəhaini - müxtəlif sənət adamlarını və millətlərin nümayəndələrini Həzrət Bəhaullahın Çadırı altında birləşdirir.

Həzrət Əbdül-Bəha ilə L.N.Tolstoy arasındakı yazışmanın tərcüməçisi həmyerlimiz Mirzə Əli Əkbər Naxçıvani olmuşdur. Onun anası Azərbaycanın ilk qadın bəhailərindən Məsmə xanımdır. O əslən Odubadlıdır, lakin Bakıya köçüb Şüvəlanda yaşayırdı. (Onların qısa həyat tarixçəsi haqqında bir qədər sonra danışacağıq).

Şairə İzabella Qrinevskayanın yazdığı "Bab" dramı, 1903-cü ildə Peterburq teatrlarının birində böyük müvəffəqiyyətlə oynanılmışdır. Londonda göstərilən pyesə o dövrdə tərəqqipərvər adamlar tərəfindən yüksək qiymət verilmiş, əsər fransız və alman dillərinə şair Fidler tərəfindən tərcümə olunmuş, bu səbəbdən də yeni yaranan Dinin tərəfdarlarının təqibilə əlaqədar olan dramatik hadisələr geniş şərh edilmişdi. NKVD-in indi arxiv materiallarından məlum olub ki, Azərbaycan bəhailərinin SSSR-inin digər şəhərlərində - Moskva, Leninqrad və Xarkov - yaşayan bəhailərlə əlaqələri də

* Onu Bakıda olarkən müşaiyət etmək və mütərcimlik etmək şərəfi müəllifə qismət olmuşdu.

geniş olmuş və Əsədulla Zərgərov Leninqradda olarkən İzabella Qrinevskaya ilə görüşmüdü.

Həzrət Əbdül-Bəha L.N.Tolstoy və İzabella Qrinevskaya ilə bilavasitə məktublaşmış, sonuncu ilə isə Misirdə - Port Səiddə görüşmüşmüşdür və sonradan o, dini qəbul etmişdir. Onlarla əlaqə Cəlil Məmmədquluzadənin yaxın dostu, azərbaycan, rus, ərəb və fars dillərini mükəmməl bilən Mirzə Əli Əkbər Naxçıvaninin (Bəzi sənədlərdə onun familiyası həm də Məmmədxanlı və Məmmədxanov kimi yazılmışdır) vasitəsi ilə həyata keçmişdir. O, Qori seminariyasını bitirmiş (şair, yazıçı, teatrda aktyor və musiqiçi kimi çox istedadlı bir adam kimi tanınmışdır) sonralar Moskva universitetində "Dağ Mühəndisi" ixtisasına da yiyələnmişdir. Dövrünün qabaqcıl ziyalılarından olduğundan Cəlil Məmmədquluzadə irsinin araşdırıcısı, Naxçıvan Universitetinin rektoru, akademik İsa Həbibbəylinin tədqiqat dairəsinə düşmüşdür. Bəhai ədəbiyyatının rus dilinə tərcüməsi və L.N.Tolstoya göndərilməsi, məktublaşmalar onun öhdəsinə düşürdu. Tolstoy onları qoruyub saxlamış və indi arxiv kataloqunda onlarla tanış olmaq olar və həmçinin, Haifa arxivində bu məktubların nüsxəsi saxlanılır.

Ümumdünya Ədalət Evinin yaxınlığında Kərmil dağında, Həzrət Bəhaullahın göstərdiyi yerdə Həzrət Babın müqəddəs məqamı ucalır. Onun tikintisində Bakı bəhaisi, Həzrət Bəhaullahın katiblərindən biri olan Molla Talıb Kərimin oğlanları Usta Əli Əşrəf və Usta Ağabala Kərimov qardaşları iştirak etmişlər. Müqəddəs Torpaqda bir çox tarixi yerlər həmvətənlərimizin və Şimali Azərbaycanın adı ilə bağlıdır. Həmin bəhailərin nəvə və nəticələri, eləcə də digər qohumları hazırda icmanın üzvləri arasındadırlar. Bu barədə Rovşənə Xanlarova-Zərgərlinin “Xatirələr” (Bakı, ADMİU-nun mətbəəsi, 2003) kitabında yazılmışdır. Müqəddəs Torpaqda

olduğumuz vaxt qürur hissi keçirirdik ki, bizim xalqın nümayəndələri torpaq sahələrinin alınmasında və binaların tikilməsində yaxından iştirak etmişlər. Molla Talıb Kərimin nətiçə və kötüçələri indi də içmamızın ən fəal üzvlərindəndirlər. Bu gün də Kərmil dağında Arkanın, - inzibati binaların, - təmiri zamanı Bakı bəhailərindən bir çoxu həmin ənənəni davam etdirir.

İncilə, Əhdi-Ətiqə (Bibliyanın xristianlıqdan əvvəlki qədim hissəsi -Tovrat), uyğun olaraq Suleyman peyğəmbərdən Mücrü-Vəsiyyət (Nicat, Xilas, Nuh peyğəmbərin insanları xilas etdiyi gəmi, arka, mücrü - harada ki, guya kilsəyə aid məlumatlar qorunub saxlanılmalıdır) mövcuddur və bunu növbəti missiya ilə əlaqəndirirlər. Guya bu yaxınlarda aparılmış tədqiqatlar nəticisində məlum olmuşdur ki, Yerusəlimin (Qüdsin) 617-ci ildən əsas məscidi olan Ömər məscidinin yerində həmin mücrü tapılmalıdır. Bəzi yahudilər hətta həmin Ömər məscidini söküb, yenidən həmin yerdə, yəhudi məbədi tikmək arzusundadırlar ki, bununla da onlar həmin yerdə arxeoloji qazıntılar aparıb, həmin mücrünü tapmaq imkanı verə biləcəyi ümidindədirlər.

Lakin həmin Mücrü-Vəsiyyət heç də onların başa düşdüyü mücrü deyil. Məncə, bu həmin yerdən bir qədər kənarda Hayfa şəhərində tikilmiş, üstən görünüşü gəmi təsvirini xatırladan, - qövs şəklində düzülmüş, - binalara işarədir. Nəinki eyni ölkədə, hətta olduqca yaxınlıqda yerləşən, çoxdan həsrətində olduqları müqəddəs bir məkanı (UNESCO-un 2008-ci ildə Dünya İrsi kimi qeydə alınması – Dünyanın Yeni Möcüzəsi- ilə əlaqədar bu məsələyə aşağıda bir daha qayıdacayıq) görmək iqtidarında deyillər. Yəni *"Dünyanın və ümmətlərin Maliki gəldi"*, amma "*Allahı görmək üçün onların gözləri və yaxud Onun nəğmələrini eşitmək üçün qulaqları yoxdur*."

Təəssüflər olsun ki, bu yeganə müəmmalı hadisə deyildir. Xristianlıqda da buna bənzər tədqiqatlara bir çox qüvvə, adam cəlb olunmuşdur. Hal-hazırda qəbul edilmiş Bibliya yeni (Foma və Maqdalina) 1886-cı və 2000-ci ildə Misirdə tapılmış əlyazmaları ilə tamamlamağı məqsədəuyğun sayanlar bunlarda İsa peyğəmbərin o dünya haqda bu vaxta qədər söyləmədiklərini aşkara çıxarılmasını əsas gətirirlər. Əgər son məqsəd Allaha yaxınlaşmaq olsaydı, o zaman yəhudilər xristian və xristianlar da öz növbəsində müsəlman mənbələrindən daha çox bəhrələnməzdilərmi? Bu məntiqdən çıxış etdikdə, əgər məqsəd Allaha yaxınlaşmaq olsaydı, bu yolla Bəhai müqəddəs Yazılarının digər ümmətlər üçün ən yaxşı bir vasitə olduğunu görmək çətin deyildir.

*"Qulağını aç və eşit: fani göz Əbədi Gözəlliyi dərk edə bilməz, ölmüş könül isə ançaq solmuş çiçəklə məşğul olar: cünki hər kəs öz tayını axtarar və onunla ünsiyyət tapar."*("Kəlimәti-Məknunə", 10, Bakı, 2000)

"Qoy onlar bu görünməz səmavi məqama çan atsınlar - *"O məqam ki, orada Rəbb öz Camalının Alovu ilə ölümsüzlük ağacında işıq saçmışdır; Alqışlar olsun mənim Əbha Rəbbimə!"*(Həzrət Bəhaullah, Atəş Lövhü)

"İslam Ensiklopediyası"na əsasən, Allahın 100-cü adı olan "Ismi-Əzəmin" adını bilənin və məşhur hədisə ğörə, onun "dualarının Allah tərəfindən qəbul olunacaqı" üzərində düşünmək də ğözəl bir əməl və stimuldur.

Ərəbcədən "Ey Nurluların Nurlusu" və ya "Ey Cəlallıların Cəlallısı" mənasını verir.

Dünyanın 235-dan artıq ölkəsində 8 milyona yaxın bəhai yaşayır, 182 ölkədə isə, Milli Ruhani Məhfillər fəaliyyət göstərir. Müstəqil Dövlətlər Birliyi ölkələrində yaşayan 10 mindən çox bəhailər son 20

*Ismi - Əzəm:*
***"YA BƏHA'UL – ƏBHA"***

ildə, rəsmi olaraq, yüzdən çox yaşayış yerlərində, öz icmalarını yaradıblar.

Beynalxalq Bəhai İcması BMT-nin qeyri-dövlət təşkilatları çərçivəsində məsləhətçi statusu ilə fəaliyyətini davam etdirir. BMT-nin ayrı-ayrı qurumlarında, həmçinin, İqtisadi və Sosial Şurasında (EKOSOK), Uşaqlara Yardım Fondunda (UNICEF) və UNEP (səhiyyə üzrə proqram), UNIFEM (qadın məsələləri üzrə proqram) ilə yaxından əlaqələr saxlayır. Dünya Bəhai İcması öz işini insan hüquqları çərçivəsində, qadınların irəliləyişinə, sosial-iqtisadi inkişafa, ətraf mühitin qorunmasına və əxlaqi təlim-tərbiyəyə yönəldir.

1995-ci ildə, Pekində keçirilən IV Ümümdünya Qadın Formunun işində də, həmçinin, Beynalxalq Bəhai Birliyinin bilavəsitə iştirak etmiş nümayəndəsi bildirmişdir ki, "Əvvəlki vaxtlar dünyanı güc idarə edirdi və kişi özünün daha kobud və aqressiv bədəninin və ağlının xüsusiyyətinə görə qadın üzərində hakim idi. Lakin zaman dəyişir, gücün bir təsir forması kimi səmərəliliyi azalır, ağıl, intuisiya, və həmçinin qadınların daha güclü olduğu məhəbbət və xidmət kimi mənəvi xüsusiyyətlər ona üstün gəlir. Beləliklə, gələcək era kişilərdən daha yüksək dərəcədə qadın idealına yönələcək, daha dəqiq desək, bu elə dövr olacaq ki, qadın və kişi mədəniyyətinin əsasları tarazlaşdırılacaqdır".

BMT Baş Assambleyasınını geniş sessiyasında Beynəlxalq Bəhai Birliyi bəşəriyyətin məskumlaşması məsələləri haqqında 1996-cı ilin iyununda Türkiyənin İstanbul şəhərində keçirilən "Habitat-II" zirvə gürüşündə bəyanat vermişdi. Konfransın işində 148 millətin nümayəndələri, 25-dən artıq ölkələrdən 150 bəhai, o cümlədən 4 nəfər Azərbaycan bəhaisi iştirak edirdi. Qeyri-dövlət təşkilatları hökumət nümayəndələri ilə birlikdə həm prosesi və həm də nəticəni təbrik edib söylədilər ki, bu görüşdəki əməkdaşlıq gələcək tərəqqi və dəyişiklər üçün yeni

imkanlar açacaq və bəlkə də bizim cəmiyyətin vətəndaşlarının iştirakı ilə yeni dövrün universal prinsiplərinə əsasən məhəbbət, sədaqət, səmimiyyət, qonaqpərvərlik, təvazökarlıq, ədalət və birlik ictimai bütövlüyə aparacaq və onlarsız heç bir cəmiyyət mövcud ola bilməz. (Bu və bir sıra digər məlumatlar "ONE COUNTRY" Beynəlxalq Bəhai Cəmiyyətinin Bülletenindən, 1995 və 1997 illər, istifadə edilmişdir).

BMT tədbirlərində iştirak edərək, bəhailər ümumi razılığın əldə edilməsinə çalışırlar. Bundan başqa, bu onlara ictimaiyyəti öz Dininin idealları ilə tanış etmək imkanını verir ki, onun da əsas prinsipi -bütün bəşəriyyətin rifahının yaxşılaşdırılmasına səy göstərməkdir.

**Bəhai Dininin üç əsas prinsipi bunlardır:**

- Allah birdir.
- Bəşəriyyət birdir.
- Bütün dinlərin əsası birdir.

**Digər əsas prinsiplər:**

- Bəhai Dini Allahın və Onun Peyğəmbərlərinin birliyini qəbul edir;
- azad fikirliliyi dəstəkləyir;
- həqiqət axtarışını heç bir vəhclə məhdudlaşdırmır və müstəqil axtarışı təşviq edir;
- təəssübkeşliyin, mövhumatın və xurafatın bütün növlərini pisləyir;
- bütün ruhani təlimlərin əsas məqsədini sülhün və əmin-amanlığın nailiyyətlərində görür;
- elm və dini əməkdaşlığa çağırır, çünki bu nizama salınmış mütərəqqi ictimai quruluşun yeganə və ən kamil təməlidir;
- Bəhai Dini kişi və qadının bərabər hüququnu qəbul edir;
- icbari təhsil prinsipini tətbiq edir;

- ifrat yoxsulluğu və ifrat varlılığın ləğv edilməsi yollarını göstərir;
- insanlara xidmət ruhunda görülən işi Allaha sitayiş səviyyəsinədək yüksəldir;
- dini xadim institutu (molla, keşiş, ravvin və s.) ləğv edilir və bu iş inananların özlərinə həvalə edilir;
- millətlər arasındakı ünsiyyətdə xüsusi köməkçi dildən istifadə edilməsinə çağırır;
- ümümi sülhün yaradılması və saxlanması yollarını göstərir.

"Həqiqi din elmlə harmoniyadadır. Ancaq bir gerçəklik var, elm və din, hər ikisi, bu gerçəkliyi araşdırmaqda bizə kömək edir. Hər ikisi dünya haqqında bizə bilik verir. Din vasitəsilə bizdə yaranan anlayışlar elmi araşdırma vasitəsilə edilən kəşflər vasitəsilə tamamlanır. Onların hər ikisi birlikdə, cəmiyyətlərimizin müxtəlif ehtiyaclarını təmin etmək üçün sivilizasiyanın ruhani və maddi cəhətlərini ehtiva edən bir yolla bilik yaratmağa və onu tətbiq etməyə bizi qadir edir. İki bilik sistemi mövcuddur- elm və din. Həqiqi din və həqiqi elm bir-birilə harmoniyadadır. Hər ikisinə ehtiyac var: din olmadan elm ehkamçı materializmə çevrilir; elm olmadan din mövhumat olur". (Əbdül-Bəha, "Bəzi suallara cavablar", Bakı, 2004, səh.244).

"Bilik insan həyatının qanadıdır, onun yüksəlişi üçün nərdivandır. Bilik əldə etmək hər kəsin vəzifəsidir. Lakin o elmlər əldə edilməlidir ki, yer üzü insanlarına fayda gətirsin, daha o bilik yox ki, sözlə başlayır, sözlə də qurtarır. Həqiqətən də, alimlərin və sənətkarların dünya insanları üzərində haqları böyükdür". *(*Bəhaullah, Lövhləri, "Nurlan" nəşriyyatı, 2004, səh. 50)

“Mövcudat dünyası daim tərəqqi edir. Bu, inkişaf və böyüməyə məruz qalır. Baxın, bu parlaq əsrdə necə böyük bir tərəqqi olmuşdur. Sivilizasiya hər yeə çatır. Millətlər inkişaf etmişlər. Sənayeləşmə və hüquqşünaslıq genişlənib. Elmlər, ixtiralar və kəşflər çoxalıb. Bütün bunlar göstərir ki, varlıq dünyası davamlı olaraq tərəqqi və inkişaf edir; və buna görə də, əlbəttə, insanın kamilliyini səciyyələndirən məziyyətlər də, eynilə, genişlənməli və ikişaf etməlidir”.

(Abdul-Baha, Promulgation of Universal Peace, US Baha`i Publishing Trust, 2004, p. 470)

Dinin Mühafizi Şövqi Əfəndi "...siyasi işlərə və məsələlərə tamamilə qarışmamağa" çağırır. "Bizim heç birimiz - nə ağlımız, nə ürəyimiz, nə sözümüz, nə də əməlimizlə dövlət və hökumətlərin siyasət və mübahisələrində iştirak etməməliyik. Biz bu haqda hətta heç fikirləşməməliyik."

"Dinimizin inkişafının bu mərhələsində Şərqdə, eləcə də Qərbdə dostlarımızın xüsusi əhəmiyyətini başa düşməli olduqları prinsip budur. Bu prinsip göstərir ki, Həzrət Bəhaullahın Əmrinin ardıcılları - fərdi möminlər, eləcə də bütün icmalar - yerli və milli - birbaşa və ya dolayı dövlət siyasətində iştirak kimi qiymətləndirilə biləcək istənilən fəaliyyətdən yayınmalıdırlar".

Hz. Bəhaullahın İran Şahına müraciətdə deyildiyi kimi:

“Hər halda Allaha şükr edirik və Onun səxavətindən rica edirik ki, insanların boyunlarını zəncir və qandallardan azad etsin və onların səmimi simalarını Qüdrətli və Səxavətli Olanın Simasına doğru yönəltsin. O, çağıranlara cavab verməyə hazırdır və onunla birgə olanlara yaxındır”.

Umumdünya Ədalət Evi: "...Allahın coşqun inkişaf edən, bütün bəşəriyyətə bütövlükdə toxunan, durmadan həyata keçməyə doğru irəliləyən böyük Planı, bəşəriyyətin birliyinə

mane olan bütün maneələri aradan qaldırır və onu bədbəxtlik və iztirab kürəsində əridib bütövləşdirir".

"Allahın İradəsi ilə bu proses Kiçik Sülhün qurulmasına gətirib çıxaracaq...Kiçik Sülh - dünyanın siyasi cəhətdən birləşməsi. Bəşəriyyət buna nail olaraq bir bədənə bənzəyəcək, lakin onda həyat ruhu olmayacaq. Sonra bu vahid bədənə həyat ruhu vermək zərurəti olacaq - əsl birliyi və ruhaniliyi bərqərar etmək lazım gələcək ki, bunun da ali təzahürü Böyük Sülh olacaq və bu vəzifə bəhailərin üzərinə düşür, o bəhailər ki, şüurlu surətdə və məqsədyönlü şəkildə, Yazıların prinsiplərinə əməl edərək və Allahın daim istiqamətləndirən güçünə inanaraq yer üzündə İlahi Səltənətin qurulmasına çalışır və öz yaxınlarını ona daxil olmağa çağırırlar və bununla da əbədi həyata yiyələnmək üçün onlara yol açırlar".

Dünyada baş verən böyük proseslər artıq bu məqsədin necə tədricən həyata keçdiyinin bariz nümunələrini göstərməkdədir. Məsələn, son bir neçə ildə:

- Dünya Dövləti. London "Financial Times”-da "And now for a world government" (“Və indi Dünya Dövləti uğrunda”) aşağıdakı əlaqə kanalına bax: http://www.ft. com/cms/s/ 0/7a03e5b6- c541-11dd-b516-000077b0765 8.html;
- Yeni Dünya Nizamı. 160 il bundan əvvəl İranda Bədəşt Müşavirəsində Yeni Dünya Nizamı Dövrünün gəlişi elan edilmişdi. Bu termin yalnız 150 il sonra məşhur dövlət xadimlərinin və alimlərin çıxışlarında (fərqli mahiyyət daşısa da) işlədilməyə başlanacaqdır. (məs. Məşhur Lissabon konfransında Qürçüstan sabiq prezidenti E.A. Şevarnadze və ya Ukraynadan, Vladimir Streletşkiy, futuroloq,). Bu tarixi görüş məqsədinə nail olmuşdur;

- Dünyanın birliyi. 08.08.08.-da butün dünyanın diqqət mərkəzində olan qədim Çində, Pekin Olimpiadasının əsas şüarı: "Dünyanın birliyi - Ümidlərin birliyi";
- Vahid Dünya Valyutası. Londonda Aprel ayinda İyirmiliyin görüşündə super milli valyutanın zəruriliyindən söhbət açan Rusiyanın prezidenti Dmitry Medvedev L'Aquila, Italiyada, 10 İyul 2009 Böyük Səkkizliyin görüşündə super milli valyutadan istifadə etməyin vaxtı çatdığını deyərək Belçikada hazırlanmış sikkənin ilk nümunəsini "Gələcəyin Birləşmiş Dünyasının Valyutası"nı ("united future world currency.") 8 ölkənin liderlərinə nümayiş etdirdi. Ən maraqlısı odur ki, bəhai Yazılarının əsaslarından birini təşkil edən "Müxtəlifliklərin Birliyi" sikkə üzərində həkk olunmuşdur. Sonda Rusiyanın prezidenti "bu rəmzi işarə göstərir ki, biz qlobal maliyyə böhranında necə də bir-birimizdən qarşılıqlı asılıyıq, bağlıyıq" aşağıdakı əlaqə kanalına bax: lpronina@bloomberg.net və http://www.bloomberg.com/apps/news?pid=20601083&sid=aeFVNYQpByU4

Hər bir Zühurun gücü dünyada yaradılan dəyişikliklərin və Əmrin gücü ilə ölcülə bilər.

Yeni zühur zamanı bəşəriyyət ruhani və material biliklərə hazır olmalıdır. Peyğəmbərlərin məqsədi bəşəriyyəti cəhalət qaranlığından azad etmək, onu irfan işığına yönəltmək və bəşəriyyətin sülh və əminamanlığını təmin etmək üçün lazimi vasitələri təklif etməkdir. Bildiyimiz kimi, kamil insan üçün 3 növ tərbiyə vacibdir- fiziki, humanitar (elmi) və mənəvi (ruhani). Bu mövcud tərbiyə növlərindən kənarda olanlar xaricən insan görkəmində olsalar belə, daxilən heyvani xüsusiyyətlər daşıyırlar. Əlbəttə ki, belə insanlar bəzən özlərini ağıllı sayıb, öz vəziyyətlərindən tam razı qalmaqla bərabər, digərlərini başa düşmədiklərindən, hətta məzəmmət də edirlər. Kamil tərbiyəçi olan peyğəmbərlər insanlara bu 3 növ tərbiyəni

tövsiyə edir və zaman keçdikcə yeni ruhani təlimlər təklif edirlər. Heç bir insan özü bunu sərbəst edə bilmir. Bu məqsədlə verilən Qanunlara əməl edilməsi məqsədi ilə, cəmiyyətlərin inkişaf dərəcəsindən asılı olaraq, Allah qorxusu, cəhənnəm əzabı və ya Allah sevgisi xatirinə əməl edilməsi tövsiyə edilir. Bizim məhdudiyyət kimi başa düşdüyümüz Qanunların arxasında Allahın fəzli və inayəti vardır. *"Həqiqətən, din, dünya xalqlarının müdafiəsi və firavanlığı üçün şəfəq saçan nur və sarsılmaz istinadgahdır, çünki Allah xofu insanları xeyirxahlığa yönəldir və pis işlərdən çəkindirir".*

Hz.Bəhaullahın missiyasının əsas qayəsi bəşəriyyətin birliyi və onun tərəqqisi , firavan yaşamasıdır. Bu möhtəşəm iş üçün tələb olunan alətlər də üzə çıxmalı idi. "Birinci Sur calınandan" (23 may1844) 1 gün sonra teleqraf icad edilıb. "Rəqəmlər Kitabından" götürülmüş ilk göndərilən yeganə cümlədə ("Gör Allah nə yaradır") göstərildiyi kimi, Allahın yaratdığı bu vasitə bəşəriyyətin birliyi üçün birinci addım idi.

Dünyada ilk beynəlxalq təşkilat - Beynəlxalq teleqraf təşkilatı -"İkinci Sur calınandan" (21 aprel 1963) 2 il sonra Parisdə yaradılmışdır.

Əgər keçmişdə biz dünyanı bölməklə məşğul idiksə, indi əksinə, birləşdirməklə məşğul olmağa başladıq. Rəqabət öz yerini, çətinliklə də olsa, əməkdaşlığa verməkdədir. Yeri gəlmişkən "Birinci Sur calınandan" 19 il sonra "İkinci Surun calınacağı" haqda hədis təmamilə həyata keçdi.

"Bəşəriyyətin birliyi Prinsipi - Həzrət Bəhaullahın bütün təlimləri bu mərkəzi ox ətrafında fırlanır - nə sadəcə dayaz bir emosional coşqu, nə də dumanlı və alicənab bir arzudur. Bunu sadəcə insanlar arasında xoşməramlılığın və qardaşlıq ruhunun oyanması ilə də nə eyniləşdirmək olar, nə də ki, bu ayrı-ayrı xalqlar və millətlər arasında ahəngdar əməkdaşlıq ruhu yaratmaq məqsədi daşıyır. Onun nəticələri daha dərindir,

iddiaları isə keçmiş Peyğəmbərlərin irəli sürdükləri hər hansı iddiadan daha yüksəkdir. Onun əsas ideyası yalnız fərdlərə ünvanlanmayıb, bu, ilk növbədə bütün millətləri və dövlətləri bir insan ailəsinin üzvü kimi bir-birinə bağlayan mühüm münasibətlərin mahiyyətinə təsir göstərməyi nəzərdə tutur."

Hal-hazırda bu ideyalar çoxlarına təbii görünür, elə ona görə də Bəhai Dini müasir mütərəqqi insana belə yaxındır. Bə əksinə - bir vaxtlar çoxlarına utopiya görünən məqamlar indi bizim üçün adi bir hala çevrilmişdir.

"Allahın müqəddəs İradə səmasından nazil olduğu kimi, dinin məqsədi dünyanın xalqları arasında birlik və razılıq qurmaqdır; onu ixtilaf və nifaq səbəbi etməyin. Allahın dini və Onun ilahi qanunu insanlar arasında birlik işığının doğması üçün ən qüdrətli alət və ən etibarlı vasitədir. Dünyanın tərəqqisi, millətlərin inkişafı, xalqların asayişi və yer üzü sakinlərinin rahatlığı Allahın ehkam və əmrləri arasındadır."

Bəhai dininin banisi Həzrət Bəhaullah (1817-1892) 170 il əvvəl Avropanın dövlət başçılarına ünvanladığı məktubunda bildirirdi ki, bəşəriyyət, planetimizdə indiki həyat tərzinin kökündən dəyişəcəyi yeni tarixi dövrə qədəm qoymuşdur. Əvvəllər məlum olmayan problemlər yeni dövrdə elə həddə çatacaq ki, hətta ən inkişaf etmiş ölkələr onları təklikdə həll etmək iqtidarında olmayacaqdır. Həzrət Bəhaullah qlobal problemlərdən xilas olmağın yolunu da öncədən göstərirdi; bu problemlər Bəşəriyyətin Birliyi, onun siyasi-iqtisadi forması olan *Dünya Dövlətlərinin Federasiyası* çərçivəsində öz həllini tapa bilər. Bu birliyin orqanı – *Dünya Parlamentinin* əsas funksiyası beynəlxalq qanunların hazırlanması olmalıdır. O, yazırdı: "*Dünya bir vətəndir, bütün insanlar onun vətəndaşıdır*".

Əkka şəhərində Hz.Bəhaullah ümumi bəyanına davam etdi. Aşağıda Onun Ədirnədə və Əkkada Dünyanın sultan və

krallarına ünvanladığı məktublardan, konteksdən ayrilmamaq məqsədi ilə, yalnız bir-iki cümlə verilir:

**Fransa İmperatoru III Napoleona:**

"Ey Paris Hökmdarı! Keşişə de ki, daha zəng çalmasın. Haqq olan Allaha and olsun! Ən böyük Zəng Ən Böyük Adın Sahibinin simasında zühur etmişdir!"

**Rusiya çarı II Aleksandra:**

"Siz insanlar arasında bu dəfedilməz Əmrin adı ilə ayağa qalxın və millətləri Uca, Qüdrətli Allahın yanına çağırın".

**Böyük Britaniya Kraliçası Viktoriyaya:**

"Arzunu kənara qoy və sonra qəlbini Günlərin Qədimi olan Allaha çevir. Biz Allah xatirinə sizi yada salırıq və arzu edirik ki, yerin və göyün Yaradıcısı olan Allahın adını zikr etməklə sizin adınız ucalsın!"

**Almanya Kralı I Vilyama:**

"Sizin İlahi Vəhyin Dan ulduzunu tanımağınıza mane olan qururunuzu və sizi yerin və göyün Taxtının Rəbbindən bir pərdə kimi ayıran arzuları bir kənara qoyun!"

**Avstriya İmperatoru Frans-İosifə:**

"Gözlərinizi açın ki, siz bu əzəmətli Görünüşü görə biləsiniz, gecə-gündüz yalvarıb çağırdığınız Kəsi tanıya biləsiniz və işıqlı Üfüqdə parlayan Nuru seyr edə biləsiniz".

**Osmanlı Sultanı Əbdül-Əzizə:**

"Tanrı qorxusunu kənara qoyma və doğru hərəkət edənlərdən ol. İman və ədalət ətri duyduğun nazirlərini öz ətrafına topla, onlarla məsləhətləş və sənin nəzərində ən yaxşı olanını seç və səxavətli əməl sahiblərindən ol".

**İran Şahı Nəsirəddin şaha:**

“Hər halda Allaha şükr edirik və Onun səxavətindən rica edirik ki, insanların boyunlarını zəncir və qandallardan azad etsin və onların səmimi simalarını Qüdrətli və Səxavətli Olanın Simasına doğru yönəltisin. O, çağıranlara cavab verməyə hazırdır və onunla birgə olanlara yaxındır”.

**Amerikanın hökmdarlarına və onun Respublikalarının Prezidentlərinə:**

“Sınmışları siz Ədalət əli ilə sarıyın və hökmdar və Müdrik Olan Rəbbinizin Göstərişlərinə qarşı olan bədxahları Allahın əmr çubuğu ilə əzin”.

**Roma Papası IX Piyə:**

“Oğulun gizli saxladığı Söz açıqlanmışdır. O, bu Gün insan heykəli formasında yerə göndərilmişdir. Ata olan Rəbbə Həmd olsun! O, Həqiqətən, Özünün ən böyük əzəməti ilə millətlərə gəlmişdir”.

**Xristian kisəsinin bütün keşişlərinə:**

“Siz ey keşişlər izdihamı! Özünüzü kilsələrdə və monastırlarda qapamayın. Mənim ardımca gəlin və özünüzü sizin ruhunuz və insanların ruhu üçün faydalı şeylərlə məşğul edin”.

“Ehtiyatlı olun ki, nəfsiniz və ehtirasınız aranıza təfriqə salmasın. Bir əlin barmaqları və bir bədənin əzaları kimi olun. Əgər siz yəqinlik hasil edənlərdənsinizsə, Vəhy Qələmi sizə belə nəsihət verir.”

(Həzrət Bəhaullah, Yazılarından seçmələr, Bakı 2009, səh.130*)*

“Sizin Mərhəmətli Rəbbiniz istəyir ki, dünyada olan bütün insanlar vahid ruh və vahid bədən kimi olsunlar. Məxluqatın gözünün bənzərini görmədiyi bu günlərdə tələsin və Allahın fəzli və mərhəmətindən öz qismətinizi əldə edin. Xoş o kəsin

halına ki, Allahın yanında olanlara çatmaq ümidi ilə öz yanındakıları boşlayar. Şəhadət veririk ki, o, şərəfə nail olanlardandır...”

(Həzrət Bəhaullah, Yazılarından seçmələr, Bakı 2009, səh.195).

Ümumdünya Ədalət Evi 1985-cı ildə əksər hökumət başçılarına “Vəd olunmuş dünya sülhü” adli müraciəti ən yuksək səviyyədə təqdim etmişdi. SSRİ tərkibində yaşadığımız dövrdə M.S.Qorbaçova da bu kitabça Ümumdünya Ədalət Evinin nümayəndəsi tərəfindən təqdim edilmişdi. Adından göründüyü kimi, hələ 25 il əvvəl Ümumdünya Ədalət Evi bu çox aktual sayılan məsələlərə toxunmuş və mövcud və gələcək problemlərin əsas həlli yollarını təklif etmişdir.

Dünyanın dini liderlərinə ünvanlanmış ikinci buna bənzər bir müraciət isə 2002-ci ilin aprelində təqdim edilmişdir. Bu müraciət əksər ölkələrin dini liderlərinə, o cümlədən, Azərbaycanda dini icma rəhbərlərinə təqdim edilmişdi. Həmin müraciətdən bəzi məqamları ixtisarla verilir:

“İyirminci əsrin davamlı mirası budur ki, o, dünya xalqlarını, özlərini vahid insan nəslinin üzvləri kimi görməyə və yer kürəsini bütün insanların ümumi evi olduğunu anlamağa məcbur etdi. Üfüqləri qaraldan davamlı konfliktlərə və zorakılıqlara baxmayaraq, nə vaxtsa insan təbiətinin ayrılmaz xüsusiyyəti kimi təsəvvür olunan təəssübkeşliklər artıq hər yerdə geriyə çəkilir. Bununla bərabər, bəşər ailəsini mədəni, etnik və milli mənsubiyyətinə görə Babil həngaməsinə çevirən maneələr də dağılmaqdadır. Belə köklü dəyişikliyin elə qısa bir zamanda – tarixi perspektivdə praktiki olaraq bir anda - baş verməsi gələcəkdə olacaq imkanların böyüklüyünü təsəvvür etməyə kömək edir.

İrqi və milli təəssübkeşliklər də belə iddialara qarşı barışmaz olan tarixi proseslər tərəfindən bu cür təsirə məruz qalmışdır.

Keçmişdən imtina burada daha da qətiyyətlə baş verir. Bu gün rasizm iyirminci əsrin dəhşətləri ilə bağlı olduğuna görə o qədər lənətlənmişdir ki, haradasa ruhi xəstəlik xarakteri almışdır. Dünyanın bir çox yerlərində sosial münasibətlər şəklində hələ də yaşayan və bəşəriyyətin əhəmiyyətli hissəsinin həyatını daxildən yeyən mərəz kimi qalan irqi təəssübkeşlik hər yerdə prinsipcə o qədər lənətlənir ki, heç bir insan qrupu sakitcə özünə icazə verə bilmir ki, adı bununla eyniləşdirilsin.

Bu, o demək deyildir ki, keçmişin qaranlığı aradan qalxıb və yeni işıq dünyası doğulub. Çox sayda insanlar dərin kök salmış etnik, cinsi, milli, kasta və sinfi təəssübkeşliklərin təsirlərini öz üzərlərində hiss etməkdə davam edirlər. Bütün bunlar göstərir ki, belə ədalətsizliklər hələ uzun müddət davam edəcəkdir, çünki bəşəriyyətin yeni münasibətlər qaydası yaratmaq və məzlumların taleyini yüngülləşdirmək üçün qurduğu ictimai institutlar və standartlar çox yavaş qüvvə toplayır. Bəlkə daha çox, elə bir sərhəd aşılmışdır ki, ondan geri dönmək daha imkansız görünür. Fundamental prinsiplər müəyyən olunmuş, dəqiq ifadə edilmiş, içtimai rəyə təqdim olunmuş və onları içtimai davranışa tətbiq edə bilən institutlarda tədricən istifadə olunmağa başlanmışdır. Heç şübhə yoxdur ki, mübarizə nə qədər uzun və ağrılı olsa da, nəticə bütün xalqlar arasında və kütlələr səviyyəsində münasibətlərin kəskin şəkildə dəyişməsi olacaqdır.

İyirminci əsrin başlanğıcında dini təəssübkeşliyin digər təəssübkeşliklərə nisbətən dəyişdirici qüvvələr qarşısında daha çox geri çəkilməsi müşahidə olunurdu. Qərbdə, bu zaman elmi nailiyyətlər artıq bəzi sektant istisnalığının mərkəzi sütunlarına ciddi zərbələr vurmuşdu. İnsan nəslinin təsəvvüründə özü haqqında baş verən dəyişikliklər kontekstində din sahəsində olan inkişaflardan ən ümidvericisi dinlərarası hərəkat idi. 1893-cü ildə Çikaqoda keçirilən Ümumdünya Sərgisi, özünün

ruhani və mə`nəvi harmoniya, həmrəylik baxışı ilə bütün qitələrin sakinlərinin təsəvvürlərinə hakim kəsilən və Sərginin nümayiş etdirdiyi heyrətamiz elmi, texnoloji və ticari nailiyyətləri kölgədə qoyan məşhur “Dinlərin Parlamenti»nin yaranmasına səbəb olmaqla hətta özünün iddialı təşkilatçılarını belə təəccübləndirdi.

Bir sözlə, sanki qədim divarlar uçurulmuşdu. Din sahəsində nüfuzlu mütəfəkkirlərin fikrincə, bu toplantı “dünyanın tarixində bərabəri olmayan”, misilsiz bir toplantı idi. Parlament, onun görkəmli təşkilatçısının sözlərinə görə, “dünyanı kor-koranə tərəfkeşlikdən, dözümsüzlükdən azad etdi”. Zəngin təsəvvürə malik liderlik, öncədən inamla deyildiyi kimi, fürsətdən istifadə edər və yer üzünün qədimdən parçalanmış dini icmalarında yeni çiçəklənmə və tərəqqi dünyasının mənəvi əsaslarını təmin edəcək qardaşlıq ruhu oyada bilərdi. Beləliklə, bu cür ruhlandırılmış dinlərarası müxtəlif növ hərəkatlar kök atdı və çiçəklənməyə başladı. Müxtəlif dillərdə mövcud olan çoxlu ədəbiyyat, istər inanan, istərsə də qeyri-inanan olsun, geniş ictimaiyyətə bütün böyük dinlərin prinsiplərini təqdim etdi və radio, televiziya, kino və nəhayət, internet tərəfindən dərin maraqla qarşılandı. Ali təhsil müəssisələri müqayisəli dinləri öyrənmək üçün akademik proqramlar hazırlayıb tətbiq etməyə başladılar. Əsrin sonunda, bir neçə dekada əvvəl ağılasığmaz olan dinlərarası ibadət xidmətləri hər yerdə adi bir hadisəyə çevrildi.

Millətçiliyin susdurulmuş batalyonları da eyni tale ilə üzləşirlər. Dünyanın işlərində baş verən hər bir böhrandan sonra istənilən ölkənin vətəndaşı insanın həyatını zənginləşdirən vətən məhəbbətini, başqalarına nifrət oyadan və onlardan qorxmağı qızışdırmağa yönələn bəyanatlardan daha asanlıqla ayırmağa başlayır. Hətta tanış millətçi tədbirlərdə iştirak

etməyin məqsədəuyğun olduğu yerlərdə belə, ictimaiyyətin münasibətində keçmişin güclü inamı və entuziazmı ilə yanaşı tez-tez göründüyü kimi, bir narahatlıq da hiss olunmaqdadır. Beynəlxalq səviyyədə davamlı baş verən yenidənqurma bu effekti daha da gücləndirir. Birləşmiş Millətlər Təşkilatının indiki formada nə qədər çatışmazlıqları olsa da və təcavüzə qarşı kollektiv hərbi tədbir görməkdə onun imkanları nə qədər məhdud olsa da, bir millətin mütləq hökmranlıq bütünün sınması faktını heç kəs dana bilməz.

Bununla belə, mütəşəkkil dinin böyük hissəsi gələcəyin astanasında iflic olmuş vəziyyətdə dayanmış və Yer üzü insanlarını parçalayan bəzi ən acı münaqişələrin yaranmasında məsuliyyət daşıyan həqiqətə müstəsna imtiyazı olma iddialarının və ehkamlarının məngənəsində sıxılmışdır.

İnsan rifahı üçün bu, dağıdıcı nəticələrə gətirib çıxarır. Dinin adını rüsvay edən fanatizm partlayışları üzündən bədbəxt insanların üzərinə yağan dəhşətləri ətraflı sadalamağa ehtiyac yoxdur. Bu heç də yeni fenomen deyildir. Çoxlu misallardan ancaq birini gətirməli olsaq, on altıncı əsr Avropasının dini müharibələri, qitənin bütün əhalisinin otuz faizinin həyatı bahasına başa gəlmişdi. Belə konfliktlərə rəvac verən sektant ehkamçılığının kor qüvvələrinin insanların şüurunda əkdiyi toxumların nə kimi məhsul verdiyi üzərində düşünülməlidir.

Bu günün vəzifələri Həzrət Bəhaullah tərəfindən bir əsrdən də çox əvvəl yazılmış və sonrakı onilliklərdə daha da geniş yayılan sözlərdə ümumiləşdirilmişdir:

*Heç şübhə ola bilməz ki, dünyanın insanları, irqi və ya dini mənsubiyyətlərindən asılı olmayaraq, bir İlahi Mənbədən ilham alır və bir Allaha itaət edirlər. Onların itaət etdikləri hökmlər arasındakı fərqlər onların nazil olduğu əsrin ehtiyacı və tələbinə görədir. Onların hamısı, insanların təhrifinin nəticəsi olan, bir neçəsindən başqa, Allah tərəfindən hökm olunmuşdur*

*və Onun İradəsinin və Məqsədinin ifadəsidir. Qalxın və iman gücü ilə silahlanaraq bihudə xəyallarınızın sizin aranızda ixtilaf salan allahlarını sındırıb parçalayın. Ondan yapışın ki, sizi yaxınlaşdırır və birləşdirir.*

Belə müraciət dünyanın böyük inam sistemlərindən heç birinin fundamental həqiqətlərinə olan inamı tərk etməyə çağırmır. Tamamilə əksinə. Dinin özünün tələbləri vardır və özü-özünün haqlığına sübutdur. Başqalarının inandıqları və ya inanmadıqları şey hər hansı başqa bir insanın vicdanı üçün danışmağa belə layiq meyar ola bilməz. Yuxarıda deyilən sözlərin birmənalı şəkildə təkidlə tövsiyə etdiyi odur ki, köklərini ruhun həyatının ətrafına sararaq birliyə aparan səyləri boğan və nifrət və zorakılığa şərait yaradan yeganə güclü faktor olan istisnalıq və sonluq iddialarından əl çəkilsin.

Biz hesab edirik ki, əgər dini liderlik, ümumiyyətlə, iyirminci əsrin dəyişikliklərinin təsiri altında formalaşan qlobal cəmiyyətdə bir əhəmiyyət kəsb edirsə, bu tarixi çağırışa cavab verməlidir. Açıqca görünür ki, getdikcə daha çox insanlar bu fikrə gəlirlər ki, bütün dinlərin əsasında duran həqiqət mahiyyətcə birdir. Bu anlayış teoloji disputların həll olunması yolu ilə deyil, başqaları ilə hər zaman genişlənən ünsiyyət təcrübəsindən və bəşər ailəsinin vahidliyi fikrinin oyanmasından doğan intuitiv dərketmədən irəli gəlir. Yox olmuş dünyalardan miras qalmış dini ehkamların, ritual və qanunlar toplusunun qarışıqlığından belə bir hiss yaranır ki, ruhani həyat - necə ki, birlik müxtəlif millətlərdə, irqlərdə və mədəniyyətlərdə təzahür edir – o da hər kəs üçün eyni dərəcədə açıq olan vahid qeyri- məhdud gerçəklikdən ibarətdir. Bu formalaşmamış və hələ tam aydın olmayan anlayışın möhkəmlənməsi və barış dünyasının qurulmasına effektiv təsir etməsi üçün o, hətta bu gec saatlarda Yer üzü sakinlərinin

rəhbərlik üçün üz tutduqları kəslərin tam səmimi köməkliklərini almalıdır.

Son nəticənin ruhani və sosial cəhətdən sağlam olacağının təminatı, Yer kürəsində məskən salmış insan kütlələrinin ona inamıdır ki, Kainat insanların şıltaqlığı ilə deyil, qayğıkeş və qüsursuz İlahi Qüvvə tərəfindən idarə olunur.

Millətləri ayıran sədlərin dağılması ilə yanaşı, bizim əsr, keçmişdə hesab olunduğu kimi, Göyün həyatını Yerin həyatından sanki həmişəlik ayıran nə vaxtsa yıxılmaz divarın uçulmasının şahidi olmaqdadır. Bütün dinlərin yazıları möminləri həmişə öyrədirdilər ki, başqalarına xidmətə yalnız mənəvi borc kimi deyil, həm də ruhun özünün Allaha yaxınlaşması üçün bir vasitə kimi baxsınlar. Bu gün, cəmiyyətdə gedən mütərəqqi yenidənqurma, bu tanış təlimə yeni baxış verir. Dünyanın ədalətli prinsiplərlə canlanması haqda qədim vəd yavaş-yavaş real hədəf kimi görünməyə başladıqca, ruhun və eləcə də cəmiyyətin tələbatlarının ödənilməsinə getdikcə kamil ruhani həyatın bir-birini qarşılıqlı tamamlayan aspektləri kimi baxılacaqdır.

Əgər dini liderlər bu son vəziyyətin ortaya qoyduğu çağırışa cavab versələr, onda bu cavab, dinin və elmin, onların vasitəsilə şüurun potensial imkanlarının inkişaf etdiyi iki zəruri bilik sistemi kimi qəbul edilmələrindən başlamalıdır. Bir–birilə ziddiyət təşkil etmədən, ağılın gerçəkliyi araşdırmasının bu iki fundamental metodu bir birindən asılıdır və tarixin, onların bir-birini tamamlama təbiətinin tanındığı və bir-birilə birlikdə işləyə bildikləri o nadir, lakin xoşbəxt dövrlərində daha çox bəhrə vermişlər. Elmi tərəqqinin doğurduğu kəşf və qabiliyyətlərin lazımi şəkildə istifadə olunması üçün həmişə ruhani və mənəvi prinsiplərin rəhbərliyinə ehtiyac vardır; dini inamlar, onlar nə qədər əziz olsalar da, könüllü şəkildə və

minnətdarlıqla elmi metodlarla qərəzsiz yoxlanılmaq üçün təqdim olunmalıdır.

Xarakterin nəcibləşdirilməsi və münasibətlərin ahəngdar edilməsi ilə birbaşa əlaqədar olmaq etibarilə din bütün tarix boyunca həyata məna verən əsas qüvvə olmuşdur. Hər bir əsrdə o, xeyirxahlıq tərbiyə etmiş, şəri pisləmiş və görmək istəyənlərin nəzərinə indiyədək görünməmiş imkanların mənzərəsini açmışdır. Onun məsləhəti ilə düşünən qəlb dünyanın onun üzərinə qoyduğu məhdudiyyəti aşmaq və öz potensialını açmaq üçün ilham alır. Adının verdiyi məna kimi, din eyni zamanda bütün böyük və mürəkkəb ictimai sistemlərdə cürbəcür xalqları bir yerə yığan əsas qüvvə kimi çıxış etmiş və beləliklə, bunun vasitəsilə insanın üzə çıxmış qabiliyyətləri öz ifadəsini tapa bilmişdi. Bu əsrin üstünlüyü o baxışdadır ki, bu baxış bütün insan nəslinə bu sivilizasiyanın inkişafına vahid bir hadisə, bizim dünyanın Allahın aləmi ilə dövri olaraq baş verən təması kimi baxmasına imkan verir.

Hər gün keçdikcə, dini təəssübkeşlik ocaqlarının alışma təhlükəsi böyüyür ki, bu, nəticələri təsəvvürə gəlməyən dünya miqyaslı böyük yanğına çevrilə bilər. Belə bir təhlükə hökumət tərəfindən təkbaşına aradan qaldırıla bilməz. Biz özümüzü də aldatmalı deyilik ki, qarşılıqlı dözümlülüyə edilən çağırışlar, öz-özlüyündə, İlahi xeyir-dua alması iddiasında olan düşmənçilik təzahürlərini söndürəcəkdir. Bu böhran dini liderlərdən, cəmiyyətin diqqətini eyni dərəcədə dağıdıcı olan irqi, milli və cinsi təəsübkeşliyə yönəldənlər kimi, keçmişdən qətiyyətlə ayrılmağı tələb edir. Vicdan məsələlərində başqalarına təsir göstərməyin imkan verilən yeganə səbəbi ancaq insan rifahına xidmət ola bilər. Sivilizasiyanın bu əzəmətli dönüş mərhələsində belə xidmət üçün tələblər bundan da artıq aydın ola bilməz. “Bəşəriyyətin birliyi tamamilə bərqərar olmayınca”, - Həzrət Bəhaullah inandırır, - “onun

rifahına, əmin-amanlığına və təhlükəsizliyinə nail olmaq qeyri-mümkündür”.

“De: Ey üləma tayfası! Allahın Kitabını öz yanınızda olan qaydalar və elmlərlə ölçməyin, çünki O, məxluqat arasında Haqqın tərəzisidir. İnsanların yanında olan şeylər bu böyük tərəzidə çəkilər, həm də onun çəki ölçüsü onun öz meyarı ilə yoxlanar — bunu bilin!”

(Həzrət Bəhaullah, Yazılarından seçmələr, Bakı, 2009, səh.323)

“İnsan nəslinin keçməli olduğu körpəlik və uşaqlığın uzun əsrləri geridə qalıb. İnsanlıq indi onun təkamülünün ən narahat mərhələsi, yeniyetməlik mərhələsi ilə, - o dövr ki, gəncliyin çılğınlığı və onun qaynarlığı ən yüksək zirvəyə çatır - həmişə bağlı olan iğtişaşlar yaşamaqdadır və tədricən yetkinlik mərhələsini xarakterizə edən sakitliklə, müdriklik və kamilliklə üstələnməlidir. Onda insan nəsli onu, onun son nəticədə inkişafının asılı olduğu bütün güc və qabiliyyətləri əldə etməyə qabil edən yetkinlik yaşına çatacaqdır.” (Şövqi Əfəndi, Həzrət Bəhaullahın Dünya Nizamı)

“Allah Öz Peyğşmbərlərini insanlara iki məqsəd üçün göndərir. Birincisi – insan övladını cəhalət qaranlığından azad etmək və onları həqiqi anlayış işığına çıxarmaq. İkincisi – bəşəriyyət üçün sülh və dincliyi təmin etmək və onların bərqərar olması üçün bütün vasitələri vermək. Allahın Peyğəmbərlərinin simasında təbibləri görmək lazımdır, onların vəzifəsi dünya və onun xalqlarının sağlığı qayğsına qalmaqdır. Təəccüblü deyil ki, təbibin bu gün yazdığı dərman onun əvvəllər yazdığından fərqlənir.”

Allah Elçilərinin gəlişi ən qədim zamanlardan başlayıb. Həzrət Bəhaullahın təliminə görə, bütün Səma Tərbiyəçiləri – Hz. İbrahim, Hz. Musa, Hz. Budda, Hz. Krişna, Hz. Zərdüşt,

Hz. İsa, Hz. Məhəmməd "Bir günəşin şəfəqləridirlər", Onların hamısı öz mahiyyətinə görə tək olan Allah Dinini təsdiq edir, tərəqqinin hərəkətverici qüvvəsinin vəzifəsini yerinə yetirirdilər. Allahın hər bir keçmiş Elçisinə, tarixə daxil olmuş və xatirələrdən silinmişlərə, İlahi Dünya quruculuğunda böyük rol müəyyənləşdirilmişdir.

Həzrət Əbdül-Bəha buyurur: "Bir halda ki, İlahi Mahiyyətlər, Allahın Ali Elçiləri, məxluqatın mahiyyətini və keyfiyyətini özlərində cəmləşdirir, mövcud reallıqları dərk edir və ondan üstündür və bütün şeyləri anlayır, deməli, Onların bilikləri İlahi bilikdir, onlar kənardan mənimsənilməmişdir, yəni İlahi bəxşişdir; bu İlahi Vəhydir... Allahın Ali Elçilərinə yaradılmışların mahiyyəti və sirlərinin sirləri də bəllidir. Buna görə də Onlar bəşər aləminə uyğun gələn və müvafiq olan qanunlar qoyurlar, çünki din şeylərin mahiyyətindən axıb gələn ən dərin əlaqədir... Onlar bu dərin əlaqəni dərk edir və bu biliklər vasitəsilə İlahi Qanunları bərqərar edirlər."

*"Ey tövhid əhli! Allah Əmrinin Məzhərləri və Onların Vəhylərini muşayiət və bəyan edən əlamətlər arasında ayrı-seçkilik qoymayın. Əgər siz dərk edənlərdən və bu həqiqətə inananlardansınızsa, bilin ki, tovhidin həqiqi mənası budur. Həmcinin əmin olun ki, Allahın bu Məzhərlərinin işləri, əməlləri, xeyr, onlara aid olan hər şey, onların gələcəkdə aşkara çıxaracaqları hər bir şey Allahdan hökm olunmuşdur və Onun İradə və Məqsədinin ifadəsidir. Kim onların özləri və sözləri, onlara nazil olanlar, yaxud onların xasiyyətləri və hərəkətləri arasında azacıq fərq qoyursa, doğrudan da Allaha inanmamış, Onun ayələrini inkar etmiş və Onun Elcilərinin Əmrinə xəyanət etmiş olur."*

Həzrət Bəhaullah, Yazılarından seçmələr, (24) səh.55)

Həzrət Bəhaullah buyurur: "Var-dövlətə və hakimiyyətə malik olanlar dinə ən dərin rəğbət bəsləməlidirlər. Həqiqətən,

din dünya xalqlarının müdafiəsi və firavanlığı üçün şəfəq saçan nur və sarsılmaz istinadgahdır, çünki Allah xofu insanları xeyirxahlığa yönəldir və pis işlərdən çəkindirir. Əgər dinin nuru zəifləyərsə hərcmərclik və qarışıqlıq baş verər, düzgünlük və ədalətlilik, dinclik və sülh işığı sönər. Hər bir dərrakəli insan buna şahiddir".

"Biz bütün bəşəriyyətə əmr etmişik ki, insanlığın qorunması üçün ən etibarlı vasitə olan Böyük Sülhü bərqərar etsinlər. Dünya hökmdarları həmrəyliklə, bundan möhkəm yapışmalıdırlar, çünki bu, bütün xalqların və millətlərin təhlükəsizliyi və rifahını təmin edəcək ən ali vasitədir. Onlar, həqiqətən, Allahın qüdrətinin təzahürləri və Onun iqtidarının dan yerləridir. Biz Qüdrət Sahibindən diləyirik ki, təbəələrinin rifahına yardım edən şeylərdə onlara lütfü ilə yardım etsin. Bu məsələ barəsində izahat əvvəllər İzzət Qələmindən təfsilatı ilə nazil olmuşdur; ona uyğun hərəkət edənlərin xoş halına."

*(Kitab`i-Əqdəsdən sonra nazil olmuş Lövhlər, İşraqat, ikinci İşraq)*

Hz.Bəhaullahın İranda yaşadığı dövr sona çatıb. İran əhli artıq baş vermiş itkidən xəbərdardırmı? Cəhalət içində qalanların, nadanlıq içində boğulanların, xurafatdan kor olanların, öz mənafeyini gudən adamlar tərəfindən idarə olunanların, saxta həyat sürənlərin görmə və bilmək qabiliyyəti bəs nə vaxt yaranacaq? Allah Əmrinə xilaf çıxanlara veriləsi cəzanı Hz.Bəhaullah çəkdi. Nəhayət, Allah Əmri tam olaraq quruldu.

M.M. Kaziminin "Qorxulu Tehran" kitabında (Baki, 1984, səh. 118) bu cür ifadələrə rast gəlinir: məzlum babiləri doymək...və burada "babi" sözü kafir kəlməsi ilə (səh.171) eyniləşdirilir. Müəllif insan hüquqlarını tapdalayan və onu ölümə məhkum eləyən, insan mənəviyyatını alçaldan və qəlbini yaralayan cəmiyyətin adət-ənənələrini damğalayır. Müəllif

İranın paytaxtı Tehranda, qədim mədəniyyət və möhtəşəm şairlər diyarında, 1915-1916-cı illər hadisələrini, Rza-Şahın hakimiyyətə gəlməsi dövrünü qələmə alsa da, vəziyyət müasir günlərdə daha da pisləşib.

21 Avqust 1980-cı ildə İran bəhailərinin Ruhani Məhfilinin bütün 9 üzvi həbs olunmuş və tezliklə də yoxa çıxmışdı. Bütün İrandan olmaqla yeni üzvlər seçilmiş və 13 dekabr 1981-ci ildə onlardan 8 nəfəri həbs olunmuş və iki həftə sonra edam edilmişlər. 1984-cü ilin sonuna qədər İran rejimi 177 bəhai öldürmüşdür. 1979-cu ildə Xomeyininin İnqilabi Müdaifə dəstəsi bəhailərin müqəddəs məqamlarından birini - Hz.Babın Evini dağıtmışlar. Bəhailərə qarşı edilən digər əməliyyatlardan onların oğurlanması və həbs edilməsi (bəzilərinin sonradan böyük məbləğdə pul alınmaqla azad edilmələri), təşkil edilmiş fanatik kütlə hücumuna məruz qalmaları, hətta dəfələrlə bəhai qəbirstanlıqlarının dağıdılması, müəllim və şagirdlərin məktəblərdən qovulması, bəhai professorlarının universitetlərdə dərs demək və tələbələrin universitetlərə qəbul edilmək hüququndan məhrum edilməsi və bir çox digər sosial məhrumiyyətlərə düçar olunması və s.

1998-ci ilin iyulunda, İran İslam Respublikasının Məşhəd şəhərində Ruhulla Ruhaninin gözlənilmədən edam edilməsinin gətirdiyi ruhi sarsıntıdan sonra bir çox dövlətlərin və həmçinin Birləşmiş Millətlər Təşkilatı orqanlarının da böyük hiddətinə səbəb olmuşdur. Sentyabr ayının sonlarında İranın təhlükəsizlik idarəsinin Bəhai Ali Təhsil İnstitutuna etdiyi mütəşəkkil basqın nəticəsində 36 müəllim həbs edilmiş və bütün ölkə üzrə 500-dən artıq bəhai evlərində yoxlama reydləri keçirilmişdi. Bu axırıncı tədbir bu vaxtadək davam edən ümumdünya etiraz kampaniyasına səbəb olmuşdur; bu hərəkatda akademik institutların və təşkilatların əməkdaşları, müəllimlər və tələbələr iştirak etmişlər.

Mətbuat orqanları isə bu hadisəyə xüsusi maraq göstərir, belə ki, "Le-Mond", "Nyu-York Tayms", “ The Wall Street Journal” (1 August 2008 A Campaign of Persecution Against a Faith of Tolerance (aşağıdakı əlaqə kanalına bax): <http://www.factiva.com/factiva/learninglinks/listen> ), CNN (aşağıdakı əlaqə kanalına bax): CNNIranians/Bahai http://edition.cnn.com/2009/WORLD/meast/02/06/iran.bahai.apology/index.html ABŞ, Pensylvania University, “*Journal of Cultural Studies of the Middle East and North Africa”* and reprinted at *Iran Press Watch* (aşağıdakı əlaqə kanalına bax): http://www.iranpresswatch.org/post/4912

və bir sıra nufuzlu qəzetlərin səhifələrində dərc olunmuş böyük həcmli məqalələr buna əyani sübutdur.

1998-ci ilin dekabrından, BMT-nin Baş Məclisinin İrana dair qəbul etdiyi daha bir uğurlu qətnaməsində Bəhailər haqqında məsələnin xüsusilə vurğulanması, şübhəsiz ki, dini zəmində zəifləmək bilməyən görünməmiş təqiblərin dözülməs olması faktından irəli gəlmişdir.

1998-ci ilin sentyabrında Polşada keçirilən, İsveç kraliçasının açdığı, "Varşava payızı" adı ilə məşhur olan, nüfuzlu musiqi festivalında Norveç bəstəkarı Lasse Toresen tərəfindən yaradılan "İşıq və alov" kompozisiyası, opera-balet əsəri, böyük uğurla ifa edilmişdi. Bu əsərin süjet xəttinin əsasını, şəhidlərin İranda göstərdikləri qəhramanlıq təşkil edirdi.

1999-cu il may ayının 5-də ABŞ-ın Prezidenti Bill Klinton daha üç nəfəri Beynəlxalq Dini Azadlıq üzrə ABŞ Komitəsinin üzvü tə'yin etmişdir. Ağ Evdən verilən məlumata (THE WHITE HOUSE, Office of the Press Secretary title: // OLK217 A: / News from internet htm) görə, "Xarici dövlətlərdə dini azadlığın himayə edilməsi Bill Klinton siyasətində birincidir" və "Dini azadlıq Prezident administrasiyasının xarici

siyasətinin ayrılmaz hissəsi olmaqda davam edir". Ümumdünya dinlərinin doqquz nəfər nümayəndələrindən biri də Yel Universitetinin professoru, ABŞ Bəhailəri Ruhani Məhfilinin Xarici işlər üzrə katibi, tarix elmləri doktoru, professor Firuz Kazımzadədir (Kaliforniya). O, xarici ölkələrdə bəhailərə qarşı dini zəmində törədilən repressiyalar mövzusunda, həm Ağ Evdə (Beynəlxalq əlaqələr), həm də Senatda (Beynəlxalq münasibətlər komitəsi) etdiyi çıxışları ilə məşhurdur. Maraqlıdır ki, bu yaxınlarda bir həftə ərzində Azərbaycan rəsmiləri tərəfindən Bakıya dəvət almış 86 yaşlı alim (11.11.2011.), onun "Qafqaz uğrunda mübarizə" adlı kitabı böyük maraq oyatdığından Bakıda rus dilinə tərcümə edilmiş, bilavasitə Azərbaycan Diplomatiya Akademiyasında və s. yerlərdə tələbələrlə ünsiyyəti onun biliyindən bəhrələnməyə imkan yaratmışdır. Bakı Bəhai mərkəzində keçirilən görüşdə onun bizim bəhai tariximizi də dərindən bildiyi məlum olmuş və Şovqi Əfəndi ilə gənc (16) yaşlarındakı ünsiyyəti və xatirələri böyük marağa səbəb olmuşdur.

Firuz Kazımzadənin atası Kazım Kazımzadə onlarla dilə tərcümə edilmiş "Bəhai Dini Tarixi" kitabının müəllifidir. Kazım Kazımzadə 1918-1919-cu illərdə Bakıda yaşamışdır, o burada universitetə daxil olmaq istəyirmiş. İrandan qayıtdıqdan sonra Şovqi Əfəndinin "Dünya bəhailərinə müraciət" məktubunu və Bəhai Dini tarixinə aid bir kitabı da Əsədulla Zərgərova, o da öz növbəsində bunları Movsum Xəlilzadəyə çatdırmışdır.

"Heydər Əliyev və Azərbaycanda din siyasəti: Gercəklər və perspektivlər" adı altında keçirilən beynəlxalq konfransda (Bakı, 3-4 Aprel 2007-ci il) digər dinlərin nümayəndələri ilə bərabər, Azərbaycan tarixində ilk dəfə olaraq, bəhai icmasinin nümayəndələri də bu mötəbər konfransa dəvət almış və iştirak etmiş, bu sətrlərin müəllifi "Dinlərarası münasibətlər – yeni

yanaşmalarin zəruriliyi" mövzusunda çıxış etmiş və bu faktın özü 27 xarici ölkədən gəlmiş dini, elmi, diplomatik, siyasi, ictimai və digər təşkilatların nümayəndələrinə bütün dünyaya tolerantlıq və dini dözümlük mühitinin Azərbaycanda neçə həyata keçirildiyinə bariz nümunə olmuşdur. Bəşəriyyətin birliyinə nail olmaq ücün müxtəlif dinlərin nümayəndələrinin özlərinin üstün olması - dini istisnalıq tezisindən əl çəkməli olmalarinin vacibliyi – çıxışın ana xəttini təşkil edirdi.

Əgər hər-hansı bir ölkədə Allaha və ətrafındakı yaxınlarına olan sevgi yox olub gedərsə, o zaman o insanlar nifrət və ədavət, xürafat və mövhumata qurşanırlar. Onlar insanların ürəyindən Allahı və Allah xofunu çıxarıb, boş qalan yeri özlərinin uydurduqları yalançı allahlara – irqi, milli, sinfi və dini **istisnalığa** verir və daha bu kimi qorxunc ideyalara sitayiş edirlər. Bu qeyri-sağlam və dağıdıcı ideyalar cücərib baş qaldırarsa, o zaman bir millət digərinə hakim kəsilər, dərisinin bir rəngi olan insanlar digər rəngi olan insanlardan asılı olar və s. Bu bir sinfin imtiyazlılığının əsaslandırılmasına və digər, qalan insanlar üzərində mütləq hakimiyyətinə gətirib çıxarır. Onlar insan hüquqlarını asanlıqla pozub, insan ləyaqətinə ziyan vuraraq azad seçim hüququnu unudur və dini azadlığı pozurlar. Bu dəhşətli və insanları ucuruma aparan təhlükəli yol insanlara nəinki şərəf gətirmir, sonradan gələcək nəsillərin, milyonlarla insanın utanc yerinə çevrilir. II Dünya Müharibəsindən 65 ildən artıq keçməsinə baxmayaraq (mən bunu Almaniyada olarkən bilavasitə müşahidə etmişəm) almanlar “sanki bizi dəyişdirmişdilər” deyə izah verməyə belə çətinlik çəkib, usanıb, xəcalət çəkirdilər. Belə, əsl insana xas olmayan hərəkətlər, misallar təəssüf ki, keçmiş SSRİ və ÇXR, İran və digər ölkələrdə müşahidə edilməkdədir.

Atatürk Mərkəzində (19.05.07. BMT-in Azərbaycan nümayəndəliyinin yaxından iştirakı ilə) Dünyada Mədəniyyətlərin Müxtəlifliyi Dialoq və İnkişaf Gününə həsr olunmuş dəirmi masada dövlət qurumları, Milli Məclis, Milli Elmlər Akademiyası, Ali məktəblər, Konservatoriya, Yaradıcı İttifaqlar, beynəlxalq təşkilatlər və fondların, səfirliklər, dini təşkilatlar, KİV-nin nümayəndələri Azərbaycan kimi həssas bir yerdə son aylarda belə görüşlərin aparılması vaxtında təşkil olunmuş tədbirlərdən olduğu və Azərbaycanın düzgün yolda olması qeyd edilmişdir. Bəhai icmasının da nümayəndələrindən birinin (bu sətirlərin müəllifinin) çıxışında Azərbaycanımızda gedən bu müsbət dəyişikliklər qiymətləndirmiş, yüksək amallarla yaşamağın vacibliyinin əhəmiyyətini vurğulamışdır. Burada vurğulunan dəyərlərin Bəhai Dinində 165 il (!) əvvəl nə qədər vacib olduğu göstərilmiş və həmin dəyərlərin artıq, nəinki kiçik bir model kimi bəhai icmalarında həmçinin müxtəlif ölkələrin konstitusiyalarında, öz əksini müvəffəqiyyətlə tapması göstərilmişdir. Məhz Atatürkün adını daşıyan Mərkəzdə Atatürkün də vaxtı ilə diqqətini cəlb etmiş və yazılarında müraciət etdiyi Bəhai prinsip və dəyərlərinin olması həm yerli həm də xarici ölkə nümayəndələrinin böyük marağına səbəb olmuş, bunun da nəticəsində ən çox suallarla müşahidə olunan çıxışlardan biri olmuşdur.

“Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyası, Azərbaycan Kulturoloqlar cəmiyyəti, Vətəndaş Cəmiyyətinin beynəlxlaq Mədəniyyət Forumunun təşkil etdikləri mütəmadi seminar və görüşlər son illər Azərbaycanda təşkil olunan ən əhəmiyyətli mədəniyyət hadisələrindəndir. SIMURG Assosiasiyasının Prezidenti Culturoloq-Professor Fuad Məmmədovun (bir çox beynəlxalq və milli akademiyalarının üzvi) yüksək səviyyəli çıxışları Dünya miqyaslı Azərbaycan ziyalılarının ənənələrinin davamçısı olmaqla bərabər, Dövlət qurumlarının, Milli Elmlər

Akademiyasının, Ali Məktəblərin rəhbərlərinin, Vətəndaş Cəmiyyəti Beynəlxalq Mədəniyyət Forumunun, Azərbaycan Kulturoloqlar Cəmiyyətinin, Azərbaycan Mədəniyyət Assosiasiyasının üzvlərinin, müəllimlər, məmurlar, sahibkarlar, Milli QHT-nin, Yaradıcı və Həmkarlar İttifaqlarının, Bələdiyyələrin, Beynəlxalq təşkilatlər və fondların, Səfirliklərin, Din təşkilatlarının, KİV-nin nümayəndələrinin də cəlb olunması seminarlarda toxunulan yüksək insani ideyaların tədricən cəmiyyətimizdə kök salacağına ümidlər yaradır.

Professor Fuad Məmmədov, son kitabı (Культура Управления, Баку, «Апостроф» Çap evi, 2009) müasirlərimizə oxumağa ən çox tövsiyə etdiyim kitablardandır. Yarandığı gündən 20 il ərzində cəmiyyətimizin mənəvi inkişafında olduqca böyük işlər görməkdə olan “SIMURG” Assosiasiyası, məsələn, seminarlarından birini “Həyatımızın məqsədi”nə həsr edilmişdi. Müxtəlif sənət sahibləri və alimlər tərəfindən, müxtəlif fikirlər irəli sürüldü, amma bir cümlə ilə, sadə və bizi xəlq edən Allahın Kiçik Namazdan olan Sözünü catdırmağımız, məncə, yerinə düşdü; “Ey mənim Allahım, Səni tanımaq və Sənə ibadət etmək üçün məni yaratdığına şəhadət verirəm”.

“Hər bir insanın ürəyinin dərinliyində belə bir inam var ki, həyatın yaşayış uğrunda mübarizənin xaricində daha ayrı bir mənası var. Və belə bir sual qaçılmazdır: doğrudan da, bizim mövcudluğumuzun əsl məqsədi nədir? Mövcudluğumuzun məqsədini bilmək üçün biz ilk növbədə insan varlığının həqiqi təbiətini başa düşməliyik. Biz “insanın təbiəti” frazası üzərində düşünəndə ağlımıza nə gəlir? Bu nəsə müsbət və yaxud mənfi bir şeydirmi? Biz sadəcə instinktlərin, tamahların, ehtiyacların və emosiyaların cəmindənmi ibarətik, yoxsa nəsə ayrı bir şeyi də ifadə edirik? Bizi heyvanlardan fərqləndirən bir şey varmı?

Maddi mövcudluğa aid olan çoxly xüsusiyyətlər vardır ki, bu bizdə və heyvanlarda ümumidir. Lakin bizim ruhani

təbiətimiz də var, onu bəziləri qəlb adlandırılar, və məhz bu ruhani təbiətdir ki, bizim həqiqi məqsədimizi müəyyən edir. Hər bir fərdin həyatının məqsədi ruhani keyfiyyətləri və kamillikləri inkişaf etdirmək və Allaha tərəf getməkdir. Bu inkişaf boş ibadətlə baş vermir. Nə də ki buna dünyəvi arzulara həsr olunmuş bir həyatla nail olmaq olar. Bir insanın həyatının məqsədinə nail olmaq - bu da Allahı tanımaq və Ona ibadət etməkdir – bəşəriyyətin kollektiv həyat səhnəsində fəaliyyət göstərməyi tələb edir; bu, cəmiyyətə fədakarcasına xidmətə çağırır.

Bəşərin kollektiv həyatının məqsədi daim inkişafda olan sivilizasiyanı irəli aparmaqdır. Sivilizasiyanin iki mühüm komponenti var: maddi və ruhani. Bəşəriyyətin firavanlığa və həqiqi səadətə çatması üçün bu komponentlərin hər ikisi eyni zamanda inkişaf etməlidir.

Beləliklə, biz görə bilərik ki, həyatda bizim məqsədimiz ikilidir: Allahı tanımaq və sevmək və sivilizasiyanın inkişafına töhfə vermək. Hər iki məqsədin yerinə yetirilməsində əsas rol oynayan bir şey var ki, bu da bilikdir. Bizim şəxsi inkişafımız üçün biliyə ehtiyacımız vardır, bu bilik Allah və öz həqiqi təbiətimiz haqqında biliklə başlayır.

Bilik həm də sivilizasiyanın təməlidir. Bilik niyə belə mühümdür? Hamının çoxlu müxtəlif şeyləri unutduğu bir cəmiyyətdə nələr baş verə bilməsi barədə düşünün. Əgər biz təsərrüfatın necə aparılmasını unutsaq, hər gün istifadə etdiyimiz kompüterləri istehsal və təmir etməyi unutsaq, dili unutsaq, nə baş verər? Görərsiniz ki, belə bir cəmiyyət tezliklə tənəzzülə uğrayacaq. Sivilizasiya bilikdən asılıdır.

Bilik həm fərdi inkişafda, həm də sivilizasiyanın irəlilədilməsində mərkəzi rola malik olduğundan hər bir insanın biliyə əli çatmalı, bundan istifadə imkanı olmalıdır və bundan əlavə, onun yaradılmasında iştirak etməlidir.

İnsanların təbiətdə baş verən proseslərin mexanizmini açmaq səylərindən yaranan bilik elmdə toplanır. Gerçəkliyin ruhani təbiəti barədə anlayışlar isə bizim din adlandırdığımız biliklər sistemində toplanıb. İntellektual (əqli) və ruhani cəhətdən inkişaf etmək, cəmiyyətin transformasiyasına töhfə verə bilmək üçün hər bir fərd həm elmi, həm də dini bilik əldə etməlidir".

"Bütün insanlar hər zaman inkişaf edən sivilizasiyanı irəlilətmək üçün yaradılmışlar".

(Həzrət Bəhaullah, Yazılarından seçmələr, Bakı, 2009, səh. 202).

Həzrət Əvdül-Bəha "İlahi Sivilizasiyanın sirri"ndə (Единение, Санкт-Петербург, 2002, стр.120) cəmiyyətin rifahı üçün məsuliyyətlərimizi bizə xatırladır:

"Allah bizə göz verib ki, ətrafımızdakı dünyaya baxaq, sivilizasiya və həyatda lazım olan şeyləri inkişaf etdirmək üçün lazım olanları əldə edək. O bizə qulaq verib ki, eşidək, alim və filosofların müdrikliyindən faydalanaq, onu yayaq və praktikada istifadə edək. Hisslər və qabiliyyətlər bizə ona görə əta edilib ki, onu ümumun rifahına xidmətə həsr edək; beləliklə qavrama və əqllə başqa həyat formalarından fərqlənərək, qarşıya çıxan imkanın böyük və kiçik, adi və ya qeyri-adi olmasından asılı olmayaraq hər zaman və bütün istiqamətlərdə çalışmalıyıq ki, bütün bəşəriyyət biliyin sarsılmaz qalasına daxil olsun. Biz davamlı olaraq insanın xoşbəxtliyi üçün yeni əsaslar qurmalı, bu məqsədlə yeni vasitələr yaratmalı və onları saxlamalıyıq. Necə alidir, necə də şərəflidir o insan ki, bu məsuliyyətləri yerinə yetirmək üçün ayağa qalxıır. Necə də səfil və nifrətəlayiqdir o insan ki, cəmiyyətin rifahına göz yumur, qiymətli həyatını öz xudbin maraqlarına və şəxsi mənfəətinin arxasınca qaçmaqla boşuna sərf edir. İnsan ən yüksək xoşbəxtliyiə o zaman çatar, Allahın əlamətlərini həm dünyada,

həm də insan qəlbində o zaman görər ki, uca səylər atını sivilizasiya və ədalət meydanına sürsün".

Bizim irəlilətdiyimiz sivilizasiyanın təbiəti ilə bağlı həzrət Əbdül-Bəha bu cür izahat verir:

"Maddi sivilizasiya bəşər aləminin tərəqqisi üçün alətlərdən biridir, amma o İlahi sivilizasiya ilə birləşməyincə, arzu olunan nəticə, yəni bəşərin səadət və firavanlığına nail olunmaz. … Maddi sivilizasiya çırağın şüşəsidir. İlahi sivilizasiya isə çırağın özüdür və şüşə çıraqsız qaranlıqdır. Maddi sivilizasiya bədən kimidir. Nə qədər incə, zərif və gözəl olsa da, o cansızdır. İlahi sivilizasiya isə ruh kimidir, bədən ruhdan canlanır, əks halda o cismdən başqa bir şey olmur."

"Sivilizasiya sadəcə iqtisadi, siyasi və hüquqi sistemlərdən daha çox şeyləri ehtiva edir. O inam və dəyərlərlə bir arada durur. İnam və dəyərlərin mənbəyi isə dindir. Sivilizasiyanı saxlamaq, dayanıqlı etmək üçün yalnız maddi tərəqqi kifayət deyildir. Son nəticədə, tənəzzül və süqut başlayır. Ruhani proqressin də olması üçün ruhani canlanma da gərəkdir". (Əbdül-Bəha, "Bəzi suallara cavablar", Bakı, 2004, səh. 244)

Maddi sivilizasiya çırağa bənzəyir, ruhani sivilizasiya isə çıraqdakı işığa. Əgər maddi və ruhani sivilizasiya birləşərsə, onda biz çırağı və işığı bir yerdə görərik və bunun da nəticəsi mükəmməl olacaq. Zira maddi sivilizasiya gözəl bir bədənə bənzəyir, ruhani sivilizasiya isə həyat ruhu kimidir. Əgər o ecazkar həyat ruhu bədənə daxil olarsa, o bədən bəşərin kamilliklərinin yayılması və inkişafı üçün bir kanala çevriləcək. (Abdul-Baha, Promulgation of Universal Peace, US Baha`i Publishing Trust, 2004, p. 470)

"İnsanın bütün qəlbi ilə etdiyi səylər və çalışmalar ibadətdir, əgər bu ən yüksək niyyətdən doğursa və bəşərə xidmətə yönəlibsə. Bu ibadətdir: bəşərə xidmət və insanların ehtiyaclarının qayğısına qalmaq. Xidmət duadır". (Абдул-Баха,

Парижские Беседы, Издательство “Единение”, Санкт-Петербург, 1993, стр.128).

“Diqqətlə baxın: Bu çox müxtəlif təzahürlər, bu ideyalar, bu biliklər, texniki əməliyyatlar və fəlsəfi sistemlər – bu elmlər, sənətlər, sənaye və ixtiralar – bütün bunların hamısı insan zəkasının məhsuludur. O insanlar ki, bu sahilsiz dəryanın dərinliyinə baş vurublar, qalanlarından üstün olublar. Millətin xoşbəxtliyi və qüruru bundan ibarətdir, yəni o uca bilik səmasında günəş kimi parlamalıdır. (Абдул-Баха, Секрет Божественной Цивилизации, Издательство “Единение”, Санкт-Петербург, 2002, стр.2)

“İnsan səmavi keyfiyyətlərə yiyələnməli və ilahi sifətlər əldə etməlidir. O, Allahın surəti və bənzəri olmalıdır. O Əbədi Olanın kəramətini axtarmalı, Allahın məhəbbətini təzahür etdirən, hidayət çırağı, həyat ağacı və Allahın nemət xəzinəsi olmalıdır. Bu o deməkdir ki, insan təbiət dünyasının keyfiyyət və sifətlərini Allahın aləminin keyfiyyət və sifətləri naminə qurban verməlidir. Məsələn, dəmir adlanan bir maddəyə baxın. Onun keyfiyyətlərinə fikir verin; o bərk, qara və soyuqdur. Bunlar dəmirin xüsusiyyətləridir. Həmin dəmir odun istiliyini alanda bərklik xassəsini maye xassəsi üçün qurban verir. Qaralıq xassəsini odun xüsusiyyəti olan işıqlı olmaq xassəsi naminə fəda edir. Soyuqluq xassəsini odun malik olduğu istilik xassəsinə qurban verir və beləliklə, dəmirdə nə bərklik, nə qaralıq, nə də soyuqluq qalır. Bu öz keyfiyyətlərini odun keyfiyyət və xassələrinə qurban verərərk parlaqlıq əldə edir və dəyişmiş olur”. (Abdul-Baha, Promulgation of Universal Peace, US Baha`i Publishing Trust, 2004, p. 470)

Bəhai olaraq biz bu və digər yolla `cəmiyyətin mövcud təməlini genişləndirmək, onun institutlarını yenidən formalaşdılrmaq, insanın xoxbəxtliyi üçün yeni əsaslar qurmaq, ruhani və maddi sivilizasiyanın irəlilədilməsi üçün əlimizdən

gələni edirik. Yeri gəlmişkən, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası bu sətirlərin müəllifini Fəxri Fərmanla təltif etmişdir ki, bunu da bizim icmanın Azərbaycan cəmiyyətinə etdiyi təmənnasız xidmətin qiymətləndirilməsi kimi qəbul etmək olar.

"Bizim cəsarət edib ağılla edəcəyimiz cəhd yalnız o ola bilər ki, çalışaq və zamanı gəldikdə, dünyanı bürümüş qaranlığı qovan vəd olunmuş Dan yerinin ilk şəfəqlərini görə bilək. Bizim edə biləcəyimiz yalnız o ola bilıər ki, Həzrət Bəhaullahın Dünya Nizamının əsasında duran bizim rəhbər prinsip hesab etdiyimiz prinsipləri, onların ən ümumi konturlarını, diqqət mərkəzinə gətirək".

Lakin yuxarıda sadalananlar epizodik xarakter daşıdığından geniş ictimaiyyət hələ də bu möhtəşəm, müqayisə olunmaz bir müjdədən bixəbərdir. Bu işdə hələ də ifrat ehtiyat edən KİV -qəzetlərimizin rəhbərlərinin "rolu" az deyildir....

Bu isə yüksək insani dəyərlərin ictimaiyyətimizdə formalaşmasının ləngiməsinə səbəb olmaqla bərabər qabaqcıl ölkələrdən geri qalmağımıza səbəb olur. Məhz insanın öz xeyrinə cəmiyyətə və bəşəriyyətə təmənnasız xidmətin vacibliyini təşviq etmək, onlara Səmavi Kitablardakı həyat tərzini, nəinki hər bir insanın həmçinin bütün cəmiyyətin, təkcə qəbul etdiyi yox, əməl etdiyi qanun olduğunu aşılamaq zərurətini yaşamaqdayıq.

İslam daxilində inkişaf edən sufi fəlsəfəsinin məqsədi meditasiya və dua, düşünmək və ekstaz yolu ilə Allaha çatmaq və onun hüzurunda olmaqdır. Bəzi sufilərdən fərqli olaraq, Məhəmməd Cəlaləddin Rumi və Əbu Həmid əl-Qəzzali yalnız Allah Elçilərinin gətirdikləri qanunlara əməl etməklə Onun hüzuruna catmağın mümkünlüyünü təsbit etmişlər. Bu məqsədlə, sufi fəlsəfəsini yaxşı bilicisi Şeyx Muhitdinin (Xanakinin qazisi) suallarına cavab kimi Hz.Bəhaullah

tərəfindən yazılmış, mistik yazılar incisi olan "Yeddi Vadi" əsəri XIII əsr sufisi Fəriduddin Əttarın insan ruhunun səyahətinin yeddi vadidən keçərək Allaha yaxınlaşmasından bəhs edən "Mantukut-Tayr" yəni "Quşların Dili"-ə oxşar, amma fərqli olan bu yolun yeddi mərhələdən keçdiyini göstərmişdir;

Axtarış Vadisi, Məhəbbət Vadisi, Bilik Vadisi, Ayrılıq Vadisi, Vəhdədlik Vadisi, Heyrət Vadisi (Həqiqi Zəiflik Vadisi) və sonuncu Fanilik səhrası. Sonda İnamın əsasında bütün dinlərdə eyni olan mənəvi həqiqətlərin olduğunu göstərmişdir: "Bu Allahın dəyişməyən, keçmişdə əzəli, gələcəkdə əbədi olan dinidir."

Maraqlıdır ki, Fərivəddin Əttar 1219-cu ildə, Rumi hələ 12 yaşında olarkən, onun böyüklüyünü sezib, atası Bəhaəddin Vələdə: "O, aləmdə Ilahi eşqlə yanacaq və qəlblərə atəş saçacaq" söyləmişdir. Muhyiddin ibn Ərəbi də kiçik Cəlaləddini və atasını - alimlər sultanını okean və dəniz kimi müqaisə etmişdir. Sonralar Cəlaləddini zəmanəsinin böyük alim və vəliləri ilə, həmçinin, Muhyiddin ibn Ərəbii ilə söhbət edib, onlardan elm öyrənmişdir, buna görədir ki, onlar bir-birinə bu qədər ruhən yaxındırlar.

Hz. Bəhaulla "Yeddi Vadi"ni Kürdüstandakı Suleymaniyyə dağlarında 2 il dərvişlik edib (bu haqda və hətta qırmızı əbası olacağı haqda hədis də vardır), Bağdada qayıtdıqdan sonra, hələ öz Missiyasını elan etməmişdən əvvəl yazmışdı ki, bu da Onun böyük nüfuz qazanmasına və hakimiyyət dairələrinin arzulamadığı bir məqama catmasına, bunun da nəticəsində İraqdan sürgün olunmasına səbəb olmuşdu.

Sufilik fəlsəfəsi hakim ideologiyaya zidd olduğu üçün bu təriqətin üzvlərini uzun müddət, xüsusilə, Sovet dönəmində allahsız adlandırmışlar. İmadəddin Nəsimi də onun həyatına həsr olunmuş möhtəşəm bədii filmdə də göstərildiyi kimi, yalnız bir kəlmə "ənəl-həqq" deməsi ucbatından səhvən uzun müddət

allahsız kimi qələmə verilmişdir. Yeri gəlmişkən, "ənəl-həqq" ifadəsini, təqribən 200 il əvvəl, Cəlaləddin Rumi "Mən bu aləmə gəlməzdən öncə də vardım" qəsidəsində işlətmişdir (Mövlanə Cəlaləddin Rumi. Eşq pərvanəsi. Bakı, "Nurlar", 2009), Mənsur əl-Həllac (858 – 922), məşhur fars inqilabçı və mistik şairi sufizmi öz yazılarında tərənnüm etmişdir. Əcdadları Zərdüşlük və İslama aid olan, gənc yaşlarında Qurani-Kərimi hifz edən, zəmanəsində başa düşə bilmədiklərindən o da allahsızlıqda ittiham edilmiş Abbasilərin hökmdarı Xəlifə Əl-Muqtədirin əmrinə əsasən, edam edilmişdir. Öz növbəsində Fəridəddin Əttar və Cəlaləddin Rumi də ondan bəhrələnmişlər.

Maraqlıdır ki, bu siyahıda olmayan iki nəfər 13 və 14 oktyabr 1937-ci ildə həbs edilmiş (Əmiraslanov Əyyub Abdulla oğlu və Yaqubov Feyzulla Abdul-Xalıq oğlu) NKVD-in nümayəndəsi tərəfindən "əməkdaşlığa" cəlb edilmiş və bu "öhdəliyi" barədə Məhfil üzvlərinə bildirdiklərindən sonralar xüsusi ağır təqiblərə məruz qalmışlar. Onların adlarına 16 Bakı və Balaxanı (Salyan, Buzovna və Gəncə) bəhailərinin, qrup halında mühakimə olunanların və ölümə məhkum edilmişlərin, kitabın sonunda verilmiş məlumatinda rast gəlinir (indi arxiv materiallarında onlara edilmiş "etibarsız, riyakar və ikiüzlülük" böhtanını görmək olar), lakin onlar sonradan şəhidlik şərbətini məmnuniyyətlə içmişlər.

***1922-23-cü illər Salyan bəhailəri. Yuxarıdan soldan sağa I cərgədə I – Zərgərov Abdullah, II cərgədə 4-cü Şıxlarov Cəfər Lələ (əlində "İsmi-Əzəm"i – "Ya Bəha-ul Əbha"- tutan), 6-cı dərzi Ağa Bala. Oturanlardan soldan sağa 2-ci – Şükür Sadıxov, 3-cü Fərəc Kasimov Cəfər Qulu oğlu, 4-cü Salyan bəhailərinin ruhani atası Molla əmi.***

( İzzəddin Əyyubovun əlyazmasından olduğu kimi verilir.)

Şəkildə 2-ci sırada 3-cü müəllifin babası Fərəc Qasımov əlində Allahın 100-cü adı olan *"Ism`i-Əzəm"* (bu Adı öyrənmək ücün insanlar 1000 ildən çox gözləmişlər) tutmuşdur. Onun yanında mərkəzdə əyləşən 80 yaşlı Salyanın ilk bəhaisi Qasımov Qədim Cavaddır. Sağdan 1-ci 5 yaşlı uşaq müəllifin dayısı Ətaulla Qasımov kolliqrafiyasız yazılışı (Ya Bəha`ul-Əbha) olan lövhəni tutmuşdur. O, əmisi Qasimov Muxtar Cəfər Qulu oğlunun qolları arasındadır. Ailə təqribən 1 il sonra 1928-ci ildə Bakiya köçmüş və 10 il sonra isə babam şəhid olmuşdur. Məşğul olduğu hər bir işi tam mükəmməllik dərəcəsinə çatdırarmış. Onun zərgərlik və arşın-mal dükanlarını müsadirə ediblər. İlk avtomobil sahiblərindən biri və şəxsi dəyirman sahibi olmuş və Bakının ən gözəl yerində gözəl mənzil şəraiti olub. Müəllim və eyni zamanda zərgərliklə məşğul olmuş, ən yaxşı müəllim kimi Stalin pul mükafatına laiq görülmüşdür. Bir ovuc brilliant və 7 küp qızılı müsadirə olunmuşdur. Bütün bu dünyəvi naz-neməti və ən çox sevdiyi ailəsini belə bir göz qırpımında itirməyə razı olub, amma məsləkindən dönməmişdir.

*"Özünüzü dünyəvi bağlılıqlardan azad edin və öz Məhbubunuzu qucaqlamağa tələsin"*-ə əməl etdi. "*...xoş o kəsin halına ki, Sənə və Sənin əlamətlərinə iman gətirdi, və sənin hökmranlığına baş əydi, Səninlə görüşmək şərəfinə nail oldu..."*

Fərəc Qasımovun sağ tərəfində isə (qalstukla) atasının xalası oğlu Şükür əyləşmişdir. Sonralar 1937-ci il təhlükəsi onu və ailəsini Əmrdən uzaqlaşdırmışdır. Bəlkə elə bu səbəbdən şəhidlik şərbətini içənlərin nəvə- nəticələri indiyə qədər belə İlahi Fəzl Dənizinin sahillərindən uzaqlaşmamışlar. Xalça üzərində əyləşən şəhid qaynının – sağdan 3-cü Böyükağa Muradovun - ailəsi dağılmış, övladları uşaq evlərində böyumüş, bəziləri itkin düşmüşlər, halbu ki, Salyanın ən varlı pambıq zavodunun sahibinin – Muradov (Göyçək) Əhədin oğlu idi. Nəvələri bu yaxınlarda həmin şəkilə ilk dəfə Bakı bəhai mərkəzində çox maraqla baxmışdılar.

*"Ariflər bu xoş müjdədən şadlandılar və nida etdilər: "Xoş bizim halımıza". Və onlar hər şeyin mahiyətini anladılıar və gördülər ki, Allahın Mələkutunun sirləri üzərindən pərdələr necə götürülür. Öz şübhələrini və boş xəyallarını ataraq onlar həqiqət işığını gördülər və İlahi məhəbbət piyaləsini sonadək içərək elə ruhlandılar ki, bu dünyanı və özlərini unutdular. Onlar sevinclə şəhidlik meydanına tələsdilər və məhəbbət üçün həyatın qurban verildiyi bu yerdə başlarını və ürəklərini cəllad kötüyü üzərinə qoydular".*

Dini istisnalıq və "vəhyin tamamlaması", ümumiyyətlə, əvvəlki dinlər üçün xarakterik xüsusiyyətlərdən biridir. Yəhudilərin Hz. Yeşayaya, xristianların Hz. Məhəmmədə, müsəlmanların isə Hz. Bəhaullaha qarşı irəli sürdükləri iddialar, mahiyyəti etibarilə eynidir.

Qurani-Kərim:

- Əl-Araf (surə 7 ayə 34): Hər ümmətin əcəl vaxtı (tənəzzül vaxtı) vardır. Yəni, "Hər ümmətin" müddəti!

Və ya

- Əl-Hicr 15:21 “(Yerdə və göydə) elə bir şey yoxdur ki, onun xəzinəsi Bizdə olmasın. Lakin Biz ondan ancaq müəyyən (lazım olduğu qədər) endiririk.”.
- Ər-Rəd surəsi (13:38). “Hər dövrün bir kitabı (Lövhi-məhfuzda yazılmış hökmü) var.... Zamanın, dövrün tələbinə və ehtiyacına görədir”

Bundan da aydın daha necə söyləmək olardı?

Bütün bu müəmmalı suallara Bəhai Müqəddəs Yazılarında aydinlıq gətirilir.

Bir məsələ də çox qəribə, əslində düşündürücüdür. Müsəlmanların əksəriyyəti “Xatəmən Nəbi”-ni “sonunçu peyğəmbər” kimi qəbul edənlərdən heç vaxt nə bu cümlədən əvvəlki və sonrakı cümləni, nə də ayədəki məqamı və ya kontekstin - fikrin nədən ibarət olduğunu eşitməmişəm. Belə taleyüklü vacib məqamı heç tədqiq etməyib, yalnız “belə deyirlər”lə kifayətlənirlər. Konteksdən çıxarılmış yalnız bir cümlə! Mən daha bu cümlənin hansı məqamda və hansı suala cavab kimi verildiyinə toxunmuram. Yalnız onu demək olardı ki, təmamilə başqa bir məqsəd (dinlə əlaqəsi olmayan məişət məsələsinin araşdırılması) güdməklə verilən suala nazil olan cavabdır. Bilərəkdən də nə də həmin ayəni (Əl-Əhzab 33- 40) sitat gətirmirəm ki, hər bir kəs özü araşdırsın. Yeri gəlmişkən, mən Hz.Məhəmmədə sirrlərlə dolu, rəmz və işarələrlə, ruhani dildə nazil olmuş Quran`i-Kərimi fiziki mənada qəbul etməməyi (sözləri və cümlələri) və onu dəfələrlə oxumağı tövsiyə edərdim. İndi bu sətirlər bir çağırış kimi səslənir və məhz belə də qəbul edilməlidir. Çox qəribədir ki, məncə cəmi bir dəfə rast gəlinən, və yenə də təkrar edirəm, nazil olma şəraitinə və kontekstinə fikir vermədən məhz bu ifadəyə istinad edərək Quran`i-Kərimdə dəfələrlə rast gəlinən gələcəklə,

peyğəmbərliklə bağlı məqamları çox təəssüf ki, nəzərdən qaçırırlar!

Hz.Əlinin dediyi kimi: "Gələcək camaat ücün bir gün "Qurandan" bir şey ortada olmaz, məgər rəsmiyyəti qalar. İslamdan bir şey qalmaz, məgər adı qalar. Məscidlər o zaman bina cəhətdən gözəl olar, ibadət tərəfdən viran. Onları bina və abad edən ibadət əhli olmaz". ["Imam Əlinin qısa Kəlamları", Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, s. 30, Azərnəşr, 1991, s.7 ]

Quran`i-Kərim, Ali-İmran surəsi, ayə 7: *(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur! Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası bəlli, hökmü bəlli), digər qismi isə mütəşabeh (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir."*

Bu mənə Cəlaləddin Ruminin məşhur məsnəvisindəki filin təsviri misalını (qaranlıqda müxtəlif insanlarin filin, eyni bir heyvanın, müxtəlif yerlərinə yaxın yerləşdirib və ona toxunmaqla öz fikirlərini söyləyən) və onu müxtəlif cür təsvir olunmasını xatırladır. Fil haqqında tam məlumat almaq üçün onun ayri-ayri yerlərinə və qaranlıqda toxunmaq kifayət etmədiyi kimi, konteksdən çıxarılmış və yalniz bir cümlənin əsasında Müqədəs Kitablar haqqında ümumiləşdirilmiş mühakimə cıxartmaq da, təbii ki, məqbul sayılmamalıdır...

Konteksdən kənarda baxılmış daha bir misal - mənim dəniz kənarında bir balıqçı ilə apardığım söhbət məncə yerinə düşərdi. Bulvardakı skamyada qoyulmuş "Rənglənib. Yaşdır. Oturmayin." yazısına nəzər saldıq. Əgər biz konteksdən çıxarılmış, yəni bulvarda rast gəldiyimiz skamyanın rənglənməsini və rəngin hələ qurumadığını nəzərə almasaq, yalnız "Oturmayin" sözündə fikrimizi cəmləşdirsək məntiqlə belə bir nəticəyə gələ bilərik ki, ümumiyyətlə skamyada və bulvarda oturmaq qadağandır və bu bizim rahatlığımızı pozmaq üçün edilmiş bir addımdır və s. Bu məntiqə əsasən biz necə illər

bulvarda, hətta yorulsaq belə, skamyada oturmamalıyıq? Qanuna riayət etməyi sevdiyimiz üçün, axı özümüzü belə bir rahatlıqdan nə üçün həmişəlik məhrum etməliyik? Amma əgər biz skamyanın rənglənməsini və rəngin hələ qurumadığını da oxuyub, bir qədər fikirləşsək, bir qədər əvvəl məntiqlə gəldiyimiz nəticənin nə qədər yanlış olduğunu özümüzə etiraf edə bilərik.

Ümumiyyətlə, Müəqddəs Yazılar kontekstində Söz barədə bir neçə fikrə diqqət çəkmək faydalı olardı. Müxtəlif dinlərə mənsub müqəddəs kitabları (Tövrat, İncil, Quran`i-Kərim, Kitab-i-Əqdəs və s.) oxuyarkən bəzən eyni fikrlə, hadisə ilə rastlaşırıq. Bu təbiidir – axı olar eyni mənbədən nazil ediliblər.

Quran`i-Kərim, Ən-Nisa "Qadınlar" surəsi 4, ayə 171: Ey kitab əhli! Öz dininizdə həddi aşmayın! Allah barəsində yalnız haqqı deyin. Həqiqətən, Məryəm oğlu İsa əl-Məsih ancaq Allahın peyğəmbəri, (Cəbrail vasitəsilə) Məryəmə çatdırdığı bir söz və Onun tərəfindən olan bir ruhdur.

“Həqiqətən, Mən, yalnız Allahın nökəri və Onun Sözləriyəm...” (Баб, Избранные из Писаний, Москва, стр. 55)

Və ya Hz.Babın Məhəmməd Şaha Məktubdan: “Allah Məni, başqaları kimi, gildən yaratmamışdır. O, Mənə elə şeylər əta etmişdir ki, nə müdrikər onu nə vaxtsa dərk edə bilər, nə də sadiqlər onu anlayar.... Mən Allahın İlkin Sözünün sütunlarından biriyəm.” (Баб, Избранные из Писаний, Москва, стр. 56-57)

“Ey yer üzü insanları! Həiqətən, Elçilərin olmadığı müddət keçdikdən sonra Onun Zikri Allahdan nazil olmuşdur, ta ki O, Tək Haqq Allahın Gününü gözləyərkən sizi çirkdən təmizləsin və ağartsın”. (Quran`i-Kərim, 5:19 ).

“Ey inananlar zümrəsi! Mənim Allahın Zikrindən xəbər verən səsimə qulaq verin. Həqiqətən, Allah Mənə açmışdır ki,

Mənim addımladığım Zikrin yolu Allahın həqiqi, düz Yoludur, Bu haqq dindən başqa dinə inananlar Qiyamət Günündə sorğu-suala çağrılarkən görəcəklər ki, bu Kitabda yazıldığı kimi, Allahın Dinindən fayda almamışlar...”

Allahdan qorxun, ey hökmdarlar tayfası, ta ki Onun Zikri olan Kəsdən kənarda qalmayasınız, Onun Zikrinin heyrətamiz dili ilə Həqiqət sizə Kitabla və Allahın Əlamətləri ilə zahir olanda...”

Quran`i-Kərim (4:150) – “Kafirlər, həqiqətən, Allahı Onun Zikrindən ayırmağı düşünürlər...”

Tampliyerlər İncilə əsasən, İsa peyğəmbərin yenidən qayıdişının yaxınlaşmasını bildirirdilər. 1868-ci ildə öz evlərini sataraq Almaniyadan ailələri ilə birlikdə Müqəddəs Torpaqda, Karmel dağının ətəyində məskən salmışdılar ki, İsa peyğəmbəri qarşılasınlar. Onların tikdikləri evlərin qapısının üstündə “Der Herr ist nahe”(Allah Təala yaxınlıqdadır) yazılarını, Həzrət Babın məqamından düz aşağıdakı evlərdə, Haifadakı Alman koloniyası küçəsində indi də görmək olar. Amma hətta onlar da öz təsəvvürlərindən kənara çıxan əlamətlərə yenidən nəzər salıb qiymətləndirə bilmədiklərindən, məhz yalnız həmin İsa peyğəmbəri buludların üstündə göydən yerə enən vəziyyətdə gözlədiklərindən bu Cəlaldan üz çevirmişdilər.

Yalnız informasiya toplamaq yolu kafi deyildir. Keçmiş və indiki zamanda əsasən hafizəkarliq təbliğ və təşviq edilir. Dini yazıların yalnız əzbərlənməsi – hafizlik heç də hər adamı hafiz səviyyəsinə gətirib çıxarmaz. Belə düşünmək sadəlövlük olardı. Son illər zəmanə ilə  “ayaqlaşmaq” meylləri arasında (əyləncənin artması, incəsənət və ədəbiyyatın, xüsusilə musiqinin bayağılaşması) din sahəsində daha bir tendensiya müşahidə olunur. Bu da Quran`i-Kərimin gözəl səslə oxumaqda beynəlxalq müsabiqələrin təşkil edilməsidir. Həqiqət naminə deyilməlidir ki, belə oxunuşları dinlədikdə insan ruhu dincəlir,

rahatlıq tapır. Bu nə qədər maraqlı və cəlbedici olsa da, oxunuşa və onun cilalandırılmasına yönələn səylərin heç olmasa, bir hissəsinin hər hansı bir ayənin araşdırılmasına və aydınlaşdırılmasına sərf edilməsi daha məqsədəuyğun olmazdımı? Yüksək təfəkkür mədəniyyətini inkişaf etdirib, ayri-ayri məqamları, ayələri əlaqələndirmək qabiliyyəti olmalıdır. Bu isə insandan müəyyən hazırlıq, bilik və qabiliyyət tələb edir. Müəyyən biliklər sistemli olmalıdır ki, beyin açıq, ruh azad, ürək təmizliyi şəraitində insan yeni ideyanı qavraya bilsin. Bu prinsip təkcə dini məsələlərə deyil, eynilə, mənəvi və digər elmi sahələrə də şamil olunur.

Həzrət Bəhaullah: "*Həqiqətən, bil ki, bu rəmzlərin və sirli təşbehlərin daxilində qoyulmuş və Allahın Müqəddəs Əmrinin Məzhərlərindən gələn məqsəd və niyyət ondan ibarətdir ki, dünyanın insanlarını sınağa çəksin və yoxlasın, ondan ötrü ki, təmiz və aydın qəlblərin torpağını puç və bəhrəsiz torpaqdan ayırsın. Qədim zamanlardan bəri Allahın Öz yaratdıqları arasında yolu və üslubu belədir.*"

"Ehtiyatlı olun ki, hansısa bir ad sizi bütün adların Malikindən uzaqlaşdırmasın və hansısa bir söz sizi Allahın bu Zikrindən, sizlərin arasında bu Hikmət Mənbəyindən ayırmasın." ("Жемчужины Истины", Издательство "Единение", Санкт-Петербург 2001, стр. 384).

Azərbaycan xalqı, əsasən, müsəlmanlar, bütün peyğəmbərlərə böyük ehtiramla yanaşır.* Dünyada ən əziz saydıqları övladlarına ilk ən böyük hədiyyə kimi məhz Onların adlarını verirlər – İsa-İsus və Mariya - Məryəm (Xristian), İbrahim-Avraam, Musa - Moisey, Süleyman -Solomon, Əyyub - İov (Yəhudi), Bəhram (Zərdüşt) və s.

"*Allahın Peyğəmbərləri insanların dərrakəsindən ölçüyəgəlməz dərəcədə yüksəkdir, onlara Peyğəmbərləri Onların Özlərindən kənar yolla dərk etməyə icazə*

*verilməmişdir. Əgər seçilmişlər Onları Onların Özləri vasitəsilə tərif etməsələr, bu tərif Onlarına şanına yaraşmır. Onlar insan dərrakəsindən ucadırlar.”*

*“O kəs ki, onu Əbədi Həqiqət olan Kəsdən insanların şəkk-şübhələrini ayıra bilmədi, və o kəs ki, dini və dünyəvi hakimlərin günahı üzündən baş verən iğtişaşlar Onun Müjdəsini tanımağa mane ola bilmədi – belə bir insan Allahın nəzərində Onun ən qüdrətli əlamətlərindən biri hesab ediləcək və Uca Qələmin Onun Kitabında yazdığı adların arasında sayılacaq.”*

Bir cox dünyəvi dinlərin vahid ümumi bir atası Hz. İbrahimdir. Onun Saradan (birinci xanımı) olan övladları - yəhudilərin, Həcərdən (ikinci xanımı) olan övladları – ərəblərin və ömrünün sonuna yaxın evləndiyi (üçüncü və sonuncu xanımı) Hetturadan olan övladlarından biri, – İokşan isə, – bəhailərin peyğəmbəri Hz.Bəhaullahın nəsil ağacının kökünü təşkil edir.

Amma buna baxmayaraq, onların hər biri özünü mütləq həqiqət daşıyıcısı sayır. Yəhudilər Hz.Musanı (Kəlimətullah) bilavasitə Allahla sohbət etdiyindən “O, nadir bir məqama mallikdir.... “ deyirlər. Öz növbəsində Xristianlar Hz.İsa peyğəmbəri “Allahın yeganə Oğlu“ adlandırır və Onun bütün başqa peyğəmbərlərdən uca və fərqli olaraq, həm də hələ də yaşadığını təkid edir və bunun da nəticəsində öz məxsusiliklərini daima diqqətə çatdırırlar. Bəzi müsəlmanlar isə İnçildə bəzi obrazlı, müəmmalı və məcazla verilən sözlərin daxili mənalarına varmadıqlarından onları asanlıqla “səhv” adlandırıb, Hz.Məhəmmədin “sonuncu“ peyğəmbər və Qurani-Kərimin Allahın sonuncu Sözü olduğunu təkid edir və bununla da Allah sözünün qurtardığını zənn edirlər.

Quran`i-Kərimin müvafiq surələrinə bir daha diqqətlə nəzər yetirsək:

- Loğman (Surə 31, ayə 27: ”Əgər yer üzündəki bütün ağaclar qələm, dərya da arxasından yeddi dərya qatılaraq (mürəkkəb) olsaydı, Allahın sözləri (yazmaqla) tükənməzdi”

və yaxud eyni fikir digər izahatla:

- Əl-Kahf (Surə 18, ayə 109: “Əgər Rəbbimin sözlərini yazmaq üçün dərya mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənməzdən öncə onlar tükənərdi”-

Bir daha təkrar olaraq:

- Ən-Nisa, (surə 4, ayə 171): “Ey kitab əhli! Öz dininizdə həddi aşmayın! Allah barəsində yalnız haqqı deyin. Həqiqətən, Məryəm oğlu İsa əl-Məsih ancaq Allahın peyğəmbəri, (Cəbrail vasitəsilə) Məryəmə çatdırdığı bir söz və Onun tərəfindən olan bir ruhdur.

Lakin bəziləri İslamın tamamlandığı və bütün dinlərdən üstün, kamil və müstəsna olduğu qərarındadırlar. Bütün bunlar öz-özlüyündə təkcə adları çəkilən yox, digər dinlərin də nümayəndələrinə qarşı düşmənçilik mənbəyidir.

Quran`i-Kərimdə əlif, lam, mim (və digər kəlmeyi-mütəşahabat) və 19 rəqəmi kimi gizli (indi artıq açıq) sirrlər, əvvəlki müqəddəs kitabların sirrləri, həmişə olduğu kimi, növbəti müqəddəs kitabda açılır.

Bu yerdə bir neçə Əkkə haqda olan hədislərdən, Hz.Əlinin kəlamlarından, İmam Cəfər Sadiqin* Qaimlə əlaqədar əlamətlərdən və s. danışmaq olardı, lakin bu başqa bir xüsusi mövzusudur və bizim məqsədimiz heç də teoloji məsələlərə aydınlıq gətirmək deyil, sadəcə sağlam düşüncənin cəlb edilməsi üçün bir qədər məlumat verməkdir.

---

* (Səudiyyə Ərəbistanında işlərkən təsadüfən Cəfəri təriqətindən olan bir mühəndislə dostluğum – Məkkədən bir neçə yüz km aralıda, bu məsələlərə bəzi aydınlıqlar gətirdiyini gördüm).

**Quran`i-Kərim**:

- Yunus surəsi (Surə 10, ayə 92) "Qiyamət günü ixtilafda olduğunuz dini məsələləri Allah sizə izah edəcək".

Yuxarida deyildiyi kimi,

- Loğman surəsi (Surə 31, ayə 27): "Əgər yer üzündəki bütün ağaclar qələm, dərya da arxasından yeddi dərya qatılaraq (mürəkkəb) olsaydı, Allahın sözləri (yazmaqla) tükənməzdi".

Və yaxud eyni fikir digər izahatla İncildən olan bu kəlamın mənası "Və ilk əvvəl söz mövcud idi..." bu, məsələyə bir qədər də aydınlıq gətirir.

Quran`i-Kərimin müvafiq surələrinə bir daha diqqətlə nəzər yetirək:

- Ər-Rəd surəsi (surə13: ayə 38). "Hər dövrün bir kitabı (Lövhi-məhfuzda yazılmış hökmü) var. Zamanın, dövrün tələbinə və ehtiyacına görədir".
- Qaf surəsi (50:41): "Carçının yaxın bir yerdən car çəkəcəyi gün deyilən sözü (Surun səsini) dinlə! ......Sizdən haqq-hesab istəniləcək və suru ikinci dəfə üfürəcəkdir".
- Əl-Araf ( 7: 34): "Hər ümmətin əcəl vaxtı (əzəldən müəyyən edilmiş) vardır. Onların əcəli gəlib, çatdıqda bircə saat belə nə yibanar, nə də tələsərlər".
- Əl-Araf (7:35): "Ey Adəm oğulları! Sizə içərinizdən Peyğəmbərlər gəlib, ayələrimi söyləyən zaman Allahdan qorxaraq pis işlərdən çəkinib, özlərini islah edən şəxslərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!"
- Əz-Zumər (39:69): "Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, kitab ortaya qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcək, onlar (bəndələr) arasında ədalətlə hökm olunacaq və onlara haqsızlıq edilməyəcəkdir!"
- Əl-Zilzəl (99: 4): "Məhz o gün yer öz hekayətini söyləyəcək".

Və növbəti ayə çox maraqlıdır;

- Əl-Zilzəl (99:5): "Allahın ona etdiyi vəhy ilə".

Qiyamət Günü "Bir-birinin ardınca göndərilənlər" surəsi (77:13) "Haqla batilin ayırd ediləcəyi gün".

"Onun izahını Allahadan və elmdə kamil olanlardan başqa heç kəs bilməz" - Ali-İmran surəsi (3:7).

Hz. İmam Cəfər Sadiq bu barədə yazır: "Elmdə kamil olanlar dedikdə, Hz. Mehdi Sahib -əz-Zaman və Onun əshabələri nəzərdə tutulur".

Olduqca maraqlı Qurani-Kərimin surələrindən, bir daha təkrar da olsa:

İsra surəsi (17, ayə 104): İsrail oğullarına dedik: "Siz (Şam) ərazisində sakin olun. Axirət vədəsi (Qiyamət) gəlib, çatdıqda sizi bir-birinə qarışmış halda məhşərə gətirəcəyik."

Bildiyimiz kimi, məhz 1844-cü ildə Osmanlı Sultanın fərmanı ilə ilk dəfə onlara birlikdə toplanmağa icazə verilib. Əvvəlki qadağa ləğv olunub və Fələstində toplanıblar.

İsaak Nyutonun bu məsələ ilə əlaqədar fikirləri də olduqca maraqlıdır. İndi məlum olmuşdur ki, ölümündən iki yüz il sonra onun özünün əlyazma kitabı tapılmışdır və onun həyatının əsas məqsədi Allahı axtarmaq və Onu tapmaq olmuşdur. Etdiyi kəşflərin, planetlərin qanunauyğunluqlarını vermiş, bütün bunların təməlinini – Yaradanın Allah olduğunu da göstərmişdir. Apokalipsis və onun baş vermə vaxtını tədqiq etmiş, Bibliyaya istinadən bunun elmi və dini əsaslarını araşdırmışdır. Çox maraqlıdır ki, Bibliyada rast gəlinən "zaman, zamanlar və yarım zamandan sonra" Zamanın sonuna aid kodla verilmiş məlumatları da açmağa müvəffəq olmuş və böyük dəyişikliklərin vaxtınını 1260-ci ilə (1844) təsadüf edəcəyini göstərmişdir. (1260 + 800= 2060) isə başqa bir mövzudur.) Nyuton Bibliyaya ( Daniyelin Kitabına və Yühənnaya əsaslanaraq, yəhudilərin yenidən İsrailə - geriyə qayıdacağı

günü də hesablamışdır. Həm Bibliyada, həm də Quran`i-Kərimdə toxunulan bu məsələnin bilavasitə həyata keçməsi Nyutonun kodları aça bilməsinin düzgünlüyünə cavab verməli idi. Doğrudan da, indi bu məlumatların düzgün şərh olunması təsdiqlənmişdir. Oleq Şişkin (22.06.2012 TB3).

İslam yazılarında da 1260-cı ilin (1844) böyük hadisələr üçün vaxt olaraq göstərilməsi hər iki müqəddəs Kitabın bilavasitə Bəhai dininə işarə etdiyini görmək olur. Mühiddin-əl-Ərəbi öncədən xəbər verilmiş gözlənilən Zühurla əlaqədar : "Ğars ilində (Ğ +R+ S əbcətlə =1260) yer Onun işığı ilə nurlanacaqdır" demişdir.

Əzizə Cəfərzadə "İşığa doğru": İmam Cəfər Sadiq: Əleyhüssəlamın Zühur duası: "Allahümməssəlükə, be bəhaikə, min bəhaikə..."(yəni Ey mənim Allahım Səndən diləyirəm, Sənin Bəhandan və Sənin Cəlalından")

Bəhai təqviminin 19 aylarının adları da burada eynilə təkrar olunur.

Bu kimi məsələlər olduqca incə və diqqət tələb edən, bəzilərindən hövsələ tələb edən və ümumiyyətlə, başqa bir kitabın mövzusudur....

Ümumiyyətlə, insan təbiətinə görə ən asan yolu seçməyə üstünlük verir. Bu səbəbdən bəzən Bibliyada mənasını anlamadığımız bir ayayə rast gələndə "axı orada çoxlu dəyişikliklərə yol verilib və ya "əsl Bibliyanın" yoxluğunu", deyib onun təhrif olunduğunu söyləyirlər. Xristianlar isə, ümumiyyətlə, Qurani-Kərimə heç də Allah tərəfindən nazil olunmuş kitab münasibəti bəsləmirlər. Bu səbəbdən də uzun müddət İlahi kitablar bir müddət tərcümə olunmurdular. Tərcümə olunanlar da, adətən, heç vaxt hamını qane etmirdi. Bəzən tərcüməni günah da sayanlar az deyildi. Bu səbəbdən ilk dəfə hələ təqribən 100 il əvvəl azərbaycan dilinə tərcümə olunmuş Quran`i-Kərim (və bizim evdə ən mötəbər yerdə

saxlanılan 4 çildlik təfsir) olduqca böyük bir iş görmüşdür. Sonralar təqribən 60 il sonra, ilk dəfə Sovet dövründə, bu tərcüməyə müraciət edilmişdi (məncə qeyri-rəsmi olduğundan tamamlanmayıb Mir Əbdül Qəni & Əli Fəhmi, Namik Tarlan ilə birgə) və daha sonra yenidən 100 il əvvəl azərbaycan dilinə tərcümə olunmuş Qurani-Kərim yenidən nəzərdən keçirilib, akademiklər tərəfindən böyük əmək sərf edilib və bu günlərdə bizə təqdim edilmişdir. Quran`i-Kərimin bu rəsmi tərcüməsi bir çoxlarının masaüstü kitabına çevrilmişdir. Amma bir neçə ildən sonra başqa bir alim-tədqiqatçı, yeni baxışla yeni bir tərcümədə Quran`i-Kərimi bizə təqdim etmişdir. Yəni ümumiyyətlə 4 tərcümə və 10 il ərzində isə Azərbaycanda azərbaycan dilində 3-cü tərcümə. Məlum məsələdir ki, hər kəs bu İşin böyük məsuliyyətini başa düşərək, öz süzgəcindən keçirərək, belə bir müqəddəs kitabın məzmununu, özü başa düşdüyü kimi, bizə catdırmaq arzusundadır. Əgər mütərcim bəsirət və gözüaçıqlıqdan məhrum olarsa, tərcümə onun anlayış və əndazəsinə uyğun sözlərlə ifadə edilir.

Yəqin ki, bu səbəbdən uzun müddət Quran`i-Kərimi tərcümə etmək hətta günah sayılırdı. Bəlkə də ona görə ki, hər mütərcim öz fikrini son bir həqiqət kimi insanlara təqdim edir və həmin adamın hörmət və məqamından asılı olaraq rəsmi qəbul edilə bilir. Qurani-Kərimin bəzi ayələri hətta Hz.Məhəmmədə də gizli olub və onun açılma şərtləri də elə Quran`i-Kərimdə də verilir. Bir neçə müqəddəs kitablarda deyildiyi kimi, Allah Həqiqəti birdən açmır - O, Həqiqəti yavaş-yavaş hər peyğəmbər vasitəsilə, mütamadi surətdə bizə çatdırır. Hər növbəti peyğəmbər və ya Allah Elçisi də hər dəfə yeni zaman və məkan şəraitinə uyğun olaraq bizə daima yeni, təzələndirilmiş Həqiqəti bir qədər də geniş çatdırırlar. Odur ki, hər yeni gələn ümmət əvvəlki Zühuru qəbul edir və başa düşür, amma əvvəlki özündən sonrakını qəbul etməkdə çətinlik çəkir.

Bəqərə surəsi (Quran`i-Kərim 2:136) “Biz Onun Elçiləri arasında heç bir fərq qoymuruq”

Biz Quran`i-Kərimin rəsmi tərcümə sayılan versiyasında, mütərcimin mündəricatda qeyd etdiyi kimi, mötərizə içərisində verdiyi öz şəxsı fikrinə, - daha peyğəmbər olmayacaq, axırıncıdır və yaxud İslam ən kamililidir və s., - ehtiyatla yanaşmalıyıq.

Yeni Zühurun qəbul edilməsində çətinliyin səbəblərindən biri də eyni kəlmənin müxtəlif mənalar və təsəvvürlər yaratmasıdır. Biz hər hansı təzəliklə və ya məlum məhvumun yeni miqyası ilə rastlaşanda hər şeyi öz təcrübəmizə əsasən qiymətləndiririk. Təcrübəmiz isə, məhdud olduğundan səhv etmə ehtimalı yüksək ola bilər.

Yenə də ərəb ölkələrindən olan iki misal bu məsələyə yeni bir yanaşmanı qəbul etməkdə kömək edə bilər. 50-60 il əvvəl İran bəhailəri təbliğ məqsədi ilə öz rahat evlərini qoyub, geridə qalmış ərəb ölkələrinə mühacirat etmişlər. Bu ölkələrdə banan gündəlik adi bir meyvə, bizim üçün adi tərəvəz olan xiyar isə orada o zaman təmamilə təzə ekzotik, qeyri-adi bitki idi. İlk dəfə məhsul yığımında olan ərəb yaşil xiyarın dərildiyini görərkən “nə edirsən? qoy qalib yetişsin və saralanda dərərsən” demişdi. Yəni naməlum halda bananla parallel gətirən ərəbin anlayışına görə yaşıl xiyar da (banan kimi) saralandan sonra daha dadlı və yetişmiş olmalıdır. Deməli, nəinki xiyarı yaşıl ikən dərməli və saralmağa qoymamalıyıq, eyni zamanda da, bananı yaşıl ikən, saralmamış dərmək də məqsədəuyğun deyildir.

Beləliklə, xiyarın torpaq üzərində, bananın isə ondan qat-qat yüksəkdə - ağacda bitməsinə baxmayaraq, bizim düşüncə tərzimiz ilk baxışda, zahirən onlar bir-birinə bənzədiklərindən, bizi aldada bilər. Yeniliyi və ya məsələnin mahiyyətini o bitkini öz vətənindən gətirərək

becərib–yetişdirəndən soruşmaq daha məqsədəuyğun deyilmi? Ayağımızın asanlıqla toxuna bildiyi ilə başımızın çata bilməyəcəyi yüksəklikdə olan məhvumdan söhbət açırıqsa, bunun fərqinə varmalı deyilikmi?

Bütün mülahizələr təcrübəyə, müqayisəyə əsaslanır. Yəni sarı rəng kamillik rəmzi olmaqla yanaşı, qeyri-kamillik nişanəsi də ola bilər. Deməli xarici görünüş insanı aldada bilər, odur ki, mahiyyət araşdırılmalıdır.

Daha bir misal. İşdən qayıdarkən mənimlə görüşmək üçün ən muvafiq yerin meşənin yanı olduğunu deyərkən, mənim həmkarım məni neçə dəfə başa salsa da, mən təəccüblənmişdim. Axı necə ola bilərdi ki, hər gün getdiyimiz yolun kənarındakı meşəni mən görməmişdim? Sən demə, mənim kolluq saydiğım bir məkan, harada ki, ən böyük kolun hündürlüyü elə mən boyda olardı, onun üçün meşə imiş. İndi əgər biz ikimiz başqa birisinə meşənin nə olduğunu ayrı-ayrılıqda başa salmaq istəsək, həmin adamın halını təsəvvür etmək heç də çətin olmaz...

Yəni bizim biliklərimiz nəinki nisbidir, hətta bəzən də təsəvvürə gələ bilməyən halda inkar olunmağa məhkumdur. 3 ölçülü fəzanı hamımız təsəvvür edə bilirik, amma 4 və daha yüksək ölçülü fəzani təsəvvür edib, mürəkkəb məsələləri həll etmək yalnız yüksək səviyyəli mütəxəssisə müəssər ola bilər. İndi Quran`i-Kərim kimi yüksək səviyyəli, mənəvi dildə və alleqoriya ilə yazılmış kitabı yalnız 3 fəza təsəvvürü olan kəs necə mənimsəyə bilər? Ən yaxşı halda yalnız gözlə görünəni qavraya bilər, amma yəqin ki, bəsirət də lazımdır.

Ərəb ölkələrindən birində işimlə əlaqədar yaşayarkən rastlaşdığım daha bir hadisə məncə yerinə düşər. Bir dəfə Omanda işləyərkən Kanadadan gəlmiş mühəndislə bir iş birliyində yaxından tanış oldum. O, uzun müddət idi ki, ailəsi ilə birgə orada yaşayıb işləyirdi. Özu və xanımı xristianlığın

müxtəlif qollarından idilər. Yaxin ailəvi müsəlman dostları da var idi, İslama çox gözəl münasibət bəsləyirdi. Və mənimlə də münasibəti çox yaxşı idi. Bir dəfə o, mənə belə bir sualla müraciət etdi: "Mənim övladlarım indi bu 2 dindən hansının ardıcılları olmalıdırlar?" Çaşqınlıq içərisində olduğunu mənə söylədi. "Əsas məqsəddir - əgər sən Allaha yaxınlaşmaq istəyirsənsə, o zaman əlbəttə, Onun son peyğəmbərinin ardıcılı olmalısan, yox, əgər ata-baba dininə, xalqının dininə "sadiq" qalmağı üstün tutursansa, onda yeni dindəki yeniliklərə, xüsusilə, sənin dünya görüşünə və məntiqinə cavab verməsinə baxmayaraq, Allahın Öz peyğəmbəri vasitəsilə bizə çatdırdığı yeniliklərə bıganə qalıb (hətta onları bəyəndiyinə baxmayaraq) etinasızlıq eməyi üstün tutursansa, məyus qalacaqsan, sanki, Cənnətin açıq qapısının yanından ötüb, ondan uzaqlaşacaqsan" söyləmişdim. Necə ki xristianlar möhtəşəm İslam dinindən özlərini məhrum ediblər. "Sən mənim işimi daha da çətinləşdirdin" söyləyib, xəyala daldı. Sən demə onun Kanadada Bəhai dostları olduğundan bu dindən xəbərdar idi və onların simasında, bu dinə və prinsiplərinə artıq müsbət münasibəti var idi. O, "bu gün ücün son peyğəmbər" deyib, xəyala daldı... Bu misal elə digər ümmətlərə də şamil oluna bilər.

Əsasən müsəlman ölkəsi olan Azərbaycana, bizə qonşu olan İrana və xristian ölkələri olan bizim qonşulara nəzər salaq. Vaxtıilə böyük qurbanlar nəticəsində əmələ gələn dəyişikliklər (İslamın qəbul etdirilməsi) və əksinə, onunla mübarizə edib, xristianlığın qorunub saxlanılması. Hər iki inkişaf yoluna nəzər saldıqda onlar arasında fərqi müqaisə etməliyik ki, həqiqəti anlayaq. Və ya, ümumiyyətlə, xristian Avropasına və müsəlman Şərqinə nəzər salaq. Hansı daha çox inkişaf edib, hal-hazırda demokratik, azad və firavan yaşayır? Bu ölkələrə getdikdə hansında insan özünü daha rahat, firavan və xöşbəxt hiss edir?

Bunların hansından digərinə insan axını baş verir? Nə üçün? Bəzən əfsuslar olsun ki, bu baş verir – bəzi məqamları bilməməzlikdən və ya nəzəra ala bilmək iqtidarında ola bilməməkdən. Bunlardan hansı indiki zamanda daha tərəqqipərvərdir?

İndi biz təqribən 1020 il əvvəl Rusiyada İslamı və ya Xristianlığı qəbul etmək ərəfəsində verilən sualın yolayrıcına gəldik. Bildiyimiz kimi, rusların özlərinin etirafına görə, dində içki içməyə icazə verilməsi, bu məsələdə həlledici məqam olub ki, Rus Kiyevində ilk dəfə məhz xristianlıq dövlət dini kimi qəbul edilib. Eyni dərman xəstəliyin müxtəlif mərhələsində nəinki yaramır, hətta ziyan da vura bildiyi kimi, eyni dini təlimlər də sosial-ictimai təkamül kontekstində eyni dərəcədə təsir göstərə bilməz. Yaddan çıxarılmamalıdır ki, bir ildə müxtəlif fəsillər (bahar, yay, payız və qış) olduğu kimi, dinlərdə də eyni ilə müxtəlif inkişaf və tənəzzül vaxtı olur. Odur ki, Quran`i-Kərimdə deyildiyi kimi (bir daha eyni ayəyə müraciət edək) - Əl-Araf (surə 7 ayə 34): "Hər ümmətin əcəl vaxtı (əzəldən müəyyən edilmiş) vardır. Onların əcəli gəlib, çatdıqda bircə saat belə nə yibanar, nə də tələsərlər."

Biz çox vaxt eyni sözün müxtəlif dillərdə fərqli mənalarda işləndiyinin şahidi olmuşuq. Ərəb dilində əcəlin mənası müddət mənasında işlədilir. Yəni "hər ümmətin" öz müddəti vardır və ya hər ümmət üçün müəyyən müddət nəzərdə tutulub, ayrılıb. Burada "hər ümmətin" olduqca maraqlı bir ifadədir ki, bizdən heç də çox fikirləşmək tələb etmir.

Hərbi xidmətdə olan hər kəs bilir ki, o, nəyin bahasına olursa-olsun, komandirinin əmrini yerinə yetirməlidir, xüsusilə, müharibə vaxtı. Amma konkret şəraitdən və məqamdan asılı olaraq verilən əmri rütbəcə yuxarı olan kəs dəyişdirə və təshih edə bilər. Daha "mənə belə əmr olunub"deyib, yeni şəraiti nəzərə alan əmrdən boyun qaçıra

bilmərik. Dində də analoji olaraq belədir. Allah yer üzərinə harada və nə məqsədlə peyğəmbərlər göndərir? Əlbəttə ki, buna ən çox ehtiyac olan məkanda ki, insanları hidayət edən, yol göstərən olsun. Peyğəmbərlər arasında Allah heç bir fərq qoymur, amma Onları məxsusi bir missiya ilə göndərir və zaman keçdikcə və insanların qavramaq qabiliyyətləri artdıqca, Həqiqəti bir qədər də çox açıqlayır. Ümumiyyətlə, Allahın vahid və dəyişməyən Dini vardır - heç bir dində ruhani hissə, yəni mənəvi dəyərlər dəyişilməmişdir, amma dəyişən yaranmış şəraitə uyğun olaraq yalnız sosial hissəsi, şəriətidir ki, buna da mütləq əməl edilməlidir. Və buna təbii bir proses kimi baxılmalıdır.

*"Allahın Peyğəmbərlərinə, vəzifəsi dünyanın və onun xalqlarının rifahı qayğısına qalmaq olan həkim kimi baxılmalıdır ki, parçalanmış bəşərin xəstəliyini birlik ruhu ilə sağaltsınlar. Heç kəsin haqqı yoxdur ki, onların sözlərini şübhə altına alsın və ya davranışını etibardan salsın, zira ancaq onlar xəstəni başa düşür və xəstəliyi düzgün təyin edirlər. Heç bir insan, onun bəsirəti nə qədər iti olsa da, İlahi Həkimin malik olduğu hikmət və bilik səmasına çatmağa ümid edə bilməz".*(Həzrət Bəhaullah, Yazılarından seçmələr, Bakı, 2009, 34, səh.86)

Daima arxaya boylanmaq heç də inkişafın düzgün yolu deyildir. Həyat daima inkişafdadır və dəyişir , buna uyğun olaraq Allahın Qanunu da dəyişir – bu Onun göndərdiyi peyğəmbərləri ilə bağladığı əhddir - dünyanın düzəldilməsinin məqsədidir. "İnsanlar səhv yollarda məşq edirlər..." Düzünü, bugünki şəraitə uyğun olanını yalnız Allah və Onun peyğəmbərləri bizə öyrədirlər ki, biz kamilliyə çataq. Hər şey müqaisədə daha aydın bilinir. Bu vaxta qədər olan dinlərin və ümmətlərin müqayisəsi də çox mətləbləri aça bilir. Hər bir peyğəmbər də öz ümmətinə elə güc verir ki, heyran olmaya

bilmirsən. Hz. Musanın misalında görmək olar ki, firona qalib gəlmişdir və ya dünyada elmin ən nüfuzlu Nobel mükafatı laureatlarının təxminən qırx faizi yəhudilərdir...Və ya Hz.Məhəmmədin ümməti böyük sıçrayışla inkişaf etmiş və bunun hesabına (allahsızların ən böyüyü F.Engelsin etirafına görə) orta əsr Avropası da böyük inkişaf mərhələsinə qədəm qoymuşdur.

"Diqqətsizlik korluğu" - baxarkən görməmək fenomeni, bu son illər aşkar edilmişdir. Yəni insan beyni hər-hansı bir konkret ideyaya köklənibsə o, ətrafında gedən digər prosesləri görmür, baxır, amma görmək iqtidarında deyildir. Yuxarıda göstərilən səbəblərdən əlavə, yəqin ki, bu səbəbdən də bəzilərinə açıq-aydın görünənlər heç digərinin diqqəti - nəzərini belə cəlb etmir. Odur ki, bu Qapıdan (Bab qapı mənasını verdiyini unutmayaq), özü də dar qapidan keçə bilmək üçün beyində və əllərdə olan əlavə "yüklərdən" azad olmaq lazımdır. Cəlaləddin Ruminin təbirincə (Yusif peyğəmbərin misalında) biz quyuda olduğumuzu tam anlamalı və quyuya sallanan kəndiri görüb, onun çıxış üçün yeganə vasitə olduğunu qiymətləndirə bilməliyik, əks təqdirdə həmişəlik quyuda qalmağa məhkumuq.

Heç nəyə inanmamaq və ya bir dəb halını almış adət-ənənəni din kimi qiymətləndirmək, xüsusilə, iki cür həqiqətin (biri düz, digəri yalan) mövcud olması bizim zəmanəmizdə daha çox biganəliyə səbəb olmuşdur. Əsas məsələ bizim özümüzə nə istədiyimizi aydınlaşdırmaqdır. Tez-tez bəzi ənənələrdən əl çəkməyin vaxtının gəldiyindən bəhs edib, gileylənirik. Sanki bəzi "ənənə bataqlığından" xilas olma ümidimiz kəsilir.

*"Vay! Vay! Ey nəfsi-həva aşiqləri! Ruhani Sevgilinin yanından şimşək kimi keçmisiniz və şeytani xəyallara könül*

*vermisiniz. Xəyala səcdə edərək adını haqq qoymusunuz. Tikana baxırsınız, amma adını gül qoymusunuz..."*

Son illər xristian aləmində baş verən və bu kitabda onları sadalamağa ayıb bildiyim hadisələr (keşişlərin bir çox Avropa və America ölkələrindəki əməlləri) və ərəb –müsəlman ölkələrində baş verən hadisələr bu dinlərin dövrümüzün bəlalarına cavab verməməsi –xalqlar və dinlər arası dialoqun, barışın bərqərar olması və bəşəriyyətin əsl birliyinin yaranmasına xidmət edə bilməməsi -Yeni Dinə böyük ehtiyac olduğunu göstərmirmi? Yuxarıda verilən statik məlumatlar həqiqətən də Bəhai Dininin bu məqsədə qulluq edən çox güclü alət olduğuna bariz nümunədir, axı bu işdə Allah heç vaxt öz bəndələrini tək – problemlərlə üzbəüz qoymur. O, bizə Öz Səma Nemətlərini bəxş edir, Qədim Fəzlini və Yeni İnayətini bir daha əta edir.

Hər bir zühur dövrünün əlamətlərindən biri şəkk-şübhədir. Yeni dinin, doğrudan da, Allah tərəfindən nazil olub-olmamasının araşdırılması bəziləri üçün qısa bir müddət, bəziləri üçün isə illər çəkə bilər. Əsas məsələ bizim bu fəzldən bəhrələnə bilməyimiz və Yeni Səma Süfrəsindən uzaq düşməməyimizdir.

*"Bu Gün günlərin Sultanıdır, bir Gün ki, Məhbubun gəlişinə şahid oldu. O kəs ki, əzəldən Aləmin Məqsudu idi. Varlıq dünyası bu Gün bu İlahi Vəhyin şəfəqləri ilə parlayır. Bütün xilqət onun nicatverici fəzlini vəsf edir və onun tərifini ucaldır. Kainat sevinc və şadlıqdan cuşa gəlib. Xoş o kəsin halına ki, yaşayıb bu Günü gördü və Onun məqamını tanıdı..."*

(Баб, Избранные из Писаний, Москва, 2006, стр. 119-120)

"Bundan əlavə, Şövqi Əfəndi Əmrin ardıcıllarını ruhlandırırdı ki, Həzrət Bəhaullahın, Allahdan nazil olan Yazılarında belə bir gerçək Nizamın təfərrüatlı təsviri verilən

dininin, Yazılarında İnzibati işlər, onların banilərinin məqsədləri barədə demək olar ki, heç nə deyilməyən "bu günün gəlişi"ni hazırlayıcı` dinlərindən ciddi fərqlərini anlasınlar. Həzrət Bəhaullahın buyurduğu kimi, "Peyğəmbərlik dövrü, həqiqətən, bitmişdir. Əbədi Həqiqət olan Kəs gəlmişdir. O Hakimiyyət Bayrağını qaldırmışdır..." Keçmişin Zühur Dövrlərindən fərqli olaraq, Allahın bu dövr üçün Vəhyi, Şövqi Əfəndinin dediyi kimi, "canlı orqanizm"dir, onun qanunları və təsisatları "İlahi sistemin əsaslarını", gələcək cəmiyyətin modelini" və "dünyanın birləşdirilməsi və yer üzündə məziyət və ədalətin hökmranlığının bəyanı üçün yeganə vasitə"ni təşkil edir." "İnanmaq istərdik ki, Allaha yaxınlıq və Ona hamılıqla xidmət, bizim dediklərimizin, necə xoş məramla  təqdim olunmuşsa, o ruhda da qəbul olunmasının təminatı olacaqdır."

Ümumiyyətlə,  biz bir-birinə nifrət edən kifayət qədər dinlər əhatəsində yaşayırıq, amma elə bir dinə ehtiyac duyulur ki, insanları dinindən asılı olmayaraq bir-birinə sevdirsin. Bu davamlı düşmənçilik heç də dünyanın inkişafının düzgün yolu və məhz XXI əsrə layiq inkişaf yolu deyildir.

Bəzən ifrata varma halları və qərarları müşahidə olunur, məs. Misirin Müsəlman Şurası kilsələrin tikilməsini "Allah qarşısında günah" adlandırmışdır. (**Vesti.az** 04.09.2009, Əl-Əzhar universitetinin şeyxi müəmmali cavablar vermişdir).

Din sonu olmayan ardıcıl bir prosesdir və daima təkamüldədir. Bu fikir əgər ilk baxışda çətin qavranılırsa, müəyyən vaxtdan sonra hikmətlə qarşılanmalıdır. Biz istəsək də, istəməsək də, dinin tarixi bunu təsdiq edir. Ümumdünya Ədalət Evi özü Müqəddəs Mətndə göstərilməmiş məsələlər barəsində qanun verə və sonra şəraitdən asılı olaraq, o qanunu ləğv edə bilər və beləliklə, icmanın dinamik inkişafı təmin edilmiş olur.

*“Bir qəlb üçün Allahın Günündə Onun Məzhərinin qarşısında durmaq və Onun Sözünü eşitmək və qəbul etmək, Onun Hüzuruna yetişmək - O hüzur ki, Allahın Özünün hüzurudur, Onun razılığının səmavi səltənətinin dənizində üzmək və Onun tövhid cənnətinin nəfis meyvələrindən dadmaqdan başqa heç bir gözəl bir cənnət ola biməz.”*

İşimlə əlaqədar olaraq ərəb ölkələrində çalışmış və hər birində İslam dininin müxtəlif çalarlarının olduğunu maraqla müşahidə etmişəm. Bu ölkələrdə ünsiyyətdə olduğum müsəlman dostlarım yeganə həqiqət daşıyıcısı kimi özlərini təqdim edirdilər. 2001-ci ildə sentyabrın 11-də bütün dünyaya yayılan bəd xəbər - Amrikada terror nəticəsində 3000-ə yaxın adamım həlak olması xəbəri məni də çox sarsıtdı və pərişan etdi. Bu azmış kimi eyni zamanda daha bir dəhşətli hadisənin şahidi oldum; bu hadisədən fərəhlənən kim, nəhayət qisas alındığını deyən kim, eyforiyada olan kim....Mənə isə "nə üçün sevinmirsən? " və ya "Yəqin ki, ürəyində sevinirsən?" deyənlər də oldu. Hətta məni tənbeh edənlər də oldu ki, mən fərqli düşünürəm. Yenə də ifrat müsəlman – xristian və yəhudi münasibətləri yaşandı. Bir an içərisində minlərlə günahsız insanın ölümünə səbəb olan "qəhrəmanlar" peyda oldular.....Aman Allah, hələ də, XXİ əsrin ilk ilində?!, orta əsrlər vəhşiliyi yaşandı. Daha bir "qələbə"? Axı geri qalmış orta əsrlər Avropası, materializmin banilərindən biri F.Engelsin etiraf etdiyi kimi, İslam dininin sayəsində bugünki inkişaf mərhələsinə çatmıışdır....

*"Nə vaxtadək bu qədər zülm bə əziyyətlər olacaqdır? Nə vaxtadək belə düşmənçilik və çətinliklər olaçaqdır? Məgər bizim Səndən başqa pənahımız varmı? And olsun Sənin Rəhmaniyyət həzrətinə ki, yoxdur."*

“Həqiqi din cəmiyyətə birlik gətirir. Bu gün bəşəriyyət dünyanı saran münaqişə və müharibələrdən əziyyət çəkir.

Sivilizasiyanın davam etməsi üçün birlik son dərəcə lazımdır. Əslində din özünün təmiz formasında birlik mənbəyidir. Dinin təzahür formalarının müxtəlifliyi heç vaxt mübahisə səbəbi olmamalıdır, əslində, dünyanın böyük dinlərinin korlanmamış formasına və təlimlərinin mahiyyətinə baxanda orada ziddiyyət deyil, birlik görünür. Din heç vaxt münaqişə və ixtilaf mənbəyi olmamalıdır; əks halda, o əsl məqsədinə çata bilmir. Din mütəşəkkil bir bilik sistemidir. Bu, ruhani gerçəklik və fərd və cəmiyyət həyatı ilə bağlıdır. Dinin əsas məqsədlərindən biri insanlığa təməl ruhani həqiqətləri verməkdir. Dinin təzahür formalarının müxtəlifliyi heç vaxt münaqişə səbəbi olmamalıdır. Lakin ruhani gerçəkilk barədə heç də bütün inanclar eyni dərəcədə doğru deyil. Bunların bəziləri həqiqət barədə heç bir əsasa malik deyil, sadəcə cəhalət və qorxu üzərində qurulmuşdur. Həqiqi dinin və elmin gücləri mövhumatı aradan qaldırmaq üçün birlikdə çalışır ki, bəşəriyyət insanın beynində olan məhdudiyyətlərdən azad olaraq irəli getsin". *(Əbdül-Bəha, "Bəzi suallara cavablar", Bakı, 2004).*

Həyatda qəribə hadisələrlə tez-tez rastlaşırıq. Bir oftalmatoloqun söhbəti məni çox heyran etdi. "Kor nə istər iki göz - biri əyri biri duz" atalar sözünü, sən demə, heç də bütün gözdən əlillərə aid etmək olmazmış. Sonradan görmə qabiliyyətini itirənlər cərrahi əməliyyatlara razı olurlar, amma anadangəlmə görə bilməyənlər heç də bu əməliyyatlara razılıq vermirlər. Qəribə də olsa, onlar öz vəziyyətləri ilə barışıb, öyrəşdiklərindən heç nəyi dəyişmək istəmirlər. Məncə bunun səbəbi yəqin ki, təkcə onların gün və işığın nə olduğunu tam anlamaması deyil, ümumiyyətlə görmək anlayışının nə demək olduğunu bilməmələri və qiymətləndirmək iqtidarında ola bilməmələridir. Yəni müəyyən həyat tərzinə, şəraitə alışıb,

öyrəşənlər yeniliyə hazır ola bilmirlər. Bunun da səbəbindən gün işığı kimi böyük nemətdən özlərini məhrum edirlər...

On illər boyunca Bakının ətrafındakı bağlardan birində istirahət edirəm. Onlarla meyvə ağacları olan bağda yazda və yayda özümü olduqca rahat hiss edirəm. Bəzən qış aylarında da bağa getməli oluram və məni narahat edən, yaz və yay fəslində olduğundan fərqli olaraq, həmin ağacları tanıya bilməməyimdir. Yalniz bir-ikisini çılpaq gövdəsindən ayırd edə bilirəm. Amma, bu işi yalnız təcrübəli bağban asanlıqla edə bilir. İnformasiyanın qıtlığı şəraitində, bu müəyyən təcrübə, müşahidə və qabiliyyət tələb edir, yəni hər adam yalnız quru bir gövdə ilə ağacları ayırd etmək qabiliyyətinə malik deyildir. İnsanların bir az qismi artıq tumurcuqdan fərqi ayırd edə bilirlərsə, bəziləri yalnız çiçək açmış ağacları bəzən hətta qoxusundan da ayird edə bilirlər. Yarpaqla örtülmüş gövdə bu işdə artıq bir çoxlarına yardımcı ola bilər. Meyvə ilə dolu budaqlar isə coxumuza bəlli ağaclardan xəbər verir. Bunun ücün çox da böyük fərasət tələb olunmur....Bədbəxtlik ondadır ki, əgər indi də (meyvə ilə dolu budaqlarla) ağacları ayırd edə bilmiriksə, onda vay bizim halımıza....Bəs, belə olan təqdirdə, bunları ayırd etmək qabiliyyəti olmayan necə özünə rəva bilir ki, bu sahədə müəyyən mülahizələr irəli sürür nəinki özünü və camaatı da çaşdırır?

Yəni insanlar müxtəlif səviyyəyə malik olduqlarından ”bağban səviyyəsinə” çatmaq çox az bir qismimizə müəssər olur və bunun üçün müəyyən şərtlər vacibdir. Hz.Bəhaullah “Ağacının meyvəsi” axtaran kəsə Onun əsl Peyğəmbər olması haqda mülahizə aparmağa imkan verər.

Hz.Bəhaullah Yazılarından brində (“Жемчужины Истины”, Санкт-Петербург, 2001, Издательство “Единение”) bizim Allah Məzhərini Onun “meyvəsindən” tanıya biləcəyimizi bildirir: “Yalnız o zaman ki, axtaranın ürəyində axtarış,

ciddi-cəhd, ehtiraslı istək, şübhəsiz sədaqət, çılğın məhəbbət, heyranlıq və məftunluq şamı yana, o zaman ki, Onun inayət nəsimi onu sara, onda azğınlıq qaranlığı yox olar, şübhə və tərəddüd dumanı çəkilər, bilik və inam işığı onun bütün varlığını nurlandırar.”

Quran`i-Kərim, Əş-Şüəra surəsi, ayə 7: *“Məgər onlar yer üzünə baxıb orada növbənöv gözəl (bitkilər və meyvələr) yetişdirdiyimizi görmürlərmi?”*

Bütün bu Yazıları başa düşmək üçün müəyyən hazırlıq lazımdır.

*“Din gerçəklik toxumundan yarpaqları , budaqları, çiçəkləri və meyvələri olan bir ağaca çevrilir. Zaman keçdikcə bu ağac qocalır. Yarpaqlar və çiçəklər solur və məhv olur; ağac quruyur və meyvə vermir. İnsanın köhnə ağacdan yapışaraq onun həyat qüvvələrinin tükənməz, meyvələrinin misilsiz və varlığının əbədi olduğunu söyləməsi ağıllı fikir deyildir. İnsanların qəlbinə yeni həqiqət toxumu əkilməlidir ki, oradan yeni ağac böyüsün və dünyanı yeni ilahi meyvələr təzələşdirsin. Bununla indi aralarında din ayrılığı olan millətlər və xalqlar birliyə gətiriləcək, mövhuat yox olacaq, Həqiqi ümümdünya qardaşlığı qurulacaqdır. Dünyada mövcud müharibə və münaqişələr aradan qaldırılacaq, Allahın bütün bəndələri barışacaqlar. Zira hamı Onun qüdrət və mərhəmət ağacının gölgəsində toplaşacaqdır. Allah hamıya mehribandır; O, hamıya səxavətlidir, necə ki, Hz.İsa demişdir: “Allah ədalətliyə də, ədalətsizə də yağış göndərir”- bu o deməkdir ki, Allahın mərhəməti ümümdünyəvidir. Bütöv bəşəriyyət Onun sevgi və xeyir-duasının hifzi altındadır və O, hamıya hidayət və inkişaf yolunu göstərmişdir”.*

Hz.Bəhaullah müxtəlif dinləri inkişafda olan bitkiyə bənzədir. Mövcud dinlər heç vaxt dondurulmayıb, yaşayır və

daima inkişafdadır. Müxtəlif peyğəmbərlərin Təlimləri formaca əsrdən-əsrə dəyişsə də, hər yeni Zühur əvvəlkinin davamıdır. Onlar arasında nəinki heç bir anlaşılmazlıq yoxdur, həm də onlar bir-birindən təcrid olunmuş halda mövcud deyil və Allahın Vahid Dininin müxtəlif inkişaf mərhələlərini təşkil edirlər. Bu, ağacın inkişafındakı mərhələlərə - vaxtılə toxum, sonra tumurcuq və çiçək cücərməsi və nəhayət meyvə əmələ gəlmə mərhələlərinə bənzəyir. Doktor Esslmontun təbirincə desək, onlar bir-birini məhv etmirlər, əksinə, biri digərində təcəccüm olunur - çiçək tumurcuğu məhv etmədiyi kimi, meyvə də çiçəyi məhv etmir. Allahın Birliyinə inananların Allahın Vahid Dininə də inanmaqları çox təbiidir. Əvvəldə deyildiyi kimi, O, Həqiqəti birdən-birə açmır, sirrləri və qanunları zamanın tələbinə uyğun olaraq tədricən açır.

Hz.İbrahim Babilistanda Allahın vahidliyini, birliyini elan etdiyi kimi, Hz.Bəhaullah da orada (indiki İraqda, Bağdadda) öz növbəsində Allahın vahidliyini, birliyini və həmçinin, Vahid Dininin mövcud olduğunu və dünya dininin təkamülü təlimini elan etmişdir.

*"Budur, Cənnət Bülbülü Əbədiyyat Ağacının budaqları üzərində müqəddəs və şirin avazla oxuyur. Təmiz qəlblilərə Allahın yaxınlığından müjdə verir, Allahın Birliyinə inananları Səxavətli Allahın Hüzuruna çağırır, inqita edənlərə Sultan, Cəlallı, Bənzərsiz Allahın nazil etdiyi bu müraciətdən xəbər verir və aşiqləri Müqəddəslik Məqamına və bu nurlu Cəmala doğru yönəldir.*

*Həqiqətən, bu həmin O Ən Böyük Camaldır ki, Peyğəmbərlərin Kitablarında öncədən xəbər verilmişdi, Onun vasitəsilə haqq nahaqdan ayrılar, hər bir əmrin hikməti Onunla sınanar. Həqiqətən, O bir Həyat Ağacidır ki, onun barı Uca, Güclü və Ulu Allahın meyvələridir"*

*"Ey qövm, əgər siz bu ayələri inkar etsəniz, onda Allaha hansı dəlil ilə iman gətirmişdiniz? Göstərin dəlilinizi, ey yalançılar zümrəsi. Zira, xalq yanlış yolda sərgərdandır və Allahı öz gözləri ilə görmək və onun Nəğmələrini öz qulaqları ilə eşitmək bəsirətindən məhrumdurlar".*

*"Sən öz qəlbində buna əmin ol ki, bu Camaldan üz çevirmiş olan bir kimsə, bundan öncə gələn bütün Elçilərdən də üz çevirmiş və əzəldən əbədiyyətədək Allaha təkəbbür göstərmiş olur".*

Biz qulaqlarımızı və beynimizi Allah sözünə kökləməliyik. "...Allaha yaxınlıq özünü fəda etməyi, hər şeydən Onun xatirinə ayrılmağı və əl çəkməyi tələb edir. Yaxınlıq - oxşarlıqdır". Fədakarlıq etmədən səmavi kamilliklər əldə etmək olmaz. Fədakarlığın sirri budur ki, biz Allaha aid olanı əldə etmək üçün özümüzünkündən imtina etməliyik. Həzrət Əbdül-Bəha fədakarlığın sirrini oda atılmış dəmir misalında izah edir. Dəmir boz, soyuq və bərkdir. O, bu xüsusiyyətlərdən əl çəkməlidir ki, odun keyfiyyətlərinə yiyələnsin, yəni istilənsin, qızarsın və durulsun. Fədakarlıq bağlandığımız şeylərdən ayrılmağımızı tələb edir və ona görə də ağrı törədir. Lakin, anlayan qəlb üçün ağrı şirindir, çünki o, həqiqi sevinc daşıyıcısıdır.

Mələyi-Əlanın nemətlərini əldə etmək asan başa gələ bilməz, bu işdə qəlbin paklığı və niyyətin saflığı çox vacibdir. Ən böyük hidayətə çatmaq bilik və hikmətdən, Müqəddəs Kəlamlardan agah olmaqdan asılıdır. Allahın bizə bəxş etdiyi ən böyük nemət Onun hidayətinə yetişmək nemətidir."

*"...Allahın birliyinə inamdan doğan qüvvə ilə boş təqlid bütlərini sındırın. Sonra Rəhmanın rizasının müqəddəs cənnətinə daxil olun." ".... elə isə canınızın təpəri, ürəyinizin istəyi, ruhunuzun şövqü və bütün varlığınızın gücü ilə çalışın ki, vüsal bağcasına daxil olub bənzərsiz Gülü iyləyəsiniz və*

*müqəddəsliyin şirin rayihələrini duyasınız və Əbədi hüzurdan öz payınızı alasınız. Bu nəsihətə qulaq asan kəs bütün zəncirləri qırar və cünun eşqinin dadını bilər, öz Sevgilisinə qovuşar və canını Cananına tapşırar. Bu qəfəsdən çıxaraq o bir ruh quşu kimi öz müqəddəs və əbədi yuvasına yollanar."*

*"Bu gün dünyanın bütün xalqları öz maraqlarına qapılmış və var qüvvələri ilə səy göstərərək öz maddi maraqlarını irəli sürməyə çalışırlar. Onlar nə ilahi həqiqətə, nə də bəşər dünyasına, fəqət özlərinə ibadət edirlər. Onlar səylə ümumi rifahı deyil, öz faydalarını güdürlər."*

*"Hər kəs ki, Səni tanıdı, o, Allahı tanıdı və hər kəs ki, Sənin hüzuruna yetişdi, Allahın hüzuruna yetişdi. Ona görə də, xoş o kəsin halına ki, Sənə və Sənin əlamətlərinə iman gətirdi, və sənin hökmranlığına baş əydi, Səninlə görüşmək şərəfinə nail oldu, Sənin razılığını əldə etdi, Sənin dövrənə dolandı və Sənin taxtının önündə dayandı. Vay o kəsin halına ki, Sənə qarşı günah etdi, Səni dandı, Sənin əlamətlərini inkar etdi, Sənin hökmranlığına qarşı çıxdı, Sənin əleyhinə qalxdı və Sənin üzünün qarşısında lovğalandı, Sənin dəlillərinlə mübahisə etdi və Sənin hökmranlığından və qüdrətindən qaçdı, və Sənin əmr barmaqlarınla Sənin Müqəddəs Lövhlərində inanmayanlar sırasına yazıldı."*

`Allahın Elçilərini tanımayan adam kölgədə bitən bitki kimidir. O günəşin nə olduğunu bilməməsinə baxmayaraq, tamamilə ondan asılıdır. Peyğəmbərlər də belə mənəvi günəşlərdir və Həzrət Bəhaullah bizim yaşadığımız günlərin Günəşidir. Əvvəlki dövrlərin Günəşləri dünyanı isidib canlandırmışlar. Onlar şəfəq saçmasaydılar, indi dünya soyuq və cansız olardı, lakin təkcə indiki dövrün Günəşi əvvəlki günəşlərin şəfəqləri ilə əzizlənmiş meyvələrə yetişmək imkanı verə bilər. Su zanbağının və qızılgülün açılması üçün günəş işığı nə qədər zəruridirsə, bəhai həyat tərzinə mükəmməl

şəkildə yiyələnmək üçün də Həzrət Bəhaullahı şüurlu və bilavasitə dərk etmək eynilə zəruridir.`

Biz insan övladının hələ 4500 il əvvəl tikilmiş Misir ehramlarının necə, nə cür və kimlər tərəfindən tikildiyinin sirrlərini hələ də tam aça bilməmişik. Bütün yer kurəsi boyu (Yerin üstündə - Meksikada və bəzi məlumatlara görə hətta okeanın dibində - Bermut üçbucağının yaxınlığında və cənubi Yapon adaları yaxinlığında) bu piramidalara oxşar tikililərin, və ya yüksək texnoloji qurğuların, mənşəyini və bəzilərinin məqsədini hələ də bilmirik. Müasir texnika və texnologiyadan onlarla dəfə mükəmməl, yüksək olan alətlərin nədən hazırlandığını da hələ bilmirik, amma Allahın Kitabının sirrini sadəlövhcəsinə açılmış zənn edirik. Halbuki, bəzi məqamlar Quran`i-Kərimdə indiyə kimi bağlı saxlanılırdı və onların açılma şərtləri barədə müəyyən hədislərdə deyilmişdir.

Bu məqamda Mövlanə Cəlaləddin Ruminin Qurani-Kərim barəsində fikirləri yada düşür. "Bil ki, Quranın kəlmələri görünür. Bu görünən kəlmələrin və onlardan çıxan zahiri mənaların altında olduqca güclü və dərin, bir də batini məna var. O batini mənanın altında da bir batini məna yenə var. Ondan sonra bir üçüncü məna yenə var ki, onu anlamaqda ağıllar özünü itirər."

"Ey oğul! Quranın bilinən zahiri mənasına, zahiri üzünə baxma! Quranın zahiri üzü bir insana bənzəyər. İnsanın şəkli, üzü, boyu, qaməti görünər, amma ruhu gizlidir, görünməz". (Mövlanə Cəlaləddin Rumi. Eşq pərvanəsi. Bakı, "Nurlar", 2009, s.77)

Pasxi adasında olan, göylərə yönəlmiş baxışlarla, insan başı heykəlləri və dağın başındakı düzənliklərdəki müəmmalı cığırların mənşəyi, həmçinin, uzun müddət idi ki, müxtəlif suallar doğururdu. Yalnız yuksəkliyə qalxmağa imkan verən hava nəqliyyatından rahatlıqla izlənilən bu cığırların nəhəng

quş fiqurları və ya səma bürcləri olduğu məlum olmuş və onların hansı məqsəd daşıması artıq müxtəlif fərziyyələr yaratmağa imkan verir. Maraqlısı budur ki, bir qədər yuksəkliyə qalxmayınca, hətta həmin cığırların içində olanda belə, min illər suallar yaradan insan əməyinin məhsulu olan bu tikililər sirr olaraq qalırdı. Analoji olaraq, Bəhai Dininin müqəddəs yazıları da bizləri, bu və ya digər dinlərin ardıcıllarını, tərəfdarı olduğumuz dinin daxilindən, sanki həmin o yüksəkliklərə çatdıran vasitə, Allahın fəzli ilə bir çox müəmmaların açılmasına və izahına aparan bələdçidir.

Şimali Qafqaz dağlarında alpinistlərlə gəncliyimdə tanışlığım və onlarla cəmi bir neçə gün keçirməyim bir çox mətləbləri anlamaqda mənə kömək etdi. Əvvəla, yalnız uzaqdan izlədiyim və min cür əzab-əziyyət hesabına ən başlıcası isə bəzilərinin həyatı bahasına əldə etdikləri nailiyyətlərin nə üçün etdiklərinə yalnız onlara qoşulduqdan sonra başa düşdüm- təkcə özünü sınamırsan, həm də, sanki dağı da rəf edib, qalib gəlirsən. İkincisi isə, alpinistlərin illərlə qoyulmuş ənənəsinə uyğun olaraq, ilk günü alpinist qəbiristanlığına getməyimiz oldu - ənənəyə uyğun olaraq, qəbr daşlarında həm də alpinist kimi fəaliyyət illəri göstərilır. Orada uyuyanların peşəkar alpinist olması məni heyrətləndirdi. Heç bir təcrübəsi olmayan və bu yolda ilk addımlarını atanlar adətən həmişə verilən məsləhətlərə və xəbərdarlıqlara qulaq asır və tədbiq edirlər. Amma, əksinə olaraq, özünü peşəkar hesab edib və yeni yolu, öz kohnə bilik və bacarığı süzgəcindən buraxıb, keçmək istəyənlər nə vaxt isə ucuruma düşmək qorxusuna məhkumdurlar. Əlbəttə ki, bu misalı təkcə fiziki mənada yox, həm də ruhani həqiqəti araşdırmaq yoluyndakı çətinliklərə şamil edib, nəticə çıxarmaq olar.

Alpinistlərlə əlaqəli başqa bir misal da çox maraqlıdır. Himalay (Everest) alpinistləri dünyanın ən uca zirvəsini

(8844m) fəth etmək üçün ömürlərinin 10-20 ilini həsr edirlər. Bu hədəf yalnız əsl peşəkarlara müyəssər ola bilir. Bu məqsədə çatmaq üçün bir çox şeyi qurban vermək tələb olunur. Temperatur, hava rejimi və s. adi şəraitindən təmamilə fərqli olduğundan düşüncə tərzi və dəyərlər də dəyişiklərə məruz qalır. Zirvəni fəth etmək arzusu nəinki insanın özünü fəda etməyə, bəzən başqasına qarşı da biganəliyə səbəb ola bilir və yolboyu taqətdən düşmüş, amma hələ sağ olan və hələ xilas edə biləcəyi həmkarını asanlıqla ötüb keçir, onu taleyin qismətinə buraxırlar. Bəlkə də bu bizim sivilizasiyanın yaratdığı təzadlardandır. Bəs belə bir xəstə sivilizasiyanın özünü xilas etməyib, ona biganə qalaraq taleyin qismətinəmi həvalə etməliyik? Bəlkə bu işdə zəmanəmizin "Ən Böyük Həkiminin" köməyinə ehtiyacımız olduğundan nəinki Ona etinasızlıq göstərməyin, əhəmiyyət verməməyin özü mənəviyyatsızlığı artırmaqla yanaşı hər birimizin üzərinə düşən missiyanın da həyata keçirilməməsinə səbəb olacaqdır.

*"Dünya xalqları dərin yuxudadırlar. Onlar qəflət yuxusundan ayılsaydılar, onda bütün şövqləri ilə Hər Şeyi Bilən Hikmət Sahibi Allaha can atardılar. Onlar malik olduqları hər şeyi, yer üzünün bütün xəzinələri olsa belə, atardılar, ta ki Rəbb onları tək bir sözlə yad etsin. Gizli şeylər haqqındakı elmləri heç kəsin görmədiyi, və yalnız Qüvvət Sahibi, aləmlərin Mühafizi olan Kəsə nazil olan Lövhdə saxlayan Kəsin sizə nəsihəti belədir."* ( "Жемчужины Истины", Санкт-Петербург, 2001, Издательство "Единение")

*"Ey ruh oğlu! Hər quşun gözü öz yuvasındadır və hər bülbülün məqsudu gülün camalıdır. Yalnız bəndələrin könül quşlarıdır ki, fani torpağa qane olub əbədi yuvalarından uzaq düşüblər və uzaqlıq gillərinə yönələrək yaxınlıq güllərindən məhrum olublar. Çox heyrət, əfsus və heyflər olsun ki, bir piyalə*

*xatirinə Yüksək Məqamın dalğalı dəryasından üz döndəriblər və Əbha Üfüqündən uzaq düşüblər.*"

(Kəliməti-Məknunə, fars dilində- 2, Bakı, 2000, səh.36).

Bəhai dininin banisi Həzrət Bəhaullah 150 il əvvəl Avropanın dövlət başçılarına ünvanladığı Lövhlərində bildirirdi ki, bəşəriyyət planetimizdə indiki həyat tərzinin kökündən dəyişəcəyi yeni tarixi dövrə qədəm qoymuşdur.

Əkka şəhərində Həzrət Bəhaullah ümumi bəyanına davam edir. Aşağıda Onun İran şahı Həsrəddinə ünvanladığı məktubdan bir parça verilir: "Hər halda Allaha şükr edirik və Onun səxavətindən rica edirik ki, insanların boyunlarını zəncir və qandallardan azad etsin və onların səmimi simalarını Qudrətli və Səxavətli Olanın Simasına doğru yönəltsin. O, çağıranlara cavab verməyə hazırdır və Onunla birgə olanlara yaxındır".

Təəssüflər olsun ki, 165 il keçməsinə baxmayaraq, İranda vəziyyət heç də dəyişməmişdir, bugünki molla rejimində insanların boyunları hələ də zəncir və qandallardan azad edilməmişdir, - hətta sonunçu şah dövrünə nisbətən isə pisləşmişdir.

İran bəhailəri hələ bu gün də Dinin vətənində sıxışdırılsalar da, özlərinin cəsarəti ilə sülhün yer üzündə müvəffəqiyyətinə nail olmaq üçün bu dinin qüdrətini sübut edirlər. Hazırkı rejimin hakimlik etdiyi axırıncı 30 il ərzində, bu günədək (sonuncu dəfə 21.06.98-ci ildə) bəhailərin təqib edilməsi böyük miqyas almışdır. 200-dən artıq bəhai edam edilmişdir, dördünə ölüm hökmü kəsilmiş, qalan 300 -400 min nəfərinin isə hüququ tapdalanır. Mətbuat orqanları isə bu hadisələrə xüsusi maraq göstərir, belə ki, "Le-Mond", "Nyu-York Tayms" və bir sıra nufuzlu qəzetlərin səhifələrində dərc olunmuş böyük həcmli məqalələr buna əyani sübutdur. 1998-ci ilin

dekabrından, BMT-nin Baş Məclisinin İrana dair qəbul etdiyi, daha bir uğurlu qətnaməsində Bəhailər haqqında məsələnin xüsusilə vurğulanması, şübhəsiz ki, dini zəmində zəifləmək bilməyən görünməmiş təqib və zülmdən irəli gəlmişdir.

İnsan hüquqları üzrə mütəxəssis, Nobel mükafatı laureatı Şirin Ebadi, İran bəhailərinin rəhbərliyini təşkil edən yeddi nəfərlik qrupun həbs edilmiş 7 üzvünün müdafiəsini 2008-ci ildən indiyə qədər aparır.

İran Bəhai Dininin 7 lideri Tehranda hələ də həbsdədirlər. 2008-ci ilin yanvar ayında Tehranda İran Bəhailərinin 7 lideri və Dinin bəzi tərəfdarları həbs olunmuşlar. Bundan əvvəl tutulan bəhailər də həbsxanaya salınmışdılar.

Bu haqda BMT-ın xüsusi məruzəçisi Pakistanlı müsəlman xanım Asma Jahangirin məlumatında geniş informasiya verilir – aşağıdakı əlaqə kanalına bax: http://www.bahai.org/iranthreat

Nobel 2003 Sülh mükafatı laureatı, hüquqşünas Şirin Ebadi bu günə kimi onların müdafiə etməkdədir. Azərbaycan, Bakı, 9 İyun 2009, aşağıdakı əlaqə kanalına bax: Trend News (Persian Desk's interview with the Nobel Peace Prize 2003 Laureate, human rights activist Shirin Ebadi).

Trend News**:** Şirin Ebadi 7 İyun 2009 İran Prezidenti Mahmud Əhmədinecata göndərdiyi açıq məktubunda növbəti dəfə İranda İnsan hüquqları situasiyasını tənqid edir.

11 iyul 2009-cu il tarixdə İnsan Haqları Beynəlxalq Federasiyası İrandakı Tehranın İnqilab Məhkəməsinin 28 saylı Bölməsində yeddi Bəhai məhbusların taleindən dərin narahatlığını dəfələrlə ifadə etmişdir. Hazırda ölkədən xaricdə olan xanım Şirin Ebadi və bu yaxınlarda həbsə alınan cənab Əbdülfəttah Sultani bu işin hüquqi məsləhətçisidirlər. Elə bu faktların özü İrandakı situasiyanın nə dərəcədə gərgin olduğuna bariz bir nümunədir.

İran Bəhai icmasınını inzibati işlərini idarə edən qrupun üzvləri - xanım Fariba Kamalabadi, cənab Camaləddin Xancani, cənab Əfif Nəimi, cənab Səid Rzayi, cənab Behruz Təvəkküli və cənab Vahid Tizfəhm bir neçə ildir ki, həbsdə saxlanılırlar. Onlar 14 may 2008-ci ildə Tehranda İranın Kəşfiyyat Orqanının agentləri tərəfindən həbs olunmuşlar. Həmin qrupun digər üzvü xanım Məhvəş Sabet 2008-ci ilin mart ayında Məşhəddə həbs olunmuşdu. Federasiya yeddi Bəhainin həbsini özbaşınalıq kimi qiymətləndirir və onların dərhal azadlığa buraxılmasına təkrarən təkidlə tələb edir. İnsan Haqları Beynəlxalq Federasiyası İran İslam Respublikasının hakimiyyət dairələrindən təkidlə istəyir ki, onların əleyhinə yürüdülən ittihamlar barədə məlumat yaysın. "Biz həmçinin İran hökumətindən təkidlə istəyirik ki, proses açıq şəkildə, qərəzsiz və müstəqil məhkəmə qarşısında aparılsın. Ədalətli məhkəmə, o cümlədən açıq məhkəmə iclası, dini inam əsasında ayrıseçkiliyin qadağan edilməsi və dini azadlıq hüququ Beynəlxalq Vətəndaş və Siyasi Hüquqlar Konvensiyasında təsbit olunmuşdur və İran da bunu ratifikasiya etmişdir".

***Xanım Fariba Kamalabadi, cənab Əfif Nəimi(əyləşmiş), cənab Vahid Tizfəhm, cənab Camaləddin Xancani, cənab Səid Rzayi, cənab Behruz Təvəkküli (əyləşmiş)və xanım Məhvəş Sabet.***

Ümumdünya Ədalət Evinin Rizvan 2010 Müraciətində deyildiyi kimi "*Öz sıralarınızda görməklə, İrandakı əziz bəhai qardaş və bacılarınıza baxın. Məgər onlar Allaha məhəbbətdən və Ona xidmət arzusundan doğan mətinlik nümunəsi deyillərmi? Məgər onların ən qəddar və ən acı təqibləri aşmaq qabiliyyəti dünyanın milyonlarla zülm altında olan insanlarının qalxıb, Allahın yer üzündə Mələkutunun qurulmasında*

*qətiyyətlə iştirak etmək qabiliyyətlərindən xəbər vermirmi? Ixtilaf törədən sosial strukturların qarşısında dayanmayaraq, Həzrət Bəhaullahın Müjdəsini hər bir şəhər qonşuluğunda, hər bir kənddə, yer kürəsinin hər bir guşəsində gözləyən ruhlara çatdırmaq üçün tələsin və onları Onun icmasına, İsmi-Əzəmin icmasına gətirin."*

Azərbaycan Bəhailəri Dini Mərkəzinin 1 İyul 2009-cu il tarixli mətbuat açıqlamasında deyilir:

"İran Bəhai icmasınını ölkə səviyyəsində icmanın əlaqələndirici qrupu kimi fəaliyyət göstərən bu qrupu ancaq Bəhai dininə mənsub olduqları üçün həbs olunmuşlar. Onların həbsi məqsədyönlü və geniş təqib dalğasının ancaq bir hissəsidir. 300 000-lik İran Bəhai icması, ümumiyyətlə, ən böyük dini azlıq olmasına baxmayaraq, 30 ildir ki, dini mənsubiyyətinə görə əzilir və təqib olunur – bəhailər ali təhsil və təqaüd ala bilmir, bəhai professorlar tədris sistemindən kənarlaşdırılır, məktəblərdə uşaqlar ayrıseçkiliyə məruz qalır, inzibati və ya dövlət işlərinə alınmır, özəl sektorda işə qəbul olunmalarına məhdudiyyətlər qoyulur, davamlı surətdə onların əleyhinə KİV-də bohtan xarakterli yazılarla onların mənfi obrazı yaradılır, evlərinə hücumlar edilir və yandırılır, qəbirstanlıqları dağıdılır.

Azərbaycan Bəhai İcması İran Bəhai İcması liderlərinin azad olunmasını və onların təqib olunmasına son qoyulmasını təkidlə tələb edir və insan hüquqları və vicdan azadlığı məsələləri ilə məşğul olan bütün təşkilatları bu məsələyə biganə qalmamağa çağırır."

Ümidvarıq ki, bu yaxinlarda İran mənşəli Amerika (və eyni zamanda İran) vətəndaşı olan jurnalist Roksana Sabirinin azad edilməsindən sonra İran rəhbərliyinin insafla bu işə yenidən baxıb, ədalətli bir hököm çıxaracaqdır.

Hərbi-kəşfiyyat, avtoritar molla rejimində artıq öz səhvlərini başa düşənlər vardır və bu səhvləri çoxları da başa düşəcəklər. Bu barədə öz sözünü deməyənlər isə, bilavasitə bu insafsizlığı və edamları törədənlərlə bərabər məsuliyyət daşıyırlar. Heç olmasa tarixin dərsindən ibrət almağı öyrənməlidirlər, axı bu və ya digər ideyaların əksinə çıxmaq heç vaxt onların yox olmasına gətirib çıxartmır. Burada Həzrət Əlinin bir kəlamı yada düşür: "İnsanlar bilmədiklərinin düşmənidirlər". Lakin İran rejiminin Bəhailəri təqib etməsi bilməməzlikdən deyil, onlar bunu məhz planlı şəkildə və bilərəkdən edirlər. Bu sözlər daha çox adi insanlara aiddir. Məsuliyyət hissi bəhailərin həyatının mənasını təşkil edir. Cəmiyyətin rəvan inkişafı üçün insan müəyyən təməl prinsiplərinə sadıq qalmalı və həyatını yüksək əxlaqi dəyərlər üzərində qurmalıdır. Lakin əfsuslar olsun ki, dünyada baş verən tərəqqi ilə əxlaq arasındakı geriləmə müxtəlif təzadlara gətirib çıxarmışdır.

Əqli və ruhani qabiliyyət olmalıdır ki, Allahı, Onun peyğəmbərini tanıya bilsinlər. Bu isə onu xöşbəxtliyə gətirən böyük bir vasıtədir. Ruhani, yəni əqli və mənəvi xüsusiyyətlərə malik olmaq vacibdir. Dövlət, cəmiyyət, bəşəriyyət üçün faydalı olmaq üçün ruhani tərbiyənin rolu böyükdür. Bu isə inkişaf və rifah ilə sıx əlaqəli məsələdir. Avropa ölkələrinin muzeylərində, bu nöqteyi-nəzərdən yerli xalqların dünya sivilizasiyasına verdiyi töhvələr, nəinki qorunub saxlanılır və həm də qürur mənbəyidir. Əqli və ruhani mədəniyyət paralel inkişaf etməlidir. Bu keyfiyyətlərin bərabərləşməsi zamanı əsl inkişaf dövrünün əlamətlərindəndir. Əsl alicənab insan təkcə özü üçün yaşamır. Həyat özü dialektikadır- inkişafdadır. O cümlədən, din də bu qanunauyğunluqdan kənarda deyildir – daima inkişafdadır.

Sovet İttifaqı tərkibində Azərbaycan xalqı 70 il dininə sadiqliyini qoruyub saxladı. Allahsızlıq bir dəb halını almışdı,

ciblərində allahsız bileti gəzdirənlər çoxluq təşkil edirdi. 1937-ci ildə bütün din xadimləri – keşişlər, mollalar, o cümlədən, bəhailər də, zülmə məruz qalmışdılar - həbsə atılmış, sürgün edilmiş, edam edilmişlər. Şimali Azərbaycanda yalnız adət - ənənə kimi yas məclislərində din yada düşmüş, dini mərasimlər təqib olunmuşdur, lakin ateizm ideoloqları dinin tamamilə unudulmasına nail ola bilməmişlər.

Cənubi Azərbaycanda hal-hazırda 30 milyona qədər azərbaycanlı yaşayır. Onların öz ana dilində məktəbi belə yox-dur. İranın elementar insan haqlarından məhrum olan ən böyük milli azlığı azərbaycanlılar, ən böyük dini azlığı isə bəhailərdir. Bəhai azərbaycanlılarının isə tamamilə heç bir hüququ yoxdur.

Bəhailəri dinlərinə görə məzəmmət edən dost və tanışlar, qohum və qonşular, hətta ailə üzvləri (bu haqda Quran`i-Kərimdə Qiyamətin əlamətlərindən biri kimi göstərilib) onlarla, Bəhai Dini ilə uzaqdan deyil, yalnız yaxından tanış olduqda bəhailərin İslamın, Quran`i-Kərimin ruhuna sadiq olduqlarını etiraf edirlər. Bu zaman ya bəhailərə qoşulur ya da İslama "sadiq" qalaraq yenə də əvvəlki kimi sanki müsəlmanlıqlarını saxlayılb təəssübkeşlik qurbanı olurlar.

"*Hər bir İlahi Əmr kimi, bu Əmr də ona hücumlar edən müxalif qüvvələr üzərində cəsarətlə qələbə çalmayınca səmərəli olaraq qurulmayacaqdır. Dinin tarixi özlüyündə həmin fakt üçün kafi sübutdur. Təqiblər və sınaqlar Allahın seçilmiş kəslərinin qisməti olmuş və olacaqdır. Amma bunu onlar qiyafəsini dəyişmiş xeyir-dua kimi qəbul etməlidirlər, çünki onların vasitəsi ilə inamları sürətlənəcək, möhkəmlənəcək və təmizlənəcəkdir. Hz.Bəhaullah belə işkəncəli sınaqları Allah Əmrinin çırağını qidalandıran yağla müqayisə edir*". (Şövqi Əfəndi, Həzrət Bəhaullahın Dünya Nizamı)

Ən nəhayət, İran ziyalıları 165 il ərzində ilk dəfə olaraq nəinki bəhailərə edilən zülmkarlığa görə üzr istəmiş, bu işdə

biganə olduqları üçün hətta özlərini məzəmmət də etmişlər (aşağıdakı əlaqə kanalına bax) CNNIranians/Bahai və http://edition.cnn.com/2009/WORLD/meast/02/06/iran.bahai.apology/index.html

Bu hadisələrlə əlaqədar bu sətrlərin müəllifi "Vesti" elektron qəzetində 9 iyun, 2009 –cu il tarixli buraxılışda (aşağıdakı əlaqə kanalına bax): www.vesti.az. saytı, qeyd edir:

Heç olmasa İran ziyalıları kimi, bütün proqressiv dünya ziyalıları da bəhailərə edilən zülmkarlığa görə öz etiraf sözlərini deməyinin vaxtının çoxdan catdığını anlayırlar. Bu işdə biganə olmaq ən azı insafsızlıq və ədalətsizlikdir. Bu hadisələrin bizimlə qonşu ölkədə və qanı bir, dili bir bacı və qardaşlarımızla bağlı olması isə bu məsələdə heç olmasa insan hüquqları ilə məşğul olan təşkilat və şəxslərin bəhai icması ilə həmrəyliyini daha da aktual edir. Bu ilk növbədə viçdan məsələsinə biganə olmayan hər bir azad insanı, dinindən və məsləkindən asılı olmayaraq, narahat etməlidir.

Bəhai Beynəlxalq İcmasının BMT-dəki nümayəndəsi Diana Alai 2009-cu ilin iyununda Bakıda olarkən "Azadlıq" radiosuna müsahibə verib. Müsahibəni bir bəndində deyilir:

- *Bəhailik İran ərazisində yaranıb. Və hər zaman da bəhailər problemlərlə üzləşiblər. Bu baxımdan, bölgədə insan haqları ilə bağlı vəziyyəti necə dəyərləndirirsiniz?*

- Düşünürəm ki, həm bəhailərlə, həm də dini etiqad azadlığı ilə bağlı vəziyyət Azərbaycan və İranda bir-birindən kəskin fərqlənir. Azərbaycanda mən bəhailərlə görüşdüm. Onlar Azərbaycan vətəndaşları kimi bərabər hüquqlara malikdirlər. Onlara qarşı ayrı-seçkilik yoxdur. Azərbaycanda bir bəhai mərkəzi də fəaliyyət göstərir. İranda isə bunun tamamilə əksidir. Orada insanları bəhai olduqları üçün universitetə qəbul etmirlər, evləri əllərindən alınır, qəbiristanlıqları məhv edilir. Bəhailərin

istәnilәn tәşkilatlanma üsullarına da qadağa qoyulur. Son zamanlar bu ittihamlara daha biri әlavә olundu – dünyada korrupsiyanı yaymaq. Bütün ittihamlar sonda ölüm hökmü ilә nәticәlәnә bilәr.

İkinci mәsәlә odur ki, bәhailәri müntәzәm hәbs edirlәr. Vә hәbsdәn zaminә buraxılmaları üçün böyük mәblәğdә pul tәlәb edirlәr. Hәtta mәnzillәrinin mülkiyyәt hüququnu da girov kimi qoymağa mәcbur olurlar. Bu, daim davam edәn problemdir."

`İslam Konfransı Tәşkilatı (İKT) nәzdindә insan hüquqları üzrә komissiya yaradılacaqdır. (24 May 2009. Day.az). "İKT-na üzv ölkәlәrin Xarici İşlәr nazirlәrinin Dәmәşqdә (Suriya) 36-ci iclasında qәbul edilmiş qәrara әsasәn yaradacağı komissiya İslam ölkәlәri ilә İslam Dini ilә bağlı insan hüquqları tәşkilatları arasındakı qarşılıqlı anlaşılmanın möhkәmlәndirilmәsinә xidmәt edәcәkdir. Daha bir müstәqil komissiya yaradılacaq ki, o da İKT-na üzv ölkәlәrindә insan hüquqları ilә әlaqәdar monitorinq aparacaqdır. Komissiya insan hüquqlarının İslam dәyәrlәrinә uyğun surәtdә riayәt olunmasına nәzarәt edәcәk vә İslamın humanistliyi ilә sıx bağlılığını vә sәdaqәtini sübbut edәcәkdir". (?!?)

Bu son cümlә mәndә daxili bir narahatlığa sәbәb oldu vә ilkin mәqsәdin mәhz insan hüquqları olmadığı tәәsüratını yaratdı. Axı İran İslam Respublikası Çin Xalq Respublikasından sonra (ildә 5000 adam edam edilir) dünyada ölüm cәzalarının sayına görә ikinci yeri tutur.

"Lakin onda heç kәs tәsәvvür edә bilmәzdi ki, Sәma Qoşunlrının Rәbbi Özünün dәrkedlmәz hikmәti ilә, belә qısa bir zamanda Öz icmasını nә dәrәcәdә köklü dәyişdirmәk istәyir. Bu elә bir mәqsәdyönlü vә inamlı bir icmadır ki, dostlar hәr yerdә böyük sәylә, dünya miqyasında, yer kürәsi boyunca, qırx bir regional konfransla, öz nailiyyәtlәrini qeyd etdilәr. Bu

icmanın uzlaşdırılmış səyləri və enerjisi böhran spiralında dolaşmış dünyanın qarışıqlığı və çaşqınlığı ilə necə bir qeyri-adi təzad təşkil etdi! Bu, doğrudan da, Yazılara istinadən bəxtiyar möminlərin icmasıdır. Bu, ona əta edimiş geniş potensialların fərqində olan və sarsılmış dünyanı yenidən qurmaqda oynayacağı rolu dərk edən bir icmadır". (Ümumdünya Ədalət Evi, Rizvan 2009 Müraciəti).

"Bu konfranslarda iştirak edən təxminən yüz min iştirakçının simasında biz, əksərən, yer kürəsinin bir tərəfində amansız repressiyaya məruz qalan, lakin bir bütöv kimi çəkinmədən və ruh yüksəkliyi ilə Həzrət Bəhaullahın bəşəriyyəti ən ağır zülmün boyunduruğundan azad etmək məqsədini yerinə yetirmək bacarıqlarını möhkəmlədərək qalxmaqda olan bir icmanın olduğunu gördük. Bu əzəmətli ümmandakı ruhların hər biri və hamısı Əmrin dəyişdirici gücünə şahid kimi durdu. Onların hər biri və hamısı inqita etməklə və səmimiyyətlə Ona xidmətə qalxanların hamısına Həzrət Bəhaullahın kömək etmək vədinin bir sübutu idi. Onların hər biri və hamısı Həzrət Bəhaullahın Vəhyinin bilavasitə təsiri altında yetişəcək o arınmış və cəsarətli, pak və müqəddəs yeni insan irqinin işartılarını zahir etdirdi." (Ümumdünya Ədalət Evi, Rizvan 2010 müraciəti).

Bu müraciətlərdə qeyd olunan konfranslardan biri də 27-28 fevral 2009-cu ildə Bakıda keçirilmişdi.

Minillik Bəyannaməsi Birləşmiş Millətlər Təşkilatının Minillik Sammitində (Nyu York, 6-8 Sentyabr 2000-ci il), dünya rəhbərlərinin ən böyük yığıncağında, iştirak edən 147 Dövlət və Hökumət başçılarının, ümumilikdə isə 191 millətin maraqlarını təmsil edirdi. Bütün əlamətlər onu göstərir ki, Dünya xalqlarının ümidinin (Birləşmiş Millətlər Təşkilatının Minillik Bəyannaməsi BMT - Millenium 2000) həyata

keçməsinin ilk əlamətləri Əmrin yetişdirici təsirinin yenidən yüz minlərlə insanı əhatə etməsi olacaqdır. Sammitin keçirilməsinin məqsədi Minilliyin "simvolik qüvvəsini" dünyanın hər yerində yaşayan insanların əsl ehtiyaclarını ödəmək işinə yönəltməkdən ibarət olub. Qarşılaşdığımız problemlər və bu problemlərin həlli yolunda təcili addımlar atılmasına çağırış səslənib. Onlar eyni zamanda bizi ədalətsizliyə, qeyri-bərabərliyə, cinayətlərə və s. qarşı mübarizə aparmağa və ümumi irsimizi, bəşəriyyəti gələcək nəsillərin xatirinə qorumağa çağırıblar. Birləşmiş Millətlər təşkilatının Baş Katibinin müraciətinə görə "həmin dünya rəhbərlərinin özləri Birləşmiş Millətləri təşkil edirlər. Qarşıya qoyduqları məqsədlərin əldə olunması elə onların, seçicilərinin və ümumilikdə bütün dünya xalqlarının qüvvəsindən asılıdır və buna görə də elə onlar özləri bu nailiyyətlər üçün cavabdehdirlər".

Birləşmiş Millətlər təşkilatının Minillik Bəyannaməsi əsas Prinsip və Dəyərlər kimi:

4. İnsan hüquqları və funtamental azadlığa hörmət, irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq hər kəsin bərabər hüquqlarına hörmət etmətə çağırır və
5. Bu gün qarşımızda duran əsas vəzifə qloballaşmanın bütün dünya insanlarının həyatında müsbət bir qüvvəyə çevrilməsini təmin etməkdən ibarətdir.
6. Dözümlülük – insan varlıqlarına öz inanc, mədəniyyət və dil müxtəlifliklərinə baxmayaraq bir-birlərinə hörmətlə yanaşmanı tövsiyə edir. Cəmiyyətlər daxilində və cəmiyyətlər arasında mövcud olan fərqlər nə hədə-qorxu, nə də təzyiqlə qarşılanmamalı, əksinə, insanlığın qiymətli dəyərləri kimi qorunmalıdır. Minillik Bəyannaməsinə görə sülh mədəniyyəti, bütün sivilizasiyalar arasında dialoq və

9. Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarına əməl olunması çox fəal şəkildə həyata keçirilməlidir.
11. Biz kişiləri, qadınları və uşaqları misgin və qeyri-insani yaşayış şəraitindən və milyonlarla insanın düçar olduğu hədsiz kasıbçılıqdan azad etmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.
13. Bu öhdəliklərin yerinə yetirilməsi hər bir ölkə daxilində mövcud olan yaxşı idarəetmədən asılıdır.
15. İnsan hüquqları üzrə Ümumdünya Bəyannaməsinə tam hörmətlə yanaşmaq və ona sadiq qalmağı qət edir.
20. Yoxsulluğa, aclığa və xəstəliklərə qarşı mübarızə aparmanın və həqiqətən davamlı olan inkişafa təkan vermənin səmərəli yolları kimi gender bərabərliyi və qadınlara səlahiyyət verilməsini təkmilləşdirməliyik və
25. Qadınlara qarşı zorakılıq hallarının bütün formalarına qarşı mübarizə aparmalıyıq. Demokratiyanın prinsiplərini və təcrübələrini həyata keçirmək üçün bütün üzv ölkələrin potensial imkanlarını artırmaq və insan hüquqlarına, o cümlədən azlıqların hüquqlarına hörməti gücləndirmək lazımdır.
29. Prioritet məsələ kimi dünyanın bütün insanlarının inkişafı, cahillik və xəstəliklərə, bizim ümumi evimizin korlanması və dağıdılmasına qarşı mübarizə aparmalı.
32. Ən nəhayət "inkişaf sahəsində ümumi məqsədlərimizə nail olmağın yollarını axtaracağıq". (!?) (aşağıdakı əlaqə kanalına bax): http://www.un-az.org

Bildiyimiz kimi, dövrümüzün bütün hüquqi məsələləri illər boyu ictimayətdə formalaşmış və qəbul olunmuş prinsiplər əsasında həll olunur. İctimai formasiyanın növündən asılı olmayaraq, onlar səmavi kitabların, əsasən İncil və

Quran`-Kərimin təsiri nəticəsində müxtəlif ölkələrin hüquqi sənədlərinin təməlini təşkil edir.

Minillik Bəyannaməsinin yuxarıda vurğulanan Prinsip və Dəyərlərin Kitab`i-Əqdəsdə hələ 165 il əvvəl nəinki nə qədər vacib olduğu göstərilmiş, həm də bunun ruhani həlli yolları açıq-aydın göstərilmiş və həmin Prinsip və Dəyərlər artıq, nəinki kiçik bir model kimi bəhai icmalarında, həmçinin müxtəlif ölkələrin – Almaniya, Braziliya və s. - konstitusiyalarında, öz əksini müvəffəqiyyətlə tapmışdır.

İngiltərənın Kralı Stuard hələ 1658-ci ildə (hakimiyyət parlamentə ilk dəfə həvalə olunduqdan sonra) azadlıq və insan ləyaqəti prinsiplərini pozduğuna görə edam olunmuşdu. İndi biz tez-tez müxtəlif ölkə və səviyyələrdə insan hüquqlarının qorunmasından bəhs olunduğunun şahidi oluruq.

Yeni bir mədəniyyət yaranmalı və yeni insan nəsli yetişməlidir ki, bu da Bəhai Dininin ən əsas qayəsidir.

Belə bir proses artıq Bəhai icmalarında hər yerdə yaranmaqda və ətrafdakılar tərəfindən müsbət qarşılanmaqdadır. Allahla əlaqəsini itirmiş bəşəriyyət sanki qaranlıq otaqdan işıqlı bir məkana çıxmaq ərəfəsindədir və biz hamımız bu prinsipləri nəinki rəhbər tutmalı, həmçinin, onlara uyğun həyat tərzi ilə yaşamalıyıq. Çox vaxt bəzi insanlardan "mən dinlə maraqlanmıram" ifadəsini eşidirik, dünyanın dərk edilməsi də onun üçün maraqlı deyildir.

Bəhai Dini Yeni Eranın başlanğıcını elan etməklə bərabər, hər bir insanın bu işdə töhfə verməsinin vacib olduğunu vurğulayır. Bu işdə, kənarda qalmamaq tövsiyə olunur və hələlik indiki zamanda isə, bəhailər (çörəyə qatılan) maya təki qıcqırmış icmaların dönüb, təravətli bir qidaya çevrilməsi üçün daima təmənnasız olaraq fədakarcasına, bəzən məhrumiyyətlərə qatılaraq, çalışır və öz Məbudunun göstərişlərinə uyğun olaraq bu prinsipləri, gələcəyin modelini, öz icmalarında qurmaq üçün

işləyirlər. Bağdadda vəfat etmiş Nəsirəddin Tusi "Ən böyük insan kimdir?" sualına belə cavab verir: "Ən böyük insan başqalarının qayğısına qalan və onların ehtiyaclarını ödəməyə çalışandır".

*De: Qələbə yetişən zaman hamı mömin olduğunu iddia edər və Allahın Əmrinə sığınar. Xoş o kəslərin halına ki, hər tərəfdən fitnə-fəsadın baş qaldırdığı bu günlərdə Əmrdə möhkəm oldular və onun həqiqətindən dönmədilər ...* (Həzrət Bəhaullah, Yazılarından seçmələr, Bakı, 2009,150, səh. 289).

Həqiqət yolu həmişə həqiqəti axtarmayanı qorxudur. Həzrət Bəhaulla buyurur: "...Bu Bülbül bu məhbəsdən, zindandan sizə belə səslənir. O ancaq bu aydın müraciəti sizə çatdırmalıdır. *Kim istəyir, qoy bu nəsihətdən üz çevirsin, kim istəyirsə, qoy Öz Rəbbinə gedən yolu seçsin*"

"İndi insan nəsli qaranlıqda azmışdır, çünki İlahi aləmlə bağlantısını itirmişdir. Bəşər ümidsizcəsinə iananır ki, hadisələrin hansısa bir formada təsadüfi cərəyan etməsindən insanların ümumi istəklərinə cavab verən bir şəraitin yaradılması mümkün olacaqdır. Bizim dövrümüzdə təxirəsalınmaz problemlərin həll edilməsi üçün tez-tez ruhani və mənəvi qüvvələrin oynamalı olduğu roldan danışılır."

Təəssüf ki, bizim sivilizasiyada yalan və riya məziyyət kimi təqdim edilir. Bu, yer kürəsinin istənilən yerində cəmiyyətlərin düzgün inkişafı ilə bilavasitə əlaqəli məsələdir, bu təkcə "yaxşı" və ya "pis" insan məsələsi deyil. (Odur ki, tez-tez "ikili standart" və bu kimi terminlər geniş vüsət alır...Bir başqaları bicliyi - zirənglik sayırlar. İnsanlar artıq böyük cəmiyyətlərdən qaçıb, sakit yer tapmaq arzusundadırlar. Normal insanlar yalnız normal mənəviyyata malik olanlardır. Bütün

bunların müqayisəsi üçün "ən düzgün tərəzi" isə Allahın Kitablarıdır ki, bizim də özümüzü onlara uyğunlaşdırmağımız yeganə vasitədir. İnzibati yollarla buna nail olmaq olarmı?

Bu yerdə məlum bir misal yerinə düşərdi. `İnsanlarla dolu otaqda bir pişik peyda olur. Pişik başqaları ilə bahəm həmin otaqdadır. İnsanlar vacib məsələləri müzakirə edir və onun həlli ilə məşğuldurlar. Hadisələrin necə baş verməsi pişiyi heç narahat belə etmir. Təki bu gün axtardığını tapsın... Onun başqalarından fərqli öz məqsədi, öz arzusu və öz problemi vardır. İlk baxışda pişik də insanlarla həmin otaqdadır, fiziki olaraq otaqdadır, amma təmamilə təcrid olunmuş halda yalnız özü ilə məşğuldur. Bəzi insanlar həyatın əsas məqamını tuta bilmirlər. Bəzi insanlar yaranışının məqsədini bilmədikləri ücün və bu dünyaya gəlişində hansı missiya daşıdığını bilmədikləri üçün bu həyatda həmin otaqda gəzən pişik bənzərində yalnız özləri ilə məşğul həyat tərzi sürürlər...Və ən dəhşətlisi isə odur ki, bunu nə başa düşmək iqtidarındadırlar, nə də dəyişdirmək istəyirlər...Vəziyyətindən nəinki usanmir və pərişan olmurlar, hətta fəxr də edirlər! Vəziyyəti qiymətləndirə bilmədiklərindən çaşıblar....`

Görəsən geniş yayılmış "bu 5 günlük dünyadır..." düşüncəsi ilə yaşayanlar müxtəlif cəmiyyətlərin neçə faizini təşkil edirlər?! Əksəriyyətinimi? "Mən həmin əksəriyyətə daxiləm, yoxsa yox" deyə düşünən varmı? Bəlkə artıq normaya çevrilmiş stereotiplər mövcuddur və özümüzü yormayaq? Mirzə Ələkbər Sabirin "Dünya necə talan olur olsun, nə işim var..." hələ neçə illər öz aktuallığını itirməyəcək və "normal" yaşayış tərzinə çevriləcək? Əyrilik "normal" və düzlük isə "qeyri-normal" sayılan şəraitdə biz bu imtahandan (hətta öz millətimizə olan münasibətdə) hələ çıxmamış, digər millətlərə necə düzgün münasibət bəsləyə biləcəyik?

"Bu dünya bir pəncərədir, hər kəs baxıb, gedər" deyənlər bilməlidirlər ki, əksinə "Bu dünya bir qapıdır, baxıb getmək deyil, zəhmət çəkib həmin qapıdan keçmək gərəkdir ki, Allahın növbəti dünyalarına şərəflə kecə bilək". Əgər yalnız pəncərədən baxıb getsək, elə həmin məqam səviyyəsində də qala bilərik.

*"O kəs ki, özü haqqında heç bir şey bilmədən günlərini keçirdi, o həqiqi ziyana uğrayandır."*

(Həzrət Bəhaullah, Lövhləri, , Bakı 2007, səh. 256)

"Bir şəxsin şərəfi və fərqliliyi bundan ibarədir ki, dünyadakı çoxsaylı insanların arasında social rifah mənbəyi olsun. Bundan da böyük nemət təsəvvür etmək olarmı ki, bir şəxs özünə baxıb görsün ki, Allahın təsdiqedici fəzli ilə insanlar arasında sülhə, onların firavanlığına, xoşbəxtlik və tərəqqisinə səbəb olub? Xeyr, bir olan Allaha and olsun, bundan böyük səadət, bundan yuxarı ləzzət ola bilməz".

(Əbdül-Bəha, İlahi sivilizasiyanın sirri, Bakı, 2007, səh. 2-3)

"Ana Kitabın üfüqündən doğan birinci Taraz və ilk təcəlli budur ki, insan özünü tanımalı, nəyin onu yüksəyə, nəyin alçağa, nəyin izzətə, nəyin zillətə, nəyin zənginliyə və nəyin yoxsulluğa apardığını bilməlidir." (Həzrət Bəhaullah, Lövhləri, Bakı 2007, səh. 34)

"İnsan öz bəşər həyatının başlanğıcında ana bətni dünyasında rüşeym halında idi. Orada o, bəşər mövcudluğu dünyası üçün qabiliyyət və istedad almışdır. Bu dünya üçün zəruri olan güc və qüvvət ona o məhdud şəraitdə bəxş edilmişdir. Bu dünyada ona gözlər lazım idi; o, onları əvvəlcədən o biri dünyada almışdı. Ona qulaqlar lazım idi; o, öz yeni mövcudluğuna hazırlaşmaq üçün onları orada əldə etmişdi. Bu dünyada lazım olan güc ona ana bətnində əta edilmişdi. . Eynilə də, o bu dünyada özünü axirət həyatına hazırlamalıdır. Mələkut aləmində lazım olanlar bu dünyada əldə edilməlidir.

Bu dünya üçün zəruri olan gücü toplamaqla özünü ana bətni dünyasında hazırladığı kimi, eləcə də mələkut aləmi üçün zəruri olan gücü bu dünyada əvvəlcədən toplamalıdır." (Abdul-Baha, Promulgation of Universal Peace, US Baha`i Publishing Trust, 2004, p. 470)

Bu dünyadan özümüzlə yeganə aparacağımız isə ruhun keyfiyyəti olan yaddaşımız olacaqdır.

"*Sizlərə nə oldu. Ey kitab əhli? Məgər Tək Haqq Allahdan qorxmursunuzmu, O Kəs ki sizin Rəbbiniz və Günlərin Qədimidir? Ey Allaha iman gətirənlər! Sizi and verirəm Əbədi Həqiqətə! Siz məgər bu Qapıların göstərişlərində Allahın bu Kitabda qoyduğu hökmlərə zidd olan bir şeymi gördünüz*?"

Təhsilimi davam etdirmək ücün birinci dəfə Amerikada olarkən (1997-ci il) və 70-ci mərtəbədən ətrafı müşahidə edərkən ən çox 5 mərtəbəli yol ötürücülərinə, körpülərə heyran qalmışdım. Ürəyimdə nə vaxtsa Bakımda da 25 il ərzində belə tikililərin mümkün olacağını düşünmüşdüm. Doğrudan da, artıq bunlardan bəziləri həyata keçir və digərləri isə layihə olunur. O vaxtlar bir məsələ də məni düşündürmüşdü, özü də texniki yox-humanitar, mənəvi durum səviyyəsi; görəsən korlanmaqda olan cəmiyyətimizin bəzi insanlarının mənəvi cəhətdən onlara çatmağına bəs necə? Ən azı 75 il (!) deyə düşünüb, pərişan olmuşdum.... Axı kənardan və müqayisə edildikdə belə şeylər tez nəzərə çarpır. Bəzi ziyalılarımız bu haqqda öz narahatlıqlarını açıq şəkildə, digərləri isə üstüörtülü bildirir, vəziyyət isə heç də ürək açan deyildir. Azərbaycanımıza xas olan və başqalarına örnək ola biləcək və bununla da fəxr etməyə layiq olan xüsusiyyətlərimiz getdikcə cılızlaşır və gözümüzün qarşısında inanıla bilməyəcək dərəcədə korlanır. Nə qədər biganəlik qalasında yaşayacayıq? Həyacan təbili çalanlarımız isə eşidilmədiyindən və çarəsizlik- əlacsızlıqdan ruhdanmı düşürlər?..

Əlbəttə, vəziyyəti bizim cəmiyyətin vəziyyətindən də pis olan cəmiyyətlər az deyil, amma söhbət bizdə olan dəyərlərin heç olmasa qorunub saxlannılmasından və itirilməməsindən gedir. Xalqımızın mənəvi dəyərlərini qorumaqla bərabər bəzi adətləri və ənənələri dəyişdirmək lazımdır. Bunun üçün və həqiqətlə qarşılaşmaq üçün fədakarlıq və hünər lazımdır….

Günahı zəmanədə görənlər də az deyil...əlbəttə, bu çoxtərəfli və mürəkkəb bir məsələdir, amma kimlərsə daima və yalnız bu məsələ barədə düşünməli və konkret praktiki addımlar atmalı deyildirlərmi? Təkcə bizə çatan kriminal xəbərlərə nəzər salıb və düşünüb, hamılıqla nəticə çıxarıb uyğun addımlar atmaq zamanı çoxdan gəlmişdir – yox biz həmişəki kimi gecikirik! Ailələr dağılır, fəlakətlər adət halını alır.....

Hələ 2000 (!) il bundan əvvəl Yunan filosoflarından biri gənc nəslin əvvəlki nəslə nisbətən çox korlanmış olmasından gileylənib! Məhz elə ona görə də Allah tərəfindən, mütamadi surətdə, bəşəriyyətə yeni Tərbiyəçilər və kitablar göndərilir.

"Hər dövrün bir kitabı var, zamanın tələbinə və ehtiyacına görə" -Qurani Kərim, Ər-rəd surəsi (13:38).

*"Mütləq Həqiqət olan Kəsin həqqaniyyətinə and olsun, əgər pərdə qaldırılsa, sən bu yer üzündə bütün insanların Allahın qəzəb odunda yandığını görərdin, elə bir od ki, cəhənnəm atəşindən daha şiddətli və daha güclüdür, lakin Mənim məhəbbət ağacımın altında pənah tapmış kəslər istisnadır. Zira onlar, həqiqətən, bəxtəvərdirlər...."*

Bu yerdə görkəmli şairimiz Bəxtiyar Vahabzadə yada düşür. Onun nədənsə yalnız ölümündən sonra göstərmək şərti ilə verdiyi (ANS TV və həmçinin İTV) son müsahibələrində, mən bunu vəsiyyət adlandırardım, cəmiyyətimizlə əlaqədar bir neçə məqam diqqəti cəlb edir; "Həqiqəti dərk edən çox az adam var" O, bizə Allah yolundan qaçmamağı, Cəlaləddin Rumini və Mirzə Ələkbər Sabiri oxumağı, ağıla üstünlük verməyi, ürək

sındırmamağı tövsiyə edir. Ürək ağrısı ilə "Cəmiyyətdə hər-hansı bir əyrilik varsa, bizim də günahımız var" deyən şair "Rüşvət alan ölkədə ədalətdən danışmaq olmaz" söyləyir. Sonra o, yekunlaşdıraraq – "beləliklə insan dəyişməlidir" deyir.

Həzrət Bəhaullahın "Ey bəqom, əshab`i nar baş və əhli riya məbaş..." beyti ilə başlayan şeirində (hələlik Azərbaycan dilinə tərcümə olunmadığından burada verilmir), digər günahlarla müqayisədə riyakarlığın da təhlükəli bəla olduğunu vurğulayır.

Həzrət Bəhaullahın "Atəş Lövhü"ndən bəzi misralar:

*Şeytan vəsvəsələri bütün yaranmışları əhatə edib...*
*Aləm əhlinin çoxu nəfsi-həva məstliyindən korlanıb...*
*Soyuqluq bütün bəşəri sarıb...*
*Fəlakət son həddə çatıb...*
*İztirab yer üzü insanlarını bürüyüb...*
*Susuzluq iztirabı bütün aləm əhlini üzüb...*
*Hərislik bütün bəşəri əsir edib...*
*Aləm əhlini ölüm əzabı bürüyüb...*
*Həsrət əlləri Sənin fəzl və səxavət səmana uzanıb...*
*İmansızlar hər tərəfdən zülmkarlıqla qalxmışlar...*
*Boyunlar şər niyyətlə uzanıb...*
*Xalqın çoxunu mövhumat və boş xəyallar pərdələyib...*
*Doğruluq və saflıq, sədaqət və şərəf çıraqları söndürülüb...*
*Bu Üz iftira tozları ilə örtülüb...*
*Sidrətül-Müntəhanın budaqları qəzavü-qədər tufanlarının hücumundan sınıb tökülüb...*
*Müqəddəslik ətəyi hiylə əhlinin əlindən ləkələnib...*
*Fəzl dənizi insanların törətdiklərindən sükut edib...*
*Liqa qapısı Sənin düşmənlərinin zülmündən bağlanıb...*
*Nifaqın zəhərli küləyindən yarpaqlar saralıb...*

*Günah tozundan bütün aləm qaralıb...*
*Zülmət bütün bəşəri bürüyüb...*
*Zillət son həddə çatıb...*

Artıq ailə, valideyin, övlad, yaxın qohum münasibətləri hətta 20 il bundan əvvəlki mahiyyətini, qiymətini, dəyərini itirməkdədir.....(quyamətin əlaməti kimi bu haqda hədis vardır). Mən daha evfemistik ifadələrin dilimizdən yox olmasını demirəm. Mənəviyyatla maddiyyat arasında balans pozulub. Bunların arasında düzgün uyğunluq tapmaq lazımdır ki, bu da "sirrətül-müstəqim"-dir. Bunu isə yalnız din edə bilər. Yeni Dini qəbul etmək ağıllılıq rəmzi deyil, çünki bir neçə akademik və prpofessorlara bu barədə danışdıqdan sonra heç bir maraq göstərməmişlər  və ya (əsasən) çəkinirlər. Belə bir vacib iş bayağı görünür. Bəziləri isə Qurani-Kərimdəki gizli mənaların tam aşkar olduğunu sadəlövcəsinə güman edirlər, baxmayaraq ki, Hz. Muhammədin belə adını düzgün tələffüz etmirlər .

Adət etdiyimiz dinin, uşaqlıqdan, tarixən qanımıza işləmiş dinin, xüsuilə, ən sonuncu və ən mükəmməl olması və bununla Allahın Dininin tamamlandığını düşünənlər az deyil. Halbuki, Qurani-Kərimdəki bir neçə ayə Allahın sözünün qurtarmadığını deyir. Və bu mövqedə israr etmək dində etibarlılıq, Əhdə sədaqət kimi başa düşülür. Qəribə bir hiss var bizdə (axı mən də əvvəllər bu cür düşünürdüm) genetik yaddaş – nəslin və ya millətin yaddaşı. Mübadilə olmalıdır və insan yaddaşı onun əqlinə üstün gəlməməlidir. Səhv düşüncələr, nadan təsəvvürlər elmin gücü ilə aradan qaldırılmalıdır.

Bəzən yeni dinin təzə müddəaları düzgün qiymətləndirilə bilmir. "İnsanlar səhv yolda məşq edirlər". Qurani-Kərimdəki xəbərdarlığı - "Və lakin əksər insanlar məlumatlı -xəbərdar deyildirlər" - unutmamalıyıq. Çoxlarının xəbəri olmadığı həqiqətlər vardır və bizə verilən bir qism həqiqətin tam olduğunu düşünüb, elə bu cür də qəbul edirik. Axı Allah heç

vaxt həqiqəti insanlara tam açmır – zamanının inkişafına, mənəvi təlabata müvaviq dərəcədə açılır. Bizim şahidi olduğumuz hadisələr "öz" dininin davamı və dərinləşməsi kimi qəbul edilməlidir. Daima keçmişə -arxaya nəzər salaraq yaşamaq heç də düzgün inkişaf yolu deyildir. Köhnə düşüncə tərzi hələ də tərk edilməyib; hələ də müsəlmanlar Mehdini at üstündə və xristianlar isə Hz.İsanı buludların üzərində gəlişini gözləyirlər. Bu dinlər bizə həmişə özümüzün və biliyimizin tam və kamil olmadığını öyrədirlər və Həqiqəti araşdırmağı tövsiyə edirlər. Bir hədisdə deyildiyi kimi - Əgər eşitsən ki, Qaim zühür edib və qar yağdığından yollar bağlanıb, getmək mümkün deyil, onda üzü üstə sürünə- sürünə də olsa gedib, həqiqəti araşdırmalısan.

"İncilin verildiyi insanlar barəsində düşün. Onların dini başçıları İncilin təlimlərinin təcəssümü sayılırdılar, lakin onlar Allahın Elçisi Hz. Məhəmməddən üz döndərdikdə, azmışlıq təcəssümü oldular, hərçənd bütün həyatları boyu öz dinlərinin göstərişlərinə əməl etmişdilər ki, Cənnətə nail olsunlar; Lakin Allah Cənnəti onlara zahir edəndə, onlar oraya daxil olmaq istəmədilər. Quranın verildiyi insanlar bu cür hərəkət etdilər. Onlar Allah xatirinə ayinlərinə riayət etdilər və ümid etdilər ki, O, cənnətdə onların möminlər arasında olmasına izn verəcəkdir. Lakin Cənnətin qapları onların qarısında taybatay açılanda onlar oraya daxil olmaqdan imtian etdilər. Onlar özlərini oda atdılar, halbuki Allahda nicat axtarmaqla o oddan qaçmağa can atırdılar."

"Ey yer üzü xalqları! Sizin Rəbbinizə and olsun! Siz də keçmiş nəsillər kimi davranırsınız. Allahın dəhşətli və əzablı qisasından çəkinin. Zira, həqiqətən, Allah var olan hər şeyin üzərində hakimdir."

Müxtəlif ərəb ölkələrində olduğumdan və müxtəlif baxışları olan müsəlmanlarla yaxından təmasda olduğumdan belə bir

qənaətə gəlmişəm ki, hər ölkədə İslam müxtəlif cür başa düşülür və müxtəlif görüşlərə malik qruplar və ya məzhəblər bir-birini bəyənmirlər. Həqiqəti araşdırmaq üçün müqaisə bu dünyada ən güclü vasitədir. İyudaizm və Xristianlıq, Xristianlıq və İslam, İslam və Bəhai Dini bahəm müqaisə edildikdə bir çox məqamlara aydınlıq gətirilə bilər. Allahı və Həqiqəti axtaranlar! Görəsən kimə lazımdır bu düşmənçilik və yaxud Peyğəmbərlərə zülm etmək ? O, növbəti Peyğəmbəri (əgər bu söz mane olursa, Allah tərəfindən növbəti göndərilən Şəxs) bizə ona görə göndərib ki, biz Ona yaxınlaşaq. Məgər bu bizim dərrakəmiz xarıcində olan çox böyük bir məhvumdur? İndi biz bəs nəyə qarşı çıxırıq ?

"Ey yer üzü insanları! Rəbbinizə and olsun! Siz də sizdən əvvəlki nəsillər kimi hərəkət edirsiniz. Allahın dəhşətli və əzablı qisasından qorxun. Zira, həqiqətən, Allah hər şeyin üzərində hakimdir."

"Onların ürəkləri Həqiqəti seçməyə qadir deyil, ona görə də onlar kordurlar, ruhani bəsirəti olanlar isə pərvanələr kimi odda yanana qədər Həqiqət Nurunun ətrafında dolanırlar. Ona görə buyrulur ki, Qiyamət Günü ən böyük gündür, halbuki bütün başqa günlərə bənzəyir."

Anlaşmazlıq bütün düşmənçiliklərin əsas səbəbidir. İnsanlar öz aralarında barışmalıdırlar. Bəhai Dini bizi özümüzə göstərən kamil güzgüdür. Bir yalana görə minlərlə insanı öldürürlər. Axı haradan bilirlər ki, yalan və ya həqiqət hansıdır? Mən öz həyatımda insanların çox az bir qismini bu məsələni özü üçün aydınlaşdırdığının şahidi olmuşam. XXI əsrin insanı artıq özü bu haqda fikirləşməlidir. Həqiqəti özü araşdırmalıdır, daha başqalarının fikrini həqiqət sayıb, yaşamaq vaxtı çoxdan keçmişdir. Yenilik, fərqli düşüncə çox vaxt cəmiyyətdə etiraza və qınağa səbəb olur. İnsanlar məhz inanmaq istətiklərinə də inanırlar. Bu gün dünyanın nizamının pozulduğu gündür.

Ümumdünyəvi və ümumbəşəri tərbiyəyə böyük ehtiyacın olduğu gündür. Müasir təmayüllər olmalıdlr.

Bəhai Dini bəzi insanların onu qəbul edib-etməmələrindən asılı olmayaraq müvəffəqiyyətlə yayılır və insanlarin mənəvi tərəqqisi üçün mükəmməl alətə çevrilməklə onları daha da çox Allaha yaxınlaşdırır: *"... istiqlal bayrağı ən yüksək zirvədə sancıldı və fəzl dənizi təlatümə gəldi, Tovhid Günəşi çıxdı, Birlik torpağı zinətləndi".*

Yuxarıda qeyd etdiyim kimi, işimlə əllaqədar olaraq bir çox ərəb ölkələrində neftçi – qazımaçı, layihəçi işləyib-yaşamışam. Omanda Nımra mədənində çalışarkən bu müjdələlərlə ən yaxın ərəb dostlarımla bölüşərdim. Adətən çox çətin ərəb mühiti olduğundan yalnız kifayət qədər dostlaşdıqdan sonra bu məsələlərə toxunmaq olardı. Sahə rəisi Amerika universitetlərindən birini qurtarmış geniş dünya görüşünə malik 35 yaşlı bir cavan idi. Hər gün onunla 2 saata qədər birlikdə söhbətlər edər, hər ikimizin dini biliklərimizdən bəhrələnərdik. Bir gün münasib bir zamanın çatdığını görüb, artıq onunla kifayət qədər dostlaşmışdıq, ona Qurani-kərimimdəki "Səcdə", "Qaf" və "Zilzəl" surələrinin uygun ayələrini verilmiş ardicıllıqla deməsini və fikirləşməsini xahiş etdim. Olduqca bilikli olduğundan onları əzbər söylədi və sonra "nə demək istəyirsən, yeni peygəmbər gələcək?" deyə təəccüb və kobudcasına soruşdu. Mən isə "bu nəticəyə sən özün gəldin, mən sənə yalnız bəzi ayələrə diqqətlə yanaşmağı məsləhət ğördüm" dedim. Bir neçə ay ərzində dostluq etdiyim adamın üzü dərhal dəyişdi, otağımdan xüdafizləşməmiş çıxıb, getdi. Mən isə o qədər narahat oldum ki, gecənin bu vaxtında-səhrada tənha halda Allahdan başqa heç kimdən kömək ala bilməyəcəyimdən narahat oldum, odur ki, nəinki qapının cəftəsini, hətta əlavə vəsaitlərlə də qapını bağlayıb o gecəni mənə hücum edəcəyindən ehtiyatlanmalı oldum... Sonradan

yavaş-yavaş əvvəlki münasibətlərimiz bərpa olundu. Bir aydan sonra layihənin tamamlanması ilə əlaqədar onunla xüdafisləşməklə əlaqədər növbəti dəfə görüşdükdə "hara gedirsən, bəs Qurani-kərimi mənə kim öyrədəcək?" dedi. Ana dilinin Ərəb dili olan bir adamın bu sualı nə demək idi? Həyatımda daima - məktəbdə (Bakıdakı 132 saylı məktəbi fərqlənmə ilə bitirmişəm), institutda (Azərbaycan Neft Akademiyasını Fərqlənmə - qırmızı diplomla bitirmişəm), həmin institutda Dosent (SSRİ Ali təhsil naziririnin Fəxri fərmanı ilə təltif edilmişəm), İngiltərənin Edinburq Heriot-Watt universitetinin Professoru kimi və s. vəzifələrdə çalışarkən, 50-yə yaxın ixtira, elmi-texniki və sosioloji məqalə müəllifi olmağıma baxmayaraq, bu qiymət ən yadda qalan, ən üstün qiymət idi. Əslində bu, sırf mənə aid deyildi, əlbəttə mənim oxuduğum Müqəddəs Yazılarin bir növ, təsdiqi idi....

Yuxarıda müxtəlif dinlərdən verilən misal və paralellər, bir növ hadisələrin təkrarlanması, peyğəmbərliklər və s. Bəhai Dininin digər dünyəvi dinlərlə təbii surətdə uzlaşması, onların təkamül nəticəsində davamı və həmçinin peyğəmbərlərin xüsusiyyətlərinin və həyatlarındakı oxşarlıqlar vahid Müqəddəs Ruhun daşıcıyıları olduğuna bariz nümunədir.

1992-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş "Dini etiqad azadlığı haqqında Qanun" Azərbaycan Bəhai İcmasının yaranması üçün imkan vermişdir. Demokratik dəyişikliklərdən sonra Azərbaycan Respublikasında bəhailər başqa vətəndaşlarla yanaşı fəal həyat tərzi keçirirlər. 1993-cü ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının qərarı ilə Bakı şəhəri Bəhai İcmasının fəaliyyətinə rəsmi icazə verilmiş, iki dəfə Nəsimi R.İ.H. tərəfindən qeydiyyatdan keçmişdir.  2004-cü ildə Azərbaycan Bəhailəri Dini Mərkəzinin rəsmi qeydiyyatından sonra və digər qeydiyyatlardan sonra Bakı Bəhai Mərkəzinin qapıları hamının

üzünə açıqdır. Ünvan: A.D.Qurbanov 6, mənzil 43, telefon: (994-12) 497-30-41.

*"Anlayırsınızmı, Əbha Rəbbiniz sizi hansı üfüqdən çağırır?! Bilirsinizmi, Adlar sahibi olan Rəbbiniz sizə hansı Qələmlə əmr edir?! Canıma and olsun ki, yox! Əgər siz bunu bilsəydiniz, dünyanı tərk edib bütün qəlbinizlə Məhbuba doğru can atardınız. Və Onun sözü sizi elə bir şövqə salardı ki, bundan Böyük Aləm həyəcana gələrdi — qalsın ki, bu kiçik aləm. Beləcə Mənim fəzlimin nişanəsi olaraq, inayətimin səmasından kəramət yağışları yağdı ki, siz şükr edənlərdən olasınız..."*

*"Allahın mərhəmətinə və lütflərinə diqqət yetirin. Həqiqətən, O sizin üçün faydalı olan şeyləri əmr edir, halbuki Onun aləmdəkilərə ehtiyacı yoxdur. Nə sizin bəd əməlləriniz Bizə ziyan vura bilər, nə də sizin yaxşı işlərinizin Bizə xeyri var. Biz yalnız Allah xatirinə sizi dəvət edirik. Bütün anlayış və bəsirət sahibləri buna şəhadət verərlər..."*

*"Həqiqətən, Allah Bizim Vəzifəmizi göylərə, yerə, dağlara təklif etdi, lakin onlar bundan qorxaraq onu qəbul etməkdən imtina etdilər. Lakin İnsan, bu Əli, Allahın məhz bu Böyük Zikri bunu həyata keçirməyi qəbul etdi."*

*"Baxın, hər bir Vəhy nazil olanda, bu Vəhyin Müəllifinə ürəklərini açanlar Həqiqəti tanıyırlar, lakin Həqiqəti dərk edə bilməyənlərin ürəkləri özlərini Ondan ayırdıqları üçün sıxılır. Amma ürəklərin açıqlığı hər iki tərəfə eyni cür əta edilmişdir. Allah, hətta qarışqa belə olsa, heç kəsin ürəyinin sıxılmasını istəmir, o ki, qaldı ali bir məxluq ola, lakin o hal istisnadır ki, insan özünün pərdələnməsinə izn verir, zira Allah hər şeyin Yaradıcısıdır."*

Hz. Bab, "Kitab`i-Əsma:"

*"Bu Din, doğrudan da, Allahın nəzərində Həzrət Məhəmmədin Dininin cövhəridir; odur ki, səmavi Cənnətə və*

*Tək Haqq Allahın hüzurunda Onun uca razılıq Bağına yetişməyə tələsin, kaş ki, Allahın əlamətlərinin sübutları qarşısında siz səbrli və minnətdar olardınız.”*

Hz. Bab, “Qəyyumül-Əsma”

Hal-hazırda bizim çatdırdığımız müjdə və toxunduğumuz ideyalar çoxlarına təbii və müasir görünür, elə ona görə də Bəhai Dini müasir mütərəqqi insanlara belə yaxındır. Kim ki, planetimizin taleyinə biganə deyil və onu Bəhai Dininin inkişafı düşündürür, bizim saytla tanış ola bilər - əlaqə kanalına baxın - **http://bahai.az**

Bu Azərbaycanın tarixinin və Bəhai tarixinin şərəfli bir səhifəsidir ki, bundan sonra beş yüz min il adı çəkiləcəkdir...

**NKVD arxiv sənədlərindən çıxarışlar**

Bakı və Balaxanı (Salyan, Buzovna və Gəncə) bəhailərinin, Qrup halında mühakimə olunanların və ölümə məhkum edilmiş, adları AzNKVD arxivindən əl yazısı ilə köçürülüb - hələ də bu səhifənin üzərindən məxfilik tam götürülməyib. (Rus dilindən tərcümə edilərək, yazıldığı kimi, dəyişiklik edilmədən ilk dəfədir ki, aşağıda göstərilir).

SSRİ DTK (Dövlət Təhlükəsizlik Komitəsi), İş No:18461 (797639), 21 Noyabr 1937.

Əks-inqilabi fəaliyyət, SSRİ –ni yıxmaq məqsədi ilə kapitalist ölkələri ilə (İngiltərə, Almaniya, İran, Fələstin) ilə əlaqələr qurmaq, kapitalistlərlə fəhlə və kəndlilər arasındakı sinfi mübarizəni inkar etmək – qardaşlığa çağırış, anti-sovet təbliğat, aktiv bəhai və s.

**1.** Əliyev (Əlizadə) Əli Abbas Hənifə oğlu, 1879 –Bakı, Soyuzpeçat –mürəttib, Ünvan: Bakı, Şaumyan küç.,17, m.13.

(“9”-un üzvu). 10 oktyabr 1937-ci il sanksiyası ilə həbs edilib.

Ailə üzbləri:

- Hәyat yoldaşı: Tuğra - 45 yaşında,

Övladları:

- Qızı, Bәhiyyә - 25 yaşında,
- Qızı, Nuriyyә - 22 yaşında,
- Oğlu, Nüsrәt - 17 yaşında,
- Qızı, Feyziyyә - 11 yaşında,
- Qızı, Zәkiyyә - 9 yaşında,

Müsadirә edilib: Kitablar vә yazışmalar.

Bәhai ailәsindә anadan olub. 1910-cu ildәn bәhaidir, 1932-ci ildәn mәhfil üzvidir.

**2.** Zәrgәrov Әsәdulla Abdul Әziz oğlu, 1889 –Bakı, mühasib, 1930-cu ildә ("9"-un sәdri kimi) 3 illik mühakimә olunub, Ünvan: Bakı, Çadrovaya küç., 228,

Ailә üzblәri:

- Hәyat yoldaşı: Ruhiyyә - 35 yaşında,

Övladları:

- Qızı, Rövşәnә - 17 yaşında
- Qızı, Sima - 14 yaşında,
- Qızı, Aliyә - 11 yaşında,
- Qızı, Nailә - 3 aylıq.

Müsadirә edilib: Telefon aparatı -2 dәnә, çap makinası, müxtәlif kitablar -1.5 yeşik, fotoşәkillәr vә müxtәlif yazışma vә mәktublaşmalar -1 yeşik. (Professor Әtaullah Qasımov onun adı gәlәndә hәmişә gözlәri yaşla dolardı – "Bilirsәn, necә Kişi idi?!" söylәyirdi.)

**3.** Әmiraslanov Әyyub Abdulla oğlu, 1911 – Kirovabad (Gәncә), müәllim, Ünvan: Bakı, Çadrovaya küç., 228,

Ailә üzblәri:

- Anası – Fatma. 50 yaşında,
- Hәyat yoldaşı: Zәbәrcәt - 24 yaşında,

- Övladı:
- *Qızı, Şövqiyyə - 2 yaşında,*

  Müsadirə edilib: müxtəlif kitablar -4, "Dan ulduzu" jurnalı, Ümumi dəftərlər – 2 və müxtəlif yazışma və məktublaşmalar.

**4.** Qasımov (Qasumzadə) Fərəc Cəfər Qulu oğlu, 1883-Salyan, zərgər və eyni zamanda məktəbdə müəllim, Ünvan: Bakı, Arsen Amiryan küç., 88, ("9"-un Sədri).

Ailə üzbləri:

- o Həyat yoldaşı: Qasımova Fizzə Əhəd qızı - 35 yaşında (Həyat yoldaşını əvəz edən Məhfil üzvi)
- o Övladları:
- Oğlu, Qasımov Ətaullah - 17 yaşında (gələcəyin professoru)
- Qızı, Qasımova Minaxanım -16 yaşında (gələcəyin həkimi)
- Oğlu, Qasımov Əzizullah – 14 (həlak olmuşdur)
- Qızı, Qasımova Bəhiyyə - 10 (gələcəyin həkimi)
- Qızı, Qasımova Qüdsiyyə - 8 (gələcəyin müəllimi)
- Oğlu, Qasımov İsmullah – 6 yaşında, (gələcəyin ixtiraçı alimi, dosenti)

  Müsadirə edilib: Kitablar -1 çuval və müxtəlif yazışmalar.

  (Müəllifin nənəsi Q.Fizzənin xatirəsindən isə - 1 ovuc brilliant və 7 küp qızıl).

**5.** Mahmudov Süleyman Mahmud oğlu, 1889 – Bakı, qulluqçu, Ünvan: Bakı, C.Cabbarlı küç., 13, ("9"-un üzvü).

Ailə üzbləri:

- o Həyat yoldaşı: Kubraxanım - 40 yaşında,
- o Övladları:
- Oğlu, Kərim - 21 yaşında,
- Qızı, Şirinxanım -17 yaşında,
- Qızı, Şamsurə - 15,
- Oğlu, Əsədullah – 10,
- Oğlu, Feyzullah – 7.

**6.** Yaqubov Feyzulla Abdul Xalıq oğlu, 1888 – Çadrovaya küç.,Bakı, qulluqçu, Ünvan: Bakı, Azad Türk qadını küç., 225

Ailə üzvləri:

- o Həyat yoldaşı: Ekaterina - 52 yaşında,

**7.** Qaibli Rəhim Qaib oğlu, 1911 – Bərdə, məktəb müəllimi və Az.Tibb Universitetinin tələbəsi, Ünvan: Bakı, Proletar küç., 153, (Fəal Bəhai)

Ailə vəziyyəti: Subay.

Müəllifin anası Minaxanım onun adı gələndə yaman heyfslənir və göz yaşlarını saxlaya bilmirdi

**8.** Dadaşev Əli Abbas Məmməd Cəfər oğlu, 1882 - Bakı, Ünvan: Bakı, Karqanov küç.,50 Maştağada – statistik

Ailə üzbləri:

- o Həyat yoldaşı: Xanımana - 48 yaşında,
- o Övladları:
- Oğlu, Mürsəl - 18 yaşında,
- Oğlu, Əhsən – 13 yaşında (Gələcəkdə xalq artisti, tarzən oldu)

Bu ailə ilə yaxından qohum olduğumdan Əli Abbas Kərbəlayi Cəfər oğlu haqda ailəmizdə indi də xatırlanan bir epizodu söyləmək istərdim. Məşhur şair Mirzə Yusif Xaliq onun dayısı olub. Çox səlim və səliqəli bir insan olduğundan o, Kraxmal Əli Abbas adı ilə məşhur idi (ağ köynəyi həmişə ütülü və kraxmallaşmış olardı). Ailədə Əli Soltan ilə iki qardaş idilər və Kərbəlayi Cəfərin Bakıda Korqanöv küçəsində tikdiyi evdə yaşayırdılar. Bir necə nəfərin Əli Soltanı xəbər alıb, həyətə girdiklərini görcək onların HKVDin nümayəndələri olduqlarını və məqsədlərinin onu həbs etmək olduğunu başa düşən 3 uşaq atası Əli Abbas özünü onlara qardaşı, 6 uşaq atası olan Əli Soltanın yerinə, təqdim edib, tutulmuş və şəhid olmuşdu. Maraqlısı da odur ki, Əli Soltanın əksər övladları (Müəllfin bibisi Təhminə xanımın həyat yoldaşı Əjdər əmi, Cəfər Dadaşov və s.) bəhai olub və indiki nəsilləri də Allah İşinə sadiq qalmışlar. Əli Abbasın da bəzi övladları bəhaidirlər.

**9.** Axundov Əbdül Sacat Əli oğlu, 1882 – Balaxanı, Qazıma ustası, Ünvan: Bakı, Engels küç.,50

Ailə üzvləri:

- Həyat yoldaşı: Xanımgül - 38 yaşında,

Övladları:

- Oğlu, Böyükağa - 14 yaşında,
- Qızı, Sara -12 yaşında,
- Oğlu, Fazil – 6,
- Oğlu, Bədiullah – 4,
- Oğlu, Ziyaullah – 4 ay,

**10.** Qasımov (Ağa) Məhərrəm İbrahim oğlu, 1887- Kirovabad (Gəncə), Bəhai İbadət evinin (Müsafirxananın) qulluqçusu,
(Aktiv Bəhai – Məhfil üzvi, xəzinadar, Ərəb və fars dilində olan Bəhai ədəbiyyatının mütərcimi).
1872- Nuxa (Şəki) Ünvan: Bakı, Azad Türk qadını küç., 228
Ailə üzvləri:

- Həyat yoldaşı: Xədicə - 37 yaşında,
- Övladları:
- Oğlu, Nüsrət - 19 yaşında.

**11.** Cəfərov Hüseyn Hacı Kərim oğlu, 1879 – Balaxanı, keçmiş ticarətçi (Aktiv Bəhai - Balaxanıda “9”-luğun Katibi).
Ünvan: Balaxanı, Sabir küç., 19.
Ailə vəziyyəti: Subay, Tənha yaşayır.

**12.** Kərimov Mirzə Ağa Məmməd Hüseyn oğlu, 1869 – Balaxanı, (Aktiv Bəhai - Balaxanıda “9”-un Sədri), Ünvan: Balaxanı, Krestyanskaya küç., 11.
Ailə üzvləri:

- Həyat yoldaşı: Tamamgül - 55 yaşında,
- Övladları:
- Oğlu, Kərim - 26 yaşında,
- Qızı, Pərixanım -23 yaşında,
- Qızı, Sara -19 yaşında.
- Oğlu, Ziyal (Ziyaullah?) – 14,
- Məhbubə -11 yaşında,

**13.** Səfərov Əziz Baba oğlu, 1898 – Ağdaş, mühasib, Ünvan: Bakı, I parallel küç., 59. Mühasib

Ailə vəziyyəti: Subay.

- Anası, Şərabanı – 65 yaşında
- Bacısı (və ya qardaşı) oğlu, Həbib - 17 yaşında.

**14.** Əhədov Mikail Cavad oğlu, 1883 – Salyan, (Aktiv Bəhai - "9"-un üzvü),

Azneftsatış bazasının müdiri, Ünvan: Salyan, Şaumyan küç., 18

Ailə üzbləri:

- Həyat yoldaşı: Töhfə - 48 yaşında,
- Övladları:
- Oğlu, Rafael - 20 yaşında,
- Qızı, Şəfiqə - 18 yaşında,
- Qızı, Aliyə - 13 yaşında,
- Oğlu, Ziyaullah – 10,
- Qızı, Lətifə - 3 yaşında.

**15.** Hüseynov Mamed Allahverdi oğlu və ya Allahverdi oğlu Maqomed (Allahverdi –zadə Mamed),

1878 –Kirovabad (Gəncə), xərrat, (Aktiv Bəhai - "9"-un Katibi), Ünvan: Bakı, Azad Türk qadını küç., 236.

Qobu k., RayonTicarəti - Mağaza müdiri

Ailə üzbləri:

- Həyat yoldaşı: Əjdər - 44 yaşında,
- Övladı: Oğlu, Taleb – 4 yaşında.

**16.** Haqverdiyev Mehdi İsmayıl oğlu, 1906 – Kirovabad.

(Aktiv Bəhai), Ünvan: Bakı, Mustafa Sübhi küç., 113, Mühəndis-hidrotexnik.

Ailə vəziyyəti: Subay, tək yaşayır.

1937-ci ilin digər aktiv bəhailəri:

- Məmmədov Bayram - Məhfil üzvi, Ünvan: Bakı, Çadrovaya küç., 226 (Müsafirxana)
- Bağbanzadə Cavad - Məhfil üzvi,
- Mərdanov Əli Əkbər - Məhfil üzvi (Sədr),
- Süleyman Mahmudzadə -- Məhfil üzvi,
- Paşa Rəhmanov – atası - Az.SSR Sovet Xalq Komissariatının keçmiş Sədri
- Əliyev Əhməd - Ünvan: Bakı, Gənc Pioner küç.
- Əlizadə Həsən,
- Xasiyev (Ağa) Rəsul – sonradan oğlu ilə birlikdə tutulublar və şəhid olublar.

İndi isə 9 və 19 rəqəmləri ilə bağlı Müqədəs Yazılardakı bəzi məqamları və bununla əlaqədar bəzi mülahizələri bölüşmək istərdim.

9 rəqəmi və uyğun olaraq, 9 güşəli ulduz da Bəhai Dininin simvollarıdır.

Bu simvolik məna 2 səbəblə izah edilir:

Əvvəla, 9 rəqəmi ən yüksək sadə rəqəmdir. Numerologiya, - nömrələr elmi ilə, - məşğul olanlar ücün vəhdət, tamamlama və mükəmməllik, kamillik simvoludur.

İkincisi, 9 rəqəmi əbcət hesabı ilə, ərəb dilində işlədilən, “Bəha” sözünün əbcətlə rəqəmli izharıdır.

İslamda 9-cu Ramazan ayı –12 ayın sultanı sayılır.

Axı, 9 həm də Kitabı olan 9-cu Bəhai Dininin simvoludur:

1. Sabeizm və ya paganizm - günəşə inam gətirənlər. Keçmişdə (5000 il əvvəl) Ərəb yarımadasının

cənubunda, hal hazırda isə Türkiyəini cənub şərqində Mardin məbədləri indi də mövcuddur və Yunanıstanda onların rituallarını müşahidə etmək olar.

Paganizme mensup kişi için kullanılabilecek pagan veya İslam terminolojisindeki müşrik yani "Tanrı'dan başkasına tapan" terimine denktir. İslam terminolojisinde müşrik kullanılırken, özellikle Hıristiyanlık'ta pagan terimi kullanılır. http://tr.wikipedia.org/wiki/-Paganl%C4%B1k#G.C3.BCn.C3.BCm.C3.BCze_etkileri

2. Krişnaizm (təqribən eramızdan 2500 il əvvəl)
3. İudaizm (təqribən eramızdan 1310 il əvvəl)
4. Zərdüştilik (təqribən eramızdan 1000 il əvvəl)
5. Buddizm (təqribən eramızda 560 il əvvəl)
6. Xristianlıq (bizim eramızın əvvəli 1-ci il)
7. İslam (bizim eramız 622-ci il)
8. Babilik 1844-cü il və
**9**. Bəhai Dini 1863-cü il.

Yeri gəlmişkən, Hz.Məhəmmədin **əbcətlə** və onun vacibliyi ilə əlaqədar çox maraqlı bir kəlamı yada düşür: *"Əbcət hesabını öyrənin- onda böyük kəramət var".* Hələ İudaizmdən başlanan əbcət hesabı Zərdüştilikdə inkişaf etmiş, sonralar İslamda ən böyük inkişafını tapmışdır. Hz.Məhəmmədin sözləri isə buna bariz nümunədir. Quran`i-Kərimin gizli mənaları onda olan açıq və bağlı kodlarla verilib. Aslan Həbibov (İslam alimi, cavan tədqiqatçı) "əbcət gələcək üçün sirrlərlə dolu mənaları açmaq üçün böyük vasitədir" deməsi nəyə işarədir. Axı "gələcək" artıq gəlmişdir !!!....

Əlif :ا =1 be:ب = 2 ce:ج = 3 və s. د = 4 ه = 5 و = 6
ز = 7 ح = 8 ط = 9 ی = 10 ک = 20 ل =30

م = 40 ن = 50 س = 60 ع = 70 ف =80 ص =90
ق = 100 ر = 200 ش = 300 ت = 400 ث = 500 خ = 600
ذ = 700 ض = 800 ظ = 900 غ = 1000

*Əbcət hesabı* və ya http://www.zohoor.ir/images/Abjad1.jpg

Hərflərin rəqəm mənaları bir çox şairlər - Rumi, Nizami, Füzuli və s. tərəfindən əsərin yazılma tarixi, ləqəb seçimində və s.-də poetik vasitələrdən geniş istifadə edilmişdir.

Məsələn, İslamda **1** - Vahid və eyni zamanda : ا - Əlif hərfi Allaha işarədir. Yeri gəlmişkən Numeroloqiyada – **5** (əbcətlə: **Bab**) yaradıcı insanı göstərir.

Bəhai Dinində olduğu kimi, İslamda da ən əziz sayılan 5 rəqəmi Hz.Məhəmmədin və Onun ailə üzvlərinə işarədir. Rəqəmlər kimi hərflər də İslamda böyük məna kəsb edir.

Hürufiliyin banisi olan Nəimi Fəzlullah "Cavidannamə" əsərində hərfləri "Quran-i-natiq", yəni danışan Quran adlandırır.

Fatihə surəsi Quran`i-Kərimdə yeganə surədir ki, iki dəfə təkrarən nazil olub. Odur ki, söylənildiyinə görə, İslamda, Fatihə surəsi Quran`i-Kərimin cövhəri sayılır. Fatihə surəsinin cövhəri isə Bismillah Rəhmani Rəhimdir (19 hərfdən ibarətdir). Öz növbəsində İslamda Bissimillah Rəhmani Rəhimin cövhəri isə "B" hərfi sayılır. Əbubəkr bu məsələyə daha geniş yanaşmış və bu haqda belə demişdir: "Hər surənin sirri onun başlanğıc hərflərindədir". İndi isə dərindən düşünsək ki, Bəhai Dininin təməlini qoymuş hər iki peyğəmbərin adı "B" hərfi ilə başlayır, bu əvvəlcədən kodlaşmış informasiyalardan biri sayılmamalıdırmı?

**19** rəqəmi də Bəhai Dinində simvolik rəqəmdir. Qurani-Kərim (74:31): *"*Onun üstündə on doqquz (nəfər gözətçi mələk) vardır. Biz Cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik və onların sayını (on doqquz) etdik ki, (bu,) kafirlər üçün ancaq bir sınaq olsun, özlərinə Kitab verilənlər yəqinlik hasil etsinlər, iman gətirənlərin imanı artsın...*"* Bildiyimiz kimi **19** rəqəmi

Qurani-Kərimdə möcüzəli bir rəqəmdir, orada bir çox əsas sözlərin sayı 19-un müxtəlif misli qədərdir və bu Bəhai Dinində də simvolik bir rəqəmdir. Bütün bunlar təsadüfmüdür, yoxsa simvolik bir rəqəmdir? Vahid sözü əbcətlə 19-a bərabərdir (yəni, Allaha işarədir).

Bəhai dinində multikulturalizm kimi, son illər böyük vüsət almış, həyati vacib ideyaların əsasını görməmək mümkün deyildir. Eyni zamanda, nəzərə alsaq ki, "Din vahid, sonu olmayan bir prosesdir" onda Bəhai dininə İslamın davamı, inkişafı kimi baxılması [axı, "*Hər dövrün bir kitabı var... (Bunlar zamanın, dövrün tələbinə və ehtiyacına görədir)"* Qurani Kərim: "Ər-Rəd"(13:38)] daha düzgün və məqsədəuyğundur. Bəhai dininin zəmanəmizin digər ehtiyaclarına (dinlər arası dialoqun möhkəmləndirilməsinə, tolerantlığın bərqərar olmasına və ondan daha güclü vasitə olan sevgiyə çevrilməsinə) yönəlməsinin mümkünlüyü bu Təlimə olan diqqətin artırılmasını zəruri edir.

Bu məqamda Qurani-Kərimə edilən istinadlara münasibətdə bir haşiyəyə (ola bilsin ki, kimsə üçün tale yüklü ola) böyük ehtiyac vardır; Müasir məntiq nəzəriyyəsinin qurucusu, keçən əsrin ən güclü alimlərindən biri hesab edilən, Avstriya əsilli Amerikan məntiqçisi və riyaziyyatçısı ABŞ Prinseton Universitetinin professoru Kurt Qyodel (1906 – 1978) natamamlıq haqda 2 teoremin müəllifidir; 1-ci (zəif) teorem: **"İstənilən formal aksiomlar (hökmlər) sistemi həlli mümkün olmayan fərziyyələri özündə ehtiva edir"** (ilk tərcümə - S.Ə.). Eyni məsələ ətrafında müxtəlif mülahizələr ola bilər ki, onların da

bəziləri doğru, düz ola bilər, lakin bu mülahizələr arasında yeganə həqiqət ola bilər. Odur ki, bu və ya digər müammalı, sual doğuran məsələlərin həlli ücün Kurt Qodel natamamlıq teoreminin 2-ci (güclü) teoremiini sübut etmişdir: **"İstənilən aksiomlar (hökmlər) sisteminin məntiqi tamamlığı (və ya natamamlığı) bu sistem çərçivəsində sübut edilə bilməz. Bunun sübut və ya təkzib edilməsi üçün əlavə aksiomlar (hökmlər – sistemin gücləndirilməsi, qüvvətləndirilməsi) tələb edilir" !!!** (ilk tərcümə - müəllif). Müqəddəs Kitablar Allahın ən böyük elmidir.Odur ki, riyazi üsüllarla sübut edilmiş bu məntiqə uyğun olaraq, bu və ya digər müqəddəs kitabın hökmlərinin mahiyyətinə yalnız növbəti kitab vasitəsi yiyələnib, kifayətlənmək olar...Məncə burada bununla da kifayətlənmək lazımdır.

Semiotika – işarələr və işarə sistemləri haqqında elmdir ki, onun vasitəsilə istənilən şey işarə sistemi kimi istifadə edilə və onun mənasının şifri açıla bilər. Əbcət -digər daha mükəmməl sistemdir. Bizə məlum istənilən sistemdən istifadə etmək olar. Yüz, min il əvvəl yararlı olan bu gün də istifadə oluna bilər. Biz bu günlərdə artıq bunun kompyüterlə necə edilməsinin şahidi oluruq ki, bu da, yuxarıda adı çəkilən kitab kimi, möcüzə kimi təqdim edilir. Əgər dini (mənəvi) dilin bizim dilə açılışınının şifrini bilsək, o zaman Allahın nazil etdiyi Kitabların müdriklik, hikmət və bilik okeanı olmaları aşkar olar.

Banisi Nəimi Fəzlullah olan hürufilik nəzəriyyəsi, hərf mistikası (əsasında mühakimələr meydana çıxarır) yeni pifaqorçuluqda, İsmailikdə və s. vardır. Azərbaycanın dahi şairləri

Nəsimi (hürufi idi) və Füzulinin əsərlərində hürufilik motivləri vardır. Amma ilk dəfə bu məsələlərə, "Qüvvə olan yerdə rəqəm də ağalığa sahib olur, zira onun daha çox qüvvəti vardır" deyən Zərdüşt peyğəmbər, hələ 3000 il əvvəl, böyük diqqət və qiymət vermişdir.(Фридрих Ницше, Так говорил Заратустра, 2010, 177)

Alimlər və onların işlərinin üç qismə bölünməsi kimi bir fikir mövcuddur: bəzi alimlər *qarışqa* kimi hər şeyi yalnız yığır, toplayır və təqdim edirlər. Digərləri *hörümçək* kimi hər şeyi özlərindən buraxır, icad edib yaradırlar. Üçüncü və ən mükəmməl növ *bal arısı* kimidir ki, o da müxtəlif çiçəklərdən, başqalarının görə bilmədiyi nektarı, böyük zəhmətlər hesabına hamılıqla və fədakarcasına tapıb, yığıb, onu daxilində emal etdikdən sonra bal kimi insan həyatı üçün əvəzolunmaz bir məhsula çevirib, təmənnasız bizə ərmağan edirlər. *

*"Hər nə varsa, Allahdandır və hər şey də Ona qayıdır. O, hər şeyin mənbəyidir və Onda hər şey tamamlanır".*

("Жемчужины Истины", Санкт-Петербург, 2001, Издательство "Единение", стр. 84)

---

* Ömrüm boyu çalışmışam və çox istərdim ki, bu yazılardan ətrafımdakılara faydalı olan bir cövhər təqdim edə bilim. Ümidvaram ki, bu yazılar bir daha nəzərdən keçirilib, gələcəkdə daha dəqiq və geniş tədqiqat mövzusu və vasitəsi ola bilər. Mənim qızım ixtisasca riyaziyyatçıdır. Əlbəttə ki, o, riyaziyyatı məndən yaxşı bilir. Mən dağ mühəndisiyəm və ixtisasım neft və qaz quyularının qazılmasıdır. Amma mən dünyada ilk dəfə olaraq, fəza əyrisinin 3 parametrdən asılı tənliyini almış (əlbəttə ki, elmi rəhbəriminköməyi ilə) və bundan ötrü də alimlik dərəcəsinə layiq görülmüşəm. Deməli, əgər tələb olunarsa, dəqiq elmdə yuxarı qeyri- professional professionaldan da irəli gedə bilər, yüksək nailiyyət qazana bilər, çünki hər bir kəs əgər bütün fikrini yalnız vahid bir istiqamətə yönəldərsə, böyük nəticələrə nail olar. Eynilə də, hərçənd mən ilahiyyatçı deyiləm, lakin din məsələsi hər kəsin işi olduğu üçün, həqiqətin araşdırılması ilə ciddi məşğul olan kəs danılmaz nəticələrə gəlib çıxa bilər.

*"Bu Din, doğrudan da, Allahın nəzərində Həzrət Məhəmmədin Dininin cövhəridir; odur ki, səmavi Cənnətə və Tək Haqq Allahın hüzurunda Onun uca razılıq Bağına yetişməyə tələsin! Kaş ki, Allahın əlamətlərinin sübutları qarşısında siz səbrli və minnətdar olardınız".*

(Bab, Yazılarından seçmələr, Moskva, 2006, s.43)

*"Necə ki, bu dövrdə də eyni hal müşahidə olundu; bu cılız nadanlar elə guman ediblər ki, qətl və qarətlə, Allahı sevənləri şəhərlərdən sürgün etməklə İlahi Qüdrət çırağını söndürə bilərlər və əbədi Günəşin nurunun qarşısını almağı bacararlar. Amma bilmirlər ki, bütün bu bəlalar əslində həmin çırağın şöləlınməsi üçün tökülən yağ kimidir. Beləcə Allah hər şeyi istədiyi kimi dəyişdirər, çünki O hər şeyə qadirdir..."*

# EPİLOQ ƏVƏZİ

Allah Əmrinə xilaf çıxanlara veriləsi cəzanı Həzrət Bəhaullah çəkdi.

Nəhayət, Allah Əmri tam olaraq quruldu.

**UNESCO** (BMT-in Təhsil, Elm və Mədəniyyət məcələləri üzrə təşkilatı) İsraildə, Hayfa şəhərində, Karmel dağının ətəyində yerləşən Həzrət Babın Məqamı (Mavzoleyi) və ətraf tikililər Dünya Maddi mədəniyyət irsi kimi qeydə almışdır.

BMT-nin bu şəhərdə toplanmış komitəsi müəyyən etmişdir ki, İsraildəki iki Bəhai məqamı "yüksək ümumdünya dəyərlərinə malikdir" və bəşəriyyətin mədəni irsinin tərkib hissəsi kimi qiymətləndirilməlidir.

UNESCO-nun Dünya İrsi Kommitəsinin bu günkü qərarı o deməkdir ki, Bəhailər üçün ən müqəddəs iki yer – onların dininin banilərinin dəfn olunduqları yerlər Böyük Çin Səddi, Piramidalar və s. kimi beynəlxalq aləmdə qəbul olunmuş yerlərlə bir sıraya qoyulmuşdur.

Bunlar, irs siyahısına düşmüş İsrailin şimal sahilində yerləşən Köhnə Əkka şəhərinin (Hz.Məhəmmədin bu şəhərlə bağlı hədislərin mənası yalnız indi məlum olur) yaxınlığında, digəri isə Hayfa şəhərində Karmel dağında olmaqla, Bəhai Dininin Baniləri olan Həzrət Bəhaullah və Həzrət Babın məqamlarıdır. Bəhailər inanırlar ki, Həzrət Bəhaullah da, Həzrət Bab da Allahın Elçiləridir. Həzrət Babın məqamının ətrafında tikilmiş Ümumdünya Ədalət Evi, Arxiv, Beynəlxalq Təbliğ Mərkəzi və Tədqiqatlar Mərkəzi binaları birlikdə qövs formasında tikilmişdir. Onların məqamları (dəfn olunduqları yerlər) təxminən 8 milyonluq icma üzvləri üçün müqəddəs ziyarət yeridir.

Dünya İrsi Siyahısına həmçinin, Vatikan, Yerusəlim kimi qlobal dini əhəmiyyətə malik abidələr də daxildir. Bəhai Məqamları UNESCO-nun bu siyahıya müasir zamanda və dinlə əlaqəli daxil olmuş ilk yerlərdir.

İranda doğulan Həzrət Bəhaullah, o zaman Osmanlı İmperiyasının tərkibində olan Əkka şəhərinə sürgün olunmuş və 1892-ci ildə orada da süud etmişdir. Həzrət Bab isə Təbrizdə edam olunmuş, cənazəsi sonralar Hayfaya gətirilərək orada dəfn olunmuşdur.

Bu iki Məqam onları əhatə edən büsatlı və gözəl bağlarına görə diqqətəlayiqdir və bir çox mədəniyyətləri özündə birləşdirərək harmoniya yaradır. Bəhai ziyarətçilərdən əlavə, onlar yüz minlərlə digər ziyarətçi və turistləri cəlb edir.

“Biz, 150 il bundan öncə yalnız Orta Şərqdə mövcud olan kiçik bir qrupdan indi dünyanın hər bir ölkəsində ardıcılı olan misli olmayan dünya icması yaratmış bir dinin müqəddəs yerlərinin əhəmiyyətini qeyd edən UNESCO-nun bu qərarını alqışlayırıq”, Beynəlxalq Bəhai İcmasının Baş Katibi Albert Linkoln deyir. “Bəhai İcması bu yerlərin namizədliyini verdiyi üçün İsrail hökumətinə xüsusilə minnətdardır”, o əlavə edir.

Dünya İrsi Siyahısı UNESCO tərəfindən 1972-ci ildə, “yüksək ümumdünya əhəmiyyətinə malik mədəni və təbii irsləri müəyyən etmək, qorumaq və saxlamaq məqsədilə yaradılmışdır. İndiyə kimi, 184 ölkə Dünya İrsi Konvensiyasına imza atmışdır. Bu Konvensiya abidələrin siyahıya alınması üçün ümumi standartları müəyyən edir. Dünya İrsi Komitəsi Dünya İsri Konvensiyasına qol çəkmiş 21 ölkədən ibarətdir. Bu, sədrin təmsil etdiyi ölkədə hər il toplanır. Bu il Sədr doktor Kristina Kamerondur və o, Kanadadan olduğu üçün, son qərar iclası da Kvebekdə keçirilmişdir.

2009-cu ilin Novruzu Bəhai Zühur Dövründə həvvarilik əsrinin ən əlaməttar hadisəsinin - Hz.Babın mübarək cəsədinin

şəxsən Hz.Əbdül-Bəha tərəfindən Allahın müqəddəs dağına həmişəlik tapşırılmasının 100 illiyinə təsadüf edir. Hz.Əbdül-Bəhanın sözlərinə görə, "Ən sevindirici hadisə ondan ibarətdir ki, düşmənlərin üzündən və bədxah xəyanətkarların törədə biləcəklərindən qorxaraq, 60 il sərasər dinclik və sakitlik bilmədən, bir məkandan digərinə köçürülən Hz.Babın müqəddəs, nursaçan bədəni nəhayət, Əbha Camalının fəzli nəticəsində, Novruzun birinci günündə cah-cəlalla Karmel dağının yuksəkliyindəki Məqamında müqəddəs tabuta, qəbrə yerləşdirildi."

Keçmişdə olduğu kimi, Hz. İbrahimi oda atanlar, Hz.İsanı çarmıxa çəkənlər, Hz. Məhəmmədin mübarək dişini sindırıb və ona qəst etmək istəyənlər Qiyamət gününün bu imtahanından da şərəflə çıxa bilmədilər; Qaimi (Seyyid Əli Məhəmməd) də güllələdilər və Hz. Bəhaullah (Mirzə Hüseyn Əli) və ailə üzvlərini də 40 il dustaq və sürgündə saxladilar. Amma əvvəlki vaxtlarda olduğu kimi, nə nadan gülüşlər və istehzalar, nə dustaqlıq və sürgünlər, nə işgənçələr və ölüm qorxusu, Allahın İşinin qarşısını almaq iqtitarında deyil və bu dəfə də ala bilmədi.

Hazırda :

-Yerli bəahi icmaları və qrupları olan ölkələrin və muxtar vilayətlərin sayı-235;

-Milli Ruhani Məhfillərin sayı -182;

-Yerli Ruhani Məhfillərin sayı- 15798;

-Bəhai icmaları olan ayrı-ayrı şəhərlərin, rayonların, kəndlərin və qəsəblərin sayı -126904;

-Bəhai ədəbiyyatı tərcümə olunan dillərin sayı -802;

-Bəhai Dininin yayıldığı millətlərin, xalqların etnik azlıqların sayı -2112;

-Bəhai məktəblərinin sayı-755;

-Bəhai ictimai institutlarının sayı- 900;

-Bəhai radiostansiyalarının sayı- 7;
-Bəhai sosial-iqrisadi lahiyələrinin sayı – 1344;
-Bəhai nəşriyyatı- 30;
-Bəhai təlim institutları- 200.

Məşhur bir hədisdə Qiyamət Gününün əlaməti kimi "Yeni xalq yaranacaq və bütün dünyaya yayılacaq" – verilən rəqəmlərdən göründüyü kimi artıq həyata keçmişdir. 800-dən artıq dildə danışan xalqlardan, doğrudan da, yeni maddi və mədəni dəyərlərlə yaşayan "yeni irq" kamilləşməkdə və və yeni mədəniyyət yayılmaqdadır.

## Minaxanım Fərəc qızı Qasimovanın (Əyyubova 1921 – 2002) xatirələrindən

Salyan bəhailərinin tarixi şəhid atam Fərəc Qasımovun əmisi Qasımov (Qədim) Cavadın adı ilə bağlıdır. 1925-ci ildə Salyan bəhailərinin şəkil çəkdirdiyi vaxt onun təqribən 80 yaşı olardı (o, mərkəzdə əyləşib) qardaşım Ətaullanın isə 5 yaşı vardı. Qədim Cavad, həmin şəkildə olan, mənim əmi və dayılarımı da təbliğ edib. O vaxt atamın zərgər və ərşin–mal parca dükanı var idi. 1928-ci ildə "kulak" deyərək var-dövlətimizi əlimizdən alıblar – 2 kq qızıl və qaş-daşlar. Ailəmiz məcburən, göz-qulaqdan uzaq olmaq üçün, Bakıya köçməli olub. O vaxt mən 4-cü sinifdə oxuyurdum. Yadımda qalanlardan Zərgərov Kərbəlayi-Məhəmməd Əli və İrandan olub Göyçayda yaşayan bəhai ailəsi ilə ən çox əlaqələrimiz var idi.

### 1937-ci ildə Azərbaycanda həbs olunan Bəhailərin siyahısı

(Minaxanım Qasımova-Əyyubovanın tərtib etdiyi cədvəl, kiçik dəyişikliklər nəzərə alınmasa, olduğu kimi verilir)

| Sıra N | Adı, soyadı | Təvəl Lüd | Həbs olduğu Yer | Həbs olduğu Tarix | Ixtisası | Məhfildə vəzifələri | Edam olunduğu gün |
|---|---|---|---|---|---|---|---|
| 1 | Qasımov Fərəc Cəfərqulu o. | 1885 | Bakı | 14.10.37 | Müəllim | Sədr | 22.11.37. |
| 2 | Zərgərov Əsədulla | 1889 | Bakı | 18.02.37 | Mühasib | Katib | 22.11.37. 2 dəfə tutulub |
| | | | | | | | |
| 3 | Qasımov Məhərrəm | | Bakı | 1937 | | Məhfil üzvü | |
| 4 | Fəttahov Abbas | | Bakı | 1937 | | Məhfil üzvü | |
| 5 | Bağbanzadə Sami (Cavad) | 1910 | Bakı | 19.02.37 | Mühəndis | Məhfil üzvü | |
| 6 | Ibadov Süleyman | | Bakı | 1937 | Ticarətçi | Məhfil üzvü | |
| 7 | Qaibli Rəhim | | Bakı | 1937 | Tibb Universiteti III-kurs | | Qayıdıb gəlib |
| 8 | Əbdül-Səccad Aydinov | | Bakı | 1937 | | Məhfil üzvü | |
| 9 | Əhədov Mikayıl | 1887 | Salyan | 1937 | Dəniz kapitanı | Məhfil üzvü | 17.11.37 |
| 10 | Dadaşov Əliabbas | | Bakı | 1937 | | | |
| 11 | Rasizadə Rəsul | | Bakı | 1937 | | Məhfil üzvü | |
| 12 | Cəfərov Hüseyin Hacı Kərim oğlu | 1883 | Bakı Balaxanı | 1937 | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 13 | Cəfərov Kərim Kəbla İmran oğlu | | Bakı Balaxanı | 1937 | Bələdçi (kondukt ur) | | |
| 14 | Cəfərov Həsən | | Bakı | VIII-1937 | | | |
| 15 | Xanmurad | | Bakı | 1937 | | | |
| 16 | Hüseyinqulu | | Bakı | 1937 | | | |
| 17 | Nurullah Əliyev | | Bakı | 1937 | | | |
| 18 | Ələkbər Mərdanov | | Bakı | 1937 | | | |
| 19 | Suleyman Məmmədov | | Bakı | 1937 | | | |
| 20 | Rasul Xasiyev | | Bakı | 1937 | | | |
| 21 | Qasımov Məsum Xəlil o. | | Gəncə | 3 dəfə tu-tulub və qayı-dıb gəlib | Tacir, | 1916-1917-ci ildə Həzrət Əbdül-Bəhanın hüzurunda olub | |

Atam ərəb və fars dillərini mükəmməl bilən bir ziyalı idi. Əli-Bayramlıda (indiki Şirvan şəhəri) və Bakıda –Suraxanıda müəllimlik edib. Onun dərs dediyi sinifdə 40 uşağın çox böyük əksəriyyəti əlaçı olub. Odur ki, onu Stalin vaxtında böyük məbləğdə pulla mükafatlandırıblar. O, həmin mükafatı qəbul etməyib, yetim uşaqlar evinə verməyi xahiş edib. 1936 -1937-ci illərdə repressiya vaxtı mətinliklə öz qismətini gözləyib, heç yerə qaçıb gizlənməyib.

Belə bir günün uzaq olmadığını hiss etdiyindən gözlərində qüsür olan anam Fizzənin gözlərində əməliyyat etdirir. Elə həmin gün, qızdırmada sarıqla örtülmüş gözlərlə, 14 oktyabr 1937-ci ildə geçə saat 2-də qapının bərk-bərk döyülməsindən bərk narahat olur. Hətta evdəki 6 -16 yaş arasında olan 6 uşağın hamısı yuxudan ayılmışdı. Bizimlə bir evdə yaşayan nənəm və bizim hamımız atamın himayəsində yaşayırdıq. Görünür, ürəyi yumşaq olduğundan NKVD

üzvlərindən biri atama iki dəfə müraciət edib, ona verilmiş kağıza qol çəkməyi təklif etmişdi ki, dindən üz döndərib, bəhailikdən imtina etmək şərti ilə ona sağ qalması üçün imkan yaransın. “Məndən nə istəyirsənsə istə, amma bunu demə” cavabını alanda hirslə “məgər sən bilmirsən ki, hara aparılacaqsan?”, deyə zabit bir daha xəbərdarlıq etmişdi.. Ailəsindən nigaran qalan atam anama üz tutmuş, o isə öz növbəsində atama gözləri ilə verdiyi sualın cavabında: “Uşaqlardan səndən də yaxşı müğayat olacam, nigaran qalma” söyləmişdi. Həbs zamanı sədaqətli, mətin hərəkəti ilə anam indiyə kimi bir çox insanları heyran edir.

Evdə axtarış apardıqdan sonra bütün kitabları bir çuvala doldurub, öz çiyninə almağı əmr etdilər. Sonda çiynindən bir yumruq vurub evdən çıxardırlar. Bu səhnəni ömrüm boyu göz yaşları ilə xatırlayıram. Atamın həyat yoldaşına (anama) dediyi axırıncı sözlər isə bunlar idi: "Sən bütün uşaqlara, ilk növbədə qızlara ali təhsil verməlisən".

Bakıda o vaxtlar iki dustaqxana var idi – Keşlə və Bayılda. Atama sovqat göndərmək üçün Bayıldakı dustaqxanada səhər saat 5-dən növbə tutmaq lazım olurdu. 40 gün sonra 30 noyabr 1937-ci ildə onu güllələyib şəhid etmişdilər. Onun qana bulaşmış köynəyini həyat yoldaşı Qasımova Fizzə xanıma göndərmişdilər. Həbsin qırxıncı günü Fizzə xanım onu Bakının Bayıl həbsxanasından gətirdiyi qazanın içərisində aşkar etmişdi. Bu onun haqqında yeganə məlumat idi. Mərd qadın özünün ailəsində və altı övladından bunu uzun müddət sirr kimi gizli saxlayırdı.

Anam Fizzə Muradova Göyçək Əhədin qızı idi. Dövlətli ailədən idi – anamın təbirincə desək “burjuy qızı idi”. Axı babamın Salyanda pambıq zavodu var idi. Adətən, o vaxtlar uşaqlar mədrəsədə (əsasən dini) təhsil alardılar. Anam isə rus

məktəbinə getdiyu üçün yolda molla onun qarşısını kəsib, məktəbə getməyə qoymamışdı....

Anam bəhailiyi ər evində qəbul etmişdi. Uzun müddət ailəsi onun bu hərəkətini pis qarşılamış, evində “murdardir” deyə heç kəs bir stəkən su da içməmişdilər. Yalnız atamın əməlləri, xasiyyətindəki saflıq onların ürəyindəki buzları əridə bilmiş, bu qohumluğu özlərinə şərəf sanmağa başlamışdılar. Anamın qardaşları – dayılarım da dinlə yaxından tanış olduqdan və bir növ İslamın davamı olduğunu tədqiq etdikdən sonra bəhai olmuşdular. Onlar da sonradan 1937-ci il bəhailərinin və şəhidlərinin acı taleyini bölüşmüşlər. Anamın bir dərdinə qardaşı Böyükağa Muradovun həbsi və onun ailəsinin, uşaq evinə göndərilmiş övladlarının da dərdi əlavə olunmuşdu.

O zamanlar, adətən, ailədə əri tutulanların özlərini də tutardılar. Uşaqları isə ya sürgün edilir ya da uşaq evinə yollayırdılar. Odur ki, anam kiçik bir balış, yorğança və döşşəkçə ilə bir boxça hazır saxlamışdı ki, həbs edilərsə özü ilə tez apara bilsin. Uzun müddət həmin boxçaya əl dəyilməmişdi ki, bəlkə lazım ola bilər. Fizzə xanım həyat yoldaşının vəsiyyətinə əməl etdi: professor, elmlər namizədi- dosent, həkimlər, fizik - Bakının və Azərbaycanın Ruhani Məhfillərinin gələcək üzvlərini tərbiyələndirdi. 1956-cı ildə Stalinin ölümündən sonra bütün tutulanlar kimi atam da bəraət qazandı. Amma nə faydası, hələ uzun müddət ailəmiz “xalq düşməni” damğasını daşımalı və onunla bağlı məhrumiyyətlərə, məzəmmətlərə və həyat tərzinə dözməli olduq.

Çətin vaxtlarda bəhailər bir-birlərinə dəstək verirdilər. Nə qədər qorxulu və çətin də olsa, əlaqələri kəsmirdilər. Yadımdadır, Balaxanıda bir neçə buruq sahibkarı tutulduqdan sonra onun xanımı rus qadına, Gəncəyə hər ay 50 rubl miqdarında pul göndərirdik – 1960-cı illərdə.

Bayramları keçirməyi özümüzə borc bilirdik və Gəncədən bəhai şair Əli Şövqi Gəncəvinin yazdığı şeirləri oxuyurduq.

Uzun müddət bəhailərin xariclə əlaqələri və dünyada gedən dəyişikliklərdən xəbərimiz olmurdu. Yetmiş-səksəninci illərdə Finlyandiyadan Müzəffər Namdar işlədiyi şirkətin nümayişinə - sərgiyə gəlmişdi. Həmin sərgiyə tamaşa etmək məqsədilə Sürəyya xanım da getmişdi. Onun sinəsində “İsmi Əzəm”i görən Namdar onu uzaqdan izləyib, özünün güdülmədiyindən arxayın olandan sonra, yalnız Sürəyya xanımın evinin kəndarında ona yaxınlaşıb, “Allahu-Əbha” demiş və bəhai oldugunu söyləmişdi. Zərgərovları xəbər aldıqda onun öz qohumu olduğunu bildikdə gözlərinə inanmamış, amma bu ailəyə ziyan verməmək məqsədilə tezliklə aralanıb getmişdi. Bacısı Elmira xanım Zərgərova da bu hadisədən çox şad olmuşdular.

1988-ci ildə Mirzə Ələkbər Nəci Aşqabaddan bizə qonaq gəlmişdi. Bu isə artıq tezliklə dəyişikliklərin olacağından xəbər verirdi. Nəhayət 1990-cı ildə Dini İşlər İdarəsinə rəsmi qeydiyyatla yazılı müraciət edərkən həyat yoldaşım İzzəddin Əyyubovun tərtib etdiyi siyahıya ailə üzvlərimiz (böyük övladım Lütviyyə başda olmaqla) ilk imza atanlardan olmuşdular. Yoldaşımın əmisi oğlu professor Ələfsər Əyyubovun bacısı da bəhai idilər.

*Bu o şəhərdir ki, orada Sənin məhəbbətinin atəşi şöləlpndi və Sənin mərifətinin işığı buradan saçdı.*

*Onları Öz əhədiyyət dənizinin dalğalarından, Öz mərifət ordunun dəstələrindən, Öz bəxşiş bağının ağaclarından və Öz inayət ağacının meyvələrindən ən sevimliləri eylə..*

Belə bir əzəmətli Əmrin ruhunu sözsüz, kalamsız nəsildən nəslə yalnız əməlləri ilə ötürdülər – heyrətlənməyə bilmirsən....

### Rövşanə xanım Xanlarova-Zərgərlinin kitabından: Xatirələr, Bakı, ADMİU-in mətbəəsi, 2003.

Yeni din İranda olduğu kimi, Bakıda da bəzi müsəlman ruhaniləri tərəfindən qəzəblə qarşılanmışdı. 1880-cı ildən İranda və 1882-ci ildən isə Bakıda təşkil olunmağa başlandı. Mənim ulu babam ilk bəhailərdən oldu. Babam Əli Əşrəf atası Mirzə Talıb haqda mənə belə bir hekayə söyləmişdi. Bir gün öz bədnam əməllərinə görə, Allahdan qorxuya düşən qoçu başçılarından biri məscidə gəlir və mollaya öz dərdini danışaraq, ondan məsləhət almaq məqsədilə deyir: “Mən çox adam öldürmüşəm, bəs indi mən nə edim ki, Allah günühlarımdan keçsin?” Bəhailərə nifrət bəsləyən molla əlinə düşmüş bu fürsətdən istifadə etmək arzusu ilə qoçuya deyir: “Bu sənin özündən asılıdır. Əgər günahlarının bağışlanmasını istəyirsənsə, onda Mirzə Talıb adlı bir allahsız var, get onu öldür ki, Allah-təala da səni əfv etsin”. Məsələnin belə asan həllindən sevinən qoçu səhər tezdən Mirzə Talıbın darvazasının qarşısında dayanaraq onun evdən çıxmasını gözləyir. Bir azdan sonra Mirzə Talıb evdən çıxır və qoçu ona yaxınlaşaraq deyir: “Mən səni öldürməyə gəlmişəm, nöşün ki, sən allahsızsan”. Mirzə Talıb qoçuya bəhai olduğunu söyləyir. Bildirir ki, Allahımız da birdir, Peyğəmbərimiz də... Qoçu Mirzə Talıbın mömin adam olduğuna inanaraq onu öldürməyərək çıxıb gedir. Lakin evinə gəlib çatanda, peşiman olur. Sonra belə bir qərara gəlir ki, Mirzə Talıb qaçmır ki, sabah gedib öldürərəm. Sabah yenə Mirzə Talıbın qarşısını kəsib deyir: “ Sən gəl mənə bir pis

söz de, mən də əsəbiləşib səni öldürüm.”. Mirzə Talıb cavabında “Bəhailər pis söz danışmırlar. Onların məqsədi bütün insanlara sevinc və məhəbbət bəsləməkdir. İndi mən bizim məclisə gedirəm, istəyirsənsə, sən də gəl, gedək və orada bizim söhbətləri eşit”. Qoçu ulu babama qoşularaq müsafirxanaya gəlir. Burada çoxlu bəhai toplaşmışdı. Qoçu fikirləşir ki, bunlar çoxdurlar, birdən məni öldürərlər və ehtiyat edərək çıxış qapısına yaxın bir yerdə oturur. Lakin məclisdə danışılan söhbətlər, oxunan dualar, qoçunun elə xoşuna gəlir ki, o, elə burada bəhai dinini qəbul edir. Qoçunun bəhai olması onun valideynlərini olduqca məyus edir. Qohumları və dostları onu danlayırlar. Məhəllənin uşaqları onu görən kimi istehza ilə gülürlər və deyirlər: “Buna bax, adə, qoçu dönüb bəhai olub”. Qoçu isə uşaqları hədələyərək deyir: “Bax a, məni hirsləndirməyin, yoxsa dönüb təzədən qoçu olaram və hamınızı öldürərəm”.

Mirzə Talıb fanatik ruhanilər tərəfindən amansızcasına təqib olunduğundan daha Bakıda yaşaya bilməyib Müqəddəs Torpağa, Haifaya gedir. Burada o, Hz. Bəhaullah və Hz.Əbdül-Bəha ilə görüşür. Ulu babam Hz.Bəhaullahın zəif və xəstə vaxtında Onun fars və ərəb dillərində olan əl yazmalarını qoruyub saxlanmasında kömək etmiş və müəyyən müddət ərzində Onun katibi olmuşdur.

Bir müddət sonra babam Əli Əşrəf və onun qardaşı Ağabala Hayfaya ziyarətə gedirlər. Onlar orada yaşayan ataları Mirzə Talıbla görüşürlər. Bakı bəhailərinin icması ilə maraqlanan Hz.Əbdül Bəha Əli Əşrəfi və Ağabalanı qəbul edir və vəziyyətlə tanış olur. Hz.Əbdül- Bəhanın məsləhəti ilə onlar Hayfada qalıb, Hz. Babın məqbərəsi - Məqam`i-Əlanın tikintisində iştirak edirlər. Müqəddəs türbənin inşası başa çatdırıldıqdan sonra Əli Əşrəf və Ağabala Kərimovlar Bakıya qayıdırlar.

İndi də Məqami-Əlanın bir qapısı Əli Əşrəfin adını daşıyır. Bundan başqa Əli Əşrəf Hayfada böyük bir bağ da salmışdı. Əli Əşrəf və Ağabala Bakıya qayıtdıqdan sonra ruhani məclislərdə xidmətə başlayırlar. Bağdan gələn gəlirdən qızıl pulla babama göndərilirdi. Babam da icma xəzinədarı Ağadadaş Bağbanzadəyə verərdi. Əli Əşrəfin Bakıda beş mərtəbəli mülki var idi. Sonradan ailəmiz müsafirxananın həyətindəki evə köçürlər.

Bir dəfə Hz.Əbdül Bəha buyurmuşdu ki, Azərbaycan bəhailərindən iki nəfər iki dəfə tutulacaqlar. Doğrudan da, 1927-ci ildə Azərbaycanda siyası vəziyyət kəskin surətdə dəyişdi. O vaxt anam Ruhiyyə konservatoriyada I kursda oxuyurdu. Atam Əsədulla Zərgərli bir neçə dəfə Mir Cəfər Bağırovun yanına çağırılmışdı. Atam yaxınlaşan fəlakəti hiss etmişdi. Bunu hiss edən atam anama konservatoriyadan çıxmağı məsləhət görür. "Uşaqlar böyüyəndən sonra yenə də təhsilini davam etdirərsən", demişdi. Konservatoriyanın ilk direktoru, görkəmli bəstəkarımız Üzeyir Hacıbəyov anamın təhsilini dayandırmasına heç cür icazə vermək istəmirdi. Başqa çıxış yolu olmadığından anam konservatoriyanı tərk etməli olur və üç aylıq makinaçılıq kursunu bitirərək makinaçı işləməyə başlayır.

Hz.Əbdül Bəhanın əvvəlcədən dediyi kimi iki nəfər –atam Əsədulla Zərgərli və Gəncəli Ağa Məsum Ağayev həbs olunaraq sürgünə göndərilirlər. Onlar həbs cəzasını çəkdikdən sonra 1931-ci ildə azad edilib, Bakıya qayıdırlar. Onları əqidələrindən döndərə bilmədiklərindən Bakıya qayıdan kimi yenə də xidmətə başlayırlar.

Biz o vaxtlar müsafirxananın ikinci mərtəbəsində yaşayırdıq. İsti yay günlərindən biri idi. Həyətdə çoxlu bəhai uşaq var idi. Əhbablar hər tərəfdən axışıb məclisə gəlirdilər. Onların içərisində iki gənc uşaqlara yaxınlaşıb "Allahu Əbha"

deyərək uşaqların keflərini xəbər alırdılar. Sonralar bildim ki, gənclərin biri İzzəddin Əyyubov, ikincisi isə Ətaulla Qasımov idi. Allah onlara rəhmət etsin, gözəl insan idilər...

Yenə də Amerikadan, İngiltərədən təbriklər göndərilirdi. Məhfil seçkilərindən sonra Mir Cəfər Bağırov (o, Azərbaycan Kommunist partiyasının rəhbəri idi) Əsadullanı yanına çağıtdirdi və ondan qəzəblə soruşur: “Sən yenə də seçildin? Uşaqlarının gələcək taleyini fikirləş!” Əsədulla cavab verir ki, bəhailərdə belə qanun yoxdur. Bu cavabdan daha da qəzəblənən Mir Cəfər qışqıraraq deyir: “Onda məclisininzi bağlayın”. Atam yenə təmkinlə cavab verir: “Biz məclisi davam etdirməyə söz vermişik, bağlaya bilmərik”.

Azərbaycan tarixinin qanlı səhifələrindən olan 1937-ci il gəlib çatmışdı. Hər tərəfdən kütləvi həbslər başlanmışdı; bütün dinlərin nümayəndələri təqib olunurdu. Bakı bəhai icması ruhani məhfildə doqquz nəfər həbs olundu.

Bu vaxt məclislərdə iştirak edən təqribən iyirmi üç yaşlı İzzəddin Əyyubov Əsədulla Zərgərlinin azad edilməsi haqqında Mir Cəfər Bağırova ərizə aparır. Mir Cəfər ərizəni oxuyandan sonra deyir: “Hamı həbs olunmalıdır”, sonra İzzəddindən soruşur: “Sən də onun üçün ağlayırsan?” . İzzəddin gözünün yaşını silib deyir: “Tək mən yox, hamı onun üçün ağlayır”. İzzəddin bilirdi ki, atamın zəif bədəni ikinci dəfə Sibirin dəhşətli soyuğuna davam gətirməyəcək. Doqquz nəfərdən bir nəfər – Fərəc Qasımov güllələndi. Bağbanzadə Ağadadaş vərəm xəstəliyindən vəfat etdi. Yeddi nəfər isə atamla birlikdə Sibirə göndərildi. 1939-cu ildə məhfil bağlandı. On dörd il müddətində üç nəfər sürgündən qayıtdı. Dörd nəfər isə Əsədulla Zərgərli, Məhəmməd Məhəmmədov, Məhərrəm Qasımov və Əliabbas Əliyev şəhid oldular. Yığıncaqların keçirilməsinin qadağan olunmasına baxmayaraq ziyafətlər gizli surətdə evlərdə keçirilirdi. Atam Əsədulla Zərgərli 1937-ci ildə ikinci dəfə həbs

olunub səkkiz il müddətində Sibirə sürgünə göndərildikdən sonra ailəmiz həm mənəvi, həm də maddi cəhətdən çətinliyə düşdü.

1952-ci il idi. Sürgün edilmiş bəhailərdən üç nəfər azad edilmişdi. Onlardan biri iki dəfə atamla sürgündə olan Gəncəli Ağa Məsum idi. O, bizə gəldi və sürgün həyatından danışdı və sonra anama xəbər verdi ki, atam Əsədulla vəfat etmişdir. Anam heç cürə bu xəbərə inana bilmirdi. Həmişə onun yolunu gözləyirdi. Anam gözləri yolda, qəlbi həsrətdə yaşadı və 1995-ci ildə vəfat etdi.

## Şəmsiyyə xanım Ələkbərovanın ( 1925 ) xatirələrindən

Mənim valideynlərim bəhai olublar, İrandan 1920-ci illərdə gəliblər. Babam Zeynalov Zeynalabdin, anam Züleyxa Ələkbərova və mən həmişə bəhai olmuşuq. II Dünya müharibəsi zamanı onillik məktəbi bitirdim. 1948-ci ildə Tibb İnstitutunu bitirdim. Babam rəngsaz idi və evlərdə təmir işləri aparan zaman 1906-cı ildə bir bəhai şəkili görüb, maraqlanıb yeni dinlə və sonra qəbul edib. Hər ay babamın Hayfaya göndərdiyi pulun qəbzləri indi də durur.

Anam Züleyxa Ələkbərova Zeynalabdın qızı, Volodarski adına tikiş fabrikində işləyirdi və Mir Cəfər Bağırov vaxtından yaxşı işlədiyinə görə deputat seçilmişdi. 1943-cü ildə onu neçə dəfə məcbur etdilər ki, Kommunist pertiyasının sıralarına daxil olsun. Nə qədər çətin də olsa, həmişə imtina edirdi. 5 il SSSRİ Ali Sovetinin deputatı olub – Stalinlə, Kalininlə görüşüb. Neçə dəfə Azərbaycanın Ali Sovetinin deputatı olub.

Biz 3 bacı bəhai olmuşuq (Nuriyyə və Şərqiyyə). Uşaq vaxtı əxlaq dərslərinə - müsafirxanaya gedərdik. Müqəddəs yazılar və münacat öyrənirdik.

1937-ci ildə Fərəc əmi (Qasımov) və Əsədulla əmini tutub, apardılar. Dadaş əmini isə xəstə-xəstə tutdular. 1948 - 1951-ci illərdə Gəncədə ( o zaman Kirovabad) həkim işlədim. Bu illərdə Xədicə xanımın qızı Ruhiyyə xanımgildə qalırdım. İndi də onun qızları Kəmalə xanım (Gəncədə) , Səltənət xanımla (Bakıda) böyük məmnuniyyətlə görüşürük.

Azərbaycanın məşhur qəzəlxan şairi Əbdül Xaliq Yusif ilk bəhailərdən olub. O, mənim həyat yoldaşım Yaqubov Səfa Camal oğlunun babası olub. Onun da valideynləri bəhai olublar. Bu yaxınlarda Əbdül Xaliq Yusifin 145 illik yubileyi Bakıda təntənə ilə qeyd edildi.

Çətin və qorxulu vaxtlarda bəhai məclisləri keçirirdik. Evimizdə, əsasən də Bilqeyis xalagildə bayramlar təşkil olunurdu. Müqəddəs günlər qeyd edilirdi.

## Ağanəcəf Ağayevin ( 1940 – 2008) xatirələrindən

Əmim Məmmədtağı Ağazadə Bəhai Dini ilə İranda 1936-cı ildə tanış olub. 1940-cı ildə İbrahim atamı təbliğ edib. O vaxtlar 1940 -1949-cu illərdə atam Bərdədə qalıb, oranın bəhailəri ilə sıx əlaqələrimiz olub. Bərdədən Musa dayı və onun ailə üzvləri ilə ən çox əlaqələrimiz olub. Sonra 1945-ci ildə müvəqqəti Ağcabədidə yaşayan İzzəddin Əyyubov və atası Məşədi Hüseynlə tanış olublar.

Atam Məşədi Dadaş tarixi yaxşı bilirdi. 1937-ci il tarixini yazıb.1936-cı ildə Dövlət orqanları tərəfindən bəhailərin siyahısı tələb edilir və 1937-ci ildə həbslər başlayır-38 nəfərin adı var. Birinci Məhfil tutulandan sonra ikinci Məhfil onun yerini tutur.

Bəhai Rubabə xanımın qızı İzzət Orucova (gələcəyin böyük - kimyaçı alimi, akademiki) “Sevil” kino-filminə baş

qəhrəman rolynda çəkilir. Munis və Fuad Oruçovlar (arxitektor) indi də xatırlanırlar.

Həmişə çətin dövrlər olub, yalnız təziyə məclislərində Bəhai Dinindən bir qədər söhbət açmaq olardı. Amma din adamlarından bəziləri Bəhai Dinindən yaxşı xəbərdar idilər. Bir dəfə, təqribən 1960-cı ildə Təzə Pir məscidində Molla Nəcəfqulu məclisdəki səs-küyün qarşısını ala bilməyəndə "gedin, nizam-intizamı bəhailərdən öyrənin" demişdi.

1957-63-cü illərdə Bəhiyyə xanım bir-neçə dəfə qohumları (bacı-qardaşları) ilə görüşmək məqsədi ilə İranda olmuşdu. Sonra onun bacısı Tahirə xanım da Bakıya gəlmişdi. Bu o vaxtlar bəhai dünyası ilə bizim yeganə əlaqə idi.

1953-cü ildən 1982-ci ilə qədər Məhfilə seçkilər keçirilməmişdi, üzvlər təyin olunurdular. 1982-ci ildə Əsədova Səriyyə xanımı, İsmulla Qasımovu və İzzəddin Əyyubovu KQB –yə çağıtdırıb, sorğu –suala tuturlar.

16 dekabr 1990-cı ildə Bakıda bəhailər yenidən toplaşıb, Məhfilə seçkilər keçirirlər. Sonra Dini İşlər İdarəsinə qeydiyyat üçün müraciət edilir.

## Bəylər Sultan oğlunun( 1925 – 2002 ) xatirələrindən

Atam Dağlı Sultan kimi məşhur idi. Ulu babam Hacı Məhəmməd Qubada Fətəli xanla birgə vuruşmalarda iştirak edib. Hacı Məhəmmədin oğlu Haşım Xızının 7-ci axundu olub – məşhur coğrafiyaşünas alim, akademik Gülün (Güləhmədovun) atası.

Əli Məhəmməd adlı bir nəfər Babi təqribən 1860-cı ildə İrandan – Şirazdan Şamaxıya gəlib. 4 həftə ərzində məclislərdə iştirak edib. Molla Məhəmməd Hüseyn babiliyi qəbul edib, ona görə də oradan qovulub, Xızıya gəlib. Onun vasitəsilə Ağa

Bəy və Molla Qədir (Əbdül Qədir) Bəhai Dinini qəbul ediblər. (Sonuncu Azərbaycanın məşhur şairi Mikayıl Müşviqin atası olub). Onlar hamını təblığ ediblər, o cümlədən Əli Raqibi.

Əbdül-Bəha Abbas vaxtı ilə atam haqqında bəzi şeylər yazmışdır. 1988-ci ildə atam Soltan Aşqabadda Hacı Məhəmməd Rza və dostu ilə birgə fanatik-müsəlmanların hücumuna məruz qalıblar. O zaman "halaldır"deyə həmin dostunu öldürməyə və atamın qolunu sındırmağa müvəffəq olublar. Bu münasibətlə 6 nəfərə 15 il iş verilib. Amma maraqlısı odur ki, bəhailər "nadandırlar" deyib, onların azad edilməsini məhkəmədən xahiş ediblər. Buna oxşar hadisə Qavqazda – Mahaçkalada da baş vermişdi: 8 nəfər düşüb onun üstünə ki, öldürsünlər, amma yaralayıblar onu. Özünü müdafiə edərkən kimisə yaraladığından atama 5 il iş veriblər. Mirzə Qədir - Mikayıl Müşviqin atası, Ağa Bəy və südçü Ağa Dadaş əmi (Xızıdan) həmişə deyərdilər ki, əgər Soltan olmasaydı onlara sataşardılar. Axı onlara sataşanlara Soltan yumruqla cavab verərdi. 1905-ci ildə qoçular atama 1 pıçaq və 2 güllə vurublar.

Bəhailər belə çətinliklərə baxmayaraq yenə də bəhai icma həyat tərzini yaşatmaqda idilər. 1934-cü ildə Müsafirxananın zirzəmisində dərsi-əxlaq üçün 100-əyaxın uşaq yerləşərdi. Məşədi –Kəbleyi Kazım Güləhmədovu Qarabağa Qubernator göndərmək istəyirdilər, amma o, imtina etdi. Gəncə bəhailəri ilə əlaqələrimiz çox yaxın idi. Mehdi əmi tez-tez Bakıya gələrdi. Həmçinin Asəf əmi, Miri, Möhsimağa –İslamın (Əsədov) atası (Səriyyə xanımın həyat yoldaşı) və Nüsrət Ağamalı oğlu Dunyamaliev Bərdədən. O, Bərdədə Bəhai dininin tarixini yazmışdı.

Əhsən Dadaşovun atası Əli Abbas -Bakidan, Əbdül Səccah –Balaxanıdan və s. qəhrəman idilər, çünki sataşanlardan qorx-murdular. Müsafirxana bağlananda oradakı şəkilləri atam götürmüşdü, biz evimizdə saxladıq. İndiki Bəhai Mərkəzindəki

fonunda divar kağızı olan şəkil və s. Yadımdadır, Məşədi Həsənin oğlu İsminin başına nə oyun açdılar...

Şəkidən İzzəddinin (Əyyubov) əmiləri bizə tez-tez gəlirdilər -Hüseyn, Heydər və Musa Əyyubovlar, Musanın qızı Gülsüm (Svetanın anası). Anam qeyri-bəhai olsa da, atam rəhmətə gedərkən Şeyxül-İslam Əlizadə molla idi və məclis əhlinə müraciət edib, demişdi "Həyat yoldaşım bəhaidir, odur ki, məclis bəhai qanununa uyğun aparılacaqdır. Kim istəyirsə - qalsın, kim istəyirsə gedə bilər". Ədliyyə Naziri Əmrulla Səmədzadə də qonaqların arasında idi. Yeganə bəhai idi ki, 1934-cü ildə qəbr daşı üzərində, bəhai rəmzi olan "9" rəqəmi yazılmışdı.

1957-ci ildə KQB əməkdaşları bacım Nəcibə Allahverdiyevaya sual veriblər ki, "bəhaisən ?" "bəhailiklə məşğulsunus?" və 1 gün saxlayıblar KQB-də. "Bizə işləyin" deyə təklif ediblər. Bizi həmişə güdüblər.

Məktəbdə müəllimə işləyən bacim isə "Qoyun dərisi geyinmiş canavar ola bilmərəm" söyləmişdi. "Əgər tərbiyə işinə yaramıramsa, məni işdən azad edin" demişdi.

Nəcibə xanım sonralar 1990-cı ildə Bakı və Milli məhfillərin üzvi secilib, Bəhai Dininə xidmət etmişdi. Fars dilində səlis oxuduğu dualar və belə mətinləri araşdırmaq qabiliyyəti, ərk edib, bəzən ağbirçəkliyi hesabına müşkül məsələləri müvəffəqiyyətlə həll edə bilirdi. (S.Ə.)

## Səriyyə xanım Əsədovanın ( 1925 – 2002 ) xatirələrindən

Mən 1945-ci ildə Bəhai Dinini qəbul etmişəm. Həyat yoldaşımın atası Mirzə əmi Rza oğlu Gəncədən idi. Onu Gəncədə babi olduğu üçün döyüblər. Gəncənin məşhur şairi Əli Şövqi ilə dost olublar.

Bəhai ədəbiyyatını və Müqəddəs Yazıları çap etmək mümkün olmadığından həyat yoldaşım İslam Əsədov (o,

mühəndis idi) əl ilə yazılmış münacat bloknotlarını, demək olardı ki, bütün bəhailərə hədiyyə etmişdi. Sonradan o, Bakı Məhfilinə üzv seçilmişdir. Bacısı Səmayə xanım Qazaxda yaşayırdı. KQB məni 1982-ci ildə uzun sorğu-suala tutduqdan sonra "məclislərə yığışmayın" göstərişini vermişdilər.

## Səidə İsmayıl qızı Sadiqinin
### (1940-) xatirələrindən (Tiflis bəhailəri barədə)

***Şəkildə: Tiflis Bəhailəri. I sıra əyləşənlər: Soldan ikinci – Məhəmmədəli Əliyev (Səidə xanımın babası); soldan üçüncü – İranlı mühacir İnayət ağa; dördüncü – İsmayıl Əhməd oğlu Sadiqi, Səidə xanımın atası). II sıra (ayaq üstə) soldan birinci – Əli Əliyev (Səidə xanımın dayısı); üçüncü – Əliqulu əmi.***

***Tiflis Bəhailəri Sağdan 1-ci Əliqulu əmi və xanımı Xavər xanım***

Mənim ana tərəfdən babam (1862-1942) Cənubi Azərbaycandan idi. O müsəlmandı, İranda vəba epidemiyası zamanı ata və anasını itirmişdi və Gəncəyə gəlmişdi. Gəncədə bir müsəlman kimi ona hörmət edirdlər. Mollaların dediyinə görə, o babilərə (bəhailərə) çox pis münasibət bəsləyirdi. Yaşca ondan xeyli böyük, lakin yaxın tanışı olan bir nəfər bəhailər haqqında ona yaxşı danışır. Babam Bəhai dini haqqında kitablarla tanış olur və Bəhai dinini qəbul edir. Bundan sonra ona qarşı təzyiqlər başlayır – onu alçaldır, təhqir edir və fiziki təzyiq göstərirlər.

Ana tərəfdən nənəm Xavər xanım (1877-1957) əslən İrandan idi, Gəncədə zəngin və təhsilli bir ailədə doğulmuşdu.

Ermənilər Gəncədə azərbaycanlıları qətliyam edəndə ata və anasını, ailələri ilə birlikdə dörd qardaşını itirmişdi. Bəhai dinini babamla birlikdə qəbul etmişdi və sonra onlar Tiflisə köçmüşdülər. Yəqin ki, onları mübəlilğ kimi oraya göndərmişdilər. Tiflisdə mənim anam, xalam və dayım doğulmuşdular. Anam Qürrətüleyn Sadiqi İrandan gəlmiş İsmayılla ailə qurmuşdu. Onları mübəlliğ ağa İnayət nişanlamışdı. Xalam Bəhiyyənin uşaqları yox idi.

Dayım bəhai olduğu üçün 1941-ci ildə Tiflisdən Türkmənistana sürgün edilmişdi. Tiflisdə o, məktəb direktoru işləyirdi, lakin ixtisasca aqronom idi. Təxminən 1946-cı ildə sürgündən azad olunmuşdu, tarlanı məhv olmaqdan qoruduğu üçün onu azad etmişdilər. Dayımın bir oğlu - Rizvan və iki qızı - Ziyafət və Dünya vardı. Ziyafər vəfat edib, bir qızı İtaliyadaddır. Dünya da dünyasını dəyişib. Oğlu Əli və qızı Sevinc hazırda Bakıda yaşayırlar. Mənimsə dörd qardaşım var, üçü dünyasını dəyişib, Bəhyəddin isə Bakıda yaşayır.

Babam Tiflisdə Bəhai işini davam etdirirdi. Onun yanına müxtəlif yerlərdən qonaqlar və mühacirlər gəlirdi. O evində 19 Gün ziyafətləri keçirirdi. Ziyafətlərdə Bakıda da tanınan Qulam əmi (Həqiqət Kəşkulinin atası) və Əliqulu əmi də iştirak edirdilər.

**Tiflis və Gəncə bəhailəri 1949-cu il**

Mən özüm Bakıya gəldim və Bəhailəri axtardım. Lakin onları tapmaqda çətinlik çəkdim. Bir dəfə kömək üçün dua edib həzrət Əbdül-Bəhaya müraciət etdim və təsadüfən gözlənilməz bir

şəraitdə Minə Xanımla (Səlahəddin Əyyubovun anası) tanış oldum.*

Babamın arxivi cənab Abbas Katarainin (o zamanlar müşavir idi) vasitəsilə Gürcüstan Bəhailəri Milli Ruhani Məhfilinə təqdim edilmişdir və bu barədə Gürcüstan icmasının "Novaya Era" bülletenində (Bülletenin tarixi: oktyabr-noyabr 1999) "Dinin tarixi" adı altında məlumat dərc edilmişdir.

## Həqiqət xanım Kəşkuli Qulam qızının (1934 – 2010) xatirələrindən

Tiflisdə, əsasən azərbaycanlılardan ibarət böyük bəhai icması var idi. Gürcü millətindən bir qadın –Keto öz oğlu ilə gələrdi. Qeydiyyatdan keçmiş Tiflis Bəhailərinin Ruhani Məhfili fəaliyyət göstərirdi (bizim evdə saxlanılan Kitab-i-Əqdəsdə onun möhürü vurulmuşdu). Adi icmalar kimi öz icma fəaliyyətini həyata keçirirdi. Əbülfəz, İsmayıl dayı (və daha 3 bəhainin adı video-yazıda verilir) ilə tez-tez görüşərdik.

---

* Bu hadisə Kəlbəcərdə İstisu kurortunda 1980-ci illərin əvvəllərində baş verib. Bir nəfər anama onunla bir otaqda qəribə bir qızın yaşadığını söyləyir. "Bu qız bütün günü nəinki Hz.Məhəmməddən, həm də digər peyğəmbərlərdən ürək dolu sevgi ilə danışır". Anam həmin gün müalicəsini bitirib, Bakıya qayıdırmış. Bunu eşidən kimi "bu qız bəhaidir," "tez məni onunla tanış edin" söyləmişdi. O artıq avtobusa minmək üzrə idi. Onu ötürməyə gələn rəfiqəsi tez qaçıb, Səidə xanımı anamla görüşə dəvət edir. Onlar görüşəndə anam Minaxanım əlini ona uzadıb, "Allau-Əbha" söyləyir və eyni cavabı eşitdikdən sonra qucaqlaşıb-öpüşürlər. Onları tanış edən qadın isətəəccüblə: "Bunlar hələ tanış olmamış belə qucaqlaşıb-öpüşürlər ki" deyir. Telefon nömrəsini artıq avtobusda olarkən pəncərədən ona söyləmişdi. O, gündən Səidə xanım bizim evin ən əziz qonaqlarından birinə çevrilir (S.Ə.)

Əxlaq dərslərini əsasən Səidə xanımın atası İsmayıl aparırdı. Biz müxtəlif dərnəklərdə məşğul idik. Bakı və yaxın olduğu üçün əsasən də, Gəncə bəhailəri ilə sıx əlaqələrimiz var idi. Gəncədən Məsum əmi (Qasımov), Salman əmi (Əhmədov), Cəlil əmi, Zəbərcat xala və Bakıdan Bala Ağa əmi, Kubra xala və Bəhaəddin (Orucovlar) gəlirdilər. Bəhai qanunlarına uyğun Tiflisdə rəhmətə gedən bəhailər tabutda dəfn olunurdular. 1950-ci ildə Bəhailərin əksəriyyətini Tiflisdən Kazaxstana sürgün etdilər. 6 il qapalı saxlanıldıq – 5 kilometrlik hərəkat zonası məhdudiyyəti qoyulmuşdu. Əks təqdirdə bizi daha uzaqlara sürgün gözləyirdi. Böyük və dəhşətli məhrumiyyətlərlə yaşadıq. Yeganə təsəllimiz Aşqabaddan sürgün olunmuş bəhailərlə (5 bəhainin adı video-yazıda verilir) təsadüfən aeroportda tanış olub, dostlaşmağımız olmuşdu.

1956-cı ildə bizi sürgündən azad etdilər. Ailəmizin bəzi üzvləri ilə 1964-cü ildə Bakıya qayıtdım. Qardaşlarım və oğulları Rizvan və İsa indi də Qazaxstanda yaşayırlar və 20 ildir ki, yerli bəhailərlə əlaqə saxlayırlar. 1963-cü ildə bacım Hekayətin (alman dili müəlliməsidir) həyat yoldaşı Rasim Cəlilov Hz.Bəhaullahın Öz Missiyasını elan etməsinin 100 illiyi ilə əlaqədar evlərində böyük bayram keçirmişdilər. Nəsrullah dayı, Qafar əmi, Səfurə xala və başqaları Bakı bəhailəri ilə sıx əlaqələrimiz yarandı. Atam Qulam Kəşkuli əslən İrandan, Təbrizdən, Üsküdən idi. O, həmişə qorxa-qorxa, Hz. Bəhaullahın adını çəkmədən Onun Sözlərini deyirdi. Həmişə İrana – öz qohumlarının (qeyri-bəhai idilər) yanına qayıtmaq arzusu ilə yaşayırdı. O, 1978-ci ildə rəhmətə getdi.

İzzəddin Əyyubovun 1990-cı ildə qeydiyyat üçün tərtib etdiyi siyahıya ilk qol çəkənlərdən biri mən oldum.

Tiflis və azərbaycan bəhailəri ilə birgə çəkilmiş fotoda: Əli qulu əmi, qardaşı Hüseyn, İsmayıl və Rövşən, Fərəculla (Gəncədən Tahirə xanımın atası), Fatma, Həsənqulu, Səidə

xanım və atası (20 nəfərin şəkili vardır). Qulam əmi, Hidayət və Məmməd qardaşları, Maaşallah əmi (müharibədən ayıtmadı) və qardaşı Əbülfəz əmi. 1948-ci il Tiflis fotosunda Bəhaəddin və Siddiqə, Fərrux, Camal, Mobil Əhmədov... *

## Siddiqə xanım Əliqulu qızının (1930 – 2008) xatirələrindən

Tiflisdə 7 bəhai ailəsi yaşayırdı. İrandan gələn müctəhid anamın yanında dəfn edilib. Bəhailəri 1938-ci ildən başlayaraq sürgünə göndəriblər – Əhməd əmini (Dora xanımın həyat yoldaşı) Kazaxstana. Tiflis icması bəhai qanunları ilə həyat tərzi sürürdü. 1945 -48-ci illərdə dərsi-əxlaq keçirdik. Dərslərə gürcü Ketonun oğlu Rövşən də gəlirdi. Atam Əliquludan başqa hamı Molla əmi, Şücaət xanım və başqaları Kazaxstana sürgün olundular. Atam1954-cü və ailəmiz 1962-ci ildə Bakıya köçüb. İstehsalla məşğul olurdu, sexləri var idi. Kazaxstana sürgün olunan 36 bəhaiyə hər ay pul və Qulam əmiyə dəzgah göndərib. Qazandığının 19%-ni fondlara xərcləyirdi. 1963-cü ildə bacımın qaynatası Südçi Ağa Dadaş əmi ilə birgə Kazaxstandan təzə gəlmiş Hekayət və Rasimgildə Hz.Bəhaullahın missiyasının 100 illiyini böyük bayramda qeyd etdik.

---

* Həqiqət xanımın oğlu Əli Kəşkuli Bəhaidir, hal-hazırda ailəsi ilə birgə Moskvada yaşayırlar. O tibb elmləri doktoru, professor, cərrahdır. (S.Ə.)

## Mərziyyə xanım Rzayevanın (1934 -) xatirələrindən

Balaxanıda böyük bəhai icması var idi. Əhalisi əksərən fars dilli olduğundan bəzi müqəddəs yazıları - orijinal ədəbiyyatı geniş yayılırdı. İlk bəhailərdən olan Kəbleyi İmran anamın dayısı olub. Anam, Ağabacı xanım, 1901-ci il təvəllüdlü idi. 1917-ci ildə bəhai olub. Qardaşlarım Sabir və Tofiq, bacım Şövkət və mən bəhai idik. Atam bəhai olmayıb. Balaxanıdakı indiki köhnə poçt bizim müsafirxanamız olub. Əxlaq dərsləri orada keçirilirdi. Stalin repressiyası zamanı müsadirə olunub. 1937-ci ildə, həyat yoldaşım Fuadın qohumu, Hüseyn dayı şəhid olub. NKVD Kərim dayını tutmaq üçün gələndə Hüseyn onu xilas etmək məqsədi ilə özünü tutdurub şəhidlik zirvəsinə ucalmışdır. (S.Ə. - bu Bakıdakı Dadaşovların ailəsindəki hadisənin təkrarı idi). 1941-43-cü illərdə bəhailər xəlvət yığışardılar. Fuadın anası da məclislərə gedirdi. Onun Mirzə Ələkbər Sabirin Balaxanıda sabun bişirməklə məşğul olduğunu, bəhai olmasıni və məclislərdə iştirak etməsini mənə dəfələrlə söyləmişdi.

Qardaşım Sabir Azərbaycanın güləş üzrə çempionu olmuş və Moskvada Boks üzrə qızıl medal qazanmışdı. İndi Azərbaycan Prezidenti onu "Tərəqqi" medalı ilə təltif etmişdir.

Bakı bəhailəri ilə sıx əlaqələrimiz olub. Çətin vaxtlarda Qafar əmi hər ay Bakıdan Məhfilin maddi köməyini, 250 rubl miqdarında, qışda belə yağış olmasından asılı olmayaraq, müntəzəm surətdə gətirirdi.

## Bəhaizadələrdən birinin xatrələrindən:*

Əli Naxçivaninin qohumları Orucovlar o zaman Bakıda yaşayırdılar.

"Лев Толстой и Восток" kitabında Ümumdünya Ədalət Evinin 40 ilə qədər üzvi olmuş Əli Naxçivaninin atası Mirzə Əli Əkbər Naxçivani haqda və onların müntəzəm yazışmaları barədə göstərilib. Tama Orucovanın həyat yoldaşı Nüsrət bəhai kitablarını apardı, qoruyub, saxladı. İzzət Orucova (gələcəyin akademiki) AzSİ-də (Azərbaycan Sənaye İnstitutunda) oxuyarkən Cəfər Cabbarlı onu görüb, sonra evlərinə qədər gizli müşaiət edib, evlərinə gedərək atasından, çətinliklə də olsa, icazə ala bilib və Sevil kino-filmində Sevil rolunda çəkmişdir. Sonralar Almaz rolunu da ifa etmişdir. "Səbuhi" filmində isə baş rola - Leyla xanım roluna qəbul edilib. Bəhai dünya icmasında əhəmiyyətli statusu olan Əli Naxçivaninin Sovet illərində axtarılıb, tapılması isə (Nəbi Xəzri xaricdə olarkən, arxitektor Münib Orucovun həyat yoldaşı Rəfiqə xanım və oğlunun xahişi ilə) inanılmaz bir iş idi.

Rubabə xanımın öz qızıllarını Aşqabadda Bəhai məbədinin tikilməsi üçün ora göndərib və qızı İzzət Orucova da bəhai fondlarında iştirak edib. Oğlum Bakıda Müsafirxanaya, amma artıq müsadirə olunduqdan sonra, uşaq baxçasına gedib...

## İzzəddin Hüseyn oğlu Əyyubovun (1916-1995) xatirələrindən... (Bakı, Tiflis, Ağdaş və Şəki)

***Əli Naxçıvani (solda) İzzəddin Əyyubovun qonağı***

* Təəssüf ki, bu xatirələrin müəllifini hələlik müəyyən etmək mümkün omamışdır

Şəkidə ilk bəhai atam Məşədi Hüseyn Əyyubov olub. O, təxminən, keçən əsrin axırlarında və bu əsrin (XX) əvvəllərində pul qazanmaq məqsədilə Şəkidən Tiflisə getmişdi. (Nuxada (Şəkidə) o kiçik bir sənətkarlıq sexinin sahibi olub, çust (nazik ayaqqabı) istehsal edirmiş və məhsulları Tiflisdə və Kislovodskdakı dükanlarında satırmış.) Tiflisdə alver edən zaman, həm sənəti üzrə, həm də alver zamanı bir nəfər ona rast gəlir və soruşur:

-Məşədi Hüseyn, sən belə cavan adamsan, özün də möminsən, Xorasana getmisən, bəs sənin üçün ayıb deyilmi ki, babi bir adamla alver edirsən?

Atam məəttəl qalır. Axı babi ilə alver etmək günahdır. Onun əqidəsinə görə, o zaman babilərlə oturub-durmaq, söhbət etmək çox böyük günah idi. Soruşur ki, kimdir o adam, mən kiminlə alver edirəm? Deyirlər ki, o şəxs Səmədov Hacıbabadır.

- A kişi, axı o çox yaxşı adamdır, niyə ona babi deyirlər?

Nə isə, bu məsələ atamı çox narahat edir. Səhərisi gün Hacıbaba dayı ilə söhbət edir ki, bəs Baba dayı, sən ki sözündə, haqq-hesabında bu qədər düz, özün də yaxşı adamsan, bəs sənə niyə babi deyirlər. Niyə mənə deməmisən ki, səninlə alver eləməyim? Axı mən günaha batıram. Baba dayı deyir: "Oğlum, axşam Şeytan Bazarındakı karvansaraya gələrsən, filan hücrədə Mirzə İsmayıl Muşkat adlı bir nəfər olacaq, onunla söhbət edərsən!"

Axşam atam Baba dayı deyən karvansaraya gedir. Orada məşhur şair, mübəlliğ Mirzə İsmayıl Muşkatın yanında beş-altı nəfər olur, söhbətə qulaq asır. Üç gecə oraya gedib-gələndən və söhbətlərə qulaq asandan sonra başa düşür ki, babilər Qaim Sahibəz-Zamanın gəlişinə inanmış adamlardır. Bunlar heç də pis adam deyillər. Səmədov Baba dayı kimi təmiz adamlardır. Dini təsdiq edir və babi kimi təmiz qəlblə Şəkiyə gəlir.

Bir müddət sonra əmisini, əmisi oğlanlarını, qardaşlarını, qohumlarını Babi (Bəhai) dini ilə tanış edir. Bu dövrdə Bəhai sözü yox, Babi sözü geniş yayılmışdı. Hətta mən uşaq ikən evdən çıxanda küçədə mənə babi deyib döyərdilər. İndiyə kimi alnımda çapıq yeri vardır. Beləliklə, Şəkidə ilk Bəhai atam və onun qohumları olublar. Sonradan hərəsi bir şəhərə gedib və bəhailiyi təbliğ ediblər.

Səmədov Baba dayı tacir idi, Şamaxıdan idi. Son zamanlar bir qədər Tiflisdə, başqa yerlərdə ticarətlə məşğul olandan sonra Bakıya gəlir və burada məşhur bəhai milyoner Hacı Musa Nağıyevin kontorunda onun mötəbər işçilərindən biri olur. Həm özü ticarətlə məşğul olur, həm də Hacı Musaya onun işlərində kömək edir. (Azərbaycan televiziyasında Musa Nağıyev haqqında gedən bu söhbəti mən eşitdim və gələcək nəslə çatdırmağı özümə borc bildim).

***Ağa Seyid Əsədullahın Şəkiyə gəlməsi və ona qəsd edilməsinin qarşısının alınması***

Ağa Seyid Əsədulla Ağdaşa gəlir. O zaman mənim ana babm Məşədi İsmayıl Ağdaş bəhailərinin arasında olur. Ağa Seyid Əsədulla (Səhv etmirəmsə, mən bunu kiçik yaşlarımda eşitmişəm, ona görə də yadımda qalanları danışıram) babamla belə qərara gəlirlər ki, Şəkiyə getsinlər və ona görə də bir faytonçu ilə danışırlar ki, səhər tezdən gəlib onları Nuxaya (Şəkiyə) aparsın. Onlar səhərisi gün faytonçnu çox gözləməli olurlar, lakin faytonçu gəlib çıxmır. Babam bir qədər kəmhövsələ idi, bir az hirslənir və faytonçunun dalınca nalayiq sözlər işlədir. Ağa Seyid Əsədulla buyurur ki, Məşədi İsmayıl, sən bilirəsn ki, hər şey Allahın əlindədir, yəqin bir hikmət var ki, faytonçu gəlib çıxmayıb.

Bir neçə müddətdən sonra məlum olur ki, faytonçu başqa bir müştərini daha çox pul müqabilində aparıb. Şəkiyə gedən yola (ora Trud düzü deyirlər) çatmamış o dağlarda çoxlu

qaçaqlar tərərinfən qarət edilib, var-yoxları əllərindən alınır, hətta bir-ikisi də öldürülür. Bu xəbər Ağdaşa yayılanda Seyid Əsədülla babama deyir ki, gördünmü burda hikmət nədir?

Nə isə ertəsi gün onlar Şəkiyə gəlirlər. Şəkiyə gələndə Ağa Seyid Əsədulla karvansaraya düşür. Nə hikmət varsa, karvansarayda yaşayır, çünki istəmirmiş ki, o gedədən sonra babamgili incitsinlər. Axı, babamgil öz inamlarını gizli saxlayırlarmış. Və yaxud ehtiyat edirlərmiş (buna təqiyyə deyirlər), nə səbəbə görə mən bilmirəm, Allah bilir.

Nəhayət bir gün mənim ən kiçik dayıma xəbər çatır ki, Şəkiyə bir babi gəlib, onu bu gecə filankəslər öldürəcəklər. Dayım bunu eşidən kimi öz qoçaq dostları (Qəssab Zahid, bir də Dadanov Kəblə Cabbar – Allah onlara rəhmət eləsin) ilə birgə yaraqlanırlar, tüfəng götürüb faytona minir və gedirlər. Şəkidə bir əsas mərkəzi küçə vardı – yuxarı berc, və aşağı berc. Bu yuxarı bercdən aşağı bercə üç nəfərin silahlı getməyindən camaat başa düşür ki, bir hadisə baş verməlidir. Qayıdan baş mənim dayım Veysəl Əyyubov faytonçunun yanında arxası faytonçuya oturub. Ağa Seyid Əsədulla isə faytonun dalında oturub gəldikləri yol ilə yuxarı  qayıdırlar. Bununla camaat başa düşür ki, Ağa Seyid Əsədulla Veysəlin, Cabbarın və qəssab Zahidin adamıdır. Onalrın qorxusundan Ağa Seyid Əsədullaya heç kəs yaxın düşmür və o, bir neçə gün Şəkidə qaldıqdan sonra çıxıb gedir.

Onu bir faytonçuya tapşırırlar ki, aparıb Yevlaxda bir nəfərə təhvil versin və onun əlindən kağız gətirsin. "O adamın başından bir tük əskik olsa, onda sən özündən küs. Sən və ailən, hamınız bədbəxt olacaqsınız". Beləliklə, Ağa Seyid Əsədullanın Şəkiyə gəlib getməyi ilə bağlı hadisəni söylədim.

Ağa Seyid Əsədulla Azərbaycana həzrət Əbdül-Bəha tərəfindən həm mübəlliğ, həm də Əmin`i-sandıq, yəni yığılan

ianələrin, Hüququllahı Sərkər Ağanının hüzuruna aparmaq və eyni zamanda, təbliğ ilə məşğul olmaq üçün göndərilmişdi.

O dövrdə Şəkidə qeydiyyata alınan ilk Bəhai Məşədi Hüseyn Əyyubov olub. O öz əmisi Məşədi İsmayılı təbliğ eləyib, lakın atası təbliğ edilməyib. Qardaşları təbliğ olunub. İsmayılın kisik oğlu Veysəl Əyyubov (aşağıdakı şəkildə mərkəzdə əyləşib) çox can yandıran olub. Onun övladı Kamal və nəvəsi Əmrixan Əyyubov hal-hazırda Bakıda yaşayırlar. Onun səbəbinə bu ailəyə bəhai ailəsi demək olar.

Atamın təbliğ elədiyi adamlardan biri də atamın xalası oğlu Xəlil idi, ona babi Xəlil deyirdilər. O 1914-cü ildə Bakıda təşkil olunmuş "Xidmət arteli"nin üzvlərindən biri olmuşdur. O zaman Şəkidə Məşədi Hüseyn, Məşədi İsmayıl və onun oğlu Veysəl Əyyubov, Musa Əyyubov (atamın böyük qardaşı), Salman, Məzahir, Heydər, Cabbar Əyyubovlar - onların hamısı bəhai idilər.

Şəkidə Əyyubovların evləri qəbirstanlığın yaxınlığındadır. 1931-932-ci illərdə Hüseyn bəy Köçərli öz xanımı Qüdsiyyə ilə Aşqabaddan Azərbaycana gəlirlər. Əslən Bərdədən idilər, orada qohum-əqrabaları çoxdur. Pulları olmadığından, Dağıstandan çox əziyyətlə (paltarları cırılır, ac-acına meşədəki meyvələrlə qidalana-qidalana) dağlarla həmin qəbirsanlıqdan keçəndə çox səliqəli, lakin üstündə heç bir bəhai rəmzi olmayan 5-6 qəbir görürlər. Hüseyn bəy o dəqiqə başa düşür ki, bu bəhai qəbrləridir. Münacat oxuyur və sonra yavaş-yavaş aşağı tərəfə enirlər. İlk ev sağ tərəfdə babamın evi oldiuğundan bu qapını döyürlər. Kiçik əmim Cabbar Əyyubov qapını açıb kimi istədiklərini qoruşur. Köçərli deyir:"Allah`u`Əbha!." Bunu eşidən Cabbar əmim

"Allah`u`Əbha" deyib, iki qolunu açır və onu qucaqlayır. Tez evə dəvət edilirlər. Atam o zaman Şəkidə olduğundan atama, əmilərimə, tez xəbər göndərirlər ki, bəs bir neçə nəfər bəhai gəlib. Həmin gecə məclis təşkil edilir, hamı yığılır, ziyafət keçirilir. Cabbar əmim ilə Heydər əmimin birlikdə oxuduqları əşar və münacat Qüdsiyyə xanıma elə təsir edir ki, o ağlayıb huşunu itirir. Bu Tahirə xanımın məşhur əşarı (Qərbətu uftadədən nəzər, kuçəbəkuçə, kuçəbəkuçə – təqribən belə başlanır) idi. *

Bir müddət onlar Şəkidə yaşayıb işləyir və yol xərclərini yığandan sonra oradan gedirlər.

Hal-hazırda Qüdsiyyə xanımın nəvəsi Aşqabadda yaşayan Dilarədir. O, Mirzə Ələkbər Nacinin gəlinidir. Qəbirlərin quruluşu ilə onlar Şəkidə bəhailərin olduğunu hiss edib bizim ailəyə rast gəlirlər, yoxsa onların aqibətləri acınacaqlı ola bilərdi.

Mən özüm Bakı bəhailəri ilə 1924-cü ildə tanış olmuşam. O vaxt mənim 8 yaşım vardı. 12 yaşına qədər mən Kəblə Məmməd İbrahim Bağbanzadə adı kişini özümə əmi bilmişəm, lakin 12 yaşında başa düşmüşəm ki, bu adamla atamın arasında o qədər ruhani məhəbbət olub ki, onu atamın doğma qardaşı bilmişəm.

O dövrdə atam məni Şəkidə incitdikləri üçün Bakıya gətirir. Burada öz şagirdi və özü təbliğ etdiyi ləzgi Rəhimin (sonradan əhdinə vəfa etməyənin) evində `naxlebnik` ( bütün xərclərini qonaq qalanın özünün ödəməsilə saxlayıb – S.Ə.) qoyub gedir. Onun evi müsafirxanaya yaxın olduğu üçün hər cümə günü müsafirxanaya gedirdik və söhbətlərə qulaq

---

* (Bu şeiri professor Əzizə xanın Cəfərzadə əzbər deyəndə həmin hissləri mən də keçirdim. O, bir neçə kitabında Tahirə xanımın yaradıcılığına müraciət etmiş, ona həsr olunmuş"Zərrintac Tahirə" adlı roman yazmışdır. – S.Ə.)

asırdıq. Hər cümə günü ora bəhailərlə dolu olardı. Nəhayət 1932-ci ildən onların sayı azalmağa başladı.

1937-ci ildə müsafirxana alındı və Bakı Bəhailərinin Ruhani Məhfilinin üzvləri tutuldu. Onlardan Qasımov Ağa Fərəc (oğlu Ətaulla mənim yaxın dostum olmuş, sonralar qohum olmuşam), zərgər Əsədulla, çapçı Əliabbas, kraxmal Əlabbas (çox üzr istəyirəm, o dövrdə onları mən bu adlarla tanımışam) və başqa bəhailər DTK tərəfindən tutulur və şəhadətə çatırlar. 1937-ci ildən sonra bəhai dini haqında ancaq köhnə bəhailər biri-birilə görüşəndə evlərdə və təziyə məclislərində danışa bilirdilər.

Beləliklə, 1945-ci ilə qədər bəhailərin bir yerə yığılması qeyri-mümkün olur. 1953-cü ildə Stalinin ölümündən sonra N. Xruşovun göstərişi ilə xalqa bir qədər azadlıq verilir. O zaman 1947-ci ildən tanış olduğum Ağayev Məşədi Dadaşın (hal-hazırda oğlu Ağanəcəf Bakıda yaşayır) vasitəsilə öyrəndim ki, bəhailər məclislərdə yığılırlar. Mən də Bakıya gələndə (o vaxtlar rayonda həkim işləyirdim) bəhailərdən Məşədi Dadaşgilə və İçəri şəhərdə südçü Ağadadaşgilə gedərdim. Bakı bəhailərindən Şərifov Nəsir, Dadaş, Səfərov Ağaqafar, Əhməd əmi, Əliqulu əmi, Bahəddin Orucov, qadınlardan – Kübra Orucova, Mirzə Ələkbər Naxçıvaninin bacısı Rübabə xanım, (onun qızı akademik İzzət xanım), deputat Züleyxa xala, Bilqeyis xala Bəhai dininin yayılmasında çox fəal idilər. Onlar bizə ürək-dirək verib deyirdilər ki, qara buludlar heç zaman Günəşin qabağını tuta bilməz, bir gün bu buludlar çəkilib gedəcək. Ona görə də biz ruhdan düşməməliyik. Daha doğrusu, bizi bu günlər üçün hazırlayırdılar.

Mən müharibədən oktyabrın 19-da (1941-ci ildə kontuziya aldıqdan sonra) gəldim və dostum Ətaullagilə gedəndə yolda, İçəri Şəhərin yaxınlığında (İndiki Bakı soveti metro-stansiyasının yanında) südçü Ağadadaşla rastlaşdım.

Allah`u`Əbha deyəndən sonra soruşdum: “Dadaş əmi, bu müharibə haqqında dini kitablarda bir məlumat varmı? O çox şəstlə dedi: “Bəli, var! Onlardan biri barədə İncil`i-Şərifdə Həzrət İsa buyurur: “Dənizdən bir əjdaha çıxar, onun 15 başı var,” (Bunu müfəssəl danışsam, vaxtınızı çox alaram). Kitab`i-Əqdəsdə isə buyrulur: “ Ey Reyn çayının sahilləri! Biz sizi qan içində gördük və qisas qılıncları sizin üstünüzə çəkilmişdir; və bu bir dəfə də olacaq. Və Biz Berlinin ah-naləsini eşidirik, hərçənd bu gün o, aşkar cah-cəlal içindədir.”

Bu söhbət o zaman olub ki, almanlar yüzlərlə kəndləri zəbt edib böyük sürətlə irəli gedirdilər, qalib gəlirdilər. Bizim qoşunlar acınacaqlı halda geri dönürdülər, məğlub olurdular. Belə bir şəraitdə Rusiyanın Almaniyaya qalib gəlməsi bir möcüzə ola bilərdi. Mən bunun nəticəsini 1945-ci ilə qədər gözlədim və 1945-də Həzrət Bəhaullahın, həqiqətən, Allah tərəfindən göndərildiyi və “Allahın zahir edəcəyi Kəs” olduğu mənə yəqin oldu. O gündən mən özümü bəhai hesab edirəm.

## Qürrətüleyn Maqsudova (1941 )
## Balaxanı Bəhailəri haqda xatirələri

Bu hadisələrin bir qismini anam Məşədi Nənəxanımdan, bir qismini isə bibim Bəqihə xanımdan eşitmişəm. Bəzilərinin isə şahidi və iştirakçısıyam.

Anamın və bibimin “Düşmən bizi daş ilə, biz düşməni aş ilə” ifadəsi ilə dedikləri həmişə yadıma düşür. Mən bu sözləri yaddaşıma həkk etmişəm. Bir də deyirdilər ki, Allah insana gülüş qismət edib. Bir heyvan görmüşünüz ki, gülsün? Onlar

instinktlə yaşayır və heç nəyi dəyişmək iqtidarında deyillər. Məsələn, arı bal çəkməlidir, qurd parçalamalıdır və s. Ancaq insana şüur verilib, o, dünyanı vəhşiliklərdən qorumalıdır, axı `bütün insanlaır bir ağacın budağı, bir budağın yarpaqlarıdırlar`.

Bəquhə xanım danışırdı ki, 1914-cü ildə əmisi oğlu Kərbəlayi İmran Kərim Hüseyn oğlu Cəfərov Kərbəlaya ziyarətə gedibmiş. Yolda bir bəhainin Sahib-əz-Zaman haqqında danışdığını eşidir. Bu maraq onu Hayfa (Fələstinə) şəhərinə aparır. Orada o, həzrət Əbdül-Bəha ilə görüşür, hətta onunla şəkil də çəkdirir. Yeni qurulmaqda olan ibadətgahın (yəqin ki, Həzrət Babın Məqamı nəzərdə tutulur- redaktor) xəzinəsinə barmaqlarındakı üzükləri ianə edir. Bibim danışırdı ki, üzüyün orta qaşı qara brilyant, çevrəsi isə 35 qaşlı ağ brilyantdan işlənmişdi. Kərbəlayi İmran ziyarətdən qayıdandan sonra bəhai dinini Balaxınıdan olan milyonçulara təbliğ etməyə başlayır. Bunların arasında milyonçu Kamran, Hacı Nadir, Hacı Xanəhməd, Hacı Güləhməd, Əbülfəz İsayev və başqaları olub. Bundan sonra babam Əmirxəlil Hacı Bəhmən oğlu dostu Ağayi Vəhab Hayfaya ziyarətə gedirlər. Elə bu vaxt həzrət Əbdül-Bəha xəbər veribmiş ki, Azərbaycandan iki nəfər ziyarətə gələcək. Vaxt yetişəndə babam Əmirxəlil hacı Bəhmən oğlu və dostu Ağayi Vəhab Müqəddsəs Torpaqda həzrət Əbdül-Bəhanın hüzuruna müşərrəf olurlar. Həzrət Əbdül-Bəha onları çox xoş qarşılayır və mənalı bir təbəssümlə onlara deyir: “Siz Balaxanıya çatarkən sizi gözəl müjdə gözləyəcək.. Hər ikinizin qız övladlarınız dünyaya gələcək. Ona görə də sizə mən iki ad bağışlamaq istəyirəm. Babam Əmirxəlilə öz qızına Qürrətüeyn adını,Ağayi Vəhaba isə qızına Nurrulleyn adlarını verməyi tövsiyə edir. Sonralar bibimə verilmiş bu ad mənə də - Cəfərova Qürrətüleyn Bəhmən qızına verilmişdir və mən bu adla qürur duyuram.

1921-ci ildə Balaxanıda bizim evdə bəhailər üçün müsafirxana təşkil olunur və burada 19 Gün Ziyafətləri keçirilirdi. Bu ziyafətlər müharibə illərinə qədər davam etmişdi.

Bibim deyirdi ki, həzrət Əbdül-Bəhanın şəklini evlərinizdən asın, onun xüsusi gücü var və o sizi qoruyacaq. Xüsusilə də, Onun cavanlıq şəklini çox tövsiyə edirdi və hətta bunun öz həyatında şahidi olduğunu söyləyirdi. Deyirdi ki, bəhai Əl-Cabbar üçün hərbi çağırış gəlir. O bərk xəstə olur və çağırış məntəqəsinə gedə bilmir. Həyat yoldaşı Həbiyyə xanım da doğum evindən yenicə qayıdıbmış. Qeyd edim ki, Balaxanıda Bəhai dini yayılandan sonra Bəhailər evlənəndə, ancaq bəhai ilə evlənirdilər. Həmin evdə də həzrət Əbdül-Bəhanın gənclik şəkli asılıbmış. Cabbar papiros çəkirmiş, hərbi komissarlıqdan bir nəfər qapını döyür. Bu zaman Cabbar yatağında olur . Həbiyyə xanım isə həmin otağa keçib uşağa süd verir. Hərbçi evə daxil olur və uşağa süd verən anadan başqa kimsəni görmür və deyir: "Otaqda uşaqlı qadından başqa heç kəs yoxdur." Halbuki otağı tüstü basmışdı. Hərbçi gedəndən sonra evdəkilər çaş-baş qalırlar ki, necə oldu ki, hərbçi tüstünü görmədi. Siqaret iyini hiss etmədi. Cabbar yataqdan qalxır və həzrət Əbdül-Bəhanın şəklini o ki var öpür və deyir: "Həzrət Əbdül-Bəhanın ruhu məni xilas etdi."

Daha bir tarixçə də budur ki, bizim ondan xəbərimiz olmamışdı. 1992-ci ildə əslən Balaxıanıdan olan bəhai Mərziyyə xanım xoş bir təsadüf nəticəsində Ağa Vahid Xazi ilə görüşür (o, əslən Azərbaycandandır, amma ABŞ-da yaşayır), ona Balaxanıya getməyi məsləhət görür və deyir ki, orada bəlkə də 3000-ə qədər bəhai yaşayır və bizim ailəni nişan verir. O, bizə gəldi, Bəhai dininin indiki İsraildəki mərkəzindən məlumatı var idi ki, Balaxanıda Əmirixəlil Hacı Bəhmən oğlu vaxtilə böyük şücaətlər göstərib. Əmirxəlil haqqındakı hekayələrdən biri budur:

1916-cı ildə İrandan gələn bir axund Balaxanı camaatını bir meydana yığır və deyir ki, bəhailər öz qızlarına çarşab örtməyə icazə vermirlər. Onlar qızlarını oxutdurur, məktəbə göndərirlər və bu, bizim uşaqlarımıza pis təsir edir. Babam Əmirxəlil bəhai dininə ləkə atıldığı üçün buna dözmür və tapançanı çıxarıb mübahisəyə qoşulur... Həzrət Əbdül-Bəha ona qızı ilə birlikdə Türkmənistana getməyi məsləhət görür. O,Türkmənistanda bir qədər yaşayır, orada dükan açır. Bu hekayəni mənim qızım Mahilə Hayfaya ziyarətə gedəndə yazılı şəkildə özü ilə götürmüşdü. Əmrin Əli Ağayi Vərqa ondan soruşur ki, Balaxanılı Əmir Xəlilin nəvələrindən kim gəlib? Mahilə ona yaxınlaşır və özünü təqdim edir ki, o Əmir Xəlilin nəticəsidir. Ağayı Vərqa Balaxanıdakı hadisə ilə əlaqədar həzrət Əbdül-Bəhanın yazdığı Lövhü Mahiləyə verir. Həmin Lövh bizim icmaya verilmiş ən böyük hədiyyə kimi bizdə saxlanılır.

1966-cı ildə qaynanam Nəcibə xanım qaynatamla birlikdə mənimlə həyat yoldaşım Vaqifin kəbin kağızını yazdıqmaq üçün Maştağaya gedirlər. Axund Xalıq kəbin kağızı yazmaq istəmir. Soruşanda niyə yazmırsan, deyir ki, qızın adı Qürrətüleyndir, bu qız bəhailərdəndir. Mənim isə onların kəbinini kəsməyə ixtiyarım yoxdur. Bəhailərin öz kəbunkəsmə qanunları var. Axırda qaynanam çarəsiz qalıb bacısının yanına gedir. Onun həyat yoldaşı Maştağanın mötəbər adamlarından biri idi. Onun xahişi ilə mənimlə Vaqifin kəbin kağızını gizlicə yazıb verir və axırda da deyir ki, Allah mənim günahımdan keçsin.

Bir dəfə anam Məşədi Nənəxanımın atası Məşədi Sərxan evə çox gözəl bir əhval-ruhiyyə ilə qayıdır. Nənəm Məşədi Məhbubə ondan soruşur: "Ay Məşədi Sərxan, keyfin yaman kökdür!" Məşədi Sərxan cavab verir: "Bu gün Molla Xalıqı yerinə oturtdum. Dedim qızları niyə oxutdurmağa qoymursunuz? Niyə Bəhaiyyətə qarşı çıxırsan? Niyə demirsən ki, Sahib-əz-Zaman zühur edib? Molla Xalıq dedi: "Ay Məşədi Sərxan, qoyarsan, biz də bir parça çörək yeyək."

1992-ci ilə qədər Balaxanıda Ziyafətlər gizli keçirilir və hər dəfə də bir bəhainin evində təşkil olunurdu. Hətta zirzəmilərdə belə keçirilirdi. Rəhmətlik anam Məşədi Nənəxanım  mart ayında il təhvil olanda həmişə deyərdi ki, bizim yeni ilimiz martın 20-də Növruz Bayramıdır. Heç vaxt açıqlamazdı ki, uşaqlar ağızlarından bir söz qaçırarlar.

1995-ci il 26 sentyabrda o zaman Ümumdünya Ədalət Evinin üzvü olan cənab Əli Naxçıvani Balaxanıya gəldi və bizim ailəmizlə görüşdü. Bizdə bir şəkil gördü və dediyinə görə, bu şəkli heç vaxt görməmişdi. Bu onun atası Mirzə Əli Əkbər Naxçıvaninin Balaxanı bəhailəri arasında çəkilmiş şəkli idi və biz bu şəkli ona hədiyyə etdik. O dedi: “Mən bu şəkli ömrüm boyu axtarmışam və bu şəkil həm də Balaxanı bəhailərinin fəaliyyətini təsdiq edir. Bu mənim sevincimə səbəb oldu, Ədalət Evini də sevindirəcəkdir.” Balaxanıda böyük bir qəbirstanlıq var və orada çoxlu bəhailər dəfn olnmuşlar. Biz Cənab Naxçıvani ilə oranı ziyarət etdik və bəhailərin qəbirlərinin hasar daşları üzərində Tahirə Qürrətüleynin şerlərinin həkk edildiyini gördük.  O, şeirləri oxudu və dedi:”Bu, doğrudan da, Balaxanı bəhailərinin canlı tarixidir.”

**Balaxanıda qəbirstanlıq - 1919-cu il**

Əslən Balaxanıdan olan həmkarım Səbinə Nağıyevanın təsadüfən aşkarladığı şəkildəki İsmi-Əzəmdən ailələrinin bəhai olduğunu bu yaxınlarda öyrənmişdi. I cərgədə aşağıdan sağdan I onun babasıdır.

**Həcər xanım (nənə) başda olmaqla Cəbiyev və Kərimovlar ailəsi**

## Əli Əkbər Naxçıvani (1865-1920) və oğlu Əli Naxçıvani (1919)

Bəhai dininin Azərbaycanla əlaqəsindən danışanda iki şəxsiyyətü üzərində xüsuilə dayanmaq lazımdır. Bunlar Mirzə Əli Əkbər Naxçıvani (Məmmədxanov) və onun oğlu, hazırda Fransada yaşayan Əli Naxçıvanidir.

Mirzə Əli Əkbər 1865-ci ildə Ordubadda doğulmuşdur. Onun atası Hüseyn kişi şiə müsəlman idi, lakin Əli Əkbər doğulanda anası artıq Bəhai idi. Onun adı Məsmə xanım idi.

Məsmə xanımın çox güclü xarakteri vardı və Ordubad qadınları üzərində böyük nüfuza malik idi. Din məsələlərində onu bilici və rəhbər kimi qəbul edən çox sayda qadınlar onun dinini —Bəhai Dinini qəbul edərək onun ardınca gedirdilər.

**Əli Əkbər Naxçıvani**

Mirzə Əli Əkbər belə bir mühitdə böyümüşdü. Ordubadda məktəb şagirdi olarkən o belə bir fikri təbliğ edirdi ki, Naxçıvan və Aəzərbaycan məktəblərində təlim dili rus dili deyil, Azərbaycan dili olmalıdır. Güclü və inandırıcı (təsiredici) şəxsiyyət olan Əli Əkbərlə məktəbin rəhbərliyi arasında ciddi fikir ayrılığı vardı və nəticədə o, Ordubadda orta məktəbdən xaric edildi.

Bu məsələ Ordubadın ənənəçi üləmalarının Bəhai fəaliyyətlərinə qarşı təhrikləri ilə bir vaxta düşdü. Hadisələrin bu cür inkişaf etməsi üzündən, həmçinin Ordubadda olan yeganə məktəbdə oxuma imkanı itdiyindən, bütün ailə Bakıya köçməyin zəruriliyinə qərar verdi. Məsmə xanım ona ehtiram bəsləyən qadınlara məsləhət gördü ki, əgər şəraitləri imkan verirsə, onunla Bakıya köçsünlər, ya da ki, Ordubadda qalsınlar. Bir neçə il sonra Mirzə Əli Əkbərin atası Bəhai Dini haqqında öz oğlundan daha çox məlumat öyrəndi və o da Bəhai oldu.

Əli Əkbər öz təhsilini Bakı məktəblərində davam etdirdi. Orta Məktəbi bitiridikdən sonra Gori seminariyasında təhsilini davam etdirmək üçün o, Gürcüstana getdi. Lakin təhsil haqqını ödəməkdə gecikdiyi üçün onu həmin seminariyadan da xaric etdilər. Bundan sonra O Ukraynaya, Xarkova getdi və orada universitetə daxil oldu. O həmin universiteti bitirdi və neft mühəndisi ixtisasına yiyələndi. Ailə üzvlərinin dediklərinə görə, sonra o Moskvaya da getmiş və bu sahədə öx ixtisasını artırmışdı.

Rus ziyalı dairələrində o, Əli Əkbər Məmmədxanov kimi tanınırdı. Azərbaycanda isə o Əli Əkbər Məmmədxanlı kimi məşhur idi. Sonralar o, Avropa və Amerika Birləşmiş Ştatlarına səfər etdi və bundan sonra Mirzə Əli Əkbər Naxçıvani kimi tanınmağa başladı.

Mirzə Əli Əkbərin özü şair idi, şairləri və poeziyanı çox sevirdi. Onunla Mirzə Cəlil Məmmədquluzadə arasında dostluq münasibətləri vardı və çox güman ki, Azərbaycan ədəbiyyatının bu görkəmli nümayəndəsinin ona müəyyən təsiri olmuşdu. O, yazıçılıqda da özünü sınamışdı və təəssüf ki, onun ailəsində onun çap olunmamış yalnız bir hekayəsi qalmışdır. O, rus dilini çox mükəmməl bilmiş, həmçinin fars və ərəb dillərinə də yaxşı yiyələnmişdi. O bir sıra mühüm Bəhai Yazılarını fars və ərəb dillərindən rus dilinə tərcümə etmişdi. Bu mühüm Yazılardan

"İşraqat", "Təcəlliyat", "Tarazat" və "Birliyin Yeddi Şamı" Lövhü, "Şərqə və Qərbə Çağırış", "Səyyahın söylədikləri" kimi əsərlər Bəhai Dininin Mərkəzi Simaları tərəfindən yazılmışdır. Sonuncu iki əsər iyirminci əsrin ilk illərində Bakıda rus dilində nəşr olunmuşdu. Bu tərcümələrin çoxu Bəhai Dininin təlim və prinsiplərinə maraq göstərən Lev Tolstoya göndərilmişdi. Tolstoy Mirzə Əli Əkbərlə məktublaşırdı və bu məktublardan bir neçəsi Əli Əkbərin göndərdiyi Bəhai materialları ilə birlikdə hələ də Lev Tolstoyun arxivində saxlanılır.

1910-cu ildə Tolstoy vəfat edəndə, Aəzrbyacandan nümayəndə heyəti də onun dəfnində iştirak etmişdi və mötəbər mənbələrə görə Mirzə Əli Əkbər o nümayəndə heyətinə başçılıq etmişdi.

Mirzə Əli Əkbər yalnız Azərbaycan hüdudlarında deyil, həmçinin Mərkəzi Asiyanın çox ölkələrinə, İrana, Türkiyəyə, Fələstinə və Misirə, Gürcüstana, Ermənistana, Ukrayna və Rusiyaya, Fransa və Amerika Birləşmiş Ştatlarına səfərlər etmişdi. Bu səfərlərin çoxu onun Bəhai olması ilə bağlı idi və onların çoxu Mirzə Əli Əkbərin yetkin həyatının fəal illərində Bəhai Dininin Başçısı olmuş həzrət Əbdül-Bəhanın göstərişi ilə həyata keçirilmişdi. 1912-ci ildə həzrət Əbdül-Bəha Özünün fasiləsiz Qərb səfərinə başlayanda O, Mirzə Əli Əkbərdən xahiş etmişdi ki, bu səfərdə onu müşayiət etsin. Bu təklif Mirzə Əli Əkbərə həzrət Əbdül-Bəha ilə görüş üçün təşkil olunmuş toplantılarda iştirak etmək, Onun ictimaiyyət qarşısındakı çıxışlarını eşitmək, həmçinin Onu müşayiət edən və yaxın dostlarla etdiyi söhbətlərə qulaq asmaq kimi nadir bir fürsət vermişdi. Bu nitq və danışıqlar müfəssəlliyi ilə, hamısı da fars dilində, Mirzə Əli Əkbər tərəfindən yazıya alınmışdır. Bu qeydlərdən çıxarışlar Bəhai bülletenlərində və almanaxlarında dərc olunmuşdur.

Mirzə Əli Əkbərin həyatında digər bir mühüm epizod onun İzabella Qrinevskaya ilə ünsiyyətidir. Sankt-Peterburqda Fəlsəfə, Şərq və Bibliologiya Cəmiyyətinin üzvü olan və yüksək mədəniyyətə malik bu rus şairəsi Baron Rosen və A. Tumanski kimi Rus alimlərinin Bəhai Dininin təlimləri haqqında yazılarından Bəhai Dini haqqında məlumat əldə etmişdi. Həzrət Babın həyatı, Onun təlimləri və İranda şəhid edilməsi barədə oxuyanda o təsirlənmiş və Babın həyatı haqqında pyes yazmaq qərarına gəlmişdi. Bir ildən sonra bu pyes Sank-Peterburqun əsas teatrlarından birində tamaşaya qoyulmuşdu. Bəhai tarixi yazılarına əsasən, bu pyes "daha sonra Londonda tamaşaya qoyulmuş, Parisdə fransız dilinə tərcümə olunmuş, şair Fiedler tərəfindən alman dilinə tərcümə edilmiş və yenidən, Rus İnqilabından dərhal sonra Leningrad Xalq Teatrında tamaşaya qoyulmuş və dahi yazıçı Tolstoyun hörmət və marağını qazana bilmişdi və bu poema haqqında onun yüksək fikri sonralar Rus mətbuatında dərc olunmuşdu."

Bu görkəmli əsər haqqında xəbər o zaman Bəhai Dininin Başçısı olan həzrət Əbdül-Bəhaya çatan kimi, O, Mirzə Əli Əkbərdən xahiş etdi ki, İzabella Qrinevskaya ilə əlaqə saxlasın. Onlar məktublaşdılar və nəticədə İzabella Qrinevskaya həzrət Əbdül-Bəha ilə görüşmək istədiyini bildirdi. Bu zaman həzrət Əbdül-Bəha özünün Avropa, ABŞ və Kanadaya olan tarixi səyahətindən sonra Misirdə səfərdə idi. Həzrət Əbdül-Bəha İzabella Qrinevskayanın xahişini qəbul etdi və Mirzə Əli Əkbərdən xahiş etdi ki, o zaman Odessada yaşayan Qrinevskayanı Port Səidə qədər müşayiət etsin. Bu plan nəzərdə tutulduğu kimi yerinə yetirildi və İzabella Qrinevskaya həzrət Əbdül-Bəha ilə görüşdü. Həzrət Əbdül-Bəha ilə görüş və Onunla söhbət İzabella Qrinevskayanı Həzrət Bəhaullahın Vəhyinin Allahdan olmasına inandırdı və o, Bəhai dinini qəbul

etdi. Qrinevskaya Rusiyaya qayıtdıqdan sonra ömrünün sonunadək Bəhai icmasının sadiq üzvü olaraq qaldı.

O zaman Fələstində yaşayan və orada Bəhai icmasının üzvü olan Fatimə xanımla 1914-cü ildə evliliyindən onların üç oğlu dünyaya gəldi: Hüseyn (uşaqkən vəfat etmişdir), Cəlal və Əli.

**Əli Naxçıvaninin ailəsi: Ortada oturmuş – Əli Naxçıvaninin anası Fatimə xanım, onun yanında oğlu Cəlal, Fatimə xanımın solunda oturmuş uşaq Əli. Fatimə xanımın sağında Rübabə xanım – Əli Naxçıvaninin bibisi. Ayaq üstə dayanan kişi Rübabə xanımın həyat yoldaşı Mirzəağa Orucov. Ayaq üstdə duran uşaqlar – Rübabə xanımın uşaqları – oğlan Münibdir.**

Mirzə Əli Əkbər 1920-ci ildə öz ailəsi ilə Şüvəlanda kurortda olarkən dünyasını dəyişir. Bir müddət şəkərli diabetdən əziyyət çəkdikdən sonra o infartktdan vəfat edir. Bir-iki il sönra, onun həyat yoldaşı və iki oğlu Bakını tərk edirlər. Bundan sonra Onun bacısı Rübabə xanım Orucova onun məzarını Şüvəlan qəbiristanlığından Bakıya köçürür.

Mirzə Əli Əkbər Naxçıvani bütün dünya bəhailəri arasında məşhurdur, lakin Azərbaycan Bəhailəri onu daha çox sevir və onun xatirəsini əziz tuturlar.

## Əli Naxçıvani - Həyatının qısa tarixçəsi

Əli Naxçıvani Bakının yaxınlığında, Şüvəlanda təxminən 1919-cu ildə Bəhai ailəsində doğulmuşdur. Bu tarix tam dəqiq deyil, çünki o zaman ölkənin narahat vəziyyəti səbəbindən, onun doğum tarixi dəqiq qeydə alınmamışdır.

Onun atası Mirzə Əli Əkbər Naxçıvani bu zaman artıq dünyasını dəyişmişdi. Fələstində doğulmuş və böyümüş anasının ailəsi Fələstində idi və o, Bəhai Dininin Hayfada yaşayan Başçısı həzrət Əbdül-Bəhanın məsləhətini aldıqdan sonra Azərbaycanı tərk etdi və kiçik oğlu Əli və böyük oğlu Cəlalla birlikdə Fələstində yerləşdi.

Üç nəfərdən ibarət bu kiçik ailə təxminən 1922-ci ildə Hayfaya gəldi və Əli, anasının ailəsinin mehriban mühitində və Bəhai Dininin Ruhani və İnzibati Mərkəzinin kölgəsində böyüdü. Onun təhsil aldığı ilk məktəb Fransız dilli, Yezuitlərin Hayfadakı yarı ibtidai-yarı orta məktəbi olan des Freres Kolleci oldu. Bu məktəbdə təhsilini başa vurduqdan sonra o Livana, Beyruta getdi və orada Beyrut Amerika Universitetinin nəzdindəki məktəbdə orta təhsilini bitirdi və daha sonra həmin Universitetdə İngilis ədəbiyyatı üzrə ali təhsil aldı. Əli Universiteti 1939-cu ildə bitirdi.

Universiteti bitirdikdən qısa bir zaman sonra o, İrana, Tehrana getdi. O əvvəlcə, şəhərdəki əsas banklardan birində işə qəbul edildi və iki kommersiya şirkətində icraçı vəzifələrdə çalışdı. Sonra Tehranın görkəmli Bəhailərindən birinin qızı Violette Bənani ilə ailə qurdu. On iki il ərzində o, ölkə daxilində (İranda) qaldı. Bəhai fəaliyyətləri ilə əlaqədar o, İranın bir çox şəhərlərinə, Qəzvinə, Gilana, Zəncana, Təbriz və Şiraza getdi. Son iki şəhərdə üst-üstə o dörd il qaldı və bu müddətdə bu şəhərlərin seçkili orqanlarında məsul vəzifələrdə çalışdı.

1951-ci ildə, Bəhai fəaliyyətləri Afrika qitəsində inkişafda olan bir vaxtda, Əli və Violetta Bənani ailəsi ilə birlikdə Afrikaya getdilər və Uqandada yerləşdilər. O zaman artıq onların qızı

Bəhiyyənin üç yaşı vardı, iki-üç il sonra isə oğulları Mehran dünyaya gəldi. Afrikada olduğu on il ərzində Bəhai Dininin müxtəlif seçkili orqanlarında xidmət etdi. 1961-ci ildə bəhailərin bütün Milli Məhfilləri tərəfindən poçt vasitəsilə müvəqqəti Beynəlxalq Bəhai Şurasının seçkisi keçirildi. Əli bu Şuraya üzv seçildi və iki il ərzində bu Şuranın Sədri oldu.

1963-cü ildə, Bəhai Dininin son Başçısı Şövqi Əfəndinin vəfatından altı ilə yaxın bir vaxt keçdikdən sonra Dünya Bəhai İcmasının Ümumdünya Ədalət Evi kimi tanınan Ali İdarəedici orqanı seçilməli idi. Və birinci Beynəlxalq Qurultayda Əli, doqquz nəfərdən ibarət, heç bir vəzifəli şəxsi olmayan, növbə ilə sədrlik edilən bu Ali Orqana üzv seçildi. Beynəlxalq səviyyədə seçkilər hər beş ildən bir keçirilir və səkkiz dönəm Əli Naxçıvani bu Ali Orqana üzv seçilmişdir. Ədalət Evinin üzvü kimi o 40 il xidmət etmişdir. 2003-cü ildə, 84 yaşında, Ümumdünya Ədalət Evinin razılığı ilə o üzvlükdən istefa vermişdir. İstefa verdikdən sonra da o, həyat yoldaşı Violette xanımla müxtəlif ölkələri gəzir və bəhailəri ruhlandırırdı. Violetta xanım 2011-ci il 14 sentyabrda dünyasını dəyişmişdir. Əli Naxçıvani indi bu işi təklikdə davam etdirməkdədir.

## BƏHAİ DİNİNİN AZƏRBAYCANDA YENİDƏN DİRÇƏLİŞİ

Otuzuncu illərin cəza tədbirləri SSRİ bəhailəri ilə yanaşı Azərbaycan bəhailərinə də aid idi. İki onillik keçdikdən sonra onlardan bəzilərinə bəraət haqqında sənədlər verilmişdi. “Xalq düşməni” ailələri, həmçinin, Bakıdan, Gəncədən, Salyandan, Balaxanıdan və Bərdədən olan başqa çoxsaylı ailələr kimi, qonşuların və əməkdaşların bu tənə, təhqir və damğasından azad edildilər. 1956-cı ildə, bəraətdən sonra tədricən qorxu keçdikdən sonra təzyiqlərə baxmayaraq, bəhailərin hamısı bir yerdə görüşməyə imkan tapmasalar da, müxtəlif mənzillərdə 10 nəfərə qədər yığışırdılar. Bakı Ruhani Məhfili fəaliyyət göstərməyə başladı. Seçkilər keçirməyə imkan yox idi. Ruhani Məhfilin üzvləri öz aralarında gizli səsvermə ilə əmələ gələn vakansiyalara üzvlər seçirdilər, müəyyən səbəblərə görə, onların sayı doqquza çatdırıla bilmirdi, ona görə də beş nəfərdən ibarət tərkib fəaliyyət göstərirdi.

Yenidən 1982-ci ilin noyabrında qara buludlar göyün üzünü aldı və DTK tərəfindən bir günlük həbslər başlandı. Əsədova Səriyyə xanım, Qasımov İsmulla və Əyyubov İzzəddini iş yerindən birbaşa, xəbərdarlıqsız maşına oturdub aparmışdılar. Onları yeddi saat dindirib, Bəhai dini, Bakıda yaşayan, əsasən, gənclər (illər keçdikdən sonra onlar Bəhai dinin müxtəlif təsisatlarına seçiləcəklər) haqqında 10 səhifəlik izahat almışdılar. Onlar evə qayıdacaqlarını güman etmirdilər. Yenidən dostlarla görüşlər, hətta telefonda “Allah`u`əbha” sözünə qadağa qoyulmuşdu. Sonralar SSRİ DTK sədri B.A. Kruçkov Mərkəzi Televiziya ilə çıxışlarının birində deyəcəkdi: Dövlət Təhlükəsizlik Komitəsi heç vaxt dini məsələlərə qarışmır.” Ruhani Məhfilin üzvü, Bağbanzadə Ruhəngiz xa-

nım bu həbslərdən sonra qorxu içərisində yaşayırdı ki, onun da aqibəti belə ola bilər. Bu stresslərin nəticəsində o ağır xəstələnir və tezliklə xərçəng xəstəliyindən dünyasını dəyişir.

Azərbaycan Bəhailəri xarici aləm ilə əlaqədən məhrum olub təcrid olunmuş halda yaşayırdılar. (Dini İdaərnin məlumatlarılnda, Moskva və SSRİ-nin BMT-na olan hesabatlarında bəhailər qeyd edilməmişdi). Bu zaman onların xaricdə yaşayan ruhani qardaşları fəal həyat tərzi keçirib daim əlaqə yaratmağa can atırdılar.

Yenidənqurmadan sonra, SSRİ-nin ərazisindəki cəmiyyətlər arasında  və bəzi xarici ölkələrlə əlaqələr bərpa edildi. 1988-ci ildən Bəhailər Moskvada və Aşqabadda, həmçinin Bakıda fəallaşırlar. İlk icmalararası əlaqələr Moskvada və Aşqabadda, ilk qonaqlar – Naci Ə.M. Aşqabaddan, Namdar F. Finlandiyadan olmuşlar. İlk xarici səfərlər Finlandiyaya, Hindistana, İsveçrəyə və digər ölkələrə olmuşdur.  İlk mühacirlər isə, ABŞ, İran, İngiltərə, həmçinin, qısamüddətli qalma ilə İrlandiyadan, Türkiyədən, Yeni Zelandiyadan, Malayziyadan, Filippindən və İtaliyadan gəlmişdilər.

Dövrün ağırlığına baxmayaraq, bəhailər ümid və nikbinliklərini itirmirdilər, inanırdılar ki, biz azadlıq alacağıq və bizi unutmamışlar. Beləliklə, məsələn, 1963-cü ildə, birinci Beynəlxaql Bəhai Qurultayında, ilk dəfə Ümumdünya Ədalət Evi seçilmişdi və bir qədər sonra biz Bakıda bu hadisəyə həsr olunmuş slaydlara baxmışdıq. Altmışıncı illərdə, iyirmi illik ayrılıqdan sonra, Bəhiyyə xanım Məmmədova, İrana, qohumlarıgilə getmişdi və bu səfər bizi bəhai dünyası ilə birləşdirən yeganə əlaqə olmuşdu. Sonralar heç bir əlaqə olmayıb. Ancaq qohumların təsadüfi əlaqəsi, Finlandiyadan olan bəhai Müzəffər Namdar  bir neçə dəfə Bakıya gəlmiş, lakin bizim təhlükəsizliyimizi düşünərək, heç kəslə görüşməmiş və zəng də vurmamışdı. Lakin bir dəfə sənaye sərgisində firmalardan

birinin nümayəndəsi olan cənab Namdar təsadüfən, paltarında bəzək sancağı olan qadını (Sürəyya xanım) görür. Bəhailərin rəmzni, İsmi-Əzəmi tanıyıb, böyük ehtiyatla onun ardınca gedir. Onun evinin küçə qapısında Namdar onu saxlayıb "Allah`u`Əbha" deyib ondan öz qohumlarıl olan Zərgərovları soruşur. Xoşbəxt təsadüfdən, Sürəyya xanım həmin Zərgərovların qızı idi. Sonra yenidən sükut, heç bir zəng, heç bir görüş olmayıb. Keçmiş SSRİ-dən olan mühacir-bəhailər, əsasən, Almaniyada yaşayırdılar və məhz onlar ilk dəfə olaraq Ümumdünya Ədalət Evi ilə keçmiş SSRİ bəhailəri arasında körpü yartatmışdılar. Yenidənqurmadan sonra İngiltərədən, İrlandiyadan, Almaniyadan ilk mühacirlər, həmçinin, Bəhayəddin Orucov Moskvada məskən salmışdı.

Aşqabaddan olan Naci Mirzə Ələkbər Müqəddəs Torpağı ziyarət etdikdən sonra Bakı icmasına baş çəkir və bir neçə gün bizdə qonaq olur. O, dinin tarixi, həbs və sürgündə keçirdiyi vaxt böyük dramaturqumuz Hüseyn Cavid haqqında bəzi məlumatlar haqqında söhbətlər edir. Biləndə ki, Mənim atam İzzəddin Əyyubovun xalası oğlu Bəhayəddin Orucov Ümumdünya Ədalət Evinin üzvü Əli Naxçvaninin qohumu Moskvada yaşayır, onunla görüşür. Ağa Namdar ondan bizim telefon nömrəmizi alır və Bakıda olan zaman mehmanxanadan deyil, küçədən, avtomat telefondan bizə zəng vurur. Mənim atam onunla öz evinin küçə qapısında görüşür. Onların bir-birini tanımaları üçün heç bir nişanə lazım deyildi. Nəhayət səmimi görüş, sevinc göz yaşları və xoşhallıq və təbəssüm... bizim evin divarında Bəhai dininin rəmzini – İsm`i-Əzəmi görəndə ağladı: Təzyiqlərə, qadağa və qorxuya baxmayaraq, Bakı bəhailəri Bəhai dininə olan məhəbbət və sədaqətlərini qoruyub saxlamışdılar. Cənab Namdarın gəlişi mənim və ailəmin həyatında böyük dəyişikliklər etdi.

Ertəsi gün bizim mənzildə onun bəzi bəhailərlə görüşü oldu. Cənab Namdarın dəvəti ilə mən və həyat yoldaşım Moskvaya getdik və ilk dəfə, Almaniyadan, İngiltərədən, İrlandiyadan olan bəhailərlə görüşdük. O vaxta qədər mən elə düşünürdüm ki, bəhailər ancaq iranlı və azərbaycanlı ola bilərlər. Aşqabaddan gəlmiş bəhai Qulam və Olqanın evində 9 iyul 1989-cu il Həzrət Babın süudunun qeyd edilməsi dərin iz buraxdı.

1989-cu il dekabrın axırlarında cənab Namdar məni və həyat yoldaşımı Finlandiyanın Hervante şəhərinə qış məktəbinə dəvət edir. Bu, bütün dünyadan məktəbə gəlmiş dostlar arasında unudulmaz on gün idi. Belə mehriban, səmimi münasibət o vaxta qədər ancaq yaxın adamlarla idi. Bu səfərdən sonra mənim həyat yoldaşım dini qəbul edir. Finlandiyada bizi Milli Ruhani Məhfillə görüşə dəvət etdilər. Keçmiş SSRİ-dən Finlandiyaya gələnlər arasında birinci olduğumuzdan, bizi diqqət və qayğı ilkə əhatə etmişdilər. Bizim gəlişimiz haqqında Almaniya Milli Ruhani Məhfilinə, həmçinin teleqramla qış məktəbində işlərin başa çatması haqda Ümumdünya Ədalət Evinə məlumat verdilər. Bizim təhlükəsizliyimizi nəzərə alıb adlarımızı orada qeyd etməmişdilər. Hətta həmin müraciətin nüsxəsini bizə vermədilər

Bakıya qayıtdıqdan sonra atamla məsləhətləşib qərara gəldik ki, Moskva və Aşqabad icmalarını örnək alaraq, rəsmi surətdə bizim də özümüzü bəyan etmək vaxtı çatmışdır. Mənim atam bu məsuliyyəti üzərinə götürərək (icmada əlaqəsizlik olduğundan) Nazirlər Soveti nəzdində Dini İdarəyə gedir. O vaxta qədər onun bu idarənin rəhbərliyi ilə yaxşı dostluq əlaqələri vardı, indi də o münasibətləri xatırlayırlar. İcmanın rəsmi qeydiyyatı uşun dəqiq siyahı və imza tələb edirlər. Siyahı tərtib edildi və 15-20 nəfərin imzası alındı. Siyahının tərtibi

İzzəddin Əyyubova böyük zəhmət bahasına başa gəldi. Bu, 1990-cı ilin yanvarı idi.

İmzaların rəsmi təqdimatı üçün hər şey hazır idi, lakin adların silinməsi üçün xahiş zəngləri edildi. Bəziləri elə güman edirdilər ki, hələ çox tezdir, başqaları isə iş yerlərini itirməkdən qorxurdular. Onda idarəyə gəlib və Bakıda rəsmi surətdə təsdiq edilmə üçün bəhailərin sayının kifayət qədər olduğunu yazılı surətdə təsdiq etməyimizi xahiş etdilər. Atam və İslam Əsədov dərhal getdilər. Bir dəfə mən atamı çaşqın gördüm; o, on nəfərin olmasının vacibliyi haqda mənə şikayət etdi. Bu yazının müəllifi üçüncü və sonuncu idi. ... Yadımdadır, həyat yoldaşım buna görə məni necə məzəmmət etdi və dedi: ”Sən uşaqlarının aqibətini düşünmürsənmi!?” Buna baxmayaraq proses getdi.. Bakı icması daha tez-tez yığışıb müqəddəs günləri qeyd etməyə başladı.

Azərbaycanın başqa icmaları ilə əlaqə saxlamaq labüd idi. Lakin nə telefonları, nə də ev ünvanları vardı. İlk dəfə dəvət edilən, Salyandan şəhid ailə - Mirzə Mikayıl Əhədovun oğlu və nəvəsi (Ziyaulla və Rafael) oldu. (Qızı Aliyyə xanım mənim anam Minəxanımla birlikldə işləyirdi). Moskvadan gətirdiyimiz kitabları onlara verib xeyli dərdləşdik.

Bakıda yaşayan Firuzə xanım vasitəsilə Bərdədə qardaşı Nüsrət Dünyamalıyevlə əlaqə yaratdıq. Atamın onunla telefon söhbəti indi də yadımdadır. İndi də yadımdadır, onlar bir-birinə dəfələrlə və yalnız “Allah`u`Əbha“ deməklə, göz yaşları ilə, qəlblərində yığılan bütün xoş hissləri büruzə verirdilər.

Mənim bibim Cəfərova Rövşənə xanım vasitəsilə biz asanlıqla Gəncədə yaşayan Ağayevlər ailəsi (Tohid və onun bacıları Kəmalə xanım, Səltənət xanım və b.) ilə əlaqə yaratdıq.

Balaxanı bəhailəri ilə əlaqə yaratmağı Nəzərov Babəli və Mərziyyə xanım Rzayeva öz üzərlərinə götürdülər. Balaxanıdan Maqsudovlar ailəsi (Qürrətüleyn xanım) başqa

icmalardan olan və adları yuxarıda çəkilən ailələr kimi öz mənzillərini Bəhai mərkəzi kimi Bakıdan, Amerikadan, İrlandiyadan, Hindistandan, İngiltərədən olan və onlara baş çəkməyə gəlmiş ilk bəhailərə vermişdi.

Nəhayət, 1990-cı ilin 16 dekabrında ikinci təşəbbüsdən sonra Bakı şəhərində Milli Ruhani Məhfil yaradıldı. Bu gün hadisələrdən iyimi ilə yaxın vaxt keçdikdən sonra, Azərbaycanda Bəhai dininin dirçəlməsinə kömək edənləri böyük ehtiramla yad edirik.

Bir məsələyə də toxunmaq məqamı yetişmişdir. Bəhailər adətən ianə toplayaraq, nəinki icmanın gündəlik tələbatlarını ödəyirlər, həm də ehtiyacı olan ailələrə də kömək göstərirdilər. Müəyyən qədər vəsait (qızıl onluqlar və müqəddəs Yazılar) heç bir çətinliklərə baxmayaraq nəsildən-nəslə ötürülür. SSRİ vaxtında yalnız bir vərəq və ya qızıl pul aşkar olunsa idi, ailənin sürgün olunması və ya həbsi təmin olunardı. 1960-cı illərin sonunda Məhfil tərəfindən belə bir əmanət bizim ailəyə (Məhfilin üzvləri anam Minəxanıma və atam İzzədinə) həvalə edilmişdi. Mən həmin hadisəni və onunla müşayiət olunan söhbətləri nə qədər də böyük sirr altında və him-cimlə danışsalar da, xatırlayıram. Bir gün anam mənə müraciət edib "qızıl onluqları" etibarlı bir yerdə gizlətməyimi və gələcəkdə zamanı gələndə isə Məhfilə təhvil verməyimi təvəqqe etdi. Görünür, onun bu işi özü edəcəyinə gümanı azalırdı. Bu

***Azərbaycan Bəhailəri Milli Ruhani Məhfil, 1992-ci il, Soldan 5-ci Müşavir Məsud Xəmsi***

məsələnin həlli isə yalnız bizim ikimizə bəlli olmalı idi. Yadımdadır, atam ona gələcəkdə oluna biləcək təzyiqə davam gətirməyəcəyindən ehtiyatlanaraq, uzaqgörənlik edib qızılın yerini öyrənmək istəmədi. Mən də gələcəkdə ehtiyaclarımın

məni yoldan azdırmaması üçün onlara baxmadım, yalnız qabı anamın gözləri qarşısında əlçatmaz və möhkəm qapalı bir yerdə gizlətdim. Digər qardaş və bacılarım bu işdən halı olmamalı idilər... Yalnız anam yaşlaşanda mən ondan xahiş etdim ki, bu barədə böyük bacım Lütviyyəyə də bildirək... Xoşbəxtlikdən, valideynlərim bu işi özləri həll etdilər və əmanəti müqəddəs Bakı Məhfilinə təhvil verməklə bu imtahandan da şərəflə çıxdılar. Sonralar həmin pullar Bakıda Bəhai Mərkəzlərinin alınması üçün xərcləndi.

*"EY VARLIQ OĞLU!*
*Özünü bu dünya ilə məşğul etmə, çünki Biz qızılı atəşlə, bəndələri isə qızılla sınayırıq."*
(Kəliməti-Məknunə, Bakı, 2000, ərəb dilində, 55, səh.25).

# Sərkər Ağanın
## AZƏRBAYCAN HAQQINDA DUA VƏ LÖVHLƏRİ

Bakı Bəhailərinin - Allahın nuru üzərlərinə olsun-nəzərinə!

Ey Əbha Camalının dostları!

Bilmirəm ki, hansı dil ilə söyləyim və nə cür yazım ki, az da olsa mənim ürəyimin dərinliyində Allahın dostlarına olan məhəbbəti bəyan edim. Allaha and olsun! Qələmlər bunu bəyan etməkdə acizdir və aqillər isə onu dərk edə bilməzlər. Ona görə də yaxşısı budur ki, bunu münacat dili ilə dua kimi söyləyim:

Rəbbim, Rəbbim! Bunlar Sənin bəndələrindir ki, Sən bəxş etdiyin sığınacağa pənah gətiriblər. Və Sənin əzəmətli

Əmrinin yanında pənah axtarmaq üçün gəliblər. Sənin dövründə əta dənizinin sahilinə can atıblar. Ya Rəbb! Onlara lütf və mərhəmət badələrini bəxş eylə. Comərdlik və bəxşiş buludlarını onların üzərinə yağdır. Onları fəzl və ehsan buludlarının kölgəsinə daxil et. Əhd və Misaq yolunda qədəmlərini möhkəmləndir. Ruh və bəxşiş nəsimlərini onlara göndər. Onları Öz varlıq və cəlal üfüqünə yüksəlt. Onların ürəklərini Öz tövhid nurunla ilhamlandır. Ruhlarını Sənin Camalını görməkdən məhrum edən şeylərdən pak et və qəlblərinə Öz münacatının ruhu ilə həyat ver. Və Öz müqəddəs rahiyələrini onlara duydur. Ey Allahım, onları bu dünyada Özünün tovhid nişanələrin və vəsfetmə bayraqların eylə. Həqiqətən, Sən Ən Əziz və Ən Qüdrətlisən.

*Əbdül-Bəha Abbas*

Hüvəllah! Ey Ələst* piyaləsindən məst olmuşlar! Şükr olsun Qəyyum Tanrıya ki, əzəmətli çadırın kölgəsində və Əbha Cənnətindəsiniz və Ən nurlu bağa daxil olmusunuz. Ələst badəsindən heyrətdəsiniz. Və Allahın məhəbbət odunun hərarətindən həyəcana gəlmisiniz. Camalı-Əbhanın fəzl və lütflərindən ümid edirəm ki, azad insanların başçısı və nəcib adamların öndəri olasınız. Qəyyum Allahın varlığının nişanəsi olasınız və Aşkar Allahın dan yerinin şəfəqləri olasınız. Tovhid nişanələri və təcrid məqamında parlaq ulduzlar olasınız. Cahanın qəlbində və dünyanın özəyində eşqin atəşindən yanan bir çıraq olasınız və elə nur saçasınız ki, hər yan nurlansın və müqəddəs rahiyələr irfan gülşənindən Qafqazın hər tərəfinə yayılsın.

Ey mənim Allahım! Bu o şəhərdir ki, orada Sənin məhəbbətinin

atəşi şöləlləndi və Sənin mərifətinin işığı buradan saçdı. Elə isə onları hər tərəfi və hər yeri işıqlandıran və ətirləndirən eylə. Və qoy onlar o üfüqlərdən Sənin tovhid nurunun yayılması nəticəsində səadət və xoşbəxtlik fəzasının genişlənməsinə səbəb olsunlar. Onları Öz əhədiyyət dənizinin dalğalarından, Öz mərifət ordunun dəstələrindən, Öz bəxşiş bağının ağaclarından və Öz inayət ağacının meyvələrindən ən sevimliləri eylə. Həqiqətən Sən Ən Kərim və Ən Ucasan.

*Əbdül-Bəha Abbas*

* Çox guman ki, Eləst məclisinə Əhdi-peymana işarədir (S.Ə.)
*Məşhur "Men sizin rebbiniz deyillenmi?"* ***[Quran-i Kərim 7/172-173]***
*Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onların özlərinə (bir-birinə) şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!" – deyə cavab vermişdilər. (Belə bir şahidliyin səbəbi), siz Qiyamət günü: "Biz bundan qafil idik" deməyəsiniz.*

**Hörmətli oxucu!**

Kimisə unutduğuma görə əvvəlcədən üzr istəyirəm və bu materialları daha da zənginləşdirəcək hadisələr, faktlar və hekayələr böyük məmnunuyyətlə ikinci nəşrdə nəzərə alına bilər. Bu işin tədqiqatı və davamı gələcək tədqiqatçıların üzərinə düşür.

Tarix yalanı yadda saxlamır, həmişə yalnız həqiqət müasirlərə gəlib çatır. Bu heç də tamamlanmış Bəhai tarixi deyil, müəllif də tarixçi deyildir, müəyyən xatirələr və tarixçələr itməsin deyə, sadəcə Allahın izni ilə, bəzi materialları bir kitabçada toplamağa müyəssər olmuş və tərtib etmişdir. Buna yalnız Azərbaycanda Bəhai tarixini araşdırmağa ilk cəhd kimi baxılmalıdır və

bu, tarixin dərslərindən ibrət almaq niyyəti ilə övladlarımıza edilmiş tövsiyə və nəsihətdir.

Əlbəttə, bu kitabda verilmiş faktlar və hadisələr gələcəkdə daha da dəqiqləşdirilməli, genişləndirilməli və sistemli şəkildə təsvir olunmalıdır.

Tarix yaradanlar tarixi yazmadılar...

*Ey Ələst piyaləsindən məst olmuşlar!*

Yazılarda və şəkillərdə qohum və tanışlarını tanıyanlardan onlar barəsində məlumat verilməsi artıq dərəcədə xahiş olunur. Bu işdə bizə kömək etmiş və kömək edəcək hər kəsə təşəkkürlərimizi bildiririk.

Allah amanında və ***Allahın Nuru*** başınızın üstündən əskik olmasın! Onun Qədim Fəzlini və Yeni İnayətini diləməklə, açıq beyin, azad ruh, təmiz ürək arzusu ilə Əssirata-l-Müstəqimdə şərəflə addimlamağınızın intizarında,

Səladəddin Əyyubov

Kitabın üz qabığında: Cənubi Azərbaycanda həzrət Babın Çehrikdən əvvəl dustaq edildiyi Maku qalasının qalıqları
və
arxa qabığında: Cənubi Azərbaycanda həzrət Babın dustaq edildiyi Çehrik Qalasının qalıqları